# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ BİZİM ŞANLI TARİXİMİZDİR! BU QƏLƏBƏ TARİXDƏ ƏBƏDİ QALACAQ!


TÜRKİYƏNİN QARS ŞƏHƏRİNDƏ QARS MÜQAVİLƏSİNİN 100 İLLİK YUBİLEYİ QEYD EDİLİB səhifə-2-də

“ŞƏRQ QAPISI” QƏZETİNİN YUBİLEY TƏDBİRİ KEÇİRİLİB səhifə-3-də

“ROBOTOTEXNİKANIN ƏSASLARI” ADLI DƏRS VƏSAİTİNİN TƏQDİMATI səhifə-5-də

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN BEYNƏLXALQ ƏMƏKDAŞLIQLARI: İKİLİ DİPLOM VƏ TEXNOLOGİYA PARKI səhifə-9-da

VƏTƏN UĞRUNDA ÖLƏNLƏR ÖLÜMÜNDƏN DOĞULAR səhifə-17-də


NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

*HEYDƏR ƏLİYEV*




YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

26 oktyabr 2021-ci il, №7 (41)


## “ARIÇILIQ MƏHSULLARI-BAL SATIŞ YARMARKASI”NDA UNİVERSİTET UĞURLA TƏMSİL OLUNUB

Muxtar respublikanın iqlim şəraiti, zəngin bitki örtüyü bu ərazidə qədim zamanlardan bəri insanların arıçılıq təsərrüfatı ilə məşğul olmasına əlverişli şərait yaratmışdır. Bu gün dövlət tərəfindən həyata keçirilən aqrar islahatlarda arıçılığın inkişafına xüsusi önəm verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 noyabr 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafi üzrə Dövlət Proqramı”nın icrası arıçılıq təsərrüfatlarının sayının ilbəil artmasına səbəb olmuşdur. Naxçıvan şəhərində keçirilən “Arıçılıq məhsulları-bal satış yarmarkası” da arıçılar üçün geniş imkanlar açır.

Oktyabrın 16-da “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Arıçılıq məhsulları-bal satış yarmarkası” keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov satış yarmarkasında iştirak etmişdir.



Naxçıvan Dövlət Universitetinin müəllimləri bal süzgəci, yeni nəsil pətəklər, vərəmum toplayan, çərçivə teli gərmə, çiçək tozu toplayan alətlər, arıçının rahat işləməsi üçün istifadə ediləcək yanmaz əlcəklər, yabanı arı tələsi, yem qabları, arıçının iş masası, elektrikli bal isitmə və çökdürmə qazanı, balı süzmə aparatı, eləcə də arı məhsullarından hazırlanan dodaq balzamı, gil maskası, əl kremi, müxtəlif faizli spreylər, kəklikotulu, nanəli, propolis və müxtəlif çeşiddə sabunlar haqqında ətraflı məlumat vermişlər.

Ali Məclisin Sədri arıçılarla söhbət etmiş, onların qayğıları ilə maraqlanmış, bal və arıçılıq məhsullarından almışdır.

## ARGENTİNA RESPUBLİKASININ AZƏRBAYCAN RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ UNİVERSİTETDƏ OLUB

Argentina Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunella Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olub. İkitərəfli görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev qonağı salamlayaraq universitetdə görməkdən məmnunluq duyduğunu bildirib. Rektor ali təhsil ocağının maddi-texniki bazası, müasir tədris metodları, Azərbaycan İngilis dilli ixtisasın da uğurla tədris olunmasından danışıb. Qeyd edilib ki, əcnəbi tələbələrin sayına görə ölkə universitetləri sırasında öncüllüyünü qoruyan ali təhsil ocağının 2 hektar ərazisində inşa olunmağa başlanan və ölkə universitetləri arasında ilk model kimi mühüm əhəmiyyət daşıyan texnoparkdan danışıb.

Səmimi görüşə və ali təhsil ocağı ilə bağlı verilən dolğun informasiyaya görə təşəkkürünü bildirən səfir burada olmaqdan məmnunluq ifadə edib. Diplomat ölkələrarası münasibətlərin gələcəkdə daha da inkişaf etdirilməsində universitetlərarası əlaqələrin rolunun böyük olacağını vurğulayıb. Diqqətə çatdırılıb ki, ali təhsil ocağında keçirilən görüşün məqsədi gələcəkdə Naxçıvan Dövlət Universiteti ilə Argentina universitetləri arasında



ali təhsil ocağında 1500-ə yaxın əcnəbi tələbə təhsil alır. Bildirilib ki, ali təhsil ocağında 7000-ə yaxın tələbə müxtəlif ixtisaslara yiyələnir ki, onlar universitetin ictimai-mədəni həyatdakı fəallıqları ilə də seçilir. Elbrus İsayev universitetin ikili diplom layihələri, dünyanın nüfuzlu elmi nəşrinin həyata keçirilməsi istiqamətində əməkdaşlıq əlaqələrindən danışıb. Bildirilib ki, rəhbərlik etdiyi ali təhsil ocağı “Times Higher Education” versiyası üzrə aparılan reytinq üzrə artıq dünyanın nüfuzlu universitetləri sırasındadır. Rektor təhsil sahəsində qarşılıqlı əməkdaşlığa nail olmaqdır.

Görüşdə texnopark sahəsində birgə əməkdaşlıq, akademik mobillik, birgə elmi nəşrlər, mühəndislik proqramları çərçivəsində texniki sahədə əməkdaşlıq layihələri, robotexnika, nanotexnologiya, elektrotexnika sahələrində birgə layihələr müzakirə mövzusu olub. Səfir universitetin xatirə kitabına ürək sözlərini yazıb.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## UNİVERSİTET KOLLEKTİVİ “MUZEY GÜNLƏRİ” ÇƏRÇİVƏSİNDƏ BƏHRUZ KƏNGƏRLİ MUZEYİNDƏ OLUB

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamına uyğun olaraq muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin olunur. Bu tədbirlərin həyata keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə və təbliğinə şərait yaradır. Naxçıvan Dövlət Universiteti kollektivinin də “Muzey günləri” çərçivəsində diyarımızda fəaliyyət göstərən müxtəlif muzeylərə kütləvi ekskursiyalar yolu ilə Naxçıvanın tarixi, mədəniyyəti, milli dəyərləri ilə yaxından tanış olması ənənə şəklini alıb. Kollektiv növbəti dəfə Bəhruz Kəngərli Muzeyində olub. Muzeyin bələdçisi məlumat verərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə yaradılan muzeyin açılışında ümummilli lider Heydər Əliyev iştirak edib. Diqqətə çatdırılıb ki, 9 ekspozisiya zalı olan muzeyin fondunda, ümumilikdə, 1300-dən çox eksponat nümayiş olunur ki, bunlardan da 61-i orijinal rəsm əsəridir.



Qeyd edilib ki, teatr rəssamlığı, qrafika və digər janrlara müraciət edən, portret janrında dəyərli əsərlər yaradan Bəhruz Kəngərli bütün ömrü boyu mədəniyyətimizin inkişafı naminə yorulmadan çalışıb. Onun kömür, karandaş, akvarel və yağlı boya ilə müxtəlif janrlarda yaratdığı 500-ə yaxın əsəri indi də incəsənət muzeylərinin dəyərli eksponatları sırasındadır. Rəssamın xalqımızın başına gətirilən müsibətləri, ermənilər tərəfindən doğma yurdundan zorla qovulmuş azərbaycanlı qaçqınların taleyini əks etdirən “Qaçqınlar” silsiləsinə daxil olan əsərləri Azərbaycan tarixinin dəyərli nümunələridir.

Vurğulanıb ki, sağlamlıq imkanları məhdud olan sənətkar cəmi 30 il ömür sürüb. O, maddi çətinliklərə baxmayaraq, əsərlərini sərgiləməklə kasıb ailələrin uşaqları üçün məktəb pulu toplayıb, onların təhsil almasına köməklik göstərib və yaddaşlarda təkcə rəssam kimi deyil, həm də Azərbaycan xalqının görkəmli nümayəndəsi kimi qalıb.

Bildirilib ki, Azərbaycan incəsənətinin inkişafında müstəsna xidmətləri olan Bəhruz Kəngərli qısa ömür yaşamasına baxmayaraq, təkrarsız yaradıcılığı ilə əbədiyaşarlıq qazanıb. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi: “Bəhruz Kəngərlinin əsərləri Azərbaycan dövlətinin milli sərvətidir” deyə muzey bələdçisi ali təhsil ocağı əməkdaşlarını muzey eksponatları ilə tanış edib.

Qeyd edək ki, muxtar respublikada da Bəhruz Kəngərli irsi hər zaman diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında” 2001-ci il 15 fevral tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonuna Bəhruz Kəngərlinin adı verilib, rəssamın əsərlərindən ibarət albom-kataloq hazırlanıb. Eyni zamanda rəssamın 120 illik yubileyi muxtar respublikada geniş şəkildə qeyd olunub. 2016-cı il may ayının 25-də isə Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkı istifadəyə verilib, parkda görkəmli rəssamın abidəsi ucaldılıb.

Sonda İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov görkəmli rəssamın həyat və yaradıcılığını əks etdirən rəsm əsərini universitet adından muzeyə hədiyyə edib.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# TÜRKİYƏNİN QARS ŞƏHƏRİNDƏ QARS MÜQAVİLƏSİNİN 100 İLLİK YUBİLEYİ QEYD EDİLİB



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 8 fevral tarixdə Qars müqaviləsinin 100 illiyinin qeyd edilməsi haqqında Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə Türkiyənin Qars şəhərində "Qars müqaviləsinin tarixi əhəmiyyəti" adlı beynəlxalq konfrans keçirilib. İki gün davam edən konfransın iştirakçıları ilk olaraq ümummilli lider Heydər Əliyevin büstünü və Kazım Qarabəkir Paşanın heykəlini ziyarət ediblər. "Aynalı köşk"də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən hazırlanmış nəşrlərin də yer aldığı sərgiyə baxış olub.

Konfransda ilk olaraq şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan və Türkiyə Respublikasının Dövlət himnləri səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev konfransdakı giriş nitqində Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəd kimi Qars müqaviləsinin iki qardaş ölkə üçün tarixi dəyərə malik olduğunu qeyd edib. Rektor Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 8 fevral tarixdə imzaladığı "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" Sərəncamın, eləcə də konfransın əhəmiyyətindən danışıb.

Diqqətə çatdırılıb ki, 1921-ci il oktyabr ayının 13-də imzalanan müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın statusu ilə bağlıdır. Rektor ulu öndər Heydər Əliyevin irəli sürdüyü qardaşlıq əlaqələrinin bu gün də ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirildiyini diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Qarsdakı Baş konsulu Nuru Quliyev Qars müqaviləsinin tarixi əhəmiyyətindən danışıb, II Qarabağ müharibəsində qazanılan Tarixi Qələbəni, bütövlükdə, türk xalqının şanlı qələbəsi kimi təhlil edib. İki qardaş ölkə liderlərinin 2021-ci il 15 iyun tarixdə imzaladığı, tarixi Qars müqaviləsinin davamı kimi Şuşa Bəyannaməsinin Azərbaycanın ərazi bütövlüyünün qarantı kimi çıxış edəcəyinə, bu tarixi sənədin ölkəmizin regional və beynəlxalq rolunun və çəkisinin daha da artırılmasında mühüm əhəmiyyət daşıyacağına əminlik ifadə olunub.

Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapu tədbir iştirakçılarını Qars müqaviləsinin 100 illik yubileyi və dost ölkənin qazandığı zəfərin bir illiyi münasibətilə təbrik edib, hər iki qardaş ölkə universitetləri arasında beynəlxalq əlaqələrin mövcudluğundan danışıb.

Qars valisi Türkər Öksüz bir əsr bundan öncə olduğu kimi, bu gün də Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyədə inkişafının, ümumilikdə, regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verəcəyini vurğulayıb. Qars valisi Vətən müharibəsində Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstəyini xüsusi olaraq qeyd edib.

Çıxışlardan sonra Naxçıvan Dövlət Universiteti adından xatirə plaket təqdim edilib. Konfrans iki bölmədə davam edib, bölmə iclaslarındakı məruzələrdə bu müqavilənin tarixi dəyəri, müasir mediada yeri və Naxçıvanın muxtariyyət statusundakı mühüm əhəmiyyətindən bəhs olunub. Konfransda Naxçıvan Dövlət Universitetinin dosentləri, Türkiyə Cümhuriyyəti Milli Müdafiə Universitetinin, Ərzincan Atatürk və Qars Qafqaz universitetlərinin professorları müxtəlif mövzularda məruzələr ediblər.

Qars müqaviləsinin 100 illik yubiley tədbirləri çərçivəsində Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti görüşlər keçirib, Türkiyədə ulu öndərin həyat və fəaliyyətinin əks olunduğu Heydər Əliyev mərkəzini ziyarət edib. Qars Qafqaz Universitetinin Azərbaycan dili və ədəbiyyatı fənninin tədris edildiyi mərkəzin fəaliyyəti ilə tanışlıq zamanı Naxçıvan Dövlət Universiteti adından mərkəzə kitablar hədiyyə edilib.



# QARS ŞƏHƏRİNDƏ QARS MÜQAVİLƏSİNİN 100 İLLİK YUBİLEY TƏDBİRLƏRİ

Qars müqaviləsinin 100 illik yubileyi çərçivəsində Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti Qars müqaviləsi ilə əlaqəli tarixi məkanlara ziyarət ediblər. Qars valisi Türker Öksüz ilə təşkil edilən görüşdə ali təhsil ocağının rektoru Elbrus İsayev tədbirin yüksək səviyyədə təşkilatçılığına görə öz minnətdarlığını ifadə edib. Vali öz növbəsində qonaqları salamlayaraq II Qarabağ zəfərinin 1 illiyi, Qars müqaviləsinin 100-cü ildönümü münasibətilə xalqımızı təbrik edib. İki tərəfli görüşdə qardaşlıq əlaqələrindən danışılıb. Sonra rektor Türker Öksüzə xatirə hədiyyələri olaraq Naxçıvan Muxtar Respublikasının Qars müqaviləsi ilə təsbit olunmuş ərazisinin xəritəsini, ali təhsil ocağının "Texnologiya" mərkəzində toxunan "Zəfər simvolu" xalçasını təqdim edib.

Qars Qafqaz Universiteti rektoru ilə görüşdə hər iki ali təhsil ocağının qarşılıqlı əlaqələrindən danışılıb, birgə keçirilən konfransın əhəmiyyətindən söhbət açılıb. Hər iki universitetin müvafiq ixtisasları üzrə akademik və tələbə mobillik proqramları müzakirə edilib. Universitet rektorları bir-birinə xatirə hədiyyələri təqdim ediblər.

Sonra nümayəndə heyəti Türkiyədə Ulu öndərin həyat və fəaliyyətinin əks olunduğu Heydər Əliyev mərkəzini ziyarət edib. Qeyd edək ki, mərkəzdə ümummilli liderin həyat və fəaliyyətini özündə əks etdirən kitablar, video materiallar, fotolar yer alıb. Burada həmçinin, Azərbaycanın tarixini, ədəbiyyatını, mədəniyyətini, incəsənətini əks etdirən kitablar sərgilənib.

Bildirilib ki, 2003-cü ildə ümummilli lider mərkəzdə olub, 2008-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mərkəzi ziyarət edərək xatirə dəftərinə ürək sözlərini yazıb. Qeyd edilib ki, Azərbaycanın tanınmış şəxsləri, elm adamları, millət vəkilləri, ziyalıları da mərkəzi ziyarət ediblər.

Vurğulanıb ki, universitetdə "Çağdaş türk ləhcələri və ədəbiyyat" bölümündə 2005-ci ildən "Azərbaycan dili və ədəbiyyatı ana bilim dalı" fənni tədris edilir. Naxçıvan Dövlət Universiteti ilə daimi əlaqələr quran mərkəzin fəaliyyətində ali təhsil ocağının professor-müəllim heyəti fəal iştirak edirlər. Diqqətə çatdırılıb ki, hər il ixtisas üzrə yüksək nəticə göstərən tələbələrin Naxçıvana səfərləri təşkil edilir və onlar unversitetdə keçirilən dil dərslərində iştirak edərək təcrübə əldə edirlər. Həmçinin bildirilib ki, mərkəzdə tələbələrin əyani dil bacarıqlarının inkişafı üçün Azərbaycan filmləri də nümayiş olunur.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev mərkəzin xatirə kitabına ürək sözlərini yazıb. Sonda universitet adından kitablar mərkəzə hədiyyə edilib.

# AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ BİRGƏ KONFRANS KEÇİRİLİB

Naxçıvan Dövlət Universitetində keçirilən tədbiri giriş sözüylə açan ali təhsil ocağının rektoru Elbrus İsayev universitetin professor-müəllim və tələbə heyətini Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyi münasibətilə təbrik edib, müstəqil Azərbaycanın inkişafı yolunda apardıqları məsuliyyətli işlərdə yeni-yeni nailiyyətlər arzulayıb. Bildirilib ki, rəhbərlik etdiyi ali təhsil ocağı 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlayıb, 1972-ci ildə bu filialın bazasında Naxçıvan Dövlət Pedaqoji İnstitutuna, 1990-cı ildə isə Naxçıvan Dövlət Universitetinə çevrilib. Bununla da Naxçıvan filialı gələcək ali məktəbin təməl daşını qoymaqla muxtar respublikanın ilk ali təhsil ocağı kimi burada yüksəkixtisaslı kadrların yetişdirilməsinə, bütövlükdə regionun tərəqqisinə öz müsbət təsirini göstərib.

Rektor vurğulayıb ki, bu gün universitetin 6 fakültəsində (Pedaqoji, Təbiətşünaslıq və kənd təsərrüfatı, Tarix-filologiya, Fizika-riyaziyyat, Xarici dillər, İncəsənət) bakalavriat səviyyəsində 16 ixtisas üzrə müəllim hazırlığı aparılır. Pedaqoji profilli ixtisaslar üzrə təhsil alanların ümumi sayı cəmi 1311 nəfərdir. Bildirilib ki, magistratura səviyyəsində elmi-pedaqoji kadr hazırlığının aparıldığını qeyd etsək onda mövcud 82 ixtisas üzrə hazırlanan 430 nəfəri də söylədiyimiz kateqoriyaya şamil etmək olar. Elbrus İsayev universitetin bakalavriat səviyyəsində 88 ixtisas üzrə hazırlanan kadrların 18.1 %-nin, ümumilikdə isə bütün təhsilalanların 57.6 %-nin pedaqoji profilli olduğunu diqqətə çəkib.




Tədbirə onlayn qoşulan Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il aprelin 17-də "Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Rektor 1921-ci ildə əsası qoyulan və ölkəmizin təhsil tarixində xüsusi yeri olan zəngin maarifçilik ənənələrinə malik ali təhsil müəssisəsinin beynəlxalq əməkdaşlıq əlaqələrinin davamlı genişləndirilməsi və elmi-pedaqoji təhsilin müasir standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl həyata keçirilən işlər barədə danışıb. Diqqətə çatdırılıb ki, böyük elmi-pedaqoji kollektivə və çoxminli tələbə kontingentinə sahib olan Azərbaycan Dövlət Pedaqoji Universiteti son 100 il ərzində 160 mindən çox yüksək-ixtisaslı müəllim kadrları yetişdirməklə ölkəmizin sosial-mədəni inkişafında mühüm rol oynayıb. Qeyd olunub ki, Pedaqogika, psixologiya və ayrı-ayrı fənlərin tədrisi metodikası məhz bu ali məktəbdə təşəkkül tapıb.

Rekor bildirib ki, Pedaqoji Universitet ölkədə pedaqoji və elmi-pedaqoji kadların hazırlığını, təkmilləşdirilməsini və ixtisasının artırılmasını həyata keçirən pedaqoji təhsil müəssisələrinin böyük əksəriyyətinin yaradılmasında ilkin baza rolunu oynayıb. Azərbaycan Təhsil İnstitutu, 30-40-cı illərdə fəaliyyət göstərən ikiillik müəllimlər institutları, indiki Gəncə Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti və Bakı Slavyan Universiteti Pedaqoji İnstitutun ayrı-ayrı fakültələrinin bazasında yaradılıb.

ADPU-nun Elm və innovasiyalar üzrə prorektoru, professor Asəf Zamanov qeyd edib ki, Azərbaycanda elm və təhsilin inkişafına sanballı töhfələr verən tanınmış alimlər, yüzlərlə görkəmli alim, yaradıcı ziyalı, ictimai və dövlət xadimi məhz Pedaqoji Universitetdə təhsil alıb.

Naxçıvan Dövlət Universiteti "Azərbaycan tarixi" kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Zəhmət Şahverdiyev 100 illik şərəfli yol keçən universitetin məzunu olduğuna görə fəxr duyduğunu bildirib.

ADPU-nun Riyazi analiz kafedrasının professoru Məlikməmməd Cəbrayılov, Naxçıvan Dövlət Universiteti "Kimya" kafedrasının dosenti Akif Əliyev universitetlə bağlı öz xatirələrini bölüşüblər.

Sonda Elbrus İsayev yubileyi qeyd edilən ADPU-nun adına sertifikat və hədiyyə təqdim edib.

# UNİVERSİTETİN MÜƏLLİMİ TƏLTİF EDİLİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 16-da Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adlar verilməsi haqqında Sərəncamına əsasən, Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsi "Fortepiano" kafedrasının müəllimi Nazilə Qardaşbəyova Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Əməkdar Mədəniyyət işçisi fəxri adına layiq görülüb.

Qeyd edək ki, Nazilə Qardaşbəyova 1964-cü ildə anadan olub Orta musiqi məktəbinin Fortepiano şöbəsini bitirdikdən sonra 1980-ci ildə orta ixtisas musiqi məktəbində fleyta ifaçılığı üzrə təhsil alıb. 1984-1989- cu illərdə Azərbaycan Dövlət Konservatoriyasında təhsil alan Nazilə Qardaşbəyova Naxçıvan orta



ixtisas musiqi məktəbində müəllim kimi fəaliyyətə başlayıb. O, 2012-ci ildən bəri Naxçıvan Dövlət Universiteti İncəsənət fakültəsinin "Fortepiano" kafedrasında müəllim kimi çalışır. Sözləri və musiqisi müəllifə aid "Doğma Naxçıvanım" mahnı müsabiqəsində II yeri qazanan Nazilə Qardaşbəyova hər zaman müxtəlif tədbirlərdə ifaçı kimi çıxış edir.

Məlumat üçün onu da bildirək ki, Nazilə müəllim uzun illər Naxçıvan Dövlət radiosunda "Musiqi tarixi" verilişinin müəllifi və aparıcısı olub.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# "ŞƏRQ QAPISI" QƏZETİNİN YUBİLEY TƏDBİRİ KEÇİRİLİB

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə təsdiq olunan Tədbirlər planına əsasən Naxçıvan Dövlət Universitetində mətbu orqanın yubiley tədbiri keçirilib. Tədbir iştirakçıları əvvəlcə universitet əməkdaşlarının və tələbə müəlliflərin yazılarının dərc olduğu "Şərq qapısı" qəzeti nömrələrindən və Naxçıvanda mətbuatın, o cümlədən "Şərq qapısı" qəzetinin tarixi inkişaf yolunu əks etdirən kitablardan ibarət sərgiyə baxıblar.



Tədbiri giriş sözü ilə universitetin rektoru Elbrus İsayev açaraq bildirib ki, "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə imzalanan tarixi Sərəncam Naxçıvanın 100 illik tarixinin, mədəniyyətinin, elminin yetirdiyi jurnalistlər nəslinin əməyinə verilən böyük qiymətdir. Bu mənada, müasir günümüzdə "Şərq qapısı" qəzeti redaksiyasında istər jurnalist peşəkarlığı, istər dünya qəzetçilik arenasına çıxa bilən qəzetin nəşri üçün müasir iş şəraiti yaradılıb. Vurğulanıb ki, muxar respublikada jurnalistika sahəsində kadr potensialının formalaşdırılmasına göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün yüz yaşlı maarifçilik salnaməsi olan "Şərq qapısı"da təcrübəli jurnalist həmkarlarımızla yanaşı, gənc əməkdaşlar, o cümlədən Naxçıvan Dövlət Universitetinin tələbə jurnalistləri də çalışır.

"Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova çıxışında vurğulayıb ki, bugünkü müstəqil mətbuatımızın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Baş redaktor 100 yaşlı mətbu orqanın keçdiyi tarixi inkişaf yoluna nəzər salıb, milli mətbuatımıza göstərilən diqqət və qayğıdan danışıb. Bildirilib ki, "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamın imzalanması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı olmaqla, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir. Diqqətə çatdırılıb ki, "Şərq qapısı" qəzeti daim Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunub, bu mətbu orqanın 75, 80, 85, 90 illik yubileyləri yüksək səviyyədə qeyd edilib. Baş redaktor göstərilən yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxışında bildirib ki, müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoyub. Rövşən Hüseynov Naxçıvan Dövlət Universiteti əməkdaşlarının, eləcə də "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrası müəllim və tələbələrinin mətbuatda, xüsusilə də "Şərq qapısı"nda mütəmadi olaraq mövzu və ideya etibarilə aktuallıq kəsb edənb məqalələrlə çıxış etməsindən fəal vətəndaşlıq və ziyalılıq mövqeyindən bəhs edib.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri, dosent Şəhla Şirəliyeva, Mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri Səadət Əliyeva və "Şərq qapısı" qəzetinin əməkdaşı Güntac Şahməmmədli "Şərq qapısı" qəzetinin milli mətbuatımızın inkişafındakı rolundan ətraflı söhbət açılıb.

Tədbirdə universitetin Media Mərkəzinin fəaliyyətini əks etdirən videoçarx, "Şərq qapısı" qəzetinin tarixi inkişaf yolu və iş prinsipini əks etdirən slayd nümayiş olunub. Sonda "Şərq qapısı" qəzetinin baş redaktoru Naxçıvan Dövlət Universitetinin fəxri fərmanı, eləcə də qəzetin redaksiya heyəti "Şərq qapısı" qəzetinin 100 illik yubileyi və muxtar respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatındakı səmərəli fəaliyyəti münasibətilə universitet rəhbərliyinin təşəkkürnaməsi ilə təltif olunublar. Qəzetlə fəal əməkdaşlıq edən universitet əməkdaşları və tələbələrə hədiyyələr təqdim olunub.

Tədbir "Nəqşicahan" instrumental ansamblının konsert proqramı ilə başa çatıb.

**Məcid Əkbərov**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# I KURS MAGİSTRANTLARLA GÖRÜŞ

Ali təhsil ocağında Elm və innovasiyalar bölməsi və Tələbə Elmi Cəmiyyətinin təşkil etdiyi 2021-2022-ci tədris ilində magistrant adını qazanmış təhsilalanlarla görüş keçirilib. Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ali təhsil ocağına qəbul olan hər bir magistri təbrik edib və onlara uğurlar arzulayıb. Rektor bu il magitraturaya 250 yerə qarşı 226 magistrantın qəbul olduğunu bildirərək qəbul faizinin 90 faizdən artıq olduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, bu da indiyə qədər əldə etdiyimiz ən yüksək nəticədir. İxtisaslı kadrların hazırlanmasında magistr pilləsinin mühüm əhəmiyyətindən danışan rektor bu gün universitetin magistraturasını bitirən məzunların muxtar respublikanın təhsil sahəsinə mühüm töhfələr verdiyini vurğulayıb. Qeyd edilib ki, muxtar respublikada təhsilə göstərilən yüksək qayğı təhsilverənlərin və təhsilalanların qarşısına çox böyük məsuliyyət qoyur. Belə ki, tələbələr müasir tədris metodları ilə yanaşı geniş imkanlara malik maddi-texniki bazası olan ali təhsil müəssisələrində həm nəzəri biliklərə, həm də təcrübi bazaya malik olur, gənclər daha çevik, innovativ metodlarla işləməyi öyrənirlər. Ali təhsil ocağında magistr hazırlığı sahəsində görülən işlərdən danışan Elbrus İsayev magistrantların hazırlanması sahəsində ciddi işlərin həyata keçirildiyini diqqətə çəkib. Qeyd olunub ki, universitetdə bu tədris ilindən etibarən magistr dissertasiyalarının xüsusi proqram vasitəsilə yoxlanılması həyata keçiriləcək. Rektor magistrlərin qarşısında xüsusi öhdəlik qoyub, konkret vəzifələr müəyyənləşdirilib.



Naxçıvan Dövlət Universitetində magistratura hazırlığı haqda çıxışında Magistratura mərkəzinin direktoru Etibar Məmmədov qeyd edib ki, 1997-ci ildən 7 ixtisas üzrə 24 nəfərə magistr təhsili verməyə başlayan universitetdə hal-hazırda hər iki kurs üzrə 77 ixtisas üzrə kadr hazırlığı aparılır. Vurğulanıb ki, muxtar respublikada təhsilə göstərilən qayğının nəticəsidir ki, magistratura üzrə dekanlıq əsaslı şəkildə yenidən qurulan və müasir kommunikasiya vasitələri ilə təmin olunan binada fəaliyyət göstərir. Diqqətə çatdırılıb ki, magistrantlar yaradılan bu səmərəli şəraitdən bəhrələnərək respublikamızın müxtəlif ali təhsil müəssisələrində və xarici ölkələrdə keçirilən elmi konfranslarda iştirak edirlər.

Elm və innovasiyalar bölməsinin müdiri Rza Məmmədov "Akademik kariyera planlaması və könüllülük" haqda çıxış edərək qeyd edib ki, 2020-ci ilin ölkəmizdə könüllülük ili elan edilməsi bu sahədə fəaliyyətin universitetimizdə də məqsədyönlü həyata keçirilməsinə şərait yaradıb. Vurğulanıb ki, ötən il magistrlərdən ibarət könüllülərin rəhbərlik etdiyi bölmədə magistrlərin fəaliyyəti qiymətləndirilib və bu fəaliyyəti uğurla keçənlər ali təhsil ocağında işlə təmin olunublar.

Tələbə Elmi Cəmiyyətinin sədri Təbrizə Bağırova universitetin elmi fəaliyyətinin inkişafında təhsilalanların rolundan danışıb, ötən tədris ilində TEC-nin uğurlu fəaliyyəti videoçarxlarla tədbir iştirakçılarının nəzərinə çatdırılıb.

TEC Magistratura Şurasının sədri Fuad Babayev 2021-2022-ci tədris ilində Magistratura Şurasının vəzifə və öhdəlikləri haqda çıxış edib.

Sonda könüllülük fəaliyyəti nəticəsində universitetin Elm və innovasiyalar bölməsində işçi kimi çalışan Türkan Quliyeva ali təhsil ocağında tələbələrə göstərilən xüsusi diqqət və qayğıdan danışıb və çəkdiyi "Naxçıvan mənzərəsi" adlı rəsm əsərini rektora hədiyyə edib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***



# TƏLƏBƏ GƏNCLƏR TƏŞKİLATININ TƏŞƏBBÜSÜ İLƏ BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI SİMULYASİYASI KEÇİRİLİB

"Postmüharibə dövründə regionun siyasi mənzərəsi, yeni reallıqlar" mövzusunda keçirilən tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev ali təhsil ocağında müvafiq ixtisasların simulyasiyalarının təşkilinin davamlı xarakter aldığını bildirib. Rektor bu kimi simulyasiyaların keçirilməsinin tələbələr üçün əhəmiyyətli olduğunu, onların bacarıqlarının formalaşması və gələcək karyeralarındakı önəmini diqqətə çəkib.

Tələbə Gənclər Təşkilatının sədri Əziz Qasımov "BMT Simulyasiyası" layihəsi haqqında məlumat verərək diqqətə çatdırıb ki, layihədə iştirak etmək üçün 60 tələbə qeydiyyatdan keçib. Mövzu ilə bağlı biliklər müsahibə yolu yoxlanıldıqdan sonra 15 iştirakçı simulyasiyada çıxış etmək hüquq qazanıb. Vurğulanıb ki, 15 ölkə olmaqla - Azərbaycan, Türkiyə, Rusiya, İran, Gürcüstan, Ermənistan, ABŞ, Böyük Britaniya, Ukrayna, İsrail, Fransa, Almaniya, İtaliya, Pakistan və Türkmənistan rəsmi nümayəndələri tələbələr tərəfindən təmsil olunub.

"Beynəlxalq münasibətlər" ixtisası üzrə III kurs tələbəsi Fatimə Sultanova "BMT- Azərbaycan əlaqələri" mövzusunda çıxış edib.

Beynəlxalq münasibətlər kafedrasının müdiri Şamxal Məmmədov və həmin kafedranın müəllimi Gülçin Ağayevanın hakimlik etdiyi simulyasiyada fəal iştirak etdiyinə görə Ukraynanı təmsil edən "Dövlət və bələdiyyə idarə etməsi" ixtisası üzrə IV kurs tələbəsi Elmar İsgəndərov diplom və hədiyyə ilə mükafatlandırılıb. "Beynəlxalq münasibətlər" ixtisasının IV kurs tələbəsi Fransa təmsilçisi Fərid Abdullayev və "Psixologiya" ixtisası I kurs tələbəsi İran təmsilçisi Həcər Ələsgərova həvəsləndirici yerə layiq görülüblər.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# "HÜQUQŞÜNASLIQ" İXTİSASININ 25 İLLİYİ QEYD OLUNUB



Naxçıvan Dövlət Universitetində "Hüquqşünaslıq" ixtisasının fəaliyyətə başlamasının 25 illiyi münasibətilə "Gələcəyin hüquqşünasları" mövzusunda elmi-praktik konfrans keçirilib.

Tədbiri giriş sözüylə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, 1996-cı ildə "Hüquqşünaslıq" ixtisası "Tarix-filologiya" fakültəsinin tərkibində tədrisə başlayıb, 1998-ci ildə isə "İqtisad" fakültəsinin nəzdində fəaliyyətini davam etdirib. Hal-hazırda "Beynəlxalq münasibətlər və xarici dillər" fakültəsinin tərkibində fəaliyyətini davam etdirən ixtisas daim dövlət qayğısının əhatəsində olub. Rektor bildirib ki, muxtar respublikada hüquq-mühafizə orqanlarının kadrla təminatı baxımından əsas baza rolunu oynayan ixtisasın bu illərdə minlərlə məzunu olub. Vurğulanıb ki, tələbələr, həmçinin ixtisasa dair nəzəri bilikləri mənimsəməklə bərabər müasir tədris üsullarının təcrübi bazası rolunu oynayan laboratoriyalarda tədrisdə aldıqları nəzəri biliklərinin möhkəmləndirilməsi, yoxlanılması, təcrübi bacarıq və vərdişlərlə əlaqələndirilməsini öyrənirlər. Qeyd edilib ki, onlar laboratoriyalarda cinayətin araşdırılması zamanı sübutların yaranma qanunauyğunluqları, onların aşkar edilməsi, qeyd olunması, götürülməsi, qablaşdırılması, saxlanılması, tədqiqi, qiymətləndirilməsi üzrə təcrübə mübadiləsi aparır, onların sınaqdan keçirilməsi məsələlərini öyrənirlər. Diqqətə çatdırılıb ki, ixtisasın perspektivləri nəzərə alınaraq gələcəkdə ikili diplom layihələrində fəal iştirakı nəzərdə tutulur. Rektor ixtisasın 25 illiyi münasibətilə müəllim və tələbələri təbrik edib.

"Hüquq fənləri" kafedrasının dosenti Şükür Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbovun tövsiyyəsi əsasında yaradılan fakültəyə ilk illər muxtar respublikanın hüquq-mühafizə orqanlarında və dövlət strukturlarında çalışan səriştəli və təcrübəli mütəxəssislər cəlb olunub və 1997- ci ilin iyununda "Hüquq fənləri" kafedrası təşkil edilib. Vurğulanıb ki, artıq ixtisası bitirən məzunların kafedrada işlə təminatı uğurlu həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin şöbə müdiri Səttar Zamanov, "Hüquq fənləri" kafedrasının müəllimi Əziz Qasımov həm bu ixtisasın məzunları, həm də kafedranın müəllimləri olmaqdan qürur duyduqlarını dilə gətiriblər.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi Faiq Səfərov, Naxçıvan MR Ali Məhkəməsini şöbə müdiri Cahan Bayramova, türkiyəli məzun İstanbul Ticarət Məhkəməsinin müdiri Abdurrahman Eyuboğlu ürək sözlərini çatdırıb, xatirələrini bölüşüblər.

Tədbirə onlayn olaraq qatılan Yasamal Rayon məhkəməsinin sədri İslam Əliyev, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin şöbə rəisi, ədliyyə polkovniki Fikrət Vəliyev arzu və təbriklərini çatdırıb, hüquqşünaslıq üzrə kadr hazırlığında univertsitet kollektivinə uğur diləyiblər.



# ŞƏHİD ORXAN KƏRİMLİNİN ƏZİZ XATİRƏSİ ƏBƏDİLƏŞDİRİLİB




Naxçıvan Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə ali təhsil ocağının "Hüquqşünaslıq" ixtisası üzrə II kurs tələbəsi Orxan Kərimlinin əziz xatirəsini əbədiləşdirmək məqsədilə ağacəkmə aksiyası təşkil edilib. "Beynəlxalq münasibətlər və hüquq" fakültəsinin ərazisində təşkil edilən ağacəkmədə fakültənin müəllim və tələbələri iştirak ediblər.

"Beynəlxalq münasibətlər" fakültəsinin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yusif Hüseynov, kafedranın baş müəllimi Arzu Abdullayev, universitet TGT sədri, "Hüquq" fənləri kafedrasının müəllimi Əziz Qasımov çıxışlarında zəfər yolumuzun bir illik tarixinə nəzər salıblar. Çıxışlarda diqqətə çatdırılıb ki, əsgərlərimiz Ali Baş Komandanın siyasi səriştəsi və ordumuzun döyüş əzmi nəticəsində şanlı tarix yazdılar. Çıxış edənlər şəhidin keçdiyi döyüş yolu haqda məlumat verərək gənclərin bu cür təşəbbüsünü alqışlayıblar.

Qeyd edək ki, Orxan Akif oğlu Kərimli 2001-ci il oktyabrın 6-da Göyçay şəhərində anadan olub. Naxçıvan Dövlət Universitetində ali təhsil alan Orxan 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə yollanıb.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Kərimli 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 9-da Murovdağ döyüşləri zamanı qəhrəmancasına şəhid olan Orxan Kərimli Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Şəhidimiz ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə" Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# AZƏRBAYCAN XALQ ŞAİRİ MƏMMƏD ARAZIN ANADAN OLMASININ 88 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏDBİR



Tarix- filologiya fakültəsində Azərbaycan xalq şairi Məmməd Arazın anadan olmasının 88 illiyinə həsr olunmuş "Sözün Məmməd Araz zirvəsi" adlı elmi-nəzəri seminar təşkil edilib. Tədbiri giriş sözü ilə açan universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov Azərbaycan ədəbiyyatında Məmməd Araz yaradıcılığının önəmindən bəhs edərək vurğulayıb ki, Məmməd Araz azərbaycançılıq mövzusunun əvəzedilməz şairidir. Prorektor hər bir gəncin Məmməd Arazın əsərlərindən yararlanmalarını və şairin yüksək yaradıcılıq yolundan səmərəli şəkildə bəhrələnməli olduqlarını qeyd edib.

"Azərbaycan dili və ədəbiyyatı" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Xanəli Kərimli tələbələrin diqqətinə çatdırıb ki, Məmməd Araz 1933-cü il oktyabr ayının 14-də Şahbuz rayonunun Nursu kəndində anadan olub. Burada orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunda təhsil alıb. Vurğulanıb ki, müstəqillik dövrünün ilk xalq şairi məhz elə Məmməd Araz olub. Azərbaycan poeziyasını Məmməd Arazsız təsəvvür etmək olmaz deyən Xanəli Kərimli şairin şeirlərindən nümunələr çəkib, tələbələrə Məmməd Arazın həyatı və yaradıcılığı ilə bağlı maraqlı faktları diqqətə çatdırıb.

"Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Sədaqət Nemət vurğulayıb ki, Məmməd Araz yaradıcılığında Vətən mövzusu özünəməxsus yer tutur. O, xalqın taleyüklü məsələlərini, vətən sevgisini öz şeirlərində əks etdirib. Qeyd olunub ki, sanki Məmməd Arazın poeziyasının mayası vətənin daşından, qayasından yoğrulub.

Sonra fakültənin birinci kurs tələbələri şairin şeirlərinin bədii qiraət ediblər.

Sonda şairə Sədaqət Nemətin bədii qiraətində Məmməd Arazın "Qızlar" şeiri maraqla dinlənilib.

**Aynur Əliyeva**
***Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

# UNİVERSİTETİN TƏRƏFDAŞ OLDUĞU LMQS LAYİHƏSİNİN NÖVBƏTİ KONFRANSI

Avropa Birliyinin Erasmus+ LMQS "Rusiya Federasiyası, Qazaxıstan və Azərbaycanda səhiyyədə strateji keyfiyyət menecmenti və risklərin idarə olunması üzrə açıq və distant təhsil formatında peşə bakalavrı və magistri" layihəsi çərçivəsində onlayn görüş keçirilib. Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin renovator qrupunun üzvləri onlayn görüşdə fəal iştirak ediblər.

Layihədə peşəkar səhiyyə işçiləri arasında aparılmış tədqiqatların nəticələrinin təhlili, tədqiqatların nəticələri əsasında müəyyən olunmuş prioritet bakalavr peşəsi üçün peşə kartının müzakirəsi, tədqiqatların nəticələri əsasında müəyyən olunmuş prioritet magistr peşəsi üçün peşə kartının müzakirəsi və. s məsələlər müzakirə olunub.



Avropa Birliyinin layihə üzrə baş koordinatoru Yunanıstan Qərbi Attika Universitetinin professoru Panos Yannakopoulos və fransalı konsultant professor Jan Noel Paşu, Avropa eksperti Katalin İlasku iştirakçıların layihə ilə bağlı suallarını cavablandırıb və ixtisaslı tibbi kadrların artırılması, tədrisdə innovativ metodların tətbiqi məsələləri geniş təhlil edilib.



# UNİVERSİTETİN ƏCNƏBİ TƏLƏBƏLƏRİ MUZEYLƏRİ ZİYARƏT EDİB

Ali təhsil ocağının əcnəbi tələbələri muxtar respublikada yerləşən muzeylərdə ekskursiyada olublar. "Heydər Əliyev" muzeyində olan tələbələrə məlumat verilib ki, muzey Naxçıvan MR Ali Məclisinin 18 fevral 1999-cu il tarixli sərəncamı ilə yaradılıb və 1999-cu il 10 may tarixindən fəaliyyət göstərir. Bildirilib ki, muzeydə Ulu Öndərin ailəsinə, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, Naxçıvan MR Ali Məclisinin sədri işlədiyi dövrə aid şəxsi sənəd və materiallar, imzaladığı məktub, qərar və sərəncamlar, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əməkdaşlıq sahəsində imzaladığı müqavilələrin surətləri nümayiş olunur.

"Xalça muzeyi"nin bələdçisi tələbələrə məlumat verib ki, muzey 1998-ci ilin aprelindən fəaliyyət göstərir. Qala məhəlləsinin Xan dikində - 200 illik tarixə malik Xan sarayında fəaliyyətə başlayan muzey 2010-cu ildən Heydər Əliyev prospektindəki yeni binaya köçürülüb. Muzeydə 264 xovlu və xovsuz xalçalar, müxtəlif əl işləri, tikmələr, toxuculuq alətləri, 60 ədəd mis və saxsı qab nümayiş etdirilir.

Daha sonra "Xan sarayı"nda olan tələbələrə məlumat verilib ki, XVIII əsrə aid tarixi-memarlıq abidəsi Şərq memarlıq üslubunda tikilib. Saray Naxçıvan xanı Rəhim xanın yaşayış evi olub. Vurğulanıb ki, bina zirzəmidən və 8 üst otaqdan ibarətdir. Qədim Qala məhəlləsində, Mömünə xatun türbəsinin 50-60 m-liyində inşa edilib. Vurğulanıb ki, bişmiş kərpicdən tikilmiş, pəncərələrdə şəbəkə üslubundan, otaqlarda qala qədim Naxçıvan yaşayış evlərinə xas taxça formalarından geniş istifadə olunub.

**Etibar Dərbəndəliyev**
***Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

# "TİBB FAKÜLTƏSİ"NİN ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ "SAĞLAM OL" LAYİHƏSİ DAVAM EDİR

Universitetin Tibb fakültəsinin həkim, rezident və tələbələrinin iştirakı ilə muxtar respublikanın ümumtəhsil məktəblərinin kollektivi ilə "Sağlam ol" layihəsi çərçivəsində görüşləri davam edir. Şahbuz şəhər 1 saylı tam orta məktəbdə keçirilən tədbirdə ilk olaraq məktəbin müəllim və şagirdləri ilə görüş kəsin bilməli olduğu ilk tibbi yardım barədə ətraflı məlumatlar verməkən ibarətdir. Elsevər Əsədov eyni zamanda ali təhsil ocağının imkanları və fakültədə yaradılan müasir tədris şəraiti barədə tədbir iştirakçılarını məlumatlandırıb. Diqqətə çatdırılıb ki, müasir standartlara cavab verən və ən son texnologiyalarla təmin olunan



olub. Görüşdə məktəbin direktoru Şahbaz Məhərrəmov qonaqları salamlayaraq təşkilatçılara öz minnətdarlığını bildirib.

Tibb fakültəsinin dekanı Elsevər Əsədov çıxış edərək layihənin məqsədi haqqında məlumat verib. Qeyd edib ki, görüşün əhəmiyyəti tibb sahəsinə marağı olan şagirdləri gələcəkdə bu sahədə təhsil almaları üçün həvəsləndirmək, eyni zamanda hər fakültədə kabinə və laboratoriyalar, auditoriyalar var. Qeyd edilib ki, Tibb fakültəsinin məzunları istər ölkə daxilində istərsə də xaricdə uğurla fəliyyət göstərirlər.

Sonra fakültənin həkimləri məktəb kollektivinə ixtisaslar barədə məlumatlar verib və maarifləndirici söhbətlər aparıblar.

Daha sonra fakültənin müəllimləri- ginekoloq Gültəkin Əliyeva, cərrah Cəbi İsmayılov, pediatr Mətləb İbrahimov, bioloq Mürsəl Seyidov, reanimatoloq Bəxtiyar Hüseyov "İnsan anatomiyası" və "Biologiya" fənnlərindən nümunəvi dərslər keçiblər.

"Ümumi təbabət və kliniki fənlər" kafedrasının baş müəllimi Bəxtiyar Hüseynov "İlk tibbi yardım" simulyasiyası haqqında çıxış edərək həyati təhlükənin aradan qaldırılması üçün olduqca vacib olan ilkin tibbi yardımın əhəmiyyətindən danışıb. Tibb fakültəsinin tanıtım videoçarxı izlənilib. Sonra "İlk tibbi yardım" simulyasiyasının və tələbələrin çıxışlarının təqdimatı olub. Tədbirdə Suada Vahabova "Kliniki ölüm", Həqiqət Ələsgərli "Qanaxmalar", Şəbnəm Salmanova "Sınıqlar", Aytac Əliyeva "Torpaq altında qalma" mövzuları ətrafında slayd və səhnəciklərlə çıxış ediblər. Qeyd edək ki, çıxışlar şagirdlər tərəfindən maraqla qarşılanıb və onlar səhnəciklərdə iştirak ediblər.

Tədbirdə həmçinin "Sağlam gülüş" adı ilə "dişlərin sağlamlığı və gigiyenası" və "Zərərli qidalar" mövzusunda çıxışlar dinlənilib və şagirdlərin sualları cavablandırılıb.

Sonda fakültənin həkim və rezidentlərinin iştirakı ilə ginekoloji, oftalmoloji, pediatrik, stomatoloji, kardioloji və ümumi terapevtik müayinələr həyata keçirilib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***




## "MÜASİR NAXÇIVAN" ADLI DƏRS VƏSAİTİNİN TƏQDİMATI

Naxçıvan Dövlət Universitetində "Şərq qapısı" qəzetinin baş redaktoru, Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının dosenti Mehriban Sultanın "Müasir Naxçıvan" adlı dərs vəsaitinin təqdimatı keçirilib.

Təqdimatı giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev muxtar respublikanın ictimai-siyasi həyatını, sosial-iqtisadi inkişafını özündə əks etdirən, dövlətçilik, Azərbaycançılıq ideologiyası, hərbi-vətənpərvərlik ruhunda yazılmış məqalələrdən ibarət nəşri Naxçıvan jurnalistika məktəbinə mühüm töhfə olaraq dəyərləndirib. Qeyd edilib ki, yeni nəşr həm də 100 illik yubileyi qeyd olunan "Şərq qapısı"nın son illərdəki fəaliyyətinin yığcam hesabatı da sayıla bilər. Rektor müəllifin ali təhsil ocağında müəllim kimi fəaliyyətini də yüksək qiymətləndirərək kitabı Jurnalistika ixtisasının tələbələri üçün müasir jurnalistikanın tələblərini, qəzetçilik üslubunu, janr, dil spesifikasını öyrənmək baxımından qiymətli mənbə hesab edib. Rektor yeni nəşrin bu əhəmiyyəti nəzərə alınaraq universitet Elmi Şurasının 17 sentyabr tarixli qərarı ilə dərs vəsaiti təsdiq olunduğunu bildirib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, 13 bölmə altında 80-ə yaxın məqalənin toplandığı kitab müasir Naxçıvanın publisistik xəritəsini əks etdirməklə bərabər aydın dövlətçilik mövqeyi və əqidəsinin, milli ideologiyaya sədaqətlə xidmətin təcəssümü olan mətbu nümunələrin məcmusudur. Akademik kitabda yer alan bir sıra məqaləni Naxçıvan mətbuatında siyasi publisistikanın mükəmməl nümunəsi adlandırıb. Qeyd olunub ki, "Müasir Naxçıvan" kitabında müəllifin müxtəlif illərdə "Şərq qapısı" qəzetində və mərkəzi mətbuat orqanlarında, Türkiyə mətbuatında dərc olunmuş bədii-publisistik yaradıcılıq nümunələri toplanıb. Muxtar respublikanın ictimai-siyasi həyatına nəzər salan, sosial-iqtisadi inkişafını əks etdirən, ordu quruculuğu və hərbi-vətənpərvərlik mövzusunda yazılmış, ulu öndərin ideyalarına sadiq şəkildə həyata keçirilən humanitar-siyasətin mahiyyətini açan analitik-siyasi, təhlili məqalələr, icmallar, oçerk, müsahibə, reportaj və yol qeydləri, yeni nəşr və tamaşa resenziyaları, ssenarilər oxuculara təqdim olunub. Yeni nəşrdə yer alan, ölkədə və muxtar respublikamızda aparılan mətbuat və informasiya siyasəti, Naxçıvanda elm və təhsilin inkişafı, oxunması zəruri olan kitablarla bağlı məqalələrdə mövzunun mahiyyəti üzə çıxarılaraq faktlara əsaslanan dolğun təsəvvürat yaradılır. Yeni nəşri Ali Məclis Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması ilə bağlı imzaladığı 2021-ci il 1 iyun tarixli Sərəncamın icrası istiqamətində də növbəti uğurlu addım hesab etmək olar. Jurnalistika ixtisası üzrə təhsil alan tələbələr bu dəyərli vəsaitdən istifadə etməklə müasir jurnalistikanın tələblərini, qəzetçilik üslubunun spesifik xüsusiyyətlərini də öyrənə bilərlər.

Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, dosent Şəhla Şirəliyeva kafedranın dosenti Mehriban Sultanın elm və təhsilin inkişafı ilə bağlı, xüsusilə ali təhsil quruculuğu, ziyalı mühiti, ziyalılarımız haqqında yazdığı məqalələri barədə danışıb və 2017-ci ildə universitetin 50 illik yubileyi münasibətilə nəşr etdirdiyi "Mənim universitet dünyam" kitabının da bu baxımdan qiymətli nəşr olduğunu bildirib. Müəllifin "Yeni yol" qəzeti ilə bağlı "Mollanəsrəddinçilər "Yeni yol"da", "Milli mətbuat tariximizdə "Yeni yol" qəzeti" kitablarını mətbuat tariximizin öyrənilməsi baxımından dəyərli nümunələr adlandırılıb.

"Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədov bildirib ki, müəllifin kitabının "Şərq qapısı" qəzetinin yüzillik yubileyi ərəfəsində nəşrə hazırlanması qəzetin dövlətçilik ideyalarının təbliği, ictimai-siyasi hadisələrə münasibət, muxtar respublikada uğurla reallaşdırılan sosial-iqtisadi, humanitar siyasətin mahiyyətini açmaq, çoxşaxəli və davamlı uğurları təqdim və təbliğ etmək baxımından təqdirəlayiq sayıla bilər.

Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru İman Cəfərov gərgin və məhsuldar jurnalistlik fəaliyyətinin bəhrəsi olan kitabın Naxçıvanşünaslığa dəyərli töhfə olmaqla bərabər Azərbaycanşünaslıq elminə də xüsusi dəyər qatacağına əminliyini ifadə edib, materialların, janr, mövzu etibarilə qruplaşdırılmasını mətnşünaslıq baxımından təq-




dirəlayiq hesab edib. Qeyd edilib ki, kitab gələcək jurnalistlər üçün mənbəşünaslıq yolunda uğurlu bir istiqamət ola bilər. Vurğulanıb ki, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində çap olunan kitab yüksək tərtibatı, fototəqdimatı, poliqrafik keyfiyyəti ilə də fərqlənir.

"Şərq qapısı" qəzetinin şöbə müdiri Nail Əsgərov, universitetin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi Məcid Əkbərov gənc jurnalistlər üçün bir ədəbi yol sayıla biləcək nəşrin onların gələcək fəaliyyətində mühüm əhəmiyyətə malik olacağını vurğulayıblar. Çıxış edənlər müəllifi təbrik edərək ona bundan sonrakı fəaliyyətində yaradıcılıq uğurları arzulayıblar.

Sonda müəllif muxtar respublikada elmə, təhsilə, jurnalistikaya göstərilən dövlət qayğısından danışaraq ərsəyə gələn kitabı yaradılan şəraitin bəhrəsi olaraq dəyərləndirib. Qeyd olunub ki, "Müasir Naxçıvan" kitabının əsl müəllifi inkişaf edən müstəqil Azərbaycan, onun Naxçıvan Muxtar Respublikasında ümummilli lider Heydər Əliyev ideyalarını sədaqətlə həyata keçirən QURUCU RƏHBƏRDİR. Müəllif muxtar respublikada jurnalistikanın inkişafına göstərilən hərtərəfli dövlət qayğısına görə Ali Məclisin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## "ROBOTOTEXNİKANIN ƏSASLARI" ADLI DƏRS VƏSAİTİNİN TƏQDİMATI



Naxçıvan Dövlət Universitetində Memarlıq və mühəndislik fakültəsinin dekanı, Elektronika və informasiya texnologiyaları kafedrasının professoru Cavanşir Zeynalovun "Robototexnikanın əsasları" adlı dərs vəsaitinin təqdimatı keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2021-ci il üçün nəşr planına əsasən çap olunan dərs vəsaitinin universitetdə yeni texnoloji, innovativ, beynəlxalq əməkdaşlıq kimi digər sahələrə təsir edəcəyini qeyd edib. Bildirilib ki, dərs vəsaiti əsasında müvafiq elmlər, xüsusilə elektronika, mexanika, kibernetika, telemexanika, mexatronika, informatika elmləri səmərəli şəkildə öyrəniləcək. Rektor ölkə universitetləri arasında ilk dəfə nəşr olunan dərs vəsaitinin elmi və təcrübi əhəmiyyətini qeyd edərək müəllifə bundan sonrakı fəaliyyətində uğurlar arzulayıb.

Nəqliyyat mühəndisliyi və texniki fənlər kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent Məftun Əliyev bildirib ki, 8 fəsil 336 səhifə həcmində olan dərs vəsaitində robotların yaranma tarixi, robototexnikanın əsasları, layihələndirmənin əsasları, robotların hazırlanması üçün alətlər, materiallar və avadanlıqlar, robotexniki konstruksiyaların elementləri, robotun idarə olunması, robotun naviqasiyası, təhsildə ekzotik robotlar haqqında elmi məlumatlar öz əksini tapıb.

İnformasiya-kommunikasiya texnologiyaları və elektron təhsil şöbəsinin müdiri, Elektronika və informasiya texnologiyaları kafedrasının müəllimi Hüseyn Əsgərli robototexnika elminin elektronika, mexanika, kibernetika, telemexanika, mexatronika, informatika eləcə də radio və elektrik mühəndisliyi kimi fənlərlə sıx bağlı olduğunu dilə gətirib.

Elektronika və informasiya tex-




nologiyaları kafedrasının müəllimi Heydər Xəlilov qeyd edib ki, əhatəli şəkillərlə zəngin dərs vəsaitində avtonom və yarımavtonom robotların izahı verilməklə, idarəetmənin kabel, infraqırmızı pult, radio, bluetooth, Wi-Fi, mobil telefon vasitəsilə təşəkkül tapan formalarına nəzər salınıb.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi aparatının sektor müdiri Murad Babayev muxtar respublikada STEAM təhsil metodunun tətbiqindən danışıb. Vurğulanıb ki, qısa müddətdə tətbiqinə baxmayaraq, şagirdlər tərəfindən 100-dən çox STEAM və Robototexnika layihələri hazırlanıb və Texnosərgidə nümayiş etdirilib.

Diqqətə çatdırılıb ki, təqdimatı keçirilən yeni nəşr məktəblərdə STEAM dərslərinin yüksək səviyyədə tədrisinə öz müsbət təsirini göstərəcək.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşı Gülsüm Əsədova mexatronika və robototexnika sahələrindən danışıb. Sonda müəllif elmə, təhsilə göstərilən qayğıya görə dövlətimizə minnətdar olduğunu bildirib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## "NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA CAMIŞÇILIĞIN İQTİSADİ ƏHƏMİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ" ADLI DƏRS VƏSAİTİNİN TƏQDİMATI



Bu münasibətlə keçirilən tədbirdə universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov qeyd edib ki, muxtar respublikada əhalinin keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsulları ilə təminatının qorunub saxlanılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilib və bu sahədə ardıcıl işlər həyata keçirilir. Bildirilib ki, təqdimatı keçirilən dərs vəsaiti də təsdiq edilən dövlət proqramlarına uyğun tərtib edilib.

"Baytarlıq təbabəti" kafedrasının dosenti, biologiya üzrə fəlsəfə doktoru, Əli Tahirov məruzəsində bildirib ki, hazırda muxtar respublikada baytarlıq təbabətinin inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilir. "Baytarlıq kafedrası" müasir tələblərə uyğun kadrların baytar-həkimlərin hazırlanmasında fundamental baza hesab olunur. Diqqətə çatdırılıb ki, dərs vəsaitində çox nadir genefonda malik olan, qiymətli kənd təsərrüfatı heyvanı kimi dünyanın bir çox ölkələrində yayılan camışların biomorfoloji xüsusiyyətləri, anatomik quruluşu, məhsuldarlıq göstəriciləri haqqında ətraflı məlumatlar verilib.

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, biologiya üzrə elmlər doktoru İsmayıl Məmmədov dərs vəsaitində qeyd olunan camışçılığın inkişaf perspektivləri, iqtisadi əhəmiyyəti, Naxçıvan Muxtar Respublikasının təbii-iqlim və təsərrüfat xüsusiyyətləri, camışların sistematikası və yer kürəsində yayılması mövzuları haqqında məlumat verib.




Naxçıvan Dövlət Texniki Kollecinin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Asəf Ruşanov kollecdə baytarlıq ixtisası üzrə təhsil alan tələbələr üçün dərs vəsaitinin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, bu sahəyə göstərilən qayğının nəticəsində baytarlıq ixtisası üzrə dərs vəsaitlərinin nəşri gələcəkdə baytar-həkimlərin yetişməsinə verilən dəyərli töhfədir.

"Baytarlıq təbabəti" kafedrasının müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Yunis Rüstəmli vurğulayıb ki, müəllifin gərgin əməyi nəticəsində ərsəyə gələn kitab baytar həkimləri, zooloqlar, ekoloqlar eləcə də ali və orta ixtisas təhsili müəssisələrinin müəllim və tələbələrinin istifadəsi üçün nəzərdə tutulub.

Sonda müəllif Magistratura mərkəzinin direktoru, "Baytarlıq təbabəti" kafedrasının professoru, biologiya üzrə elmlər doktoru Etibar Məmmədov bu cür dərs vəsaitlərinin hazırlanmasını gələcəkdə də davam etdirəcəyini bildirərək göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***



## GÖY CİSİMLƏRİNİN ÖYRƏNİLMƏSİNƏ DAİR ELMİ- NƏZƏRİ SEMİNAR

Universitetin "Fizika- riyaziyyat" fakültəsində "Asteroid – Komet təhlükəsi problemi" mövzusunda elmi-nəzəri seminar təşkil edilib. Tədbiri giriş sözü ilə açan fakültə dekanı, Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Orxan Cəfərov qeyd edib ki, Fizika elmində göy cisimlərinin öyrənilməsi mühüm əlamətlərdən biridir. Bu iş üzrə fakültədə mütəmadi tədbirlər keçirilir, tələbələr ekskursiyalara cəlb olunurlar.

AMEA-nın Naxçıvan bölməsi, Batabat Astrofizika Rəsədxanasının direktoru, fizika üzrə fəlsəfə doktoru, dosent Qulu Həziyev göy cisimləri haqqında məlumat verib, ölkəmizdə bu istiqamətdə aparılan işləri diqqətə çəkib. Qeyd edilib ki, göy cisimlərinə kometlər, planetlər, meteoritlər, asteroidlər, ulduzlar və digər bu kimi obyektlər aid edilir. Göy cisimlərinin ölçüsünün müxtəlif olduğunu vurğulayan Qulu Həziyev bildirib ki, nebula (dumanlıq) və supernova qalıqları xaricindəki astronomik cisimlər, özləri ətrafında fırlanarkən cazibə qüvvəsinə görə aşağı düşmürlər. Diqqətə çatdırılıb ki, ölçüsünə görə fərqlənən astronomik obyektlər var ki, onlardan ən böyük ölçülərə malik ulduzlar, ən kiçikləri isə meteoritlərdir. Alim vurğulayıb ki, bir ulduzun ətrafında dövr edən kütləvi səma cisimlərinə planet, ətrafında dövr edən kiçik göy cisimlərinə isə peyk deyilir.

Sonda tələbələrin sualları cavablandırılıb.

**Etibar Dərbəndəliyev**
***Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

## "İDARƏETMƏ UÇOTU: BEYNƏLXALQ VƏ MİLLİ UÇOT STANDARTLARI" KİTABININ TƏQDİMATI KEÇİRİLİB

Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev ali təhsil ocağında dərs vəsaitlərinin təqdimatının keçirilməsinin ənənəvi hal aldığını qeyd edib. Bildirilib ki, müəllif tərəfindən ərsəyə gətirilən dərs vəsaitindən təkcə müəllim, bakalavr, magistr, doktorant və dissertantlar deyil, həm də menecerlər, iqtisadçılar, baş mühasiblər, peşəkar mühasiblər, maliyyəçilər və auditorlar da istifadə edə bilərlər.




Tədbirə onlayn olaraq qatılan Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktorunun müavini, iqtisad elmləri doktoru Ramil Hüseynov kitabın fəsilləri haqda ayrı-ayrılıqda məlumat verib. Vurğulanıb ki, kitabda idarəetmə uçotunun predmeti və metodu, strukturu və müqayisəli xarakteristikası məsələləri geniş izah edilib. Bildirilib ki, müəllif dərs vəsaitində dünya ölkələrində milli mühasibat uçotu sistemləri və Azərbaycanda idarəetmə uçotunun Qərb idarəetmə uçotuna uyğunlaşdırılması problemlərinə toxunub.

"İqtisadiyyat" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Ceyhun Mahmudov qeyd edib ki, dünya üzrə bu sahəyə diqqətin artdığı bir vaxtda muxtar respublikada ana dilimizdə bu cür dərs vəsaitinin hazırlanması təqdirəlayiq haldır. Vurğulanıb ki, müəllifin gərgin əməyi nəticəsində ərsəyə gələn, 9 fəsil, əlavələr və idarəetmə uçotuna dair terminoloji lüğətin əks olunduğu kitabın fəsillərinin hər birində bu sahə ilə bağlı geniş araşdırmalar oxucuların diqqətinə çatdırılır.

"Dünya iqtisadiyyatı və menecment" kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Cavadxan Qasımov bildirib ki, dərs vəsaitində idarəetmə uçotunun nəzəri metodoloji əsasları, məsrəflər və onların təsnifatı, eyni zamanda məhsulların, işlərin və xidmətlərin maya dəyərinin kalkulyasiyası əsasları nəzərdən keçirilib.

Çıxış edənlər müəllifi təbrik edərək, ona yaradıcılıq uğurları arzulayıblar.

Sonda müəllif kitabın ərsəyə gəlməsində göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

## FRANSIZCA-AZƏRBAYCANCA YENİ LÜĞƏT

Yazının, kitabın icad olunması bəşəriyyət tarixində müstəsna yerə malikdir. Əsrlərdir yazılan kitablar elm, bilik mənbəyi olaraq, nəsillərdən nəsillərə ən dəyərli və tükənməz bir miras kimi qalır. Müəlliflərin uzun zaman apardığı araşdırmaların nəticəsi olan nəşrlər daha sonra sanballı tədqiqat obyektinə çevrilir.




Bu baxımdan ikidilli lüğətlərin hazırlanması həm də bu xalqlar arasında elm körpüsü deməkdir. Digər lüğətlərdən fərqli olaraq yaradılan ikidilli frazeoloji lüğətlər hər iki xalqın tarixi, mədəniyyəti, ədəbiyyatı, mentaliteti, milli-mənəvi psixologiyasının frazeoloji düşüncə tərzinin təbliği və şərhi yolunda əhəmiyyətli bir işdir. Frazeoloji lüğətlərin işlənməsi isə müəllifdən gərgin əmək, çox zəngin erudisiya və hər iki dilin incəliklərinə dərindən bələd olmağı tələb edir.

Avropanın Şərqə, Şərqinsə Avropaya ta qədimdən doğan marağının timsalında Azərbaycanla Fransa arasında yaranmış əlaqələrin inkişafından isə fransızca-azərbaycanca lüğətlərin hazırlanması labüd olmuşdur. Belə ki, Azərbaycanda fransızca-azərbaycanca, azərbaycanca-fransızca müxtəlif sahələri əhatə edən bir çox lüğətlər var və yazılmaqdadır. Bu sahədə Naxçıvan Dövlət Universitetinin Roman-german dilləri kafedrasının professor-müəllim heyətinin də əməyi az deyil.

Yaxın günlərdə NDU-nun Roman-german dilləri kafedrasının dosenti Əli Allahverdiyevin və baş müəllim Əzizə Əliyevanın "Fransız-Azərbaycanca frazeoloji birləşmələr lüğəti" adlı metodik vəsaiti çap olunmuşdur.

Müəlliflərin gərgin əməyinin nəticəsi olan kitabda 800-ə yaxın frazeoloji birləşmə öz əksini tapmışdır. Yeri gəlmişkən qeyd edək ki, vəsaitin fransız dili ixtisasında təhsil alan tələbələr üçün xüsusi praktik əhəmiyyəti vardır. Belə ki, Fransız dilinin müqayisəli tipologiya, Üslubiyyat, Leksikologiya və Ədəbiyyat və xüsusilə də Tərcümə nəzəriyyəsi və praktikası fənnlərinin tədrisi zamanı müəyyən məqamlarda istifadə edərək paralellər aparmaq olar.

Bildiyimiz kimi frazeoloji birləşmələr xalqın dünyagörüşündən və dilin daxili qanunlarından yarandığı üçün nə tərkib hissələrinə ayrılır, nə də başqa dilə tərcümə edilir. Lakin çox maraqlıdır ki, Azərbaycan və Fransa bir-birindən minlərcə kilometr uzaq olmalarına, müxtəlif dil sistemlərinə aid olmalarına rəğmən hərfi tərcüməsində belə, hər iki dildə ifadəsi birə-bir eyni olan frazeoloji vahidlər də az deyil. Əminik ki, gələcəkdə bu sahənin tədqiqatçıları lüğətdən zəngin bir mənbə kimi istifadə edəcəklər. Müəlliflərə isə işlərində yeni uğurlar diləyirik.

**Məhsəti Əsgərova**
***"Roman-german dilləri" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent***



## TƏLƏBƏLƏR CULFA VƏ ORDUBADDA YERLƏŞƏN MUZEYLƏRİ ZİYARƏT EDİBLƏR

Universitetin "İqtisadiyyat" fakültəsinin Turizm könüllülərindən ibarət bir qrup tələbəsi Culfa və Ordubadda yerləşən muzeylərdə olub. "Gülüstan" türbəsində olan tələbələrə məlumat verilib ki, orta əsr Azərbaycan memarlarının zəngin daş memarlığı təcrübəsi olan türbə XIII əsr Azərbaycan memarlığının ən maraqlı nümunələrindən biridir. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 oktyabr 2015-ci il tarixli Sərəncamı ilə bərpa olunan türbə sərdabə qatı yer üstünə qaldırılan və ona görə bayır tutumu ikiqatlı quruluş alan qüllævari türbə tipinə aiddir. Vurğulanıb ki, bütünlüklə qırmızı tufdan ucaldılan türbənin yalnız qatlararası iç günbəzi kərpicdən yığılıb.

Ordubad rayon "Tarix diyarşünaslıq muzeyi"ndə olan tələbələrə məlumat verilib ki, Qeysəriyyə sözünün mənası keçmiş zamanlarda şahlara məxsus daş-qaş, ləl-cəvahirat satılması məqsədilə tikilmiş örtülü Şərq bazarı deməkdir. Dünyanın üç yerində (Səmərqənd, Təbriz və Ordubad) rast gəlinən tikililərdən ən abadı və görkəmlisi Ordubaddadır.

Daha sonra Yusif Məmmədəliyevin ev müzeyində olan tələbələrə məlumat verilib ki, Azərbaycan-sovet kimyaçı alimi, kimya elmləri doktoru, professor, Azərbaycan SSR EA-nın akademiki və prezidenti və 1958, SSRİ EA-nın müxbir üzvü olan Yusif Heydər oğlu Məmmədəliyev Naxçıvan qəzasının Ordubad şəhərində anadan olub. Azərbaycanda neft kimyasının əsasını qoyan alimin əsas elmi işləri, neftin və neft qazlarının katalitik emalı sahəsinə aiddir. Diqqətə çatdırılıb ki, İkinci Dünya müharibəsi dövründə aviasiyamızın yüksək oktanlı yanacaqla təmin edilməsində alimin kəşfi böyük əhəmiyyətə malik olub.

**Etibar Dərbəndəliyev**
***Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

## TİBB FAKÜLTƏSİNİN MÜƏLLİM VƏ TƏLƏBƏLƏRİ NAXÇIVAN MUXTAR RESPUBLİKASI KARDİOLOJİ MƏRKƏZDƏ OLUB

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin müəllim və tələbələrinin iştirakı ilə Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzində "Kardiologiyanın aktual və müasir problemləri" mövzusunda dəyirmi masa təşkil edilib. Kardioloji Mərkəzin baş həkimi Ramin Hacıyev qeyd edib ki, muxtar Respublikada səhiyyə sisteminin inkişaf etdirilməsi nəticəsində mərkəzə yeni avadanlıqlar alınaraq əhalinin keyfiyyətli tibbi xidmətlə təmin olunması diqqətdə saxlanılır. Kardiologiyanın müasir problemlərindən danışan baş həkim ən son tibbi cihazlarla təmin olunan mərkəzdə həyata keçirilən yeni müayinə və müalicə üsulları barədə tədbir iştirakçılarını məlumatlandırıb.



"Ümumi təbabət və kliniki fənlər" kafedrasının dosenti Gültəkin Əliyevanın "Klimakterik yaşlı qadınlarda yaranan kardioloji problemlərin son müalicə metodları", kafedranın baş müəllimi, Kardioloji Mərkəzin həkimi Süleyman Cəfərovun kardiologiyanın son zamanlar diaqnostik cəhətdən inkişafı və mərkəzdə yaradılan şərait haqda çıxışları dinlənilib.

Qarşılıqlı müzakirə ilə keçən dəyirmi masada tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***



## TƏLƏBƏLƏR AMEA NAXÇIVAN BÖLMƏSİNİN NƏBATAT BAĞINDA OLUB

Naxçıvan Dövlət Universiteti TGT-nin təşəbbüsü ilə Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin "Biologiya müəllimliyi" ixtisasının tələbələri müəllimləri ilə birgə Nəbatat bağında olublar.

Məlumat verilib ki, AMEA Naxçıvan Bölməsinin Nəbatat bağında müxtəlif rayonların meyvə bağlarından və şəxsi təsərrüfatlardan qiymətli yerli meyvə sortları gətirilərək meyvə genefondu bağı yaradılıb. Bağın ərazisində Naxçıvan Muxtar Respublikasının və Azərbaycanın Qırmızı Kitabına daxil edilmiş geofit bitkilər yetişdirilərək nadir bitkilər kolleksiyası sahəsi formalaşdırılıb.

Qeyd olunub ki, burada Gürcüstan, Türkiyə və Rusiya Botanika bağlarından gətirilən 100-ə yaxın ağac, kol və dekorativ bitkilərin növ tərkibi öyrənilir, eyni zamanda bağda bir çox növlərin toxumlarından alınan cücərtilər üzərində müşahidələr aparılır.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# I KURS TƏLƏBƏLƏRİ ARASINDA VOLEYBOL ÜZRƏ SEÇMƏ YARIŞLARA START VERİLİB

Universitetin Bədən tərbiyəsi və idman kafedrasının müəllimi, voleybol məşqçisi Nazim Əliyevin paradın hazır olması barədə raportundan sonra tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev dövlət-gənclər siyasətinin əsasını təşkil edən idmanın inkişafı istiqamətində görülən işlərdən danışıb. Qeyd edilib ki, universitetin idman sahəsindəki uğurları sırasına hər il yeniləri əlavə edilir. Mütəmadi olaraq idmanın bir çox növü üzrə ali təhsil ocağında kütləvi yarışlar keçirilir və universitet tələbələri uğur əldə edirlər. Rektor, həmçinin tələbələrin beynəlxalq yarışlarda ali təhsil ocağının adını yüksək tutaraq muxtar respublikamızı layiqincə təmsil etdiklərini diqqətə çatdırıb və komandalara uğurlar arzulayıb.

İdman klubunun sədri Məmmədəli Rəhimov universitetdə idmanın 15 növü üzrə həftədə 3 dəfə məşğələlərin keçirildiyini bildirib. Universitetdə təhsil alan hər bir tələbənin idman klubunda iştirak edə biləcəyini diqqətə çatdıran Məmmədəli Rəhimov yarışın qaydaları haqqında məlumat verib.

"Məşqçilik" ixtisası üzrə II kurs tələbəsi Abbas Məmmədov idman sahəsində qazandığı nailiyyətlərdən danışaraq bildirib ki, bir çox beynəlxalq yarışlarda iştirak edərək birincilik əldə edib.

Daha sonra voleybol yarışına start verilib. Yarışda hər fakültədən bir komanda olmaqla ümumilikdə 10 komanda iştirak edib. 1/4 finala vəsiqə qazanan komandalar arasında "Pedaqoji" fakültə qalib olub. "Memarlıq və mühəndislik" fakültəsi II, "Beynəlxalq münasibətlər və hüquq" fakültəsi isə III yerdə qərarlaşıb.

Qeyd edək ki, digər idman növləri üzrə seçmə yarışlar bundan sonra qrafikə uyğun olaraq davam edəcək.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***





# ŞAGİRDLƏR UNİVERSİTETİN TEXNOLOGİYA MƏRKƏZİNDƏ OLUBLAR

Şıxmahmud kənd tam orta məktəbin şagirdləri universitetin Texnologiya mərkəzində olublar. Əvvəlcə şagirdlərə universitet və Texnologiya mərkəzi haqqında məlumat verilib. Sonra Toxuculuq və Tikiş texnologiyası, Kulinariya kabinələri, Metal və ağac emalı üzrə emalatxana ilə tanışlıq olub. Şagirdlərə xalçaçılıq və toxuculuq, tikiş texnikası, xalça nümunələri, onların toxunma qaydası, tələbələr tərəfindən hazırlanan əl işləri, milli geyimlər, süfrə mədəniyyəti, qida məmulatlarının hazırlanma texnologiyaları haqqında ətraflı məlumat verilib. Qeyd edilib ki, "Texnologiya müəllimliyi" ixtisasında təhsil alan tələbələr burada dərslərdə öyrəndiklərini təcrübədə tətbiq edərək biliklərini möhkəmləndirirlər.

Sonra əl işlərinin satışının həyata keçirildiyi Sosial Xidmət Mərkəzi ilə tanışlıq zamanı tələbələr tərəfindən hazırlanan müxtəlif əl işlərinə baxış olub.

Sonda çay süfrəsi arxasında şagirdləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, şagirdlər kabinələrlə tanışlıq zamanı verilən məlumatları təcrübədən keçirib və görüşdə fəal iştirak ediblər. Görüş iştirakçılar tərəfindən maraqla qarşılanıb.

**Fəxriyyə Səyyadova**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİ TƏLƏBƏLƏRİNİN BASKETBOL ÜZRƏ MUXTAR RESPUBLİKA BİRİNCİLİYİ



Naxçıvan Dövlət Universiteti İdman Klubunda keçirilən tədbirdə universitetin rektoru, Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının sədri Elbrus İsayev çıxış edərək muxtar respublikada idmana göstərilən yüksək dövlət qayğısından danışıb. Bildirilib ki, ölkəmizdə bütün idman sahələrinin uğurlu inkişafı ilə yanaşı, basketbol idman növünə də xüsusi önəm verilir. Universitetin idman sahəsindəki uğurlarından bəhs edən rektor qazanılan nailiyyətləri ölkədə və muxtar respublikada idmanın inkişafına, gənclərin mənəvi fiziki cəhətdən sağlam yetişməsinə göstərilən diqqət və qayğının nəticəsi kimi qiymətləndirib. Rektor universitetdə basketbol idman növünə marağın artdığını dilə gətirib və yarış iştirakçılarına uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Ramin Hacı ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər və idman siyasətindən danışıb. Qeyd edilib ki, bu sahədə aparılan məqsədyönlü siyasət nəticəsində ölkəmiz bir sıra idman yeniliklərinə imza atıb, Azərbaycanda böyük idman infrastrukturu yaradılıb, respublikamız dünyada idman ölkəsi kimi tanınmağa başlayıb. Vurğulanıb ki, ölkəmizdə, həmçinin muxtar respublikamızda idmanın müxtəlif növləri üzrə Avropa, dünya çempionatları, beynəlxalq turnirlər keçirilir. Nazir universitetdə keçirilən mütəmadi idman oyunlarını yüksək qiymətləndirib.

Sonra Xarici tələbələrlə iş üzrə dekanlığın tələbələri və "Naxçıvan" universitetinin tələbələrindən ibarət basketbol komandasının oyununa start verilib. Qızğın mübarizənin sonunda Xarici tələbələrlə iş üzrə dekanlığın tələbələri qalib gəlib. Həmin gün Tibb və Texniki kollec arasında oyun keçirilib, Tibb kolleci yarışı qazanaraq II tura vəsiqə qazanıb.

İki gün davam edən oyunda 6 komanda iştirak edib. Finalda Naxçıvan Dövlət universitetinin Xarici tələbələrdən ibarət komandası ilə NDU-nun digər komandası görüşüb. Gərgin mübarizənin nəticəsində əcnəbi tələbələrdən ibarət komanda yarışı 33/23 hesabla başa vurub. Beləliklə, yarışın nəticələrinə görə NDU-nun xarici tələbələrdən ibarət komandası qalib olub, "NDU"- nun digər yığma komandası isə II yerə çıxıb.

Üçüncü yer uğrunda aparılan yarışda Naxçıvan Müəllimlər İnstitutunun komandası ilə Tibb Kollecinin komandası mübarizə aparıb. Tibb kolecinin komandası qalib gələrək III yeri qazanıb.

Yarışların sonunda idmançıların mükafatlandırılma mərasimi baş tutub. Universitetin rektoru Elbrus İsayev, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Ramin Hacı muxtar respublikada basketbolun inkişafı üçün keçirilən yarışların əhəmiyyətindən danışaraq yarış iştirakçılarını təbrik ediblər. Rektor Basketbol Federasiyasının və Gənclər və İdman nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən yarışların mütəmadi olacağını diqqətə çatdırıb.

Daha sonra mükafatlandırma mərasimi olub. Yarışın qalibi və mükafatçılara diplom və kubok təqdim edilib.

Qeyd edək ki, ötən il universitetdə basketbol üzrə ictimai hakimlik üçün təşkil edilən seminarda fəallıq göstərən tələbələr də yarışlarda uğurla hakimlik etdiklərinə görə diploma layiq görülüblər... təltif ediliblər.



# İDMANÇI TƏLƏBƏLƏRLƏ GÖRÜŞ TƏŞKİL EDİLİB

Universitetin "Pedaqoji" fakültəsində I kurs tələbələri ilə fakültənin idmançı tələbələrinin görüşü keçirilib. Tədbirdən əvvəl tələbələrin qazandıqları medal və diplomlardan ibarət sərgiyə baxış olub. Daha sonra fakültənin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev idmançı tələbələri təqdim edərək onların bu günə kimi qazandığı nailiyyətləri tədbir iştirakçılarının diqqətinə çatdırıb. İdmançı tələbələr arasında Fəxri Qazıbəyovu xüsusi qeyd edən fakültə dekanı bildirib ki, o, həmçinin, İkinci Qarabağ savaşında iştirak edib, Şuşa, Xocavənd, Füzulinin alınmasına görə medal ilə təltif edilib.

Universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov ali təhsil ocağının idman sahəsində qazandığı uğurlardan söz açıb və tələbələri idman sahəsində aktiv olmağa səsləyib. İdman sahəsinə göstərilən dövlət qayğısından söhbət açan prorektor universitetdə keçirilən müxtəlif növlü idman yarışlarından danışıb.

"Bədən tərbiyəsi və idman" kafedrasının dosenti, İdman klubunun sədri, pedaqogika üzrə fəlsəfə doktoru Məmmədəli Rəhimov bildirib ki, universitetdə yüksək dərəcəli idmançıların hazırlanmasında İdman klubunun rolu çox böyükdür. Burada tələbələr mütəmadi idmanla məşğul olur, peşəkar müəllimlər tərəfindən dərs alırlar.

"Bədən tərbiyəsi və idman" kafedrasının baş müəllimi Valeh Əlixanov vurğulayıb ki, idmançı tələbələrin ölkəmizdə qazandığı uğurlarla bərabər, həmçinin, ölkə xaricində əldə etdiyi nailiyyətləri yüksək təqdirə layiqdir. Bildirilib ki, tələbələrin mütəmadi idmanla məşğul olmaları onların qazandığı uğurların bariz nümunəsidir. Valeh Əlixanov idmançı tələbələri təqdim edərək qeyd edib ki, onlardan karate üzrə Aslan İsmayılov, Abbas Məmmədov, boks üzrə Nizami Novruzov, Kamran Allahverdiyev, kikboks üzrə Kənan Hətəmov həm yerli, həm də beynəlxalq yarışlarda uğur əldə edərək ölkəmizi layiqincə təmsil ediblər.

"Bədən tərbiyəsi və idman müəllimliyi" ixtisası üzrə III kurs tələbəsi, Heydər Əliyev adına təqaüdçü, Avropa mükafatçısı Aslan İsmayılov qazandığı uğurlar haqda tələbələri məlumatlandırıb, gənc idmançılar üçün muxtar respublikada yaradılan şəraitdən danışıb.

"Məşqçilik" ixtisası üzrə ikinci kurs tələbəsi, Vətən müharibəsi iştirakçısı Fəxri Qazıbəyov döyüş xatirələrindən danışaraq onlara vətənpərvər ruhda yetişməyi, bayrağımızı daim ucalarda dalğalandırmağı məsləhət görüb.

**Etibar Dərbəndəliyev**
***Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

# FUTBOL ÇEMPİONATI TƏŞKİL EDİLİB

Naxçıvan Dövlət Universiteti Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə ali təhsil ocağında futbol çempionatının açılış mərasimi keçirilib. Yarış YAP Gənclər Birliyi, TGT, TEC, THT, 10 fakültə və Əcnəbi tələbələrdən ibarət 2 komanda olmaqla, ümumilikdə 16 komandanın iştirakı ilə baş tutub. Universitetin "Orkestr alətləri və dirijorluq" kafedrasının "Nəfəs alətləri" orkestrinin müşayiəti ilə "Vətən marşı" səsləndirilib.

Oyundan öncə rektor Elbrus İsayev çıxış edərək universitetin idman sahəsindəki son əhəmiyyətli uğurlarından bəhs edib. Ali təhsil ocağının hər bir sahədə olduğu kimi idmanda, xüsusən də futbolda nailiyyətlərinin kifayət qədər olduğunu diqqətə çatdıran rektor bu cür idman tədbirlərinin həm tələbələrin fiziki sağlamlığı, həm də asudə vaxtlarının səmərəli təşkilində əvəzsiz rol oynadığını bildirib. Vurğulanıb ki, ali təhsil ocağında keçirilən idman məşğələlərində həm idmanın kütləviliyinin artırılmasına, həm də yüksək dərəcəli idmançıların hazırlanmasına ciddi fikir verilir. Rektor yarış iştirakçılarına uğurlar arzulayıb.



TGT sədri, "Hüquq fənləri" kafedrasının müəllimi Əziz Qasımov qeyd edib ki, tələbələrin fiziki tərbiyə ilə məşğul olması könüllülük prinsipinə əsaslanıb.

Fiziki tərbiyə və idman oyunları kafedrasının dosenti, yarışın baş hakimi Yusif Vəliyev yarışın qaydaları haqda danışandan sonra universitetin rektoruna raport verib.

İdmançılar stadiona "Orkestr alətləri və dirijorluq" kafedrasının "Nəfəs alətləri" orkestrinin müşayiəti ilə daxil olublar.

Qeyd edək ki, Tibb fakültəsinin tələbələri könüllülük fəaliyyəti ilə oyunlarda iştirak edib, oyunçuların tibbi yardım ehtiyaclarını qarşılayıblar.

YAP Gənclər birliyi və Əcnəbi tələbələrin hazırlıq kursu arasında keçirilən ilk oyun Əcnəbi tələbələrin hazırlıq kursunun idmançılarının 3- 1 hesablı qələbəsi ilə başa çatıb.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# MÜƏLLİMLƏRİN ELMİ MƏQALƏSİ YÜKSƏK İMPAKTFAKTORLU JURNALDA DƏRC OLUNUB

Naxçıvan Dövlət Universiteti "Biologiya" kafedrasının dosenti, pedaqogika üzrə elmlər doktoru Zərövşən Babayeva Avstraliyanın Melburn şəhərində "Beynəlxalq forum: Problemlər və elmi həllər" VIII konfransında iştirak edib. "Biologiyanın tədrisində müasir kurs konsepsiyası" adlı elmi məqalə ilə çıxış edən müəllif müasir təhsildə istifadə edilən yeniliklərdən danışıb. Məqalədə bioloji təhsil də daxil olmaqla, tədrisə fərqli yanaşma, dünyagörüşünün maddiliyi, dialektika qanunlarının ümumi mahiyyəti müzakirə olunub. Müəllif öyrənmə prosesində öyrədənlə öyrənən arasında xüsusi ünsiyyət modeli haqda məlumat verib. Məqalədə həmçinin təlim prosesində, xüsusilə biologiyanın tədrisinin keyfiyyətinin artırılmasında mühüm amillər nəzərə çatdırılıb. Qeyd olunub ki, bilik, bacarıq və vərdişləri inkişaf etdirmək üçün əvvəlcə onların məzmununu inkişaf etdirmək vacibdir. Kurikulum islahatları ilə əlaqədar tədris prosesində aparılan keyfiyyət dəyişikliklərinə də nəzər salan müəllif məqalədə bütün praktik bacarıqların həyata keçirilməsindəki məqsədin biliyin gücü və davamlılığının artırılması və öyrənilən biliklərin praktikaya tətbiqindən ibarət olduğunu bildirib.







Naxçıvan Dövlət Universiteti "Elektronika və İnformasiya texnologiyaları" kafedrasının professoru Cavanşir Zeynalov, həmin kafedranın müəllimi Rüstəm Məmmədov və "Nəqliyyat və texniki fənlər" kafedrasının müdiri Məftun Əliyevin "Qeyri səlis xətti proqramlaşdırma məsələsi və onun həllinə neyron şəbəkələrin tətbiqi" adlı elmi məqalələri Rusiyanın nüfuzlu "Eurasian Union of Scientists" jurnalında çap olunub.

Məqalədə iqtisadiyyatın optimal planlaşdırılması məsələsi haqda məlumat verilir. Bildirilir ki, qeyri - səlis ədədlər fəzasında qeyri- səlis xətti proqramlaşdırma kimi formalaşan məsələnin həlli ümumi bir xətti proqramlaşdırma halına gətirilib və həll etmək üçün neyron şəbəkə qurulub. Qeyd olunur ki, xətti proqramlaşdırma problemi sadələr sadələşdirilmiş riyazi modeldir və burada istifadə olunan parametrlər qeyri müəyyəndir. Məsələn, məhsul növünün mənfəəti və istehsal həcmi qeyri müəyyəndir. Həmçinin, məqalədə o da bildirilir ki, qeyri- səlis sistemlər üçün xətti proqramlaşdırma probleminin formalaşması xüsusi maraq doğurur.

Məlumat üçün onu da bildirək ki, jurnal Rusiyada çap olunur və 9 adda beynəlxalq elmi indeksləşmə bazalarına, o cümlədən Global İmpact Factor elmi indeksləşmə bazasına daxildir.




## UNİVERSİTET MÜƏLLİMLƏRİ YAPONİYANIN TOKİO ŞƏHƏRİNDƏ KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK EDİBLƏR

Naxçıvan Dövlət Universiteti "Nəqliyyat mühəndisliyi və texniki fənlər" kafedrasının dosenti, riyaziyyat üzrə fəlsəfə doktoru Asəf Əliyev və kafedranın müəllimi Tərxan Orucov Yaponiyanın Tokio şəhərində keçirilən "Sosial krizlər zamanında elmi üfüq" IX beynəlxalq elmi-praktik konfransda iştirak ediblər. "Nəqliyyat xəstəliyi" adlı elmi məqalə ilə çıxış edən müəlliflər hərəkət vaxtı nəqliyyat vasitələrinin titrəməsi səbəbindən insan orqanizmində baş verən əlverişsiz dəyişikliklərdən danışıblar. Qeyd olunub ki, nəqliyyat xəstəliyi nəqliyyat vasitələrinin titrəməsi səbəbindən insan orqanizmində baş verən əlverişsiz dəyişikliklər kompleksidir. Vurğulanıb ki, titrəmənin təsiri altında bədənin müxtəlif hissələrində deformasiyaların meydana gəlməsi baş ağrısına, reaksiya müddətinin azalmasına, konsentrasiyanın və diqqətin dəyişməsinə, əzələ tonunun azalmasına səbəb ola bilər ki, bütün bunlar da yol qəzalarının baş verməsinə gətirib çıxara bilər. Məqalədə həmçinin nəqliyyat xəstəliyinin başlamasının qarşısını almaq üçün bir sıra təkliflər və tövsiyyələr də verilib.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ÖYRƏNİLMƏSİNƏ İLK VƏ MÜHÜM TÖHFƏ

Qürurverici haldır ki, hazırda qalib dövlət olaraq ölkəmizdə və onun regionlarında qətiyyətli sosial-iqtisadi inkişaf tədbirləri uğurla davam etməkdədir. Bu, bütün tərəfləri ilə elm və təhsil sahələrinin də qarşılıqlı və tamamlayıcı vəhdətini təmin etməklə, onun yeni dəyərlər əsasında təkmilləşməsini də nəzərdə tutmaqdadır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin əsaslarını uzaqgörənliklə müəyyən etdiyi ideyalar fonunda elm və təhsil sahəsindəki proseslər daha yeni hədəflər üçün işıqlı yola çevrilmişdir.

Hazırda muxtar respublikamızda da milli iqtisadi inkişafa hədəflənən sənayeləşmə prosesləri yüksələn dinamika ilə davam etməkdədir. Elmə söykənən iqtisadiyyat qarşısında duran ən mühüm məsələ vaxt və məhsul itkisinə yol vermədən əmək məhsuldarlığına imkanlar açacaq istehsal proseslərinin fasiləsiz şəkildə qurulması, təminat qabiliyyətli olması və bütün tərəfləri ilə qənaətçiliyə önəm verilməsindən ibarət olmaqdadır. Yəni, insanların fəaliyyətinin stimullaşdırılması, asanlaşdırılması və səmərəli təşkili mühüm məqsəd olaraq çıxış etməkdədir ki, burada da robototexnikanın rolu və önəmindən bəhs etmək yerinə düşər. Elə təsadüfi deyildir ki, qloballaşan dünya iqtisadiyyatı dayanıqlılığa və antiböhran sahəsindəki yetkinliyə meyillənməklə, eyni zamanda, iqtisadi imkanlar sahəsində alternativliliyə də böyük həcmdə həm xərc nəzərdə tutur, həm də onu reallaşdırır. Bu sahədə, robota dayanan avadanlıqların-robototexnikanın rolu hər addımda özünü göstərməkdədir.

Qeyd etmək olar ki, hər birimiz üçün doğma olan Naxçıvan Dövlət Universiteti yuxarıda göstərilən amillər üzrə daha dolğun, daha perspektivli tədbirlərə imza atmaqla, elmi axtarışların və etibarlı tədris proseslərinin davamlılığını təmin etmişdir. Burada dövlətimizin gündəlik qayğı və diqqəti ilə yaradılmış sağlam tədris şəraiti bütün fakültələrin, ixtisasların və tələbələrin şaxələndirilməsini təmin etmişdir. Bu isə təbii ki, öz növbəsində həm də yeni nəşrlərin işıq üzü görməsinə imkan yaratmış və ona səmərəlilik gətirmişdir. Fikrimizi əsaslandırmaq üçün qeyd edə bilərik ki, Memarlıq və Mühəndis fakültəsinin dekanı, kompüter elmləri üzrə mütəxəssis, professor Cavanşir Zeynalovun müəllifliyi ilə yenicə çap olunmuş "Robototexnikanın əsasları" adlı dərs vəsaiti qarşıdakı dövrlər üzrə tələbələrin kütləvi istinad mənbəyinə çevriləcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2021-ci il üçün nəşr planına əsasən çap olunan dərs vəsaitinin universitetimizin yeni texnoloji, innovativ, beynəlxalq əməkdaşlıq və digər bu kimi uğurlarına bir töhfə olaraq əhəmiyyəti böyükdür. 2021-2022-ci tədris ilində istər fakültəmizdə tədris olunan fənlər, istər digər fakültələrdə uyğun ixtisaslar, istərsə də, maraqlı şəxslər üçün olduqca aktual olacaq əsərdə modernləşmə yolunu seçən və bu istiqamətdə yetərincə potensialı olan iqtisadiyyatlar üçün zəruri məsələlər yer almışdır. Xüsusilə, artıq geridə qalan tədris ilində təhsilimizin hamisi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çox hörmətli Sədrinin təməlini qoyduğu və tikintisi uğurla davam edən Texnoparkın səmərəli fəaliyyəti üçün də zəruri məsələlər dərs vəsaitinin aktuallığını ifadə etməkdədir.

Dərs vəsaiti, 8 fəsildən ibarət olmaqla, 336 səhifə həcmindədir. Orada araşdırmaya cəlb olunan məsələlər:

- robotların yaranma tarixi;
- robototexnikanın əsasları;
- layihələndirmənin əsasları;
- robotların hazırlanması üçün alətlər, materiallar və avadanlıqlar;
- robotexniki konstruksiyaların elementləri;
- robotun idarə olunması;
- robotun naviqasiyası;
- təhsildə ekzotik robotlar başlıqları üzrə fəsillərdə elmi cəhətdən olmaqla əsaslandırılmışdır.

Yüksək elmi və texniki nailiyyətlərin sürətlə davam etdiyi, bununla da, innovasiyalı iqtisadiyyatların sonsuz bir tələbata çevrilmiş olduğu yeni inkişaf mərhələsində robototexnika ilə bağlı olan nəşrlərin tədqiqatlara cəlb olunması mühüm elmi nailiyyətdir. "Robototexnikanın əsasları" adlı dərs vəsaiti müvafiq elmləri, xüsusilə, elektronika, mexanika, kibernetika, telemexanika, mexatronika, informatika ilə yanaşı, radio və elektrik mühəndisliyi kimi sahələrin də vəhdəti şəraitində səmərəli şəkildə öyrəniləcək. Digər tərəfdən, strukturlaşma və idarəetmə baxımından da ölkəmizdə robototexnika sahəsində və yüksək texnologiyalaşma proseslərində bu dərs vəsaitinin istifadəsinə ehtiyac olacaqdır.

Əsərin fəsillərində göstərilir ki, tarixi və elmi inkişaf proseslərində robotların yaradılması sahəsində bir sıra cəhdlər olunmuşdur. Bunlardan biri, Heronun düzəltmiş olduğu avtomatik teatr və orta əsrdə digər yaradıcılıq nümunələri olmuşdur. Hələ üç əsrdən çox bir müddətdə İsveçrədə ata və oğul Droz bir-birinə oxşar iki, insanabənzər avtomat (Android) düzəltmişlər. Bu avtomatlardan birinə 40 işarəli mətni yazmaq, digərinə isə bir neçə portret çəkmək bacarığı öyrədirlər. Hansı ki, həmin avtomatlar hazırda da İsveçrədə "Schöne Künste" (Gözəl sənətlər) muzeyində saxlanılmaqdadır. Dərs vəsaitinin müəllifi Cavanşir müəllim bu fəsildə haqlı olaraq, robotların yaradılmasında bir sıra vacib elmlərin vəhdətini əsaslandırır. Müəllif qeyd edir ki, bu sahə əsasən təbiət elmləri, riyaziyyat, texnologiya və elektronika kimi elmlərin vəhdətinə əsaslanmış bir layihədir. Eyni zamanda, müəllif burada daha çox informasiyalaşmanı və kompüterləşmənin zəruriliyini üstün hesab edir. Məhz bu səbəbdən də göstərir ki, kompüter texnologiyası nə qədər inkişaf edərsə, robot texnologiyası da bir o qədər inkişaf etmiş olacaq. Maraqlı tərəf ondan ibarətdir ki, müəllif robota ən yeni, ən gerçək və ən aksiom tərif verir. Göstərir ki, robot dedikdə, ağla gələn ilk şey insanın mexaniki surətinin yaradılmasıdır.

Təbii ki, robototexnikanın əsaslarının öyrənilməsində qarşılaşdığımız reallıq robotların gördükləri işlərin nədən ibarət olduğunun məüyyənləşdirilməsindən ibarətdir. Bununla bağlı olaraq dərs vəsaitində əsaslandırılır ki, robotlar insanlar üçün təhlükəli sayıla biləcək yerlərdə, məsələn, kosmosda, mədənlərdə və suyun altında müxtəlif proseslərin icrasında istifadə oluna bilərlər. Əsərdə robotların daha çox təhlükəsiz iş şəraitinin təmin olunması məqsədilə istifadə olunması məqamına da toxunulur. Yəni radioaktiv maddələrin, zərərli kimyəvi birləşmələrin və insan sağlamlığı üçün təhlükə yaradan xəstəliklərə səbəb olan bakteriyaların olduğu yerlərdə də faydalı ola bilər.

Yeni dərs vəsaitinin işıq üzü görməsi elmə dayanan inkişafın hazırkı mərhələsində iqtisadi prioritetlərin əlçatanlığının təmin olunmasında və reallaşmasında mühüm əhəmiyyətə malik olacaq. İstehsal və xidmət sektorlarında məhsuldarlıq səviyyəsinin yüksəldilməsi, məkanından asılı olmayaraq, istənilən ərazi hüdudları üçün ciddi tələbat formalaşan və bununla da, günümüzün fəal iştirakçısına çevilən robotlar özündə sensor, idarəetmə sistemi, çeviklik və avtonomluq əks etdirən və bununla da, mexatron qurğu olan "canlı"dır. Çünki, o, mədənlərdə, kosmosda, dənizlərdə, əlaçatması çətin olan müxtəlif sahələrdə mürəkkəb işlər görür, təbii sərvətlər hasil edir və komplekt hissələri avtomobillərə quraşdırır. Dərs vəsaitinin müəllifi professor Cavanşir Zeynalov robotlar vasitəsilə alınan nəticələrə daha pozitiv yanaşır və belə bir qənaətə gəlir ki, yaxın gələcəkdə daha da təkmilləşdirilmiş avtomatik idarə olunan avtomobillər, ev işlərinin görülməsi və müəyyən tələblər üzrə ixtisas-




laşmış avadanlığın yığılması məqsədilə robototexnik qurğular yaradılacaqdır.

Dərs vəsaitində robotlarla işlərin daha intensiv xarakterə malik olmaqla reallaşmasına yer verilir və:

- sənaye robotları;
- tökmə robotlar;
- mexaniki emal robotları;
- quraşdırıcı (montaj) robotlar;
- boyayıcı robotlar;
- inşaat robotları;
- çeşidləyici –qablaşdırıcı robotlar;
- nəqliyyat robotları;
- kənd təsərrüfatı robotları;
- məişət robotları olaraq təsnifləşdirilir.

Ölkələrin müdafiə sənayesinin inkişafında və etibarlı təhlükəsizliyinin təmin olunmasında daha sıx istifadə olunan hava PUA-ları (Pilotsuz Uçan Aparat) da dərs vəsaitində əsaslandırılmışdır. Bu anlayışın, müşahidə və kəşfiyyat, düşmənə endirilən zərbələrin koordinasiyası, öz ətrafında simsiz rabitə şəbəkələrinin yaradılması kimi hava missiyalarının icra olunması üçün nəzərdə tutulduğu göstərilmişdir. Robototexnikanın inkişafında mexanika üzrə biliklərin öyrənilməsi zəruriliyi ilə seçilir. Həmin biliklər bir çox fiziki hadisələri dərk etmək məqsədilə öyrənilir. Bunlar əsasən konstruksiyada tətbiq olunan müxtəlif hissələr arasında gücün necə paylanılmasını əsas götürür. Həmçinin ağırlıq mərkəzinin harada yerləşməsi də diqqət tələb edir. Proseslərin gedişində sürtünmə, yerləşmə, sürət, cismin təcili və s. kimi amillər zəruri hesab olunur. Robototexnika öyrənilərkən Nyutonun qanunları, ətalət (inersiya), materialların xassəsindən ibarət olan məsələlər daha qabarıq ortaya çıxır.

Oxucu əsərdə robototexnika ilə bağlı olan prosesləri ardıcıl, qarşılıqlı əlaqədə, biri-birinin əhəmiyyətini üzə çıxarmaqla öyrənir. Dərs vəsaitində layihələndirmənin əsas prinsiplərinə nəzər yetirilmiş, avtomatlaşdırılmış layihələndirmə sistemlərinə baxılmış, onun təminat növləri aydınlaşdırılmış, bu sistemdə modelləşdirmə vasitələri göstərilmişdir. Orada additiv istehsal texnologiyasının mahiyyəti izah olunmuş, mexaniki və elektrik alətlər haqqında bəhs olunmuş, elektron komponentlərin təsiri öyrənilmişdir. Müasir dövrümüzlə aktuallığını artıran məsələ olaraq, robotların qidalanma sistemləri, bu sahədə icraçı qurğular haqqında təqdimat verilmiş, sensor sistemləri, yerləşdirmə sensorları barədə məlumatlar yer almışdır.

Orada həmçinin, robototexnik sistemlərin idarə olunması tipləri, onun idarə olunmasının arxitekturası əsaslandırılmışdır. Əhatəli şəkillərə əsaslanan dərs vəsaitində avtonom və yarımavtonom robotların izahı verilməklə, idarəetmənin kabel, infraqırmızı pult, radio, bluetooth, wifi, mobil telefon vasitəsilə təşəkkül tapan formalarına işıq salınmışdır. Dərs vəsaitinin mövzuları içərisində naviqasiyanın təmin olunma sistemi, robotun hərəkətinin təşkil olunma üsulları, intellektual robotun idarəetmə sisteminin xüsusiyyətləri barəsində geniş təqdimat verilir. Eyni zamanda, təhsildə ekzotik robotlar, süni neyronlar və neyron şəbəkələr, sadə analoq robotun hazırlanması və digər zəruri amillər yer almışdır.

Dərs vəsaitində təqdim olunmuş mövzular şəkillər, düsturlar, sxemlər və digər üsul, metod və digər vasitələrlə izah olunmuşdur. Hər bölmənin sonunda yoxlama sualları verilmiş və tələbələrin (oxucunun) mənimsəmə bacarıqlarının təkmilləşdirilməsi nəzərə alınmışdır.

Beləliklə, yeni işıq üzü görən "Robototexnikanın əsasları" adlı dərs vəsaiti günümüzün və universitetimizin olduqca mühüm inkişaf mərhələsində işıq üzü görmüşdür. Əsər uyğun fənlərin və ümumilikdə iqtisadiyyatın sahə strukturu üzrə bütün istiqamətlərin informasiya təminatı, avtomatlaşdırılması, dinamikliyi, çevikliyi və perspektivliliyinin təmin olunması baxımından həm axtarılandır, həmçinin özünün dolğunluğu ilə əlçatandır. Məhz bu keyfiyyətlər baxımından əmin olmaq olar ki, dərs vəsaiti kütləvi təqdidatçıların istinad etmiş olduqları mənbə olmaqla, oxucunun maraqlandığı suallara əhatəli cavab olacaqdır.

**Məftun Əliyev**
***"Nəqliyyat mühəndisliyi və texniki fənlər" kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent***

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN BEYNƏLXALQ ƏMƏKDAŞLIQLARI: İKİLİ DİPLOM VƏ TEXNOLOGİYA PARKI

Qalib ölkə olaraq Azərbaycan Respublikasında uğurla davam etdirilən islahatlar ölkənin hərtərəfli inkişafını təmin edəcək bütün sahələrin dayanıqlılığını və müqavimətliliyini daha da artırmaqdadır. Bu, hər şeydən əvvəl özünün həm də sosial mahiyyəti ilə daha çox aktuallıq qazanmaqla, eyni zamanda təhsil sahəsindəki uzunmüddətli perspektivlərin yaranmasına səbəb olmaqdadır. Xalqımızın ümummilli lideri böyük Heydər Əliyev tərəfindən əsası qoyulan milli təhsil strategiyasının inkişafı 2004-cü ildən etibarən məqsədyönlü regional iqtisadi siyasətin güclü dayaqlarının yaranmasında etibarlı bazaya çevrildi. Uğurla icra olunan regional iqtisadi inkişaf üzrə Dövlət proqramları artıq dördüncü mərhələsində olmaqla, bütün sahələr kimi təhsil sahəsində də regional və milli mahiyyəti artmaqda davam edən nailiyyətlərin əldə olunmasını təmin etməkdədir. Təbii ki, bu sahədə gənc nəslin elmi potensialının artması, ali təhsil alması və ixtisaslaşması kimi məsələlər dövlətin sosial siyasətinin çox mühüm tərkib hissələrinə çevrildi. Bütün bunlar milli təhsilin inkişafı sahəsində etibarlılığı ilə seçilməklə təhsil şəbəkəsinin əhatəsinin genişlənməsini də təmin etməkdədir. Əldə olunan nəticələr isə imkan verir ki, mövcud sosial-iqtisadi inkişaf səviyyəsinə, davam etdirilən islahatların nəticələrinə, əmək bazarının tələblərinə, bu sahədəki münasibətlərin davamlılığına uyğun olaraq çoxistiqamətli ixtisaslaşma üzrə təhsil imkanları yaradılsın və daha mütərəqqi tədris proseslərinin dayaqları möhkəmləndirilmiş olsun. Çox sevindirici haldır ki, qeyd olunan amillər öz ifadəsini Naxçıvan Dövlət Universitetinin timsalında yeni-yeni uğurların əldə olunması ilə tapmaqdadır.

Qeyd etmək olar ki, hərtərəfli dövlət qayğısı ilə əhatə olunan universitetdə geridə qalan tədris ilində 6008 tələbə gələcəyin ixtisaslı kadrları olaraq təhsil almışdır. Bunun 5648-i əyani və qiyabi şöbələrində bakalavr üzrə, 360-ı isə magistratura üzrə təhsil almış və ya almaqdadır. Bununla yanaşı, ali təhsil ocağında elmi araşdırmalarla 190 tədqiqatçı məşğul olmaqdadır ki, bunun da 138-i doktorantura üzrə, 52-si isə rezidentura üzrə təhsil alır. Təbii ki, bəhs olunan göstəricilərlə universitet yeni tədris ilinə daha mütərəqqi layihələrin reallaşdırılması ilə hazırlaşmaqdadır.

Bu bir həqiqətdir ki, Naxçıvan Dövlət Universiteti son illərdə modern təhsil imkanlarını, elmi əsaslara söykənən daha məhsuldar və yaradıcı ideyaları, startap layihələrini, yeni dünya çağırışları ilə səsləşən, həmçinin, daha çox innovativ inkişafı və texnoloji üstünlükləri hədəfləyən ali məktəb olaraq, islahatları qətiyyətlə davam etdirməkdədir. Qeyd edək ki, 14 dekabr 2020-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan Sərəncamla Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması nəzərdə tutulmuşdur. Artıq 2 hektar ərazini əhatə etməklə, 16 iyun 2021-ci il tarixində təməlatma mərasimi keçirilən Texnologiyalar Parkının yaradılmasında əsas məqsəd elmlə istehsalat arasında qarşılıqlı əlaqənin qurulmasından, istehsalatın yeni elmi ideyalar əsasında inkişafından, elmi tədqiqatlara olan xərclərin səmərəliliyinin yüksəldilməsindən ibarətdir. Eyni zamanda, müxtəlif elm sahələri üzrə təcrübə-konstruktor, elmi-tədqiqat və startap layihələrinin mühüm elmi nəticələrinin sənaye və xidmət sahələrində tətbiqini həyata keçirən sosial, mədəni, mühəndis-kommunikasiya təminatı olan obyektlər kompleksindən ibarət mexanizmin yaradılması ilə Texnologiya Parkında universitetin daha mühüm uğurlarının reallaşması mümkün olacaq.

Sevindiricidir ki, bütün bunlar Naxçıvan Dövlət Universitetinin bütün ixtisaslar üzrə həm də bütün fakültələrini əhatə etməklə, bir-birini əvəz edən tədris illərinin planlarında nəzərdə tutulmaqla, reallaşacaqdır. Bunlarla yanaşı, təhsilin və tədrisin idarə olunması sahəsində keyfiyyət göstəricilərinin əldə olunması hələ 2020-ci ilin may ayında yeni fakültələrin, xüsusilə də, ingilis dilində iqtisadiyyat ixtisasının yaradılmasına zəmin yaratmışdır. Qeyd edək ki, artıq həmin ixtisasa qəbul keçirilmiş və bu sahə üzrə yüksək göstəricilər əldə olunmuşdur. Məhz bu potensialla universitet yeni tədris ilinə mühüm və strateji hesab olunacaq nailiyyətlərlə başlayacaqdır.

Naxçıvan Dövlət Universiteti qarşıdakı dövrlər üzrə yeni hədəflərini müəyyən etmişdir. Bunlara:

- təhsilin daha səmərəli keyfiyyət mərhələlərinin başladılması;
- tədris proseslərinin səmərəli təsisatlarının yaradılması;
- reallaşan islahatlara uyğun olaraq beynəlxalq əməkdaşlıqların qurulması;
- qarşılıqlı əməkdaşlığa əsaslanmaqla, ikili diplom layihələrinin həyata keçirilməsi;
- tələbə və müəllim mobilliyinin təşəkkülündə, həm də elmi araşdırma nəticələrinin ortaq yayınlanmasında mühüm nailiyyətlərin əldə olunması ilə ölkənin milli təhsil strategiyasının inkişafına hərəkətverici təsiri ilə seçiləcək nəticələrin əldə olunmasına imkanlar açacaqdır.

Bütün bu qeyd olunan məsələlər Naxçıvan Dövlət Universitetinin qarşıdakı dövrlər üzrə prioritetlərinə aid olunmaqla hər zaman aktual olmuşdur. Bu məqsədlə, Universitetin Rektoru cənab Elbrus İsayevin başçılıq etdiyi nümayəndə heyətinin 8-16 iyul 2021-ci il tarixlərində qardaş Türkiyə Cümhuriyyətinə səfəri zamanı Türkiyə Ali Təhsil Şurasında və Çankırı Karatekin, Ankara, Orta Doğu Texnik, Qazi, Hacı Bayram Vəli, İstanbul Texnik, Yıldız Texnik Universitetlərində əhəmiyyətli görüşləri baş tutmuşdur. Olduqca məhsuldar keçən səfər çərçivəsində qardaş ölkə ilə ümumi mənada məhz etibarlı tədrisin və elmi-tədqiqatların intensivliyi istiqamətində razılaşmalar əldə olunmuşdur.

Türkiyə Cümhuriyyətinin nüfuzlu ali məktəblərinə səfər zamanı bu ölkənin Ali Təhsil Şurasında (Yüksek Öğretim Kurulu-YÖK) keçirilən görüşlərin mühüm əhəmiyyətini qeyd etmək lazımdır. Burada Naxçıvan Dövlət Universitetinin 2013-cü ildən başlayaraq Mövlanə Mübadilə proqramına qoşulması və Türkiyə Respublikası ilə müəllim-tələbə mübadiləsinin səmərəli reallaşdırılmasından bəhs olunmuşdur. Çox sevindirici hal olaraq qeyd olunmuşdur ki, hazırda xarici tələbələrin sayında Türkiyədən olan tələbələr üstünlük təşkil edir. Eyni zamanda, ali təhsil ocağı əcnəbi tələbələrin sayına görə ölkə universitetləri sırasında öncüldür. Zəruri nəticə olaraq Türkiyə universitetləri ilə texnopark sahəsində əməkdaşlığın perspektivlərinə önəm verilərək, bu istiqamətdə təcrübə mübadiləsinin əhəmiyyətinə toxunulub. Təbii ki, bütün bunlar həm də innovativ və texnoloji inkişaf sahəsində Naxçıvan Dövlət Universitetinin üstünlüklərini bir daha ortaya qoymuş oldu.

Genişmiqyaslı razılaşmalar Çankırı Karatekin Universitetində keçirilən görüşdə qarşılıqlı perspektivə söykənən nəticələrlə yadda qalmışdır. Əlamətdar haldır ki, hazırda Naxçıvan Dövlət Universiteti ilə Türkiyənin öncül universitetləri arasında tələbə və müəllim mobilliyi sahəsində əməkdaşlıq müqavilələri uğurla icra olunur. Məhz Çankırı Karatekin universitetində bundan sonrakı mərhələlərdə daha mühüm layihələrin həyata keçirilməsi mümkün olacaq. Xüsusilə, ikili diplom layihələrinin bu sahədə böyük rolu olması ilə seçiləcək. Bu məqsədlə, hər iki ali təhsil ocağı arasında imzalanan protokol Türkiyə Ali Təhsil Şurası tərəfindən təsdiq olunduqdan sonra növbəti akademik ildən başlayaraq 5 il müddətində etibarlı olacaqdır.




Təbii ki, ikili diplom layihəsi çərçivəsində qarşıdakı dövrlər üçün:

- göndəriləcək tələbələrin sayının və ortaq proqram çərçivəsində təqaüd alacaq tələbə kontingentinin müəyyənləşdirilməsi;
- qeyd olunan amillər üzrə şərtlərin aydınlaşdırılması;
- qiymətləndirmə sisteminin uyğunlaşdırılması artıq təmin olunmuşdur. Təbii ki, birgə layihənin iştirakçısı olacaq tələbələrin həmin şərtlərə əməl etməsi nəticələrə daha da səmərlilik gətirəcək.

Daha aktual mahiyyət kəsb edən əməkdaşlıqlara önəm verməklə, bütövlükdə ölkəmizin etibarlı qonşuluq siyasətinə təkan olan Naxçıvan Dövlət Universiteti dünyanın 130-dan çox ölkəsi ilə beynəlxalq əməkdaşlığa malikdir. Eyni zamanda, təkcə Türkiyə Cümhuriyyətinin 80-dən çox universiteti ilə qarşılıqlı münasibətləri inkişaf etdirməkdədir. Həmin ardıcıllıqda Ankara Universiteti ilə yaranan əməkdaşlıqlar da önəmliliyi ilə seçilir. Belə ki, qaşılıqlı əməkdaşlıqda:

- akademik və elmi mövzulardakı fəaliyyətlərində bir-birinin imkan və təcrübələrindən faydalanmasından;
- elmi məqsədlər daxilində professor-müəllim mobilliyindən;
- dərs, müşavirə, tədqiqat və bu sahələr üzrə oxşar fəaliyyətlərindən;
- tədris və araşdırma məqsədilə hər növ kitabın, elmi nəşrlərin və bənzər materialların qarşılıqlı mübadiləsindən;
- birgə tədqiqat layihələrinin reallaşmasından və elmi yığıncaqların keçirilməsindən ibarət olan ortaq fəaliyyət öz yerini alacaqdır.




Yüksək potensialla inkişaf yollarında inamla addımlayan Naxçıvan Dövlət Universitetinin qarşıdakı dövrlər üzrə hədəfləri daha dəqiq və qətiyyətlə reallaşmaqdadır. Məhz Türkiyənin qabaqcıl universitetlərindən olan Orta Doğu TexnikiUniversiteti (ODTU) arasında əməkdaşlıq görüşlərinin keçirilməsi bu sahədəki prosesləri daha da sürətləndirəcəkdir. Həmin görüşdə də aktual məsələ olaraq, ikili diplom layihələrinin icrası ilə bağlı razılıq əldə olunub. Bununla yanaşı, görüş zamanı istifadəyə verildikdən sonra Naxçıvan Dövlət Universitetinin Texnoparkında rezident olaraq yerli və xarici şirkətlərin ofislərinin yerləşməsi sahəsində razılığa gəlinmiş, müvafiq sahədə qabaqcıl dünya təcrübəsinin öyrənildiyi və bu baxımdan ODTU Texnoparkının imkanlarından istifadə üçün əminlik ifadə olunmuşdur.

Yaradıcı ideyalar fonunda Naxçıvan Dövlət Universitetinin beynəlxalq əməkdaşlıqlar üzrə tədbirləri qətiyyətlidir, uğurludur. Bu mənada, Qazi Universitetində keçirilən görüş və orada da çoxşaxəli istiqamətlər üzrə əməkdaşlıqlar aktuallığı ilə seçilir. Universitetlər bundan sonrakı mərhələdə qarşılıqlı işbirliklərində müxtəlif profilli ixtisaslar üzrə doktorant və dissertant mobilliyindən, fransız və ingilis dili ixtisasları üzrə təcrübə mübadiləsinin mümkünlüyündən ibarət olan ortaq fəaliyyət üzrə razılıq əldə ediblər. Eyni zamanda, universitetlər arasında daha da inkişaf edəcək münasibətlər “ortaq tədris və ixtisaslaşma”, “birgə araşdırma”, “ortaq ideyalar və layihələr”, “təhsildə və elmdə işbirliyi”, “birgə nəticələr” və digər anlayışların geniş əhatədə təşəkkülünə zəmin yaratmış olacaq.

Eyni zamanda, yeni inkişaf mərhələsində texnoparklar üzrə işbirliyinin, fakültələrarası birgə təşəbbüslərin, hətta kafedralar və müəllimlərarası əməkdaşlıqların da mövcudluğunu görə bilərik deyə düşünmək olar. Eyni zamanda, uğurla davam edən milli iqtisadi və sosial islahatların gedişində universitetimizdə fəaliyyət göstərəcək texnoparkın inkişafı sənayeləşmə siyasətinin daha perspektivli olmasında mühüm amilə çevriləcək.

Həmçinin, dünya ilə öz dilində danışmağı bacaran gənc nəslin yetişməsi, formalaşması və ölkəmizin bu sahələr üzrə tədbirlərinə töhfə verməsi sözü gedən əməkdaşlıqların sevindirici bəhrəsi olacaq. Universitetimizdə xarici dillərin tədrisi, ikili diplom layihələrində bu amilin nəzərə alınması, tibb, mühəndislik, incəsənət, texnologiya, kitabxanaçılıq və digər ixtisasları, həmçinin sahələrində də qardaş Türkiyə universitetlərinin təcrübələrinin öyrənilməsi özünün zəruriliyi ilə seçilir ki, bu da Naxçıvan Dövlət Universitetinin hazırkı uğurları arasında yer alacaqdır.

Etibarlı qarşılıqlı əməkdaşlıq haqqında baş tutan razılaşmalar Naxçıvan Dövlət Universitetinin çoxistiqamətli hədəflərini ifadə etməklə, Türkiyənin Hacı Bayram Vəli Universitetində də gerçəkləşib. Tədris sahəsi, elmi dövriyyə və yaradıcılıq imkanlarının genişləndirilməsi kimi istiqamətlərdə əldə olunan razılaşmalar qarşıdakı dövrlər üzrə hər iki ali məktəb üçün olduqca səmərəli olacaq.

Fikrimizcə, Naxçıvan Dövlət Universiteti ilə istinad olunan ali məktəb arasındakı əməkdaşlıqlar bir çox məsələlər üzrə aktual olacaq:

- sosial dayanıqlılığın daha da gücləndirilməsi sahəsində ortaq etibarlı təhsil imkanlarının yaradılması və genişləndirilməsi;
- gələcəyin ixtisaslı kadrlarının və mütəxəssislərinin hazırlanması məqsədilə ikili diplom üzrə birgə təhsil layihələrinin reallaşdırılması;
- uzaqdan təhsilin və öyrətmənin, ən çevik üsullarının təminatı sahəsində ortaq ideyaların ortaya qoyulması;
- ölkənin milli iqtisadi perspektivlərinin nəzərə alınması fonunda prioritet sahələr üzrə ixtisasların təşəkkülü və bu sahədə kadr hazırlığının birgə təşkilatçılığa əsaslanması;
- yeni innovativ inkişafa dayanan proseslər əsasında rəqəmsal təhsildə keyfiyyətin təmini və idarə olunması üçün elektron-öyrənmə sisteminin gücləndirilməsi sahəsində əməkdaşlıq və s.

Qarşıdakı mərhələlərdə də ali məktəblər arasında perspektivli nəticələrə dayanan elm və tədris proseslərinin təşkilindən ibarət olan, “iki elmi rəhbərli” ixtisaslara qəbul planı aparılmasını nəzərdə tutan və həmçinin milli iqtisadi prioritetlər üzrə aktual olan sahələrə kadr hazırlığını hədəfləyən nəticələr əldə olunacaq.

Təbii ki, bütün bunlar ölkəmizin uzunmüddətli iqtisadi hədəfləri müstəvisində də olduqca faydalı olacaq. Belə ki, yeni keyfiyyət mərhələsində davam etdirilən iqtisadi islahatlar ənənəvi sahələrlə yanaşı, prioritet olaraq seçilən sahələrin də, xüsusilə də, turizm sektorunun perspektivlərinin yaradılması aktuallığını artırmaqdadır. Məhz turizm sənayesinin elmi əsaslarının təşəkkülündə və dayanıqlığının təmin olunmasında universitetlər arasındakı əməkdaşlığın gücləndirilməsi və inkişafı çox səmərəli olacaq. Çünki, bu, yeni mərhələdə universitetimizin turizm ixtisası üzrə təhsil alan tələbələrinin axtarış və mənimsəmə imkanlarını, eyni zamanda, tədris aparan müəllimlərin təcrübə və peşəkarlığını daha da artırmış olacaq.

Əminliklə qeyd edə bilərik ki, tədrisin etibarlılığı və elmi araşdırmaların daha əhatəli olmasında qabaqcıl ali təhsil ocaqlarından biri olan İstanbul Texniki Universitetinə olunan səfərin də çox mühüm əhəmiyyəti olacaq. Peşəkarlığın qorunması, elmi-təcrübi və daha çox tətbiqi fənnlər üzrə keyfiyyət göstəricilərinin artan dinamikasının təşəkkülü ali məktəbimizin qarşıdakı dövrlər üzrə perspektivlərinə aid olacaqdır. Eyni zamanda, əldə olunan razılaşmalar universitetimizin İncəsənət fakültəsində təhsil alan tələbələr üçün də səmərəliliyi ilə seçiləcəkdir. Belə ki, bu istiqamətdə mobilliyin təşkili və idarə olunması sahəsində proqramların icrası, həmçinin ikili diplom layihələrinin həyata keçirilməsi yaxın gələcək üzrə hədəflərimizi təşkil edəcəkdir.

Sevindirici hal ondan ibarətdir ki, əməkdaşlıqlar bütün ixtisaslar üzrə tələbələrə seçim imkanlarını daha da genişləndirəcək, onların ixtisaslı kadr, gerçək mütəxəssis olaraq formalaşmasına təkan olacaqdır. Bu sahədə universitetimizin “Elektrik və elektronika mühəndisliyi” ixtisası üzrə birgə tədrisin təşkili və eyni zamanda doktorantura və magistratura təhsil pilləsi, həmçinin texniki və mühəndislik sahələri üzrə ikili diplom proqramının həyata keçirilməsini qeyd etməyimiz yerinə düşər.

Xüsusilə, ikili diplom layihəsi özünün Ali təhsil sahəsindəki üstünlükləri ilə yanaşı, həm də iki qardaş dövlətin birgə təhsilini, birgə tələbəsini, birgə kadrını ifadə etməklə, eyni zamanda, bir tələbənin öz ixtisaslaşmasında güvəndiyi iki qardaş dövlətin gücünü bir daha göstərmiş olacaq. Bununla da, təbii ki, hər birimiz üçün qürurverici kəlam olan Bir Millət İki Dövlət anlayışını iftixarla zirvələrdə yaşadacaqdır. Burada həmçinin bizim universitetimiz üçün əhəmiyyəli təcrübə olacaq Texnopark sahəsində uğurlu fəaliyyətin müxtəlif tərəfləri müzakirə olunmuş və xüsusilə, İTU ARI Texnoparkı ilə birgə fəaliyyət üzrə razılığa gəlinmişdir. Qeyd edək ki, həmin Texnopark analoqları arasında daha çox dövlət büdcəsinə ən çox gəlir gətirməyi ilə seçilir. Həmçinin qardaş ölkədə mühəndislik istiqaməti üzrə kadr hazırlığı işində mühüm əhəmiyyəti olmaqla liderliyi özündə saxlayır.

Bütün bunlarla təhsil sahəsində innovativ inkişafı və çevik mexanizmləri ilə davamlı uğurlar əldə edən Naxçıvan Dövlət Universitetinin dövlətimizin hərtərəfli qayğısı və diqqəti ilə əldə etdiyi uğurlar sevindiricidir. Xüsusilə, qardaş Türkiyə Cümhuriyyətinin Yıldız Texniki Universiteti (YTU) ilə qarşılıqlı əməkdaşlıqlar üzrə əldə olunan razılaşmalar qarşıdakı uzunmüddətli dövrlər üzrə çox böyük potensial olacaq. Elmi araşdırma sahəsində təcrübənin əhatəliliyi ilə seçilən və bir əsrdən çox yaşı olan universitet olaraq, 330 elmi araşdırma şirkəti, 111 inkubator və 8000 şirkət, həmçinin 1500-dən çox ixtisaslı araşdırmaçı və proqramçı ilə fəaliyyət göstərən YTU-də keçirilən görüş zamanı da mühüm ortaq razılaşmalar əldə olunmuşdur. Xüsusilə, universitetlər arasında elmi tədqiqat sahəsində birgə araşdırmaların, onun nəticələrinin birgə yeni məqalə və elektron dərgilər şəklində nəşrinin əhəmiyyətindən bəhs olunmuşdur.

Beləliklə, Naxçıvan Dövlət Universiteti yeni 2021-2022 -ci tədris ilinə daha böyük uğurlarla başlayacaq. Burada həm də tələbələrlə müəllimlərin qarşılıqlı tədris münasibətlərinin inkişafına və daha böyük keyfiyyət göstəricilərinə təminat olacaq. Bütün mənalarda bunlar milli təhsil strategiyasının səmərəliliyinin ifadəsi olmaqla, çox aktualdır.

**Cavadxan Qasımov**
***“Dünya və menecment iqtisadiyyatı” kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent***

# UĞURLU DİPLOMATİYA, BÖYÜK QƏLƏBƏYƏ APARAN YOL

Qədim dövlətçilik ənənələri, zəngin mədəni irsi, dünya tarixində tanınmış dövlət xadimləri olan Azərbaycan dövləti mövcudluğunun bütün dövlərində müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizə aparmışdır. Tarixin keçməkeşli zamanlarında çətinliklərlə, parçalanmalarla üz-üzə qalsa da Azərbaycan xalqı yenidən birlik nümayiş etdirməklə, əsası dərin köklər üzərində olan dövlətçiliyini bərpa etmişdir. XX yüzilliyin 90-cı illərində müstəqilliyinə yenidən qovuşan Azərbaycan bu dəfə də çətinlikləl追 üzləşmiş, suveren hüquqlarımız tapdalanmış, torpaqlarımız erməni işğalına məruz qalmışdır. 30 illik zaman kəsimində yurd yerlərimiz düşmən tapdağına çevrilmiş, mədəni irsimiz viran qoyulmuş, bir milyon soydaşımız yurd-yuvasından didərgin düşümüşdür. İstər müharibə meydanında, istərsə də diplomatiyada Azərbaycan Ermənistanın havadarları tərəfindən məğlub duruma salınmışdır.

2003-cü ildən Azərbaycan Respublikasına rəhbərlik edən İlham Əliyev Qarabağ məsələsinin həlli ilə bağlı mühüm işlər görmüşdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fəaliyyətinin bütün dövründə istər daxili, istərsə də xarici siyasətini ərazilərimizin işğaldan azad edilməsi yönündə qurmuşdur. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fəaliyyət göstərən ATƏT-in Minsk qrupunun məsələyə obyektiv qiymət verməməsi, münaqişə tərəflərinə eyni siyasi yanaşma nümayiş etdirməməsi bölgədəki siyasi vəziyyətin sabitləşməsinə bir növ mane olurdu. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin münaqişənin həllində əsas rolu olmalı olan həmsədr dövlətlərin məsələ ilə bağlı konkret iş görmələrinə qarşı yönəlmiş siyasəti zaman-zaman bu dövlətləri məcbur edirdi ki, Azərbaycanın haqlı səsini dəstəkləsinlər. 2010-cu ilin oktyabrında Azərbaycan tərəfinin qəti təkidi ilə işğal olunmuş ərazilərə ATƏT-in Minsk qrupunun həmsədrlərinin rəhbərliyi altında beynəlxalq dəyərləndirmə missiyasının səfəri təşkil edilmişdi. Missiya üzvləri Azərbaycanın işğal olunmuş ərazilərində ermənilər tərəfindən məskunlaşdırma siyasətinin davam etdirildiyini, infrastruktur, yer adlarında dəyişikliklərin, həmçinin iqtisadi fəaliyyətin həyata keçirildiyini təsdiq etmişdilər. İşğal olunmuş ərazilərdəki mövcud vəziyyətin davam etməsinin qəbul olunmazlığını və oradakı qanunsuz fəaliyyətə son qoyulmalı olduğunu bildirmişdilər.

İlham Əliyevin xarici siyasətdə uğur qazanmaq üçün daxildə apardığı uğurlu sosial-iqtisadi siyasət, hökumət-xalq birliyinin gücləndirilməsi Qarabağ məsələsində Ermənistanın mövqeyinin zəifləməsinə, Azərbaycanın haqq səsinə beynəlxalq kürsülərdə daha çox səs verilməsinə gətirib çıxarmışdır. Prezident İlham Əliyevin Azərbaycan iqtisadiyyatının dirçəldilməsi, Azərbaycanın dünyanın inkişaf etmiş dövlətləri səviyyəsinə qaldırılması yolundakı fəaliyyəti Azərbaycan dövlətinin xarici siyasətdəki mövqeyini də gücləndirirdi. XXI yüzillikdə Azərbaycanın bir sıra beynəlxalq səviyyəli görüşlərə, idman yarışlarına ev sahibliyi etməsi, bu kimi əhəmiyyətli məsələlərdə öndə getməsi təbii ki, Qarabağ məsələsinə də təsirsiz ötüşməmişdi. Artıq böyük dövlətlər istər BMT, istər ATƏT, istərsə də digər beynəlxalq təşkilatlarda Azərbaycan Prezidentinin siyasəti ilə hesablaşmağa məcbur olmuşdular.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyətinin nəticəsi idi ki, Avropa Şurası Parlament Assambleyasının 2004-2016-cı illər ərzində keçirilən çoxsaylı plenar sessiyalarında və ayrı-ayrı tədbirlərində Azərbaycan nümayəndə heyəti tərəfindən hazırlanmış və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bu və ya digər aspektini əks etdirən onlarla mühüm sənəd yayılmışdır. 2005-ci il yanvarın 25-də AŞPA-nın sessiyasında qəbul edilmiş 1417 nömrəli Qətnamədə BMT TŞ-nin Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dörd qətnaməsinin yerinə yetirilməsi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması tələbi öz əksini tapmışdır. Azərbaycan nümayəndə heyətinin ardıcıl fəaliyyəti nəticəsində 2016-cı il yanvarın 26-da AŞPA-da "Azərbaycanın cəbhəyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi" adlı yeni Qətnamə qəbul olunmuşdur. İşğal altında qalan Sərsəng su anbarı ilə bağlı bu sənəddə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı faktı bir daha təsdiqlənmiş və erməni qoşunlarının çıxarılması tələb edilmişdir.



2016-cı ildə sanki dövlətimizin hərbi gücünü sınamaq istəyi ilə Azərbaycan torpaqlarına hərbi təcavüz edərək yenidən torpaqlar ələ keçirməyə çalışan Ermənistan qarşısında güclü bir dövlətin olduğunu hiss etsə də çirkin xislətindən əl çəkmədi. 2016-cı il aprelin əvvəllərindən başlayıb, bir neçə gün davam edən və tariximizə şanlı Aprel döyüşləri kimi daxil olan hərbi əməliyyatlar Azərbaycan ordusunun bütün Qarabağı qısa müddətdə mənfur düşməndən azad etmək gücündə olduğunu aydın şəkildə göstərdi. Ermənistan hərbi birləşmələri dörd günlük müharibədə nəinki yeni ərazilər əldə etmək niyyətini reallaşdırdı, əksinə işğal etdiyi ərazilərin bir qismindən də qovuldular.

2020-ci ilin iyul ayının 12-də Ermənistan Respublikasının hərbi qüvvələri Azərbaycan Respublikasının Tovuz rayonu istiqamətində dövlət sərhədində hərbi təxribat törətdilər. Qısa müddət ərzində bölgədəki hərbi qüvvələr bu təcavüzün qarşısının alınmasına səfərbər olundu. Azərbaycan ordusunun cəsur komandir və əsgər heyəti həm canlı qüvvə ilə, həm də pilotsuz uçan aparatlar (PUA) vasitəsilə istər sərhəd boyu, istərsə də Ermənistanın dərinliklərində olan hərbi obyektləri darmadağın etməklə, təcavüzkarı ağır itkilərə məruz qoydu.

2020-ci ilin sentayabr ayının 27-də Ermənistan silahlı qüvvələri yenidən öz təcavüzkar siyasətini həyata keçirməklə, Azərbaycan torpaqlarına hücum etdi. Lakin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan ordusu əks hücum əmilyyatlarına başlayaraq, 44 gün ərzində düşmən ordusunu işğal edilmiş torpaqlarımızdan qovub çaxarmağa nail oldu. Azərbaycan tərəfinin tələblərinə məhəl qoymaq istəməyən Ermənistan müharibəni davam etdirməklə yeni ərazilər ələ keçirməkdən əl çəkmirdi. Buna qarşılıq olaraq Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında sıx birləşərək düşmənə layiqli cavabını verməklə, BMT Təhlükəsizlik Şurasının qəbul edib, amma yerinə yetirmədiyi qətnamələrin icrasının həllinə nail oldu.

Azərbaycan dövləti ilə baş edə bilməyəcəyini görən Ermənistan rəhbərliyi döyüşlərin dayandırılmasından başqa çıxış yolunun olmamasını görüb təcili danışıqlar masasına oturmağa məcbur oldu. Nəticədə Dağlıq Qarabağın və digər ətraf rayonların işğaldan azad edilməmiş hissələrinin də Azərbaycana qaytarılmasına dair Azərbaycan, Ermənistan və Rusiya dövlət başçılarının 10 noyabrda imzaladığı birgə bəyannamə ilə döyüşlər dayandırıldı və Ermənistan hərbi birləşmələrinin Azərbaycan torpaqlarından çıxarılması üçün müəyyən tarixlərə qədər möhlət verildi. Ölkə başçısının apardığı məqsədyönlü siyasət nəticəsində Ağdam, Kəlbəcər, Laçın rayonlarının işğal edilmiş əraziləri qan tökülmədən Azərbaycana geri qaytarıldı.

44 günlük Vətən müharibəsinin gedişi zamanı və sonrakı dövrdə dünyanın əsas aparıcı kütləvi informasiya vasitələrinin əməkdaşları Qarabağ və ətraf bölgələrdə baş verən prosesləri işıqlandırmaq, Azərbaycan dövlətinin məsələ ilə bağlı mövqeyini araşdırmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən müsahibələr almış, Azərbaycanın müharibədəki iştirakı ilə bağlı fikirlərini dünya ictimaiyyətinə çatdırmışlar. Azərbaycanın əleyhinə fəaliyyət göstərən ermənipərəst KİV təmsilçiləri hazırladıqları reportajlarda ölkəmizin haqlı mövqeyinə pərdə salmağa cəhd etmiş, hətta ölkə başçısına qərəzli suallar verməklə ictimaiyyəti çaşdırmağa çalışmışdırlar. Prezident İlham Əliyev xarici jurnalistlərə verdiyi müsahibələrdə hamının diqqətini çəkəcək səbr nümayiş etdirməklə Azərbaycanın haqlı mövqeyini onların diqqətinə çatdırmış, bəzi erməni yönümlü jurnalistlərin qərəzli suallarına tutarlı cavablar verərək məqsədlərinə nail olmalarına imkan verməmişdir. Azərbaycan Prezidenti "Sky News" "CNN International", RBK , Franse 24, ABŞ-ın "Fox News" televiziya kanalının, "Fiqaro" qəzetinin jurnalistlərinin qeyri obyektiv, əsassız suallarına lazımi cavablar verməklə onların əsil niyyətlərini alt-üst etmişdir. Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmaqla qardaş ölkə Türkiyə KİV-ləri – "TRT Haber", "Haber Qlobal", "Haber Türk", "CNN Türk", "NTV", "A Haber" və digərləri mühüm fədakarlıq edərək erməni təbliğatının darmadağın edilməsində müstəsna rol oynamışdır.

1988-ci ildən başlayaraq Azərbaycana ərazi iddialarında olan, sonrakı illərdə öz çirkin niyyətlərini həyata keçirməyə başlayan Ermənistan Respublikası Dağlıq Qarabağ və ətraf yeddi rayonu işğal edərək hədsiz dağıntılar, insan tələfatı, Xocalı soyqırımı ilə nəticələnən vandalizm aktını həyata keçirsədə, Azərbaycan dövləti öz haqlı mövqeyini qoruyub saxlamaqla işğala son qoymağa nail oldu. Azərbaycan ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazilərimizin işğaldan azad edilməsini reallaşdırdı. Bu prosesdə Azərbaycan diplomatiyası, xüsusilə də Prezident İlham Əliyev uğurlu siyasət yürüdərək həm masada, həm də sahədə qalibiyyətimizi təmin etdi.

**Qadir Əkbərov**
***"Azərbaycan tarixi" kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru***

# TÜRKİYƏ-AZƏRBAYCAN SİYASİ ƏLAQƏLƏRİNDƏ NAXÇIVAN

Azərbaycan Respublikasının xarici siyasət kursunda Türkiyənin önəmli yeri vardır. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr bu əlaqələri şərtləndirən amillər sırasında yer alır. Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr, bəlkə də dünyada başqa iki ölkə arasında olmayacaq şəkildə ticarət əlaqələrindən daha çox qardaşlıq əlaqələri şəklindədir. Eyni dilin danışıldığı iki ölkə olan və "bir millət iki dövlət" Azərbaycan-Türkiyə əlaqələri getdikcə daha da dərinləşir, inkişaf edir.

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa etdikdən sonra həmin il noyabrın 9-da Türkiyə ölkəmizi ilk tanıyan dövlət olmuş və 1992-ci il yanvarın 14-də Azərbaycan-Türkiyə diplomatik əlaqələri yaradılmışdır. Həmin vaxtdan Türkiyənin Azərbaycanda səfirliyi və Naxçıvanda Baş Konsulluğu açılmış, 1992-ci ilin avqust ayından Azərbaycanın Türkiyədə səfirliyi, 1993-cü ilin yanvar ayından İstanbulda, 2004-cü ilin aprelin 12-dən isə Qarsda Baş Konsulluqları fəaliyyət göstərir.

"Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", - deyən Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürk ötən əsrin 20-ci illərində öz ölkəsi üçün yaranmış şəraitdən istifadə edərək 11 kilometrlik sahəni Azərbaycana çıxış əldə etmək üçün İrandan satın almaqla eyni kökə sahib olan iki xalqı bir-birindən ayrı düşməyə qoymamışdır.

29 oktyabr 1991-ci ildə Naxçıvanın Sədərək rayonunda Araz çayı üzərində Naxçıvan ilə Türkiyəni birbirinə bağlayan müvəqqəti körpünün istifadəyə verilməsi Naxçıvanın Türkiyə ilə əlaqələrinə önəm qazandırmışdır. Müvəqqəti körpünün açılması ilə Türkiyənin Naxçıvana yardımları artmağa başladı. 9 noyabr 1991-ci ildə Türkiyə Qızılayı Naxçıvana 126 ton buğda yardım etmiş, 29 noyabrda isə İgdir əhalisi və valiliyinin yardımlarından ibarət 19 kamyon Naxçıvana yardım gətirmişdi.

1991-ci il oktyabr ayının 29-da Azərbaycanla Türkiyə arasında, Sədərək rayonu ərazisində Araz çayı üzərində salınmış müvəqqəti körpünün açılışında möhtərəm Heydər Əliyev, Türkiyə hökumət dairələrinin nümayəndələri, Bakıdan gəlmiş Azərbaycanın elm və mədəniyyət xadimləri çıxış etdilər. Bu mühüm əhəmiyyətli hadisədən sonra Naxçıvan-Türkiyə əlaqələri yeni mərhələyə qədəm qoydu. Qardaş ölkə möhtərəm Heydər Əliyevin ciddi cəhdləri və siyasi səyləri nəticəsində faciədən və məşəqqətdən xilas olmağa çalışan muxtar respublikaya maddi və mənəvi dəstəyini, dostluq və qardaşlıq missiyasını XX əsrin əvvəllərində olduğu kimi həmin əsrin sonlarında da şərəflə yerinə yetirməyə başladı.



Naxçıvanın Türkiyə ilə əlaqələrinin inkişafında və bölgənin iqtisadi və hərbi müdafiəsində önəmli rol oynayacaq müvəqqəti deyil, daimi yolun çəkilməsinin əhəmiyyətini başa düşən Heydər Əliyev daima bu məsələni diqqətdə saxlamışdır. Bu məqsədlə Türkiyə Ulaşdırma Bakanlığının Aytəkin Akagün başçılığı ilə nümayəndə heyətini Naxçıvana dəvət etmişdir. 15 noyabr 1991-ci il tarixdə keçirilən görüşdə Araz çayı üzərində körpünün tikintisi və bu körpüdən keçişin asanlaşdırılması barədə danışırlar aparıldı. Görüşdə körpünün 1992-ci ilin yanvar ayında tamamlanması qərara alınmış, həmçinin dəmiryolu xəttinin tikintisi ilə əlaqədar çalışmaların sürətləndirilməsi mövzusunda razılığa gəlinmişdir.

Bu həyati tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Türkiyə Respublikası hökumətinin dəvəti ilə 1992-ci ilin mart ayının 22-dən 25-ə qədər qardaş ölkədə rəsmi səfərdə oldu. Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Ankarada Türkiyə Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsini nəzərdə tutan birgə əməkdaşlıq protokolu imzaladılar. Protokola görə, Naxçıvanın müxtəlif sahələrdə ehtiyacını ödəmək məqsədi ilə Naxçıvana 100 milyon dollar həcmində kredit ayırması nəzərdə tutulmuşdur. Naxçıvan ilə Türkiyə əlaqələrini inkişaf etdirən amillərdən biri də Türkiyədən Naxçıvana veriləcək elektrik enerjisi xəttinin tamamlanması idi.

Heydər Əliyev ilə görüşdə Baş nazir Süleyman Dəmirəl Naxçıvanın iqtisadi çətinliklərinin aradan qaldırılması, ehtiyaclarının təmin edilməsi üçün lazım olan bütün köməkliklərin göstəriləcəyi barədə söz verir. Heydər Əliyev Türkiyə ilə Naxçıvan arasında imzalanan bu müqavilənin siyasi, iqtisadi və mənəvi əhəmiyyətinə işarə edərək, bu müqavilənin Qars və Moskva müqavilələri kimi tatixə düşəcəyini, gələcək nəsillərin , bütün Türk dünyasının bu müqaviləni imzalayanlara təşəkkür edəcəklərini qeyd etmişdir.

1992-ci il may ayının 28-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl 60 millət vəkili və 40-dan çox nüfuzlu kütləvi informasiya vasitələri nümayəndələri ilə birgə Araz çayı üzərində uzunluğu 288 metr, eni 12 metr, ümumi smeta dəyəri 5 milyon manat olan yeni körpünün - "Ümid körpüsu"nün açılışını etmək üçün Naxçıvana gəldi. S.Dəmirəl Naxçıvan Hava Limanında bütün dünyanın diqqətini Türkiyə-Azərbaycan birliyinin sarsılmazlığına yönəldərək dedi: "Azərbaycan özünün ədalətli mübarizəsində tək deyil. Biz dünyanın Azərbaycan haqqında həqiqətləri bilməsi üçün özümüzdən asılı olan hər şeyi edirik və edəcəyik. Sizi əmin etmək istəyirəm ki, Türkiyə həmişə Azərbaycanla olmuşdur və olacaq".

Ulu öndər Heydər Əliyev "Ümid körpüsü"nün Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında iqtisadi, mədəni, insani əlaqələrin genişlənməsinə və inkişaf etməsinə, qardaş xalqların bir birinə yaxınlaşmasına xidmət etdiyini nəzərə alaraq 9 iyun 1992-ci il tarixli qərarla Sədərək-Dilucu körpüsünü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan etdi. İkitərəfli münasibətlərin, ticarət əlaqələrinin möhkəmlənməsi, qarşılıqlı inam və etibar mühitinin formalaşması nəticəsində türk iş adamlarının bölgəyə marağı artdı, bir çox sahələrin inkişafı üçün sərmayələr qoyuldu. Uzun illərdən bəri fəaliyyəti dayanmış tikinti təşkilatları, sənayə müəssisələri işə düşdü, yeni şirkətlər, istehsal və emal müəssisələri yarandı. Körpünün açılmasından sonra ikitərəfli əlaqələr genişlənməyə başladı.

Təhsil sahəsində ikitərəfli əlaqələr də inkişaf etmişdir. Heydər Əliyevin Türkiyəyə etdiyi səfər zamanı (1992 mart) bağlanmış protokolun 2-ci maddəsinə əsasən hər il 100 tələbənin təhsil almaq üçün Türkiyəyə göndərilməsi nəzərdə tutulmuşdu. 1992-ci ilin 21 sentyabrında (eylül) Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Türkiyənin Çağ Ögretim Anonim Şirketi arasında əməkdaşlıq müqaviləsi imzalandı. Müqaviləyə görə Şirkət Azərbaycanın bir çox şəhərlərində müasir məktəblər açmağı öhdəsinə götürürdü.. Belə məktəblərdən biri də 1993-cü ildə Naxçıvanda açıldı. Bu dövrdə Naxçıvanın elm və təhsil baxımından əsas təhsil müəssisəsi olan Naxçıvan Dövlət Universiteti elm və təhsil sahəsində əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynamışdır.

1992-ci ildə Anadolu Folklor Vakfının dəvəti ilə Naxçıvanın folklor qrupları Türkiyədə səfərdə olmuşlar. 1993-cü ilin aprel ayında Naxçıvan Dövlət Filarmoniyası ilə Dram Teatrın əməkdaşları Qarsda teatr tamaşası göstərmişdilər.

Heydər Əliyevin Ali Məclisin Sədri işlədiyi dövrdə Türkiyənin Naxçıvanda bir məscid inşa etməsi barədə razılıq əldə olunmuşdur. Türkiyə Diyanet Vakfı tərəfindən inşa edilən məscidin açılışı Naxçıvan Muxtariyyətinin yaranmasının 75-ci ildönümü tədbirləri zamanı olmuşdur. Məscidə 1918-ci ildə Naxçıvanın erməni zülmündən xilas edilməsində böyük xidmətləri olan Mustafa kamal Paşanın silahdaşı Kazım Qarabəkir Paşanın adı verilmişdir. Açılışda Heydər Əliyev, Türkiyə Diyanet İşləri Müdiri Yaşar Nuri, Kazım Qarabəkir Paşanın qızı Timzal Qarabəkir də iştirak etmişdilər.

Sonrakı mərhələdə dövlətimizin yüksək diqqət və qayğısı ilə muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bu diyarın xaricdən asılılığı azaldıldı. Naxçıvan özü-özünü təmin etməyə və yaşatmağa qadir olan bir regiona çevrildi. Bu körpü bizim üçün Avropaya, Türkiyə üçün Şərqə yeni üfüqlər açdı.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına, dinamik şəkildə, eləcə də çox uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev qardaş Türkiyə dövləti ilə münasibətləri yüksələn xətt üzrə inkişaf etdirərək starteji müttəfiqlik səviyyəsinə qalxmasında əhəmiyyətli rol oynadı.

**Abdulla Mustafayev**
***"Ümumi tarix" kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru***

# TƏLƏBƏLƏRİNİ "GÖZÜNÜN İŞIĞI" ADLANDIRAN MÜƏLLİM-İSMAYIL ZEYNALOV

Əsrlər boyu müəllim cəmiyyətdə sayılıb-seçilən insanlardan olub. Bu gün də müəllimlər cəmiyyətdə özlərinə layiq yer alıblar. Onlar öz vəzifələrinin məsuliyyətini, çətinliyini, müqəddəsliyini dərk edir və gələcək nəslin cavabdehliyini çiyinləri üzərində daşımağa imza ataraq bu yolda heç bir çətinlikdən qorxmayan, zəhməti, fədakarlığı hesabına özünə inanan insanlardır. Ümummilli liderin sözləri ilə desək, "Mən müəllim adından yüksək bir ad tanımıram. Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır. Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətəndaşlar hazırlayır".

Bugünkü müsahibimiz də əsl şərəfli müəllim ömrü yaşayan, dərs dediyi tələbələrin bilikli, savadlı olması üçün əlindən gələni əsirgəməyən Naxçıvan Dövlət Universitetinin dəyərli ziyalılarından olan İsmayıl Zeynalovdur.

***-İsmayıl müəllim, sizi oxucularımıza yaxından tanıdaq.***

-Mən 1941-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Sirab kəndində anadan olmuşam. 1964-cü ildə Mordoviya Dövlət Universitetinə daxil olmuşam, 1968-ci ildə həmin universitetin Tarix-filologiya fakültəsinin əyani şöbəsinin "Tarix" ixtisası üzrə tam kursunu bitirmişəm. 1976-cı ildə Azərbaycan SSR EA-nın Tarix İnstitutunun "Etnoqrafiya" ixtisası üzrə istehsalatdan ayrılmamaqla aspirantura şöbəsində qiyabi təhsil almışam.1984-cü ildə Tbilisi şəhərində Djavaxişvili adına Arxeologiya və Etnoqrafiya İnstitutunda tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün "Naxçıvan Muxtar Respublikası əhalisinin müasir mənəvi mədəniyyəti" mövzusunda dissertasiya müdafiə etmişəm. Əmək fəaliyyətimə 1959-cu ildə kolxozdan başlamışam. 1968-1969-cu illərdə "Tarix" fənnindən müəllim işləməklə Babək rayonunun Sirab kəndində pedaqoji fəaliyyətə başlamışam. 1969-1970-ci tədris ilindən etibarən Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialında, 1990-cı ildən Naxçıvan Dövlət Universitetində müəllim kimi fəaliyyətə başlamışam. 1969-cu ildən Naxçıvan Dövlət Universitetinin "Ümumi tarix" kafedrasında müəllim işləyirəm və 1986-cı ildən isə kafedranın dosenti vəzifəsində çalışıram. 70-ə yaxın elmi məqalənin və 3 kitabın müəllifiyəm. Ümumittifaq və respublika konfranslarında dəfələrlə iştirak etmişəm.

***Dərs dediyi şagirdləri, tələbələri "gözünün işığı" adlandıran, məhz müəllimlik peşəsini özünə həyat amalı seçən, bütün vəzifələrdən üstün hesab edən və sənətinin vurğunu olan İsmayıl müəllimə müəllim olmasaydınız hansı peşəni seçərdiniz?- deyə sual verdikdə cavabı belə oldu:***

-Hər kəs bir amal ilə doğulur, dünyaya göz açır. İsmayıl Zeynalovun həyat amalı ədalət, vicdan və şərəfli ad olub həmişə. İllər ərzində çalışmışam ki, hər kəsə xoş münasibət göstərim, dərs dediyim tələbələrə təhsil verməklə bərabər onların sevincinə, dərdinə də şərik olum. Bu illər ərzində inanıram ki, arzuladıqlarıma nail olmuşam. Bu gün şagird və tələbələrimi yüksək vəzifədə, xüsusi mənsəb sahibi görəndə çox qürurlanıram, onların xoş sorağını eşidəndə sevinirəm. Dərs dediyim tələbələrin əksəriyyəti yüksək nüfuz və peşə sahibi olublar. Bir müəllimin cəmiyyətə verdiyi ən qiymətli və dəyərli mükafatı, əlbəttə ki, yaxşı tələbələri ola bilər. Müəllim-pedaqoq, unudulmaz musiqiçi Üzeyir Hacıbəyli müəllimi "millət xeyri üçün iş görən şəxs" kimi dəyərləndirir. "Hər adam bu işin öhdəsindən gələ bilməz və hər adama müəllim deyib uşaqları ona tapşırmaq böyük xətadır", "Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub evini yıxar" deyirdi. Dahi bəstəkar müəllimlik sənətini özü üçün əzablı iş hesab edənlərə məsləhət görürdü ki, bu peşədən uzaqlaşsınlar və gənc nəslin tərbiyəsi üçün cavabdehlikdən kənar olsunlar. Bu sənətə o qədər vurğunam ki, heç bir sənət sahəsində özümü bu qədər xoşbəxt hesab edə bilmərəm. Gənclərlə işləmək məni o qədər sevindirir ki, sanki ruhumun cavanlaşdığının fərqinə varıram.

***-Belə bir müdrik fikir var ki, pis müəllim şagirdinə həqiqəti çatdırır, yaxşı müəllim isə onu tapmağı öyrədir... Bəs sizin əsl müəllim meyarınıza nələr daxildir?***

-İlk növbədə deyim ki, əsl müəllim olmaq birinci növbədə sənətini sevmək deməkdir. Bu peşəni seçən insan özünün bütün həyatını tələbələrə bağlayır. Dərs dediyi tələbələri sevən, onlarla ünsiyyətdən zövq alan müəllim əsl müəllimdir. Müəllim tələbənin iç dünyasını da tanımalı, onunla dost olmalıdır. Müəllim əməyi şərəfli əmək olmaqla yanaşı, həm də gələcəyə yönəlmiş əməkdir. Müəllim bu gün yaşayır, işləyir, gələcəyi qurur. Bizim hazırladığımız gənc kadrlar da istər peşə-ixtisas baxımından, istərsə də ziyalılıq, mənəviyyat baxımından gələcək üçün hazırlanır. Universitet təhsilinə başlayan gənclərin ən yaxını 4-5 ildən sonra pedaqoji fəaliyyətlə məşğul ola biləcəklərini nəzərə almaqla onların peşə-ixtisas hazırlığını elə planlaşdırmaq və aparmaq tələb olunur ki, onlar məhz gələcəyin müəllimi-tərbiyəçisi kimi həmin zamanın qarşıya qoyacağı tələblərə müvafiq hazırlanmış olsunlar. Dərs dediyim auditoriyada hər zaman çalışmışam ki, tələbələr yaxşı oxusunlar, dərsdən kənar başqa məşğuliyyətlərə yönəlməsinlər. Düzdür, hər kəs öz qabiliyyəti əsasında oxuyur, amma yenə də biz müəllimlərin borcu zəif oxuyan tələbəni də auditoriyaya qazandırmaq, cəmiyyətdə mövqe tutmağına köməklik etməkdir. Nə qədər iş təklifi alsam da, bu sənətə vurğunluğum məni düz 52 ildir ki, ali təhsil ocağına- Naxçıvan Dövlət Universitetinə bağlayıb. Hətta dərs dediyim tələbələrlə birgə bu gün çiyin-çiyinə çalışmağın fəxrini yaşayıram.



***- Naxçıvan Dövlət Universitetinin filial olduğu dövrdən etibarən ali təhsil ocağında çalışırsınız. Necə deyərlər, universitetimizin yüksəliş tarixinə şahidlik etmisiniz. Dərs dediyiniz o dövrlə müasir universitetimizi necə müqayisə edərdiniz?***

-Mən hələ Naxçıvan Dövlət Universiteti Azərbaycan Pedaqoji İnstitutunun filialı olduğu vaxtlardan burada işləyirəm. Səadət nəvəm, (mənə məhz belə müraciət edir İsmayıl müəllim) onda belə gözəl binalar, səliqə-sahman yox idi. Onda 3 ixtisas və 103 tələbə ilə fəaliyyətə başlayan universitetdə cəmi 3 nəfər ştatda olan müəllim çalışırdı. Cəmi bir binada dərs keçirdik. Şəraitsizlik ucbatından təbiət hadisələri qabağında aciz qalırdıq sanki. Yağış yağanda palçığa batmayaq deyə, müəllimlər özləri bu şəraitə uyğun nəsə etməyə çalışırdı. İndi isə şükürlər olsun ki, hər fakültə ayrıca binada fəaliyyət göstərir, binalarımız təmiz, işıqlı və rahatdır. Bu gün tələbələrə auditoriyada deyirəm ki, indi oxumamaq özü günahdır. Axı, bu qədər gözəl şərait, rahat sinif otaqları, çoxsaylı dərs vəsaitlərinin qabağında nə bəhanə edib oxumamaq olar? Şükürlər olsun ki, gənclərimizin əksəriyyəti də qurub-yaradılan imkanlardan yaxşı faydalanırlar, dərslərini yaxşı hazırlamaqla bərabər universitetin ictimai işlərində də canla-başla çalışırlar.

***-Bu auditoriyalarda illər boyu çəkdiyiniz zəhmətin bəhrəsini də görübsünüz...***

-Şəxsən mən bir ziyalı olaraq qeyd edə bilərəm ki, muxtar respublikada müəllimlər dövlət qayğısını hər zaman öz üzərlərində hiss edirlər.

Əlbəttə, şükürlər olsun ki, heç zaman bu sənəti seçdiyim üçün peşman olmamışam. Ölkəmizdə müəllim əməyinə verilən yüksək qiymət biz ziyalıları qane edir. Muxtar respublikada da bu sahədə görülən işlər müəllimlərin fəaliyyəti üçün yeni üfüqlər açır. Mən də çoxillik elmi-pedaqoji fəaliyyətimə görə 2007-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 5 oktyabr tarixli əmri əsasında "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə, 2011-2016-cı illərdə Naxçıvan Dövlət Universitetinin rəhbərliyi tərəfindən fəxri fərmanlarla, 2017-ci il 31 oktyabr tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşam. Lakin bu sahədəki ən böyük qazancım saysız-hesabsız tələbələrimdir.

***-Qocaman ziyalı, həyatın bütün çətinliklərindən üzüağ çıxan İsmayıl müəllim həm də gözəl ailə başçısıdır. Ailəsini sevən ata, baba, əlbəttə ki, dərs dediyi tələbələri də öz övladı kimi sevəcəkdir. Biz - gənclərin sizin kimi ağsaqqalın öyüdünə, məsləhətinə ehtiyacımız var...***

-Qızım, ailə çox gözəl nemətdir ki, hər kəsə gözəl ailəsinin olmağını arzulayıram. Mən qazandığım uğurların təməlində hər zaman ailəmin dəstəyini hiss etmişəm. Yaxşı ailə isə insanın həyatının yarısıdır, deyərdim. İnsan gərək özünə və qarşısındakına hörmət edə, onda ailə da möhkəm təməlli və sağlam olar. Mən hər kəsə dünyanın ən gözəl neməti olan cansağlığının dəyərini anlamağı arzu edirəm. İnsanlıq, bəşəriyyət pandemiyanın tüğyan etdiyi dövrdə daha açıq-aydın gördü ki, sağlıq hər şeydən önəmlidir. Hər bir gəncə doğru danışmağı, halal nemətlərlə ruzi qazanmağı tövsiyə edirəm. Çünki ruzini Allah verir, gərək onun verdiyi nemətlərə şükür etməyi bacarasan.

İsmayıl müəllimlə danışdıqca onun mənəviyyatının dərinliklərinə enib daxili aləmini kəşf edirəm. İnsanın ruzisini Allah verir, deyib hər halına şükür edən insan bu həyatda hər zaman ad-san, şöhrət qazanacaq - deyir ziyalımız. Cansağlığını dünyanın bütün nazü-nemətlərindən üstün tutan müəllim dərs dediyi tələbələrə halallığı, dürüstlüyü, özünəinamı təlqin edir. Hər zaman düşünmüşəm ki, ziyalı olmaq, əsl pedaqoq kimi ad-san qazanmaq üçün təkcə savad, bilik kifayət etmir. Çünki dərs dediyin auditoriyada tələbələrin təhsili ilə bərabər təlim-tərbiyəsinə də təsir edə bilirsənsə, onda sən əsl ziyalı kimi bütünləşirsən. Bax İsmayıl Zeynalov bunu bacara bilib. O, təkcə savadı ilə yox, mənəviyyatı, xarakteri ilə əsl ziyalı imicini qazanıb. İsmayıl Zeynalovla salamlaşanda hər zaman əlini ürəyinin üstünə qoyur. Çünki onun hər kəsi sevməyi bacaran qəlbi var. Hər kəsi sevməyi bacaran insan isə əsl xoşbəxtliyi dadmış insandır. Dərs dediyi tələbələrin xoş sorağıyla İsmayıl Zeynalovun üzü nurlanır, gözləri sevincdən parlayır, işıltılı gözləriylə "Tanrıdan daha nə istəyim ki" deyir. Elə bu sevinclə də İsmayıl müəllimlə sağollaşıram. Yubileyiniz mübarəkdir, əziz müəllimimiz! Qoy elminizin ziyası ilə daha neçə gənc qəlblər ruhlansın. Sizə möhkəm cansağlığı, elmi və pedaqoji fəaliyyətinizdə uğurlar arzu edirəm...

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# SEVGİNİZLƏ QƏLBİMİZDƏ ƏKDİYİNİZ GÜL HEÇ BİR ZAMAN SOLMAYACAQ

Müəllimlik insanlıq tarixinin ən mənalı və ən müqəddəs peşəsidir. Mövzusu insan olan və bizləri yüksəklərə qaldıraraq zirvələri fəth etməyimizə vəsilə olan bir peşədir müəllimlik. "Bir insanı pisliklərdən uzaqlaşdırıb yaxşılıqlara təşviq edə bilmək günəşin işıqlandırdığı hər gündən daha xeyirlidir" fikri müəllimliyin nə qədər müqəddəs və şərəfli bir peşə olduğundan xəbər verir. Keçmişdən bu günə bütün tarixi dövrlərdə görkəmli şəxsiyyətlər, dövlət adamları müəllimlik peşəsinə yüksək qiymət vermiş və müəllimliyi cəmiyyətin ən yüksək peşəsi hesab etmişlər. İslam dininin banisi Məhəmməd peyğəmbər öyrətməyi hər cür ibadətdən üstün saymış, Həzrəti Əli isə mənə bir hərf öyrədənin qulu olmağa hazıram, deyib. Makedoniyalı İsgəndər öz müəllimi Aristotel haqqında: "Valideynlərim məni göydən yerə endirdi, müəllimim isə yerdən göyə qaldırdı",- söyləmiş,"Xəmsə"si ilə dünyaya səs salan Şeyx Nizami Gəncəvi müəllimi günəşə, bütün insanlığa xitab edən filosof-şair Mövlana Cəlaləddin Rumi yanar şama, Azərbaycan şerinin ölməz nümunələrini yaradaraq türk dilinin nəyə qadir olduğunu göstərən dahi Füzuli gənc qəlbin memarına , əsərləri yalnız Şərqdə deyil, həmçinin Avropada həndəsə və triqonometriyanın inkişafında mühüm rol oynamış Nəsrəddin Tusi elmin çırağına, ilk milli "Qız məktəbi"ni təsis edən Məhəmməd Tağı Sidqi dadlı meyvələr yetişdirən bağbana bənzətmişlər. Dərin hikmətli və fəlsəfi poeziyası, təkrarsız dramaturji əsərləri ilə Azərbaycanda milli şüurun intibahına xidmət göstərmiş Hüseyn Cavid isə müəllimlik peşəsinə nəzərən demişdir:

Bəxtiyarsan əgər çəkdiyin əmək
Cahan süfrəsinə versə bir çiçək.

Bu müdrik fikirlər sırasında XX əsrin dahi şəxsiyyəti, böyük dövlət xadimi, çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, bənzərsiz siyasətçi Heydər Əliyevin müəllimlik peşəsi haqqında dediyi sözlər isə öz xüsusi dəyəri, əhəmiyyəti və peşəyə verdiyi yüksək qiyməti ilə seçilir: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq". Bu qiymətli sözlər Ulu öndərimizin müəllimlik peşəsinə sıx bağlı və yaxından bələd olması, ilk peşə ixtisasının müəllimlik və ilk vəzifə təyinatının da müəllimlik olmasından irəli gəlməkdədir. O, bu peşəni ürəkdən sevmiş, müəllim əməyinə yüksək qiymət vermişdir. Heç də təsadüfi deyil ki, Heydər Əliyev Azərbaycanda ona təklif olunan müxtəlif fəxri adlardan yalnız "Xalq müəllimi" fəxri adını məmnuniyyətlə qəbul etmişdir.

Bəli müəllimlik çox çətin və bir o qədər də ləyaqətli peşədir. Dünyada mövcud olan bütün peşələr gözəldir. Həkim insanların sağlamlığının keşiyində dayanır, xəstələrə şəfa verir. Mühəndis fabrik və zavodları işlədir, hündür binalar ucaldır, yollar çəkir, körpülər salır. Kosmonavt fəzanı fəth edir, müxtəlif planetlərin sirlərini öyrənir... Lakin müəllimlik bütün peşələrin fövqündə dayanır. Çünki həkim də, mühəndis də, kosmonavt da seçdikləri sənətin sirlərini məhz müəllimdən öyrənirlər. Müəllim elm, bilik xəzinəsinin qapısını insanların üzünə açan bir varlıqdır. Bu xəzinəyə inamla daxil olanlar həyatın enişli-yoxuşlu yollarında büdrəmir,




öz biliyi və əməlləri ilə cəmiyyətin inkişafına töhfələr verirlər. Elə buna görə də dünyada müəllim əməyinin bənzəri yoxdur. Əgər bu gün biz bəşəriyyətin çatdığı yüksək inkişaf səviyyəsi, elmi-texniki nailiyyətlər barədə məmnunluqla söhbət açırıqsa, buna görə ilk növbədə müəllimlərə minnətdar olmalıyıq. Çünki insan cəmiyyətinin əvvəli və sonu müəllim əməyi ilə bağlıdır. İnsanlar öyrənə-öyrənə kamilləşmiş, təbiətin sirlərinə yiyələnərək onu ram etmiş, yeni-yeni kəşflərlə öz həyatlarını yüngüliəşdirmişlər. Biz onların sayəsində bütün varlığımızla xalqımızın əsrlərin sınağından çıxan adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə bağlanmışıq, dünyagörüşümüz, həyata sağlam baxışımız formalaşıb. Əgər bir yerdə ayağımız büdrəsə əlimizdən tutan da, bir mövzuda yanılsaq səhvimizi düzəldən də, əlimizin çatmadığı yerə bizləri yüksəldən də, bir yerimiz kəsilsə o yaranı ürəyi ilə sarıb sağaldan da müəllimlərimizdir.

Təqvimdəki 5 Oktyabr sizin gününüzdür, əziz müəllimlərimiz. Biz sizdən sadəcə elm deyil yaşamağı, hər yeni günə ümidlə baxmağı, ətrafımızı qorumağı, insanları sevməyi, dürüst olmağı, cəsarətli olmağı, balacalara sevgi, böyüklərə saygı duymağı, bir qarış Vətən torpağı üçün ölməyi öyrəndik. Qazandığımız nailiyyətlər də sizindir, həyat yolunda atdığımız ilk addım da sizindir.

Fırtınalı bir havada gəminin yanaşa biləcəyi ən güvənli liman olan və şəfqət dolu əlini hər yerə uzadan müəllimlərimiz, sevginizlə qəlbimizdə əkdiyiniz gül heç bir zaman solmayacaq. Siz hər zaman qəlbimizin ən əziz yerində olacaqsınız. Bayramınız mübarək olsun!

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# GƏNCLƏRƏ ÖRNƏK, VƏTƏNƏ, XALQA XİDMƏT NÜMUNƏSİ OLAN ÖMÜR YOLU: KAMRAN ƏLİYEV

Müəllimlik dünyada ən çətin, eyni zamanda ən şərəfli bir peşədir. Bu gözəl peşənin dəyərini bilənlər həmişə müəllimə hörmətlə yanaşmışlar. Ulu öndər Heydər Əliyev də müəllim əməyini yüksək qiymətləndirmiş, “Biz hamımız əldə etdiyimiz nailiyyətlərə, bütün varlığımıza görə müəllimlərə borcluyuq”,- demişdir. Çünki müəllim əməyi sayəsində cəmiyyət formalaşır, gələcəyimizi inşa edən gənclər yetişir. Məhz buna görə müəllimlər yeni cəmiyyət quruculuğunun memarı sayılırlar. Bu gün müstəqil Azərbaycan Respublikasının müstəqil vətəndaşı olmağımıza zəmin yaradan müəllimlərimiz sayəsində biz elmi, iqtisadi, mədəni yüksəlişlərə çatmışıq. Müəllimlərimizin əməyi sayəsində azad Azərbaycanımıza öz dəyərli töhfələrini vermiş ziyalılarımızın örnək ömür yolu bugünkü gəncliyimizə öz amalları uğrunda mübarizə aparmaq, Azərbaycanımızı dünya arenasında tanıtmaq imkanı verir.

Həyatda hər bir peşə sahibi öz uğurları ilə qürur duyur. Mən bu gün gənclərin hər bir uğuruna sevinən, öz müəllimlərinin əməyini həmişə yüksək qiymətləndirən, Azərbaycan ədəbiyyatında öz sözünü demiş bir alim haqqında danışmaq istəyirəm. Mənim kimi çoxlarının da yoxluğuna dərindən kədərləndiyi, gənc nəslin tərbiyəsində əvəzsiz xidmətləri olan bu insanın keçdiyi ömür yolu təkcə bugünkü gəncliyimizə deyil, eləcə də elm yolunda irəliləmək istəyən hər bir şəxs üçün nümunədir.

Hələ orta məktəbdə oxuyarkən müəllimlərinin həmişə böyük həvəslə haqqında danışdıqları bu folklorşünas alimin elmi yaradıcılığına nəzər saldıqda onun qazandığı nəticələr, əldə etdiyi uğurlar, fəth etdiyi zirvələr mənim qəlbimdə həmişə fərəh və qürur hissi oyatmışdır. Eyni məktəbin yetirməsi kimi mən ağlım kəsəndən bəri onun yaradıcılıq yolunu izləyir və onun kimi Vətənə, xalqa faydalı bir insan olmağa çalışmışam. Ədəbiyyat müəllimimizin -Səfər Həsənovun hər dəfə adını böyük ehtiramla çəkdiyi bu zəhmətkeş və görkəmli alim Kamran Əliyevdir. Elmi yaradıcılıqla məşğul olduğu illər ərzində çox böyük müvəffəqiyyətlərə imza atmış professor Kamran Əliyev 20-dən çox monoqrafiyanın və 300-ə yaxın elmi məqalənin müəllifidir. Onun hər kəsə örnək olan ömür yoluna nəzər saldıqda müəllimlərimin fikirlərinə haqq qazandırıram. Bu qayğıkeş alim yüzə yaxın dissertasiyanın müdafiəsində opponent kimi iştirak etmiş, onlarla doktorluq dissertasiyasına isə bilavasitə elmi rəhbərlik etmiş, yüzlərlə dissertasiya, tədqiqat və kitablara rəylər yazmış, bir çox kitabların elmi redaktoru olmuşdur. Onun yaradıcılığını vərəqləyərkən alimin Azərbaycan elminə və ədəbiyyatına verdiyi töhfələr onun dəyərini göz önünə sərir. Fikrimcə, bu görkəmli elm xadiminin həyat və yaradıcılıq yolu hər bir tədqiqatçı üçün də örnək bir yoldur.

Paytaxtdan çox uzaq kənddə doğulan, adi kənd məktəbində təhsil alan bir alimin yaradıcılığı dərindən araşdırdıqda onun istər ədəbi yaradıcılıq, istərsə də pedaqoji fəaliyyət sahəsində əvəzsiz xidmətlərinin dəyərini dərk edirik. Kamran Əliyev haqqında çox eşitsəm, çox oxusam da onunla qiyabi tanışlığım onun alimliyi ilə yanaşı böyük bir ürəyə sahib olması fikrini ortaya qoyur. Tanımadığı halda adicə bir telefon zəngi ilə ona müraciət etmiş sıradan bir insana verdiyi dəyərli tövsiyyələr onun müdrik bir insan və həqiqi bir alim olduğunu deməyə əsas verir.

Professor Kamran Əliyevin təxminən 40 illik yaradıcılığını şərti olaraq iki mərhələyə bölmək olar. Birinci mərhələ 1980-2000-ci illəri, ikinci mərhələ isə 2000-ci ildən bugünümüzə qədər olan dövrü özündə ehtiva edir. Belə ki, istedadlı alim elmi yaradıcılığının ilk 20 illik dövrünü Azərbaycan romantizminin və dahi sənətkarımız Hüseyn Cavidin yaradıcılığına həsr etmiş, romantizmşünas və Cavidşünas alim kimi tanınmışdır. Onun 1985-ci ildə nəşr etdirdiyi “XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri” adlı monoqrafiyasını tədqiqatçı, ustad ədəbiyyatşünas alimlərimiz- Məmməd Cəfər, Abbas Zamanov, Əziz Mirəhmədov, Kamal Talıbzadə və Yaşar Qarayev yüksək qiymətləndirmişlər. Qeyd edək ki, bu monoqrafiya Azərbaycan romantizminin öyrənilməsi və araşdırılması sahəsində akademik Məmməd Cəfərin qiymətli və tarixi tədqiqatlarından sonra yazılmış ən qiymətli əsər hesab olunur. Zəhmətsevər alimin həmin dövrdən başlayaraq bir-birinin ardınca çap etdirdiyi onlarla məqalə və tədqiqatlar, Hüseyn Cavid yaradıcılığını kəşf edən və dünyaya tanıdan kitablar fikirlərimizi təsdiq etməyə imkan verir. “Hüseyn Cavidin şəxsiyyəti və poetikası” (1997), “Mirzə Fətəlidən Hüseyn Cavidə qədər” (1998), “Cavid möcüzəsi” (2002), “Azərbaycan romantizminin poetikası” (2002), “Azərbaycan romantizminin nəzəriyyəsi” (2006), “Romantizm və folklor” (2006), “Teoriya azerbaydjanskoqo romantizma” (2006), “Hüseyn Cavid: həyatı və yaradıcılığı” (2008) və s. kitab və tədqiqat əsərləri professor Kamran Əliyevi Azərbaycan ədəbiyyatında qabaqcıl dünya elmi səviyyəsinə yüksəlmiş bir alim kimi tanıtmışdır. Həmin əsərlərdə görkəmli nəzəriyyəçi alim bir tərəfdən dahi Azərbaycan romantikinin yaradıcılığını Avropa romantizm nəzəriyyələri müstəvisində nəzərdən keçirmiş, digər tərəfdən isə Azərbaycan romantizminin öz nəzəriyyəsini və özünəməxsus poetikasını təsvir etməyə çalışmışdır.

2000-ci ildən etibarən isə professor Kamran Əliyevin elmi fəaliyyətində tamamilə yeni bir mərhələ başlayır. Bu yeni mərhələ görkəmli alimin AMEA Folklor institutunda işə başlaması ilə bağlıdır. Professional elm nəzəriyyəçisi və ədəbiyyatşünas alim Azərbaycan folkloruna müraciət etməklə filoloji fikir tariximizdə yeni bir səhifə açmışdır. Onun “Romantizm və folklor” kitabı Azərbaycan folkloruna böyük bir töhfədir. Azərbaycan folklorşünaslığının ən vacib məsələlərinə, rəngarəng və zəngin problematikasına bələd olan alim öz elmi-nəzəri potensialını nümayiş etdirərək Folklorşünaslıq sahəsində onlarla ciddi və fundamental məqalələrlə yanaşı, bir-birinin ardınca monoqrafiya və kitablar ərsəyə gətirmişdir: “Romantizm və folklor” (2006), “Eposun poetikası: “Dədə Qorqud” və “Koroğlu” (2011), “Açıq kitab - “Dədə Qorqud” (2015), “Çağdaş folklorşünaslığın problemləri” (2017). Bu kitablar alimin müasir Azərbaycan folklorşünaslığının problem və qayğılarını nə qədər dərindən bilməsini açıq-aşkar göstərir. O, Dədə Qorqud boylarının bədii strukturu və formalaşma xüsusiyyətlərini, “Koroğlu” dastanındakı qolların mənşəyi və bir-biri ilə qarşılıqlı əlaqəsini, eləcə də çağdaş folklorşünaslığımız üçün düşündürücü olan bir sıra məsələlərin təhlilini vermiş, “Dədə Qorqud kitabı” və “Koroğlu” dastanlarının Azərbaycan xalqının mübarizələrlə zəngin tarixində tutduğu mövqeyi Azərbaycan oxucusuna böyük bir şövqlə çatdırmışdır.

Elmi yaradıcılığının çoxşaxəliliyi və özünəməxsusluğu bu vətənpərvər alimin daxili dünyasını və maraq dairəsini açıq şəkildə əks etdirir. “Ədəbiyyat (dərs vəsaiti)” (2010), “Ədəbiyyat (dərs vəsaiti)” (2011), “Abbas Zamanov olmasaydı” (2011), “Azərbaycan dili (dərs vəsaiti)” (2011), “Tənqidin poetikası” (2012), “Ədəbiyyat tarixinə bir baxış” (2013), “Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar” (2013) və s.kitab və tadqiqatlar bu zəhmətkeş



alimin öz işinə və peşəsinə sonsuz sevgisindən, öz xalqına layiq övlad olmaq istəyindən, qibtə ediləcək elmi dünyagörüşündən və erudisiyasından xəbər verir. Yüksək elmi-nəzəri səviyyəyə malik alimin zəngin daxili dünyası yazdığı aşağıdakı əsərlərdə daha əyani şəkildə özünü büruzə verir: “Abbas Zamanov olmasaydı” (2011) və “Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar” (2013). Hər iki əsər oxucuya bu alimin bir alim və insan kimi daxili aləmini, xarakter və xasiyyətini dərindən dərk etmək imkanı verir. Bu əsərlər son dərəcə təvazökar bir insan olan Kamran Əliyevin öz tələbələrinə, yetirmələrinə qarşı nə qədər qayğıkeş və mehriban olmaqla yanaşı öz müəllimlərinə də o dərəcədə, bəlkə ondan da artıq minnətdar və diqqətcil olması qənaətini verir.

Kamran Əliyevin böyük vətənpərvər və ziyalı Abbas Zamanov haqqında yazdığı kitabı laqeyd, həyəcansız oxumaq mümkün deyil. Abbas Zamanov indiki BDU-nun filologiya fakültəsində işlədiyi uzun müddət ərzində onlarla, yüzlərlə tələbələrə bir ata kimi təmənnasız yaxşılıqlar edib, onların həyatda və elmdə öz yerlərini tutmasında əvəzsiz rol oynamış alimlərimizdəndir. Abbas Zamanov haqqında yazılanları oxuyanda bir tələbənin öz müəllimi haqqında gələcək nəsillərə də nümunə ola biləcək bir minnətdarlıq yazıları və ən əsası müəllim əməyinə verilən yüksək qiymət insan qəlbini riqqətə gətirir. Kamran Əliyev kimi istedadlı bir insanın Abbas Zamanov, Məmmədcəfər Cəfərov kimi alimlər məktəbini keçməsi bu gün onun bu qədər çox uğur qazanmasının əsas səbəblərindəndir. Onun bu dərəcədə məhsuldar ömür yolu keçməsində və yorulmaz bir elm fədaisinə çevrilməsində öz müəllimlərinin rolu danılmazdır. Bu sadaladıqlarımız bu gün gənclərə dayaq omaq və onlara doğru yol göstərmək məsələsini gündəmə gətirir.

“Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar” kitabı Kamran Əliyev şəxsiyyətinə və yaradıcılığına güzgü tutan bir əsərdir. Belə ki, bu kitabda Azərbaycan ədəbiyyatşünaslığının ta qədimlərdən indiyə qədər, xüsusən, XX yüzildə keçdiyi tarixi inkişaf mərhələlərindən geniş və ətraflı bəhs olunmuşdur. Görkəmli alim Azərbaycan ədəbiyyatşünaslığında Firudin bəy Köçərlidən tutmuş, çağdaş ədəbiyyatşünaslarımıza qədər elmimizin əksər görkəmli nümayəndələrinə və onların yaradıcılığına nəzər salmış və akademik Feyzulla Qasımzadə, akademik Həmid Araslı, akademik Məmməd Arif Dadaşzadə, akademik Məmmədcəfər Cəfərov, akademik Kamal Talıbzadə, akademik Əziz Mirəhmədov, akademik Yaşar Qarayev, akademik Bəkir Nəbiyev və başqa elm fədailəri haqqında da geniş araşdırma aparmışdır. Həmin kitabda o vaxtın ən görkəmli filoloq alimləri içərisində Mir Cəlal Paşayevin, Abbas Zamanovun, Əkbər Ağayevin, Firidun Hüseynovun, Xalid Əlmirzəyevin və Təhsin Mütəllibovun xidmətləri haqqında da geniş şəkildə bəhs olunmuş, xalqımızın sevimli yazıçısı və görkəmli alimin müəllimi Mir Cəlal Paşayevin o dövrün ədəbi gəncliyi arasındakı nüfuz və hörmətindən xüsusi şövqlə danışılmışdır. Kamran Əliyevin gənclik təəssüratları və yaşantıları özünün bu böyük alimə sonsuz sevgisi bir tələbənin müəlliminə verdiyi ən ümdə sevgini əks etdirir.

Mən də hal hazırda müəllim kimi fəaliyyət göstərirəm. Məktəblikən müəllimlərimi özümə örnək alar, bir gün onların sırasında özümü görmək istəyərdim. Fikrimcə, Kamran Əliyevin unudulmaz bir şəxsiyyətə, xalqına, Vətəninə layiq bir ziyalıya çevrilməsində öz istedadı və zəhmətsevərliyi ilə yanaşı dərs aldığı müəllimlərinin əvəzsiz rolu var. Məhz bunun nəticəsidir ki, o dövrkü ziyalı nəslin- Abbas Zamanov, Mir Cəlal Paşayev kimi müəllimlərin gəncliyə göstərdiyi təmənnasız qayğı sayəsində Azərbaycan elmi və ədəbiyyatı Kamran Əliyev kimi alimlər qazanmışdır. Öz fikrimi ulu öndər Heydər Əliyevin sözləri ilə yekunlaşdırmaq istəyirəm.“ Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır”. Yekunda onu qeyd edim ki, bu ali peşənin daşıyıcıları olaraq biz bu günkü gəncliyimizə Kamran Əliyev kimi ədəbiyyatşünaslarımızı tanıtmalı, onların həyat yolunun ən böyük örnək kimi onlara göstərilməli, onun kimi xalqını,vətənini,ən ümdəsi vətəndaşını (tələbə, müəllim) sözün həqiqi mənasında sevən və dəyərləndirməyi bacaran gənclik yetişdirməliyik. Bir müəllim kimi mən bugünkü Azərbaycan gəncliyini onun hər kəsə örnək olan ömür yolundan bəhrələnməyə çağırıram.

**Tehranə Xudaverdiyeva**
***“İngilis dili və tərcümə” kafedrasının baş müəllimi***

# TƏLƏBƏLƏRİN SEVDİYİ “FƏLSƏFƏ ADAMI”

İkinci kursun yaz semestri yenicə başlamışdı. Fakultəyə daxil olan kimi ilk olaraq divardan asılmış dərs cədvəlinə baxdım. Bu semestr keçəcəyimiz dərslər arasında fəlsəfə fənni də var idi. Böyük həvəslə cümə gününün gəlib çatmasını gözləyirdim, çünki həmin gün bizə fəlsəfədən ilk mühazirə olacaqdı. Müəllimlərdən və yuxarı kurs tələbələrindən professor Məmməd Rzayev haqqında eşitmişdim. Onun adı çəkiləndə hamı bir nəfər kimi "Məmməd müəllim əsl professor, müəllim və pedaqoqdur" deyirdilər. Bəlkə də bu səbəbdən mən professorun bizə söyləyəcəyi mühazirələri dinləmək üçün səbirsizliklə günləri sayırdım. Hətta onun haqqında kiçik bir araşdırma da eləmişdim.

Öyrənmişdim ki, Məmməd Rzayev 8 may 1952 -ci ildə Naxçıvan şəhərində anadan olub. O, şair, dramaturq, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Hüseyin Razinin oğludur. Məmməd müəllim orta təhsilini Naxçıvan şəhərindəki 4 nömrəli 8 illik məktəbə almış sonra şəhər 1 nömrəli orta məktəbində təhsilini davam etdirərək 1968-ci ildə həmin məktəbi bitirmişdir. Elə həmin ilin avqust ayında Azərbaycan Pedaqoji İnstutunun Naxçıvan filialına (indiki Naxçıvan Dövlət Universitetinə) qəbul olunmuşdu. Məmməd müəllim tarix-filologiya fakültəsinin Tarix ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir. 1974-cü ilin iyun ayından Naxçıvan Dövlət Universiteti fəlsəfə və sosial elmlər kafedrasında müəllim, baş müəllim və dosent vəzifələrində çalışmışdır.Bakı Dövlət Universitetinin aspiranturasını uğurla başa vuran alim 1984 cü ildə fəlsəfə elmləri namizədi, 2007 ci ildə isə fəlsəfə elmlər doktoru adını almışdı.

Məmməd Rzayev 250-dən artıq elmi məqalənin və 25 kitabın müəllifidir . Bundan başqa alimin 30-dan artıq əsəri xarici ölkələrdə çap olunmuşdur. Təkcə tələbələrin deyil, həm də öz müəllim yoldaşlarının dilindən düşməyən professor ilk dəfə olaraq "Keçid dövrü şəxsiyyət tipi"ni elmi dövriyyəyə cəlb etmiş, onun ontoloji, qneseoloji və funksional meyarlarını müəyyənləşdirmişdir. O, şəxsiyyət problemini hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesində, milli-etnik münasibətlər prizmasında, müasir siyasi həyatda və mədəniyyət sistemində hərtərəfli təhlil etmişdir. Məmməd Rzayev postsovet sosial-fəlsəfi fikrində ilk dəfə olaraq keçid dövrü şəxsiyyətini aksioloji mövqedən araşdırmış, onun formalaşmasında dəyərlərin rolunu açıqlamışdı. Uğurlu elmi fəaliyyətinə görə 2007- ci ildə "Tərəqqi ", 2009-cu ildə "Azərbaycan Respublikasının əməkdar müəllimi" və 2012-ci ildə "Qabaqcıl ali təhsil işçisi" mükafatlarına layiq görülmüşdü.

Haqqında öyrəndiklərim mənim marağımı daha da artırmışdı. Nəhayət cümə günü gəlib çatmışdı. Biz Naxçıvan Dövlət Universitetinin əsas binasının birinci mərtəbəsində yerləşən auditoruma getdik. Ön cərgələrdən özümə yer seçib əyləşdim. Maraq dolu baxışlarla qapıya baxıb alimi gözləməyə başladım. Birdən içəriyə əlində qara çantası və şux, səliqəli, bir qədər də rəsmi geyimdə olan cüssəli müəllim daxil oldu. Bütün tələbələr ehtiramla ayağa qalxdı. Bəli, bu səbirsizliklə gözlədiyim alim idi. Onun hikmətlə baxan gözləri və zəhmli siması var idi. Professor insanların onu tanıtdığından daha fərqli olaraq təvazökar şəkildə “mən Məmməd Rzayev, sizin fəlsəfə müəlliminiz” deyərək özünü tanıtdı. Ardınca bizə fəlsəfə haqqında məlumat verməyə başladı. O qədər maraqlı çıxış edirdi ki, zamanın necə keçdiyini anlamamışdıq. İlk vaxtlar çox çəkindiyimiz alim zamanla bizim ən yaxın



dostumuza, ən əziz insanımıza çevrildi. Onun bizə mühazirə söyləyəcəyi günlər vaxtından əvvəl auditoruma gələr və gözlərimizdə yeni, maraqlı biliklər öyrənəcəyimizin sevinci ilə müəllimi gözləyərdik. Sonralar öyrəndik ki, professor yanından heç ayırmadığı çantasında tələbələrin oxuması üçün filosofların kitablarından gətirər və ondan kitab istəyən bütün tələbələrə oxumaq üçün verirdi. Məmməd Rzayevin hər mühazirəsi çox maraqlı keçirdi, çünki o illərdir oxuduğu kitabları bizə danışmırdı o danışdığı hər şeyi mükəmməl bilirdi. Bəzən mən düşünürdüm ki, müəllim bizə haqqında danışdığı Aristotelin, Sokratın, Nitsşenin, Bekonun, Dekardın özüdür.

Bir zamanlar Əbu Turxanın fəlsəfə haqqında dediyi sözü oxumuşdum. O deyirdi ki , "Dünyanı dərk etmək üçün elm, dünyanı duymaq üçün poeziya var. Fəlsəfə isə duyğulu idrak və poetik səviyyəyə qalxmış elmdir." Mən isə bu elmi müəllimimin simasında gördüm, onun səsində duyurdum. Mənə verdiyi kitabları oxuduqca həyata baxışım dəyişirdi. Məmməd Rzayevi tanıdıqca anladım ki, böyük adamın böyüklüyü kiçik adamlarla olan rəftarında aşkara çıxır. O, bütün tələbələrin qəlbini mehriban, qayğıkeş davranışları ilə artıq fəth etmişdi. Biz ondan təkcə elm yox, həyata dair, insanlığa aid çox şey öyrənirdik.

Onun mühazirələrdə bizə aşıladığı fikirlər bizim milli ruh anlayışımızı da dəyişdi. Müdriklər milli ruh özünü milli fəlsəfi fikirdə tanıyır deyiblər. Alimin bizə söylədiyi hər bir müdrik və milli fəlsəfi fikirlər sanki qulağımıza millət dünəninə güclü tellərlə bağlı olmağa, özünü həssas şəkildə qorumaqla sabahını təminat altına almış və bünövrəsini ən möhkəm təməllərə oturmuş olur piçıldayırdı. Anlayırdıq ki, millət nə qədər ki keçmişindən üz döndərib dünənini təmamən unudur, ruhu kökündən uzaqlaşıb özünə yadlaşır, o zaman əsən küləklərlə ora-bura sovrulan çör-çöp kimi, gah o yana, gah bu yana sürüklənər.

Bəli, o bizlərə, bir millətin gələcəyinə - gənc nəsillərə bütün fəlsəfə tarixini, onun eniş və yoxuşlarını, yüksəliş və tənəzzülünü dəqiq fənlər kimi öyrədir, zirvələri fəth edən filosoflardan danışaraq tələbələrin həyəcanını körükləyib, yeni-yeni biliklər öyrənməyə həvəslləndirir və düşüncələrimizi oyadaraq gələcək cüçün ən mükəmməl işi görmüş, ən böyük addımı atmışdı. Bununla o öz düşüncə dünyasına yüksəltdiyi hər tələbəsinə elmin ölümsüzlük iksirini içirməyi bacarmışdı.

Bir dəfə Məmməd müəllim bizə öz yetişdirdiyi tələbələrdən də söz açmışdı. Onların çoxu bu gün dövlət müəssisələrində ən yüksək vəzifələrdə çalışırdı. O tələbələri haqda danışarkən gözləri qürurdan parıldayır, duyduğu fərəh hissi ilə sanki illərin onun simasında saldığı cizgilər yoxa çıxır, gəncləşirdi. Özü haqqında heç vaxt danışmağı sevməyən professoru isə biz artıq çox yaxşı tanıyırdıq. O, bizim heç vaxt söhbətindən doymadığımız, hər dara düşdüyümüzdə köməyimizə qaçan müəllimimiz idi. Bundan sonra da onun ömür çırağı ilə aydınlanan yolumuzda elə məhz professordan öyrəndiyimiz həyat fəlsəfəsi ilə adımlayacağıq. Əgər sizlərdə keçmişdən bu günə bütün fəlsəfə tarixini özündə cəmləşdirərək kitab adama çevrilən əməkdar müəllim Məmməd Rzayevi görmək və onun fəlsəfə dəryasından su içmək istəyirsinizsə, yolunuzu mütləq Naxçıvan Dövlət Universitetindən salmalısınız. Çünki sözlərlə təsvir etməyə çətinlik çəkdiyim, öz biliyi ilə yanaşı insani dəyərləri çox-çox yüksək olan bu cür alim dünyada çox azdır .

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# ÜMUMDÜNYA FİZİKA ELMİNİN ƏSAS SİMALARINDAN AKADEMİK HƏSƏN ABDULLAYEV

1918-ci ildə dünyaya gələn Həsən Abdullayev Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Yaycı kəndində çox kasıb ailənin övladı olub. Kasıb ailənin bütün əzab-əziyyəti Həsənin üzərinə düşür. Yeddiillik məktəbi bitirəndən sonra Pedaqoji texnikuma daxil olur. Ondan sonra ibtidai məktəbdə dərs deməklə ailəsinə yardımçı olmağa çalışır. Qeyd edək ki, Həsən Abdullayevin dərs dediyi ilk ildə - 1941-ci ildə müharibə təzə başlamışdı. Akademikin qızı Sevda Abdullayeva xatirələrində atası ilə bağlı olan bu məqama hər zaman təəccüblə yanaşıb: "Qardaşım Aydın həmişə söhbət zamanı deyirdi ki, mən atama məəttələm. Necə oldu ki, kənd mühitində, kasıb bir ailədə böyüyən bir uşaq sonradan Bakı mühitinə gəldi və yüksək mərtəbələrə qalxa bildi".

Həsən Abdullayevin ilkləri

- İlk dəfə olaraq Azərbaycanda klassik fizikaya zərbə vurur. Nəzəri fizikaya dünya fizikasının dinamikasını gətirir.
- Azərbaycan elmində yarımkeçiricilər fizikasının məktəbini yaradır.
- İlk dəfə olaraq selen və tellurla bağlı tədqiqatlar aparır.
- Azərbaycan alimlərinin beynəlxalq elmi jurnalalarda kütləvi dərcinin əsasını qoyur.
- Akademiyada fəlsəfə və fiziologiya institutlarını yaradır.
- SSRİ elmində ilk dəfə Ay cisminin insan orqanizmi ilə qarşılıqlı əlaqəsini tədqiq edir.

Nobel mükafatçısına öyrətdikləri

2000-ci ildə fizika üzrə Nobel mükafatı laureatı, yarımkeçiricilər fizikası üzrə mütəxəssis, Belarus alimi Jozef Alfyarov tələbə yoldaşı və eyni sahə üzrə araşdırmaçı həmkarı olan Həsən Abdullayev haqqında çox maraqlı xatirəni qeyd edib. Bir neçə il bundan öncə AMEA-ın təşkil etdiyi elmi konfransa qatılan Nobel mükafatçısı mərhum akademik haqqında bunları deyib: "Məni Həsən Abdullayevlə çox böyük dostluq telləri birləşdirir. O, fizikanın, yarımkeçiricilərin inkişafında çox böyük işlər görüb. Onun Nasledovun laboratoriyasında necə işləməsi indi də yadımdadır. Biz institutun köhnə dəhlizlərində çox zaman bərabər gəzişərdik. O, dəhlizdə uzun-uzadı davam edən söhbətlərimiz zamanı fizika ilə bağlı çox orijinal fikirlər söyləyərdi. Bir dəfə növbəti gəzişmə zamanı yarımkeçirici cihaza çox gözəl izah verdi. Uzun müddətdən sonra bu istiqamətdə tədqiqlər başlananda o, getrokeçidin nə olduğunu zarafatyana aydınlaşdırdı. Dedi ki, bu keçidlər müxtəlif millətlərdən olub nikah bağlayan oğlanlar və qızlar kimidirlər. Onların çox yaxşı uşaqları olur. Onun bəzi fikirləri bizim üçün də orijinal idi".

Dünyanın Aya baxışını dəyişdirdi

Onun tədqiqatlarından sonra Aya tamamilə başqa gözlə baxıldı. Belə ki, Mendeleyev cədvəlinin 34-cü elementi olan və yunanca "ay" mənasını ifadə edən selen elementinin insan orqanizmінə təsirini ilk dəfə tədqiq edən alimlərdən biri H.Abdullayev olub.

Həsən Abdullayevlə bir zamanlar yaxın dost olan akademik Məhərrəm Məmmədyarov bu məqam haqqında maraqlı detalı diqqətə çatdırır: "Bir neçə il bundan əvvəl "Komsomolskaya pravda" qəzetini mənə göndərdilər. Orada selen elementi haqqında bir məqalə var idi. Mendeleyev cədvəlinin 34-cü elementi selendir. Elm hələ indi bilir ki, selensiz insan orqanizmi mövcud ola bilməz. Çünki insan gözündə və qaraciyərində, o cümlədən başqa yerlərdə selen elementi var ki, o insanın həyatı üçün çox əhəmiyyətlidir. Qəzetdə də vurğulanırdı ki, alimlər bu faktı indi desələr də, SSRİ-nin gənc alimi Həsən Abdullayev o haqda çox əvvəllər yazmışdı".

Doğurdan da Həsən Abdullayevin selenlə bağlı elmi araşdırmalarından sonra Aya tamam başqa gözlə baxıldı. Onların gözündə Ay, sadəcə olaraq səma cismi deyildi. O, artıq insan sağlamlığının təbii mənbələrindən biri hesab edilirdi.

***Lütfi Zadənin məktubu***

2008-ci ildə dünya çaplı böyük alimlərdən biri Lütfi Zadə Həsən Abdullayevin qızı Sevda xanıma onun atası ilə bağlı bir məktub göndərir. Məktubun məzmununu təqdim edirik:

*"Əzizim Sevda!*

*Sizin atanızın xatirəsinə öz töhfəmi vermək istərdim. 1965-ci ildə Bakıda səfərdə olduğumuz zaman atanızın dəvəti ilə sizin evdə olmaq xoşbəxtliyi mənə də nəsib oldu. Sizin atanız məndə çox dərin təəsürat yaratmışdı. Elmin və alimlərin cəmiyyətdə tərifli yer tutduğu sovet erasının yetirməsi idi. O, çox hörmət qazanmışdı. O, dahi alimlərdən də böyük alim idi. Özünü Azərbaycanın elm və mədəniyyətinə həsr edən böyük insan idi. Uzun müddətdir ki, aramızda yoxdur, amma onun irsi hər zaman yaşayacaq.*

*Sevgilərimlə Lütfi".*



Akademik Həsən Abdullayev selenin bioloji proseslərdə rolu, selen və tellurun mürəkkəb birləşmələri əsasında hazırlanmış yarımkeçirici cihazların fizikası sahəsində mühüm elmi nəticələr əldə etmişdir.

Selenium və tellurun ikili və üçlü birləşmələrinin yeni qrupları açıldı, idarə olunan elektrik yaddaşına malik diodlar təklif etdi, spektrin görünən və infraqırmızı sahələrində alıcı kimi istifadə olunan mürəkkəb yarımkeçiriciləri əldə etdi. İlk dəfə selendə anormal hadisələrin izahını verdi və onun xüsusiyyətlərini idarə etmək yollarını göstərdi.

Akademik Həsən Abdullayevin rəhbərliyi altında mürəkkəb yarımkeçiricilərdən ibarət bir sıra yeni cihazlar, o cümlədən yeni fiziki prinsiplər üzrə işləyən uzun müddətli elektrik yaddaşına malik cihazlar yaradılmışdır. Termoelektrik çeviricilərin yarımkeçirici materiallarının işlənməsinə görə, Abdullayev ABŞ, Fransa, Böyük Britaniya, Yaponiya, Almaniya, Hollandiya, İsveç, İtaliya, Hindistan patentləri alınmışdır.

Akademik Həsən Abdullayev-dünya elektronikasının və yeni texnologiyaların patriarxlarından biri, Azərbaycanda yarımkeçiricilər fizikası məktəbinin banisi, respublikada ilk dəfə (1947-ci ildən) ümumşəhər, sonra yarımkeçiricilər fizikası üzrə Respublika seminarlarının təşkilatçısı, Azərbaycan dilində yarımkeçiricilər fizikası üzrə ilk elmi əməyin müəllifi (1952), SSRİ-də ilk yarımkeçiricilər fizikası və XKB kafedrasının təşkilatçısıdır.

Akademik Həsən Abdullayevin elmi araşdırmaları və təşkilatçılığı sayəsində elmdə ilk dəfə olaraq əsası qoyulmuş istiqamət əsasında yaradılmış selen üzrə tədqiqatları ilə ixtisaslaşan Fizika İnstitutu dünyada aparıcı elmi mərkəzlərdən birinə çevrilmiş və yarandığı vaxtdan 1957-ci ildə yarımkeçirici materialların tədqiqi və tibbi termoelektrik qurğuların işlənməsi üzrə işlərin əlaqələndirilməsi, sintetik naften turşularının problemləri və maqnit yarımkeçiricilərinin problemləri üzrə SSRİ-də Baş təşkilat təsdiq edilmişdir. H. Abdullayevin rəhbərliyi ilə elektronikanın və yeni texnologiyaların inkişafına görkəmli töhfəsinə görə Fizika İnstitutu SSRİ-nin 12 ali dövlət mükafatı ilə, Abdullayevin hazırladığı kadrların işlədiyi bu institutun və onun laboratoriyalarının bazasında respublikada bir çox digər elmi-tədqiqat institutları (ETİ) yaradılmışdır.

Fizika İnstitutunun təsisçisi və rəhbəri, Azərbaycan EA-nın müxbir üzvü H. Abdullayev üçün kadr hazırlığı, onların sayının, ştatların artırılması, xüsusi laboratoriyaların yaradılması və onların müvafiq avadanlıqla təchiz edilməsi hələ mühüm vəzifə olaraq qalırdı ki, bu da ondan dəqiq, peşəkar bilik və təşkilatçılıq bacarığı tələb edirdi. Əməkdaşların ixtisasının artırılması, beynəlxalq təcrübəyə yiyələnməsi, institutun elmi nüfuzunun dünyada artırılması aktual idi. H. B. Abdullayevin başçılıq etdiyi yeni Fizika İnstitutu perspektivliyi ilə yanaşı, iqtisadiyyatın və dövlətin müdafiə qabiliyyətinin artmasına da səbəb olub. Fizika İnstitutunun bazasında Həsən Abdullayevin rəhbərliyi ilə yeni elmi-tədqiqat institutları, XKB (texnoparklar), ali təhsil müəssisələri, zavodlar və digər elmi-istehsalat müəssisələri yaradılmağa başlayıb.

H. Abdullayevin təşəbbüsü və fəal iştirakı ilə 1954-cü ildə Azərbaycan Dövlət Universitetində (ADU, indiki BDU) ilk dəfə olaraq Azərbaycan SSR-də ilk dəfə olaraq yarımkeçiricilərin fizikası kafedrası yaradılmışdır. Həmin universitetdə o, sonralar Astrofizika fakültəsini yaratdı. 1959-cu ildə H. Abdullayev təşəbbüsü irəli sürmüş və Şamaxı Rəsədxanasını təşkil etmişdir.

Molekulyar biologiya və biofizika sahəsində H. B. Abdullayevin (bioloqlarla birlikdə) apardığı tədqiqatların nəticələrini ayrıca qeyd etmək lazımdır. İşıqdan qaynaqlanan gözün torlu qişasının elektrik potensiallarının radiasiya enerjisinin elektrik enerjisinə çevrilməsi mexanizmində iştirak edən selenin təsiri altında əvvəllər məlum olmayan güclənmə hadisəsi eksperimental şəkildə müəyyən edilmişdir. Bu işlər, görmə prosesinin anlaşılmasında əhəmiyyətli roldan başqa, selenium birləşmələrinin effektiv terapevtik vasitə kimi tətbiqi üçün şübhəsiz əhəmiyyət kəsb edir.

Akademik Abdullayev ABŞ-da (1961, 1972), Fransada (1957, 1971, 1976), Bolqarıstanda (1958), Rumıniyada (1958), İngiltərədə (1962), Polşada (1963), Yaponiyada (1966), İsveçdə (1971), İranda (1972) və digər ölkələrdə beynəlxalq elmi müşavirələrdə çıxış etmişdir.

Böyük Sovet Ensiklopediyasının üçüncü (sonuncu) nəşrində SSRİ-də yarımkeçirici elektronikaya həsr olunmuş məqalədə akademik Həsən Abdullayevin Sovet İttifaqında elm və texnikanın inkişafında böyük rolu xüsusi qeyd edilir, onun adı ilk sıralarda çəkilərək qeyd olunur: "yarımkeçirici elektronikanın yaradılmasına sovet fizika alimləri və mühəndisləri böyük töhfə vermişlər (A. F. İffe, N. İ. P. Sacin, Y. İ. Frenkel, B. M. Vul, V. M. Tuçkeviç, H.B. Abdullayev, J. İ. Alferov, K. A. Vəliyev, Y. P. Dokuçayev, L. V. Keldış, S. Q. Kalaşnikov, V. Q. Kolesnikov, A. V. Krasilov, V. E. Laşkarev, Y. A. Fedotov və başqaları.)".

Akademik Həsən Abdullayev SSRİ-də selen üzrə aparıcı ekspert olduğuna görə Böyük Sovet Ensiklopediyasının üçüncü (sonuncu) nəşrində selenə dair məqalənin hazırlanmasında və nəşrində məhz ona etimad göstərilmişdir.

Akademik Həsən Abdullayevin rəhbərliyi ilə Respublika Elmlər Akademiyası sürətlə inkişaf etmiş, onlarla yeni elmi-tədqiqat institutu, mərkəzləri, konstruktor büroları, ali təhsil müəssisələri yaradılmışdır.

Akademik Həsən Abdullayevin fizika elmi sahəsindəki xidmətlərindən şox yazmaq və danışmaq olar. Akademik Həsən Abdullayevin fizika elminin inkişafındakı xidmətləri sovet və Azərbaycan elmini dünya səviyyəsinə çıxarmışdır.

**Abdulla Həsənov**
***"İnformatika" kafedrasının dosenti***

# NAXÇIVANDA MUZEYŞÜNASLIĞIN İNKİŞAFI

Naxçıvanda muzeylərin yaranması və inkişafı məzmun forma, təşkilati-metodiki əlamətlərinə görə tərixən əsas dörd mərhələyə ayrılır.

Birinci mərhələ 1896-1968, ikinci mərhələ 1969-1991, üçüncü mərhələ 1992-2003, dördüncü mərhələ 2003-2016-cı illəri əhatə edir. Naxçıvan muzeyşünaslığının nəzəri və təcrübi məsələlərinin tədqiqi baxımından həmin mərhələlərin hər birinin özünəməxsus rolu və əhəmiyyəti vardır.

XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda, qədim tarixiliyin, geniş mədəni-marifçilik təcrübəsinin mövcudluğu, tarixi-mədəniyyət nümunələrinin zənginliyi, maddi və mənəvi mədəniyyət nümunələrinin əhali kütləsi arasında geniş maraq oyatması, onların xaricə daşınmasının qarşısının alınmasının vacibliyi kimi amillər nəticəsində Muxtar Respublikada muzeylər yaradılmağa başladı.

Xarakterik haldır ki, tarixən yurdumuzda muzeyçilik və onun sələfi olan kolleksiyaçılıq ənənələrinin Naxçıvan torpağında qədim kökləri vardır.

Vaxtilə Azərbaycan Atabəylərinin paytaxtı olmuş qədim Naxçıvan şəhərində dövrün elm və mədəniyyət mərkəzləri-mədrəsələr, kitabxanalar, məktəblər fəaliyyət göstərirdi. Böyük dövlət xadimi Məhəmməd Cahan Pəhləvan öz sarayında çeşidli kitab və əlyazmalara, nəfis rəsm və işləmələrə malik olmuş, elm və sənət adamlarına qayğı göstərmiş, onlara hamilik etmişdir. Bütün bunlar Naxçıvan torpağında muzeyçilik ənənələrinin tarixi qaynaqları kimi səciyyələndirilə bilər.

Əlbəttə, zəngin varidatı və qiymətli sənət incilərini kolleksiyaçılıq ənənələrini müasir muzey anlayışı ilə tam şəkildə identifikasiya etmək olmaz. Çünki müasir elmi təsnifat muzeyləri həm də ictimai funksiya baxımından səciyyələndirir.

Lakin tarixən mövcud olmuş kolleksiyaçılıq ənənələrimizin, elm mədəniyyət və maarif ocaqlarımızın, saray kitabxanalarımızın muzeyçiliyin təşəkkül tapmasında rolu danılmazdır.

Yeni dövrdə ölkəmizdə muzeyçilik ənənələrinin bərpa edilməsi təşəbbüsləri də qədim Naxçıvan diyarının adı ilə bağlıdır. Görkəmli yazıçı və publisist Cəlil Məmmədquluzadə hələ XIX əsrin sonlarında Naxçıvandakı Nehrəm kəndində diyarşünaslıq muzeyi yaratmaq qərarına gəlmişdi. Çar üsul-idarəsi şəraitində dövlət orqanlarından heç bir əməli yardım ala bilməyən ədib kəndlilərin, təəssübkeş Naxçıvan ziyalılarının, müəllimlərin və şagirdlərin köməyi ilə həmin ilk muzeyi özü təşkil etmişdi.

Hazırda bu ilk qeyri-rəsmi muzeyimizin bir növ davamçısı olan C.Məmmədquluzadənin xatirə muzeyi Babək rayonu Nehrəm kəndində fəaliyyət göstərir. Muzey 1989-cu ildə yaradılmışdır. Burada C.Məmmədquluzadənin Nehrəmdəki müəllimlik fəaliyyəti, onun ilk muzeyimizi qurmaq sahəsindəki cəhdləri maraqlı eksponatlar vasitəsilə əyani surətdə canlandırılır.

Naxçıvanda yeni dövrdə ən erkən muzeyçilik təcrübəsi tarixini işıqlandıran Sübhi Kəngərlinin araşdırmaları ciddi maraq doğurur. Tədqiqatçı "Muzey elm və mədəniyyət topluSudur" adlı məqaləsində yazır: "Naxçıvanda muzeyşünaslıq işinin tarixi XIX əsrin ortalarına qədər gəlib çatır. Qocaman ədəbiyyatşünas alim filologiya elmləri namizədi Lətif Hüseynzadənin Naxçıvanda muzey təşkili və işi haqqındakı fikirləri çox maraqlıdır. Onun dediyinə görə Naxçıvanda ilk muzeyşünaslıq muzeyi böyük yazıçımız Mirzə Cəlil tərəfindən Nehrəm kəndində təşkil edilmişdir. Həmçinin o qeyd edir ki, Naxçıvan şəhərində yaşamış Balabəy adlı şəxs öz evində, xüsusi otaqlarda bədii sənətkarlıq nümunələri toplamışdı. Dövrün görkəmli ziyalısı olan Balabəy ilk dəfə olaraq şəxsi ev muzeyi (evdə yaradılmış muzey mənasında) təşkil etmişdi".



Əlimizdə olan materiallar ilk rəsm sərgilərinin-şəkil qalereyalarının da yurdumuzda ən əvvəl məhz Naxçıvan torpağında qurulduğunu təsdiq etməyə bizə əsas verir. Bu ilk sərgiləri Bəhruz Kəngərli öz ata evində - vəkil Şirəlibəyin mülkündə düzəltmişdi (indi burada B.Kəngərlinin ev muzeyi yerləşir).

Naxçıvan Dövlət Tarix Muzeyinin yaradılması ilə Naxçıvanda rəsmi qaydada muzeyşünaslığın ənənəsi qoyulmuşdur. Muzey 1924-cü ildə tarix-etnoqrafiya muzeyi kimi təşkil edilmişdir. İlk vaxtlar muzeyin maddi bazası əsasən qədim və orta əsrlərə aid məişət əşyalarından, toxuculuq məmulatlarından, silahlardan, saxsı qablardan (bardaq, kuzə) və digər əşyalardan ibarət idi. 1932-ci ildə Naxçıvan Tarix və Ölkəşünaslıq Muzeyinə çevrilmiş və yenidən qurulmuşdur. 1968-ci ilin dekabrından indiki adını daşıyır. Muzeyin təşkilində Naxçıvan şəhər sakinləri Balabəy Əlibəyov, Mirbağır Mirheydərov və başqalarının böyük əməyi olmuşdur. Muzeydə Naxçıvan Muxtar Respublikası ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış maddi mədəniyyət, tətbiqi sənət nümunələri, qədim numizmatika materialları, həmçinin milli geyimlər, bədii tikmə nümunələri və xalça məmulatları, qiymətli materiallardan hazırlanmış zinət, məişət əşyaları, rəssamlıq əsərləri və sairə nümayiş etdirilir.

Bu gün Naxçıvan Muxtar Respublika Ali Məclisinin sədri Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Vasif Talıbovun Naxçıvan Muxtar Respublikasına rəhbərliyi sayəsində Naxçıvan özünün ən yüksək inkişaf mərhələsinə çatıbdır. Bütün sahələrdə olduğu kimi Naxçıvan Muxtar Respublikasında Muzeyşünaslıq inkişafının zirvəsindədir. Hazırda Naxçıvan Muxtar Respublikasında Muzeylərin sayı 30-u keçib. Onlar muzeyşünaslığın bütün normalarını özündə təcəssüm etdirir.

Hazırda Naxçıvan Muxtar Respublikasında muzey quruculuğunda gedən sürətli inkişaf prosesi respublikamızda muzeylər şəbəkəsinin artmasına və muzeyşünaslığın inkişaf mərhələsində mühüm amilə çevrilməkdədir.

**Məmməd Əliyev**
***"Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq" kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru***

# ƏSRİN 90 İLİ

Hər bir xalqın tarixində onun ilk mətbu orqanının yaranmasının da böyük əhəmiyyəti olduğundan həmin gün zamanın bütün dönəmlərində böyük təntənə ilə qeyd edilir. Çünki qəzet kütlələr arasında ən saballı təbliğat vasitəsi kimi təsdiqlənmiş, bütün zamanlarda öz sözünü deməyi bacaran, təbliğatı vasitəsilə mənsub olduğu xalqın marrifləndirilməsində, insanlar arasında ziya nurunun yaradılmasında, savadsızlığın, avamlığın aradan qaldırılmasında dəyərli vasitə olmuşdur. Qəzet bütün dövrlərdə insanlara müasir dünyagörüşü bəxş etmiş, dövrün ziyalılarının üz tutduqları ocağa çevrilmiş, onların millətin ayılması üçün yazdıqlarının ümumi kütləyə çatdırılmasında yeganə vasitə olmuşdur.

Azərbaycan mətbuat tarixinin inkişafında Naxçıvan mətbuat məktəbi də özünəməxsus rol oynayır. 1921-ci ildən başlanan Naxçıvan mətbuat məktəbi öz fəaliyyəti ilə Azərbaycan milli mətbuatının inkişafına böyük töhfələr verib. Bir əsrlik ümumi tarixə malik olan Naxçıvan mətbuatında bölgə qəzetlərinin də özünəxas yeri var. Muxtar respublikanın bölgələrində - rayonlarda nəşr olunan qəzetlərdən biri də "Şərurun səsi" qəzetidir

“Şərurun səsi” adlanan Şərur rayon qəzeti 1931-ci ilin oktyabrında ilk sayı ilə oxucularla görüşüb. Qəzetin ilk adı “Pambığa doğru” olub. Qəzetin nəşrə başladığı ilk vaxtlar Naxçıvan şəhərinin sakini Qasım Tağıyev redaktor, sədərəkli Qədim Qədimov isə ədəbi işçi idi. Bir-neçə nömrə çapdan çıxandan sonra Qasım Tağıyevi rayon partiya komitəsinə şöbə müdiri vəzifəsinə irəli çəkirlər. Boş qalan redaktor vəzifəsinə isə Qarabağlar kəndinin sakini olan Nemət Əhmədov təyin edilir.

Qəzetin birinci nömrəsində “Qəzetin qarşısında duran vəzifələr”, “Su kanalı çəkilişi işini sürətləndirməli”, “Rayon İcraiyyə Komitəsi sessiyasının qərarı” və başqa sərlövhəli yazılar verilmişdi. Bu yazılar qəzetin məqsəd və vəzifələrini, hansı məsələlərdən daha ətraflı yazacağını çox aydın göstərirdi.

Rayon həyatının elə bir sahəsi yox idi ki, “Pambığa doğru” qəzeti ora yol açmamış olsun. Qəzet sosializm quruculuğundakı müvəffəqiyyətləri işıqlandırmaqla yanaşı israfçılığa, bürokratizmə, bir sözlə bütün mənfi hallara qarşı kəskin mübarizə aparırdı.

Nemət Əhmədovun redaktorluğu dövründə qəzetdə xüsusi canlanma başladı. Qəzetin adı ilə bağlı imiş kimi “pambıq uğrunda mübarizə” qəzetin fəaliyyət mərkəzində dururdu. 1932-ci ildə pambıq tarlalarında mitinq səsləmələri də bunu göstərirdi. Bir çox məqamlar isə daha çox satiranın dili ilə oxuculara çatdırılırdı.

“Pambığa doğru” 1932-ci il 10 sentyabr tarixli nömrəsində yazırdı: “Taxıl toplanışında olduğu kimi, pambıq toplanışında dəxi itki ilə mübarizə baş yer tutmalıdır”. Mitinqin birinci günü Sədərək kəndində əkilən 165 hektar pambığa söz verilir: “Biz, Sədərək kəndində 165 hektar pambıq iyul ayının əvvəllərindən açmağa başladıq. Amma buna baxmayaraq sentyabrın 10-dək bir kiloqram da pambıq yığılmamışdır”.

“Səhər açılan kimi... at, mal və heyvanlar içərimizdə qaçmağa başlayaraq açılmışlarımızı yedikləri bəs deyil, budaqlarımızı da qırırlar”. Bunun səbəbi də birdir: “Firqə, komsomol özəkləri bizi göz bəbəyi kimi müdafiə etmək uğrunda səhlənkarlıq edirlər”. Qəzet pambıq toplanışı işində yaranmış problemləri, yerli təşkilatların nöqsanlarını çox düzgün olaraq bacarıqlı bir surətdə ifşa edirdi.

Qəzet satirik “Mitinq” yazısında özü söz alıb “mitinq”ə belə yekun vururdu: “Pambığa doğru” qəzeti belə “mitinq”in bütün pambıq rayonlarında keçirilməsi məqsədilə “Şərq qapısı”, “Qızıl Tauz”, “Sosializm yolu”, “Pambıqçı”, “Pambıq zərbəçisi” və s rayon qəzetlərini də yarışa çağırmışdır. Münsifliyə rəhbərliyi isə “Kommunist” və “Yeni yol” qəzetlərini layiq bilmişdir”.

“Kommunist” qəzeti “Pambığa doğru”-nun bu təşəbbüsündən bəhs edərək özünün “Cavab verin” sərlövhəli mətbuat xülasəsində yazırdı: “...Biz “Pambığa doğru”nun təklifini qəbul edərək “arbitorluq” vəzifəsini öz üzərimizə götürür və yarışa çağırılan qəzetlərin cavab vermələrini gözləyirik”.

Qəzetdə verilən materilların günün hadisələri ilə səsləşməsi, maraqlı sərlövhə, başlıq və rubrikalardan istifadə olunması zəhmətkeşlər arasında qəzetin rəğbət qazanmasına səbəb olmuşdu.

1941-ci il iyunun 22-də alman-faşist işğalçılarının SSRİ-yə hücumundan sonra “Pambığa doğru” qəzetinin də hər bir nömrəsi rayon zəhmətkeşlərini ölüm-dirim mübarizəsinə səslədi. Ağır və dəhşətli müharibə illərində müqəddəs vətənimizi faşist taunundan qorumaq üçün xalqımızın yüz minlərlə oğlu və qızı ilə birlikdə bu torpağın da qəhrəman oğulları silaha sarılıb cəbhəyə yola düşərkən onlara ilk uğur diləyənlərdən biri də “Pambığa doğru” qəzeti oldu. “Hər şey cəbhə üçün!”, “Qəhrəmanlar ölmürlər”, “Onun rəşadəti” və sair rubrikalar altında gedən yazılar rayonun yüzlərlə qəhrəman övladının döyüş cəbhələrindəki misilsiz hünərindən, əzmindən, iradəsindən söz açdı.

Müharibədən sonra 1952-ci ilə qədər müxtəlif vaxtlarda qəzetə Həsən Hüseynov, Məhərrəm Xudiyev və Ələşrəf Tahirov kimi qabaqcıl partiya işçiləri redaktorluq etmişlər.

O dövrdə mətbuatın qarşısında daha böyük vəzifələr dururdu. Beşillik planın müvəffəqiyyətlə yerinə yetirilməsi uğrundakı mübarizəni durmadan genişləndirmək, zəhmətkeşləri sovet vətənpərvərliyi ruhunda tərbiyə etmək “Pambığa doğru”nun fəaliyyətini və məzmununu təşkil edirdi.

Rayonda pambıqçılıqla yanaşı kənd təsərrüfatının heyvandarlıq, tütün, taxıl, üzüm, qarğıdalı və başqa sahələri də güclü inkişaf




etdiyinə görə Azərbaycan KP MK-nin qərarı ilə 1954-cü il yanvar ayının 14-də üçüncü nömrədən başalayaraq “Pambığa doğru” qəzeti “Noraşen kolxozçusu” adı ilə çıxmağa başladı.

Qəzetin fəaliyyət dairəsi getdikcə genişlənir, oxucuların sayı isə artırdı. Əvvəllər həftədə bir dəfə 1000 nüsxə tirajla çıxan qəzet 1952-ci ildə 1100, 1958-ci ilin yanvar ayından isə 2000 nüsxə tirajla həftədə üç dəfə çıxmağa başladı. Qəzetdə “Partiya həyatı”, “Sovet quruculuğu”, “Komsomol həyatı”. “Bizə yazırlar”, “Satira guşəsi”, “Beynəlxalq icmal”, “Redaksiyanın poçtundan”, “Rayonumuzda” və sair daimi rubrikalarla yanaşı, “Yüksək məhsul uğrunda”, “10 500 ton pambıq uğrunda” rubrikaları da tez-tez rast gəlmək olar. “Noraşen kolxozçusu” qəzetinin müxtəlif illərdə buraxdığı nömrələrin miqdarı da müxtəlif olmuşdur. 1948-ci ildən 1958-ci ilə qədərki 10 il ərzində qəzet 1000 nüsxə tirajla çapdan çıxmışdır. 1948-ci ildə qəzetin 47 nömrəsi, 1949-cu ildə 52, 1950-ci ildə 58, 1951-ci ildə 50. 1952-ci ildə 82, 1953-cü ildə 94, 1954-cü ildə 108, 1955-ci ildə 98, 1956-cı ildə 100, 1957-ci ildə 99, 1958-ci ildə 101, 1959-cu ildə isə 74 nömrəsi çapdan çıxmışdır.

1952-ci il aprein 28-i isə “Pambığa doğru” qəzeti üçün daha əlamətdar olmuşdur. Məhz bu tarixdə qəzetin 1000-ci nömrəsi çapdan çıxmışdır. Ancaq təəssüflər olsun ki, bu tarixi günü nə “Pambığa doğru” qəzeti, nə də Naxçıvan Vilayət qəzeti olan “Şərq qapısı” kiçik bir xəbərlə də olsa qeyd etmədilər.

Qəzet 1958-ci ilin yanvarın 1-dən 2000 nüsxə tirajla, 3 gündən bir çıxmağa başladı. Bu vaxt redaksiyanın təşkilat işini canlandırmağı, qəzetin vaxtlı-vaxtında oxunaqlı və maraqlı nəşrinə rəhbəliyi təcrübəli redaktor Hüseyn Əbdülhüseynov edirdi.

Sovet İKP MK 1959-cu il iyulun 31-də “Qəzet və jurnalların zərərlə işləməsinə son qoymaq haqqında” qərar qəbul etdi. Qərarda göstərilir ki, “Azərbaycan, Gürcüstan, Tacikistan və Özbəkistan Kommunist Partiyaları MK-lərinə tapşırılsın ki, muxtar respublikalarda və muxtar vilayətlərdə bundan sonra rayon qəzetlərinin buraxılmasının məqsədəuyğun olub-olmaması məsələsini müzakirə etsinlər və nəzərdə tutsunlar ki, orada nəşr olunan respublika və vilayət qəzetləri rayonların həyatının işıqlandırılmasını tamamilə təmin edə bilər”. Bu qərarla əlaqədar olaraq 1959-cu ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikasının rayonlarında çıxan bütün qəzetlərin, o cümlədən “Noraşen kolxozçusu” qəzetinin nəşri dayandırıldı. Həmin dövrdə muxtar respublikanın rayonlarında “Noraşen kolxozçusu”ndan başqa üç qəzet nəşr olunurdu. Ordubad rayonunda “Ordubad işçisi”, Culfa rayonunda “Sovet Culfası” və Şahbuz rayonunda “Sosializm maldarlığı” qəzetləri.

“Partiyamızın ən güclü silahı olan, ölkəmizin bütün zəhmətkeşlərinin həyati mənafeyini ifadə edən sovet mətbuatı tamamilə yeni tipli mətbuatdır. Məhz buna görə Sovet İKP MK Rəyasət heyətinin qərarına əsasən rayon qəzetləri yenidən bərpa olunmuşdur. Həmin qərara əsasən 1966-cı ilin yanvar ayından Naxçıvan Muxtar Respublikasında “Yei Ordubad”, “Zəfər”, “Qabaqcıl” və “İşıqlı yol” qəzetləri çıxmağa başlamışdır”.

1966-cı il yanvarın 27-də Azərbaycan KP İliç Rayon Komitəsi və Rayon Zəhmətkeş deputatları Soveti İcraiyyə Komitəsinin orqanı olan “İşıqlı yol” qəzeti nəşrə başladı. “İşıqlı yol”un ilk nömrəsinin “İşıqlı məşəl kimi...” adlı baş məqaləsi rayon zəhmətkeşlərinə müraciətlə: “Əziz oxucular!” sözləri ilə başlanır. Həmin baş məqalə bu sözlərlə tamamlanır: “Qoy bugündən nəşrə başlayan “İşıqlı yol” partiya və hökumətimizin qarşıya qoyduğu əzəmətli vəzifələri yerinə yetirməkdə bizə kömək edən məşəl kimi alışsın, həmişə yolumuza işıq salsın!”

1966-cı il SSRİ Ali Sovetinə və Millətlər Sovetinə seçkilər dövrü idi. Qəzet bu siyasi kompaniyanı geniş işıqlandırmaq üçün bir sıra tədbirlər görmüşdür. Qəzetin əməkdaşları yerlərdə seçicilərlə görüşür, “Xalq namizədləri”, “Bizim namizədlər” rubrikası adı altında vaxtaşırı işıqlandırırdı. “İşıqlı yol” qəzeti redaksiyasının müxbir postları üzvlərinin sayı getdikcə artırdı. Maraqlı məqam burasında idi ki, müxbir postları üzvlərinin əksəriyyəti bilavasitə istehsalatda çalışan əmək adamları idi.

1974-cü il yanvarın 22-də “İşıqlı yol” qəzetinin 1000-ci nömrəsi çapdan çıxdı. Bu münasibətlə İliç rayon Partiya Komitəsinin ikinci katibi Rəhim Cavadovun iştirakı ilə təntənəli yığıncaq da keçirilmişdi. Azərbaycan KP İliç Rayon Komitəsinin və rayon Zəhmətkeş Deputatları Sovetinin orqanı olan “İşıqlı yol” qəzetinin 20 yanvar 1974-cü il tarixli 9-cu nömrəsi qəzetin 1000-ci nömrəsinin çapdan çıxmasına həsr olunmuşdu.

Nəşrinin ilk dövründə həftədə 3 dəfə 3000 nüsxə tirajla çıxan “İşıqlı yol” qəzeti 1966-cı ildə 95 nömrə, 1967-1968-ci illərdə 128 nömrə, 1969-cu ildə 4000 nüsxə tirajla 121 nömrə, 1970-ci ildə 4200 nüsxə tirajla 120 nömrə, 1971-ci ildə 3700 nüsxə tirajla 133 nömrə, 1972-ci ildə 138 nömrə, 1973-cü ildə isə 3600 nüsxə tirajla 136 nömrə çıxmışdır.

“Şərurun səsi” qəzeti üçün ən çətin dövrlər 1988-1993-cü illərdə olmuşdur. Həmin vaxtlar respublikada nəşr olunan bütün mətbu orqanların vəziyyəti, demək olar ki, eyni dərəcədə acınacaqlı idi. Mətbuata dövlət səviyyəsində fikir verilmirdi.

Belə şəraitdə öz ənənələrinə sadiq qalaraq, yenə də düzü-düz, əyrini-əyri yazan “Şərurun səsi”nə də təzyiqlər təbii ki, çox idi. Qəzetdən öz istəklərinə uyğun istifadə etməyə çalşan “meydan qəhrəmanları” buna nail ola bilmədiklərindən, daha doğrusu, obyektivliyi, həyata düz baxışı, jurnalist etikasını hər şeydən üstün tutan qəzet əməkdaşlarının iradələrini qırmağı bacarmadıqlarından tez-tez redaksiyaya əli silahlı təzyiqlər göstərilir, onları iş otaqlarından çıxarıb qapıları bağlayır və öz istəkləri çərçivəsinə salmağa çalışırdılar. Həmin illəri xatırlayanlar yaxşı bilirlər ki, məhz bu səbəblərdən, vaxt olub ki, həftələrlə redaksiya və mətbəə işçiləri gündüzlər deyil, məhz gecələr işləməyə məcbur olub və öz oxucuları ilə vaxtaşırı görüşə bilirdilər.

Müxtəlif vaxtlarda qəzetə Yengicə kənd sakinləri Xəlil Məhərrəmov və Novruz Nəcəfov, Nəriman Nəcəfov, Mahmudkənddən olan Hüseynqulu Ağayev və Həsən Hüseynov, çomaxturlu Ələşrəf Tahirov, Yuxarı Daşarx kənd sakini Hüseyn Əbdülhüseynov, Cəlilabad royundan olan Mikayıl Əliyev redaktorluq etmişdir. Hazırda qəzetə Azərbaycan Respublikasının Əməkdar jurnalisti Elman Telmanoğlu (Məmmədov) redaktorluq edir.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu sahədə də vəziyyət dəyişdi, təzyiqlərə son qoyuldu, qəzetlərə qayğı və diqqət dövlət səviyyəsində həyata keçirilməyə başladı. Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” 29 mart 2000-ci il tarixli sərəncamı muxtar respublikamızda mətbuatın inkişafına göstərilən qayğının ən bariz nümunəsi kimi özünü göstərdi. Bu diqqətdən yeni adla nəşr olunan “Şərurun səsi” qəzetinə də pay düşdü.

“Şərurun səsi” qəzeti üçün ən əlamətdar tarixlərdən biri 2006-cı ildə oldu. Həmin il qəzetin 75 illik yubileyi geniş şəkildə qeyd olundu. Qəzetin 2006-cı il 2 noyabr sayı yubileyə həsr olunmuşdur. Qəzetin ilk səhifəsində Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun “Şərurun səsi” qəzetinin kollektivinə təbrik məktubu dərc olunub. Məktubda deyilir: “Azərbaycanın mətbuat tarixində özünəməxsus dəst-xətti və mövqeyi ilə seçilən “Şərurun səsi” qəzeti fəaliyyət göstərdiyi bütün dövrlərdə xalqımızın milli dəyərlərini təbliğ etmiş, Şərur rayonunda gedən quruculuq işlərinin salnaməsinə çevrilmişdir”.

Qəzetin yubiley nömrəsində akademik İsa Həbibbəylinin, Naxçıvan Mətbuat Şurasının o zamankı sədri Fərəc Fərəcovun təbrik məktubları da yer alıb. Yubileyin keçirildiyi 28 oktyabr tarixinin proqramı da qəzetin məhz bu sayında öz əksini tapmışdı.

Bu il isə “Şərurun səsi” qəzetinin nəşrə başlamasının 90 ili tamam olur. 90 illik tarixə malik bu rayon qəzeti Şərur elinin həyat ritmidir. Şərur torpağı məhz bu ritmdə öz əksini tapır və torpağının inkişafını, tərəqqisini özünü sevənlərə çatdırır.

**Məmməd Babayev**
***“Jurnalistika və xarici ölkələr ədəbiyyatı” kafedrasının müəllimi***

# SOSİAL ŞƏBƏKƏLƏR: “QEYBƏT” MÜSTƏVİSİNDƏN “TƏHSİL” MÜSTƏVİSİNƏ KEÇİD

Cəmiyyətin son onilliklərdə inkişaf səviyyəsi, onun informasiya-texnoloji bazası, kompüter texnikasında, proqramlaşdırma texnologiyalarındakı kəskin sıçrayış və başlıca olaraq yeni rabitə vasitələrinin əmələ gəlməsi yeni təhsil texnologiyalarının axtarışına təkan verib. Müasir təhsil modelinin hazırlanması problemi yeni, rahat təşkilati formaların tapılmasından, təkcə müəllim-şagird səviyyəsində deyil, sistemin müxtəlif səviyyələrində təhsil prosesinin açıqlığını saxlamaq və inkişaf etdirməkdən ibarətdir.

Yeni təhsil modelində əsas məsələ -pedaqoqun və təhsil alanın özünü qiymətləndirməyə, analizə, inkişaf etdirməyə fərdi diqqət göstərməsidir. Yeni paradiqma təhsilə sərbəst varlıq kimi baxır. Yeni təhsil paradiqmasının yaradılmasının məqsədi - bazar iqtisadiyyatı şəraitində öztəhsil və mədəniyyət səviyyəsini artıran, müasir dünya informasiya fəzasına inteqrasiya olunma qabiliyyətinə malik, sərbəst, kritik düşünən şəxsiyyətin inkişafına şəraitinin yaradılmasıdır.

İnformasiya texnologiyalarının müasir cəmiyyətə güclü təsiri ənənəvi ünsiyyət vasitələrinin köklü dəyişməsinə səbəb olub. İnternet müxtəlif mədəniyyətlərarasında maneəsiz ünsiyyət məkanına çevrilib.

Müasir cəmiyyətin reallıqları daxilində ən aktual problem sosial-şəbəkə mədəniyyəti fenomeninin öyrənilməsidir.

Müxtəlif sosial praktikaları həyata keçirməyə imkan verən informasiya-kommunikasiya mədəniyyətinin seçilən kommunikasiya vasitələrindən biri virtual fəzada sosial əlaqə və münasibətlərin qurulması və təşkilinə xidmət edən interaktiv çoxistifadəçili veb-servislər olan sosial şəbəkələrdir.

Müasir sosial şəbəkələr insanları “onlayn” rejimdə müxtəlif maraq dairələri çərçivəsində birləşdirərək onlar arasında ümumi və fərdi qarşılıqlı əlaqələr əmələ gətirir. Sosial şəbəkələrdən istifadə edənlər təkcə hər hansı bir konteti öz səhifəsində çap etdirmir, həmçinin əlavə yazılara, çaplara baxaraq bəyənməsi haqqında rəy bildirir. Sosial şəbəkələrin mediafəzasında hər kəsdə mənəvi prinsiplərə sadiqlik olmur, çünki bu fəzada təkcə bir ölkənin, bir mədəniyyətin və xalqın nümayəndələri iştirak etmir. Hər birinin öz mədəniyyət səviyyəsi olmaqla yanaşı, sosial-şəbəkə “etikası” var. Qlobal nöqteyi-nəzərdən baxsaq yaxın keçmişə qədər sosial şəbəkələr ancaq “qeybət” obyekti olaraq istifadə olunduğunu görərik.

Muxtar respublikamızda sosial şəbəkələrin milli-mənəvi dəyərlərimizin, tariximizin və dövlətçiliyimizin geniş təbliğat obyektinə çevrildiyinin şahidi oluruq.

Sosial şəbəkələrin müasir vəziyyəti onun istifadəçilərində öz mədəniyyətini, dünyagörüşünü və dəyərlərini göstərmək üçün geniş imkan yaradır.




Son illər dünyada cəmiyyətdə sosial şəbəkələrin təhsildə tətbiqi məsələləri geniş müzakirə olunur. Şərtsiz ki, sosial şəbəkələr yeganə şəbəkə təlimi kimi ola bilməz, lakin onların təhsil və təlim imkanları tam olaraq qiymətləndirilməyib.

Son aylar COVİD-19 virusu ilə qlobal mübarizə şəraitində karantin rejimi ilə əlaqədar olaraq təhsil müəssisələrinin öz fəaliyyətini şəbəkələr vasitəsilə davam etdirməsi bir daha sosial şəbəkələrin rolunun dəyişərək “təhsil müstəvisinə” keçidi aktual məsələ olubdur. Sosial şəbəkələrin təhsil məqsədilə tətbiq olunmasının bir sıra müsbət aspektlərinin aşkara çıxdığının şahidi oluruq. İlk növbədə bu tələbələr üçün rahat və vərdiş etdikləri bir mühitdir. Bu şəbəkələrin xarici görünüşü, onlarda iş artıq tələbələrə tam aydındır. Bu proqramlarla necə işləməyi artıq onlara öyrətməyə ehtiyac yoxdur. Qeyd etmək lazımdır ki, son dövrə qədər müəllim tərəfindən yaradılan veb-resurslara tələbələr tərəfindən daxil olmaları az olurdu. İndi demək olar ki, artıq tələbə sosial şəbəkələrin əyləncə vasitəsi deyil, onun gələcək peşəkar fəaliyyətinin təşkilinin güclü vasitəsi olduğunu anlayır.

Qarşılıqlı əlaqənin müxtəlif geniş imkanlar diapazonu birgə işin təşkilinə imkan yaradır. Təhsil prosesində sosial şəbəkələrin istifadə olunmasının əhəmiyyətli müsbət cəhəti müəllimlərin kommunikasiya məsələlərinin həyata keçirilməsində iştirak etməsidir.

Sosial şəbəkələrin təhsil prosesində istifadə olunması maraqlı məqamlardan biri istifadəçilərin saxta adlardan deyil, öz adlarından istifadə etmələridir.

Sosial şəbəkələr tələbələrə öyrəndiklərini təkcə müəllim və tələbə yoldaşları ilə deyil, bütün dünya ilə paylaşa bilmə imkanı verir. Bundan başqa, onlayn dərslərə üçüncü şəxslərin – ekspertlərin, mütəxəssislərin və digərlərinin cəlb olunması da mümkündür.

Muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrində müxtəlif platformalardan istifadə edərək onlayn dərslərin təşkili və keçirilməsi müəllim-tələbə, tələbə-tələbə qarşılıqlı əlaqəsi ilə yanaşı müəllim-valideyn qarşılıqlı əlaqəsinin möhkəmlənməsinə rəvac veribdir. Artıq valideynlər öz övladlarının dərslərdə necə iştirak etdiklərinin, necə cavab verdiklərinin şahidi olmaqla yanaşı, müəllimlərin də hansı səviyyədə dərsləri izah etdiklərinin şahidi olurlar. Öz fikir və təkliflərini isə bilir və bilavasitə onlayn dərslərin iştirakçısına çevrilirlər.

Sosial şəbəklərdə müxtəlif qrupların yaradılması və müəllimlərin bu qruplara daxil olması həm pedaqoji baxımdan, həm də mənəvi və tərbiyəvi baxımdan böyük rol oynayır. Artıq müəllimlər tələbələrlə eyni sosial şəbəkə qruplarında birgə fəaliyyət göstərə bilir, onlara düzgün istiqamət verə bilirlər.

Biz artıq “həyat üçün təhsildən” “həyat boyu təhsilə” keçirik. Sosial şəbəkələrdə müəllim və tələbələrin onlar üçün rahat vaxtda daimi qarşılıqlı əlaqə imkanı tədris prosesinin kəsilməzliyini təmin edir. Burada hər bir tələbə ilə fərdi işin təşkili imkanı əmələ gəlir. Bundan başqa ümumi keçirilən dərslərdən sonra tələbələr bir-biri ilə və müəllimlə qarşılıqlı əlaqədə olaraq dərs materialını müzakirə edə və bununla da tədris prosesində daha çox vaxt keçirə bilərlər. Sosial şəbəkədə tədris kursunun informasiya dəstəyi dərslərdə müəyyən səbəblərdən iştirak etməyən tələbələrə tədris prosesindən kənarda qalmama və müzakirələrdə iştirak edərək tapşırıqları yerinə yetirmə imkanı verir.

Sosial şəbəkələr vasitəsilə təhsilalma bəzi texniki çətinlikləri də aradan qaldırır, belə ki, tələbələr onlayn rejimdə əyani materialları elektron formada nümayiş etdirmək, offlayn rejimdə faylları yükləmək və onu sonra öyrənmək imkanı əldə edir.

Təcrübə göstərir ki, distant təhsil alan şagird daha müstəqil, məsuliyyətli və çevik olur. Çünki bu keyfiyyətləri olmasa o, sadəcə oxuya bilməz. Bu keyfiyyətlər əvvəlcədən olmasa belə, təhsil almağa olan istək təlimin sonunda onları əmək bazarının tələblərinə tam cavab verən mütəxəssislər kimi yetişə bilərlər.

Beləliklə, sosial şəbəkələri istifadə etməklə tədris və tərbiyəvi proseslərdə tələbə və müəllim qarşılıqlı əlaqəsi daha sıx olur. Sosial şəbəkələrin tədris prosesində istifadə olunması fəaliyyətin fərdə, onun baza və fərdi tələblərinə, potensial imkanlarının açılmasına şəraitin yaradılmasına istiqamətlənib.

Sosial şəbəkə vasitəsilə onlayn və offlayn dərsləri yay tətili müddətində də davam etməklə kəsilməz təhsili daha da inkişaf etdirə bilərik.

**Vüqar Salmanov**
***“İnformatika” kafedrasının dosenti, riyaziyyat üzrə fəlsəfə doktoru***

# KÜTLƏVİ İNFORMASİYA SİSTEMLƏRİNDƏ SOSİAL ŞƏBƏKƏLƏR

Bu gün internet mühitində ən populyar layihələrdən biri sosial şəbəkələrdir və günümüzdə aktual məsələlər sırasındadır. Müsbət və ya mənfi yönümlü olmasından asılı olmayaraq, demək olar ki, hər birimiz bu şəbəkələrdən istifadə edirik. Aydın məsələdir ki, şəbəkənin inkişafı informasiya bolluğuna, ünsiyyət prosesinin daha optimal və rahat olmasına şərait yaradır. Sosial şəbəkələrin simulyasiyasında, şəbəkənin üzvlərinin qarşılıqlı təsiri, fikirlərinin dinamikası nəzərə alınmaqla, təsir şəbəkələri kimi, onların təhlilinə ehtiyac var. İnformasiya və telekommunikasiya texnologiyalarının inkişafı ilə yeni növ resursların - onlayn sosial şəbəkələrin əhəmiyyəti xüsusilə, son illər ərzində şəbəkə istifadəçilərinə təsir edən fikirlərin yayılması vasitəsi kimi əhəmiyyətli dərəcədə artır.

Sosial şəbəkə – sosial obyektlər (adamlar və ya təşkilatlar) çoxluğu və onlar arasındakı əlaqələr (münasibətlər) çoxluğundan ibarət sosial strukturdur. Sosial obyektlərə şəbəkənin qovşaqları deyilir. Sosial əlaqələrə qovşaqlar arasında qarşılıqlı kommunikasiya əlaqələrini, müxtəlif resursların mübadiləsini, müzakirələri və s. misal göstərmək olar. Sosial şəbəkə termin kimi ilk dəfə 1954-cü ildə Mançester məktəbinin sosioloqu Ceyms Barns tərəfindən istifadə edilmişdir. Termin bir-biri ilə tanış insanların əhatə dairəsini göstərmək məqsədilə istifadə edilirdi. Hər bir istifadəçi sosial şəbəkənin mərkəzi, onun tanışları isə budaqları, onlar arasında münasibətlər isə əlaqələrdir. İnternet mühitində sosial şəbəkə dedikdə eyni marağa malik insanların toplandığı interaktiv, çoxistifadəçili veb-sayt nəzərdə tutulur. Avtomatlaşdırılmış sosial mühit olan bu sayta məlumatlar hər hansı bir qrupda birləşmiş internet istifadəçilərinin özləri tərəfindən daxil edilir. Müasir həyatımızın ayrılmaz bir parçasına çevrilən sosial şəbəkələrin geniş arenada yayılması prosesi XX əsrin 90-cı illərindən başlayır. Dünyada ilk yaradılmış sosial şəbəkə 1995-ci ildə əsası qoyulmuş, eyni təhsil ocaqlarını bitirmiş insanları bir araya gətirmək məqsədilə yaradılan “classmates.com” saytı olmuşdur. Layihənin sxemi əsasında 1999-cu ildə AsianAvenue.com, 2000-ci ildə MiGente.com, 2002-ci ildə sosial şəbəkələrdə ciddi dönüş yaradan Friendster və s. kimi bir çox sosial şəbəkələr yaradılmışdır. XXI əsrin əvvələrindən etibarən isə sosial şəbəkələrin beynəlxalq informasiya məkanında yayılması daha da sürətləndi. 2002-ci ildə “Linkedin”, 2003-cü ildə “MySpace”, 2004-cü ildə “Facebook”, 2005-ci ildə “Youtube”, 2006-cı ildə “Twitter”, 2010-cu ildə “İnstagram” və digər sosial şəbəkələrin yaradılması ilə beynəlxalq informasiya cəmiyyətində sosial axınların yeni mərhələsinə keçildi.




Teorik determinizm nəzəriyyəsi, texnoloji inkişaflar yolu ilə ünsiyyət üsullarının dəyişikliyin bütöv bir cəmiyyətə necə təsir göstərdiyini izah etməyə çalışır. Bu nəzəriyyəyə əsasən, media texnologiyası bir cəmiyyətin əsrlərdən digərinə köçürdüyü zaman cəmiyyətin necə fəaliyyət göstərdiyini, necə təsir etdiyini, necə hərəkət etdiyini və necə düşündüyünü təsvir edir.

Virtual dünya yaradılması ilə fərdlər qarşılıqlı əlaqə qurma imkanına sahibdirlər. Bu əlaqələrin təbiətindəki dəyişikliklər, onlayn münasibətlərin qəbul edilən keyfiyyətini ölçmək maraqlıdır. Biznes sistemi insanlar və ya maşınların müştərilər üçün xüsusi məhsul və xidmətlər istehsal etmək üçün resurslardan istifadə edən proseslər və fəaliyyətlər həyata keçirən bir sistemdir.

Sosial şəbəkə bütün dünyada sürətli bir artım tempi ilə inkişaf edir və bir çox istifadəçi media axınlarını birləşdirir. Qrafik vizuallaşdırma, mürəkkəb informasiyaları anlamaq üçün effektiv bir üsuldur. Mövcud vəziyyət, istifadəçilərin və kompleks əlaqələrin sayəsində ənənəvi şəbəkə vizualının həddən artıq olmasıdır. Ümumiyyətlə, sosial media insanların istifadəçiləri haqqında çoxlu məlumatları olan sosial mülkiyyət növüdür. Sosial media bir çox imkan yarada bilər, məsələn, bren kommunikasiyası, reklam marketinqi. Ancaq praktik olaraq bir-birinə bağlılıq ünsiyyət demək deyil. Fikir və reklamı diqqətə çatdırmaq üçün sosial şəbəkələrdə faydalı linkləri müəyyənləşdirmək lazımdır.

Sosial şəbəkələr ən populyar internet resurslarından biridir. Kiçik bir sosial şəbəkənin yaradılması hətta informasiya texnologiyaları sahəsində də bilik tələb edən uzun və mürəkkəb bir proses hesab edilir. Lakin qaydalara riayət etmək və aktiv mövqe tutmaq lazımdır. Kütləvi kommunikasiya sistemində sosial şəbəkələr müzakirə olunur. Bunun əsas səbəbi onların media sistemində rolu və əhəmiyyətinin müəyyən olunması üçün onları araşdırmaqdan ibarətdir. Hazırkı dövrdə sosial şəbəkələr, tələbələrin sosial, təhsil və iş həyatının tərkib hissəsidir. Sosial şəbəkə proqramının istifadəsinin təbiətini öyrənmək əhəmiyyətli praktik və akademik dəyərləri əks etdirir. İnformasiya texnologiyası insanların ünsiyyət qurma üsulunu dəyişir. Gənc əhali, xüsusilə 18-25 yaş qrupu arasında e-poçt artıq köhnə bir ünsiyyət mexanizmi olaraq qəbul edilir. Statistikaya görə, proqramların sosial şəbəkələrə təsirləri çox daha yüksəkdir.

Yeri gəlmişkən, hər bir sahəyə təsir edən, mövcud COVİD-19 pandemiyası “İnternet və sosial şəbəkələrdən istifadə vərdişləri”nə də təsirsiz ötüşmədi. Bununla bağlı beynəlxalq “We Are Social və Hootsuite” təşkilatlarının Digital in 2021 adı altında nəşr olunan hesabatında, rast gəldiyimiz maraqlı statistika və müqayisəli təhlili dəyərli oxucularımızla bölüşmək istədik:

“We Are Social və Hootsuite” təşkilatları bir neçə ildir ki, internet və sosial şəbəkələrdən istifadə statistikasını ətraflı şəkildə özündə əks etdirən araşdırmalar dərc edir. Pandemiyadan əvvəl ildə 3-4 dəfə mütəmadi olaraq aparılan bu tədqiqat işləri, pandemiya prosesində bir qədər gecikdi. Məsələn, ölkələr əsasında nəşr olunan son hesabatın tarixi 2020-ci ilin yanvarı idisə, dünyadakı statistikaların sonuncusu 2021-ci ilin yanvar ayına təsadüf edir. Bu hesabat, pandemiya prosesində internet və sosial mediadan istifadə vərdişlərinin böyük ölçüdə dəyişdiyini ortaya qoyur.

“Digital in 2021” adı altında nəşr olunan hesabata görə, dünya əhalisinin 54% -i (təxminən 4.2 milyard insan) aktiv sosial şəbəkə istifadəçiləridir. Bu rəqəm bir əvvəlki illə müqayisədə 490 milyon artıb. Başqa sözlə, pandemiya prosesində keçirdiyimiz ilk ildə, dünyada təxminən yarım milyard daha çox insan sosial şəbəkə istifadəçisinə çevrilib. 2016-cı ildən bəri müqayisədə, bu adambaşına ən yüksək artımın yaşandığı ildir.

Statistikaya nəzər salsaq, il ərzində dünyanın ən çox ziyarət edilən saytının, illərdir ki, liderliyini qoruyub saxlayan “Google” olduğunu görərik. Təbii ki, bu gözlənilməz deyil. Ancaq ən çox ziyarət edilən 20 saytın siyahısına baxdığımızda pandemiya dövrünün təsirini görmək mümkündür. “Youtube” 2019 və 2020-ci illərdə ən çox ziyarət edilən 20 sayt siyahısında 2-ci yerdədir. Bununla birlikdə, “YouTube”da sərf olunan ortalama vaxtın bir əvvəlki ilə nisbətən daha çox artdığı da diqqət çəkən məqamlardan biridir. Eyni şəkildə bu iki siyahıda artan saytlardan biri də gözləntilərin özünü doğrultduğu kimi “Netflix”dir. Dünyada onlayn alış-veriş baxımından ən çox seçilən platformalardan biri olan “Amazon”, siyahıda 13-cü yerdən 9 -cu yerə yüksəlib. Bu statistikada ən diqqət çəkən platforma, əlbəttə ki, “Zoom” platforması oldu. 2019-cu ildə ən çox ziyarət edilən 20 veb saytın siyahısına daxil olmayan bu platforma, 2020-ci ildə bu siyahıya birbaşa 18-ci yerdən daxil oldu. Bu proqramdan istifadə edərək, mövcud pandemiya şəraitində dərslərimizi onlayn olaraq keçməklə mövcud vəziyyəti qiymətləndirmək də yerinə düşərdi. Bundan əlavə, “Zoom” platformaların ortalama istifadə müddətinə görə 6-cı yerdə qərarlaşıb. Başqa sözlə, pandemiya prosesində ən çox vaxt sərf etdiyimiz platformalar “Facebook”, “Youtube”, “Google”, “Amazon”, “Baidu” (Uzaq Şərqdə istifadə olunan veb axtarış sistemi) və “Zoom”dur.

Sosial media və video izləmə platformalarına sərf olunan ortalama vaxtın statistikasına görə, istifadəçinin bir ay ərzində Youtube-da keçirdiyi ortalama vaxt 23.2 saatdır. Başqa sözlə, “Youtube”da 1 ay ərzində təxminən bir gün keçiririk. Siyahıda digər vaxt platformaları “Netflix” (7 saat), “Youtube Kids” (6.2 saat), “Twitch” (5.1 saat), “Amazon Prime Video” (3.7 saat).

“YouTube” haqqında daha bir maraqlı statistika isə, bu platformada qeydiyyatdan keçənlərin ümumi sayı 2 milyarddan çoxdur və gündə 1 saat ərzində 1 milyard video izlənilir. Baxılan videoların 70% -i isə mobil cihazlardan izlənilir.

**Əli Səbzəliyev**
***“İnformatika” kafedrasının baş müəllimi***

# MƏDƏNİYYƏTLƏRARASI ÜNSİYYƏT FƏNNİNİN TƏDRİSİ DİL DƏRSLƏRİNİN BAŞLICA MƏQSƏDİ KİMİ



Təhsil cəmiyyətin və dövlətin inkişafında mühüm rol oynayan, strateji əhəmiyyəti ilə fərqlənən fəaliyyət sahəsidir. Azərbaycan müstəqillik əldə etdikdən sonra dünya birliyinə inteqrasiya meyillərinin artması, beynəlxalq əməkdaşlığın genişlənməsi xarici dillər sahəsində müvafiq kompetensiyalara malik gənc nəslin formalaşdırılmasını daha zəruri etmişdir. Bu amil isə xarici dillərin tədrisinin təkmilləşdirilməsini, beynəlxalq təcrübədə uğurla istifadə olunan metodikaların ölkəmizdə də tətbiqini xeyli aktuallaşdırmışdır.

Xarici dilləri bilmək o dillər vasitəsilə digər xalqlarla ünsiyyət qurmağa imkan verir, ki, bu da insanları bir-birinə yaxınlaşdırır, mədəniyyətlərarası dialoqun qurulmasına, başqa sözlə, digər xalqları yaxından tanımağa, ölkəmizi və xalqımızı başqa xalqlara tanıtdırmağa şərait yaradır.

Heç təsadüfi deyil ki, bu gün Azərbaycan dünyaya zəngin milli-mədəni dəyərlər verməklə yanaşı, həm də mədəniyyətlərarası ünsiyyət, anlaşma məkanı kimi tanınır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin haqlı olaraq qeyd etdiyi kimi, “Azərbaycanın əsas prioritetlərindən biri milli adət-ənənələrimizin təmin olunması şərtilə dünya birliyinə inteqrasiya etməkdir”.

Mədəniyyətlərarası səriştənin formalaşdırılması və mədəniyyətlərarası ünsiyyətin tədrisi, ümumi olaraq, dil tədrisinin məqsədi kimi o qədər də diqqət mərkəzində olmamışdır. Bu da bir çox amillər, hər şeydən əvvəl, xarici dil tədrisinin sosial-mədəni konteksti ilə şərtləndirilir.

Müasir zamanda mədəniyyətlərarası ünsiyyətin tədrisi bir çox Avropa ölkələrinin tədris proqramlarında müxtəlif səviyyələrdə, o cümlədən pedaqoji kadrların hazırlanması səviyyəsində üstünlük təşkil edir. Artıq bir neçə ildir ki, ölkəmizdə təhsil sahəsində islahatlar aparılır, ümumi təhsilin məzmunu - tədris planları, fənn proqramları, dərsliklər və dərs vəsaitləri, elmi-metodik, elmi-kütləvi ədəbiyyatlar yeniləşdirilir, milli və ümumbəşəri dəyərlərlə zənginləşdirilir. Mədəniyyətlərarası ünsiyyət fənninin tədrisinin artıq bizim universitetlərin tədris proqramlarında öz əksini tapması bu sahədə atılmış ən mühüm addımlardan biridir. Çünki mədəniyyətlərarası dialoq üçün vacib olan bacarıqlar avtomatik olaraq tezliklə əldə olunmur. Bu iş uzun və sistemli şəkildə, həmişə öyrənilməli, tədbiq edilməli, öyrədilməli və qorunmalıdır. Ali təhsil ocaqları mədəniyyətlərarası dialoqun tətbiq edildiyi əsas məkandır və bu tip təhsil müəssisələri cəmiyyətdə təhsil proqramları vasitəsilə mədəniyyətlərarası dialoqa şərait yaradılmasında mühüm rol oynayan bir yerdir.

Azərbaycan çoxmillətli ölkədir, bura müxtəlif millətlər və xalqların qarşılıqlı anlaşma şəraitində yaşadığı və fəaliyyət göstərdiyi bir məkandır. Mədəniyyətlərarası dialoq çoxmədəniyyətli cəmiyyətimizdə sosial birliyin əsas dayaqlarından biridir. Mədəniyyətlərarası ünsiyyət müxtəlif millətləri və xalqları bir-birinə yaxınlaşdırır, mövcud maneələri aradan qaldırır, əlaqələri daha da möhkəmləndirir və müxtəlif mədəniyyətli cəmiyyətlərin siyasi, sosial, mədəni və iqtisadi inteqrasiyasına və birləşməsinə imkan yaradır.

Respublikamızın təhsil sistemində həm təhsil alanlar, həm də təhsil verənlər müxtəlif millətlərə və mədəniyyətlərə mənsub insanlardır. Tələbələri digər xalqların mədəniyyəti, incəsənəti, elm nümayəndələri, görkəmli insanlarının yaradıcılığı, o xalqların yaşam tərzi, sosial-mədəni inkişafı ilə tanış etməkdə mədəniyyətlərarası ünsiyyətin tədrisi böyük imkanlara malikdir. Tələbələr mədəniyyətlərarası ünsiyyətin tədrisi prosesində ölkəmizdə və dünyada yaşayan xalqların və millətlərin dili, ədəbiyyatı, mədəniyyəti, tarixi, coğrafiyası, flora və faunası, milli mənəvi dəyərləri, folklor nümunələri, inancları - dinləri ilə tanış olurlar. Bu tanışlıq tələbələrin digər xalqlar haqqında təsəvvürlərini genişləndirir, onları bir-birinə yaxınlaşdırır.

Müasir zamanda isə, müxtəlif səviyyəli mütəxəssislərin, xüsusilə xarici dil müəllimlərinin, mədəniyyətlərarası ünsiyyət imkanlarının genişləndirilməsi şəraitində kifayət qədər formalaşmış peşəkarlıq aspektinə ehtiyac duyulur. Mədəniyyətlərarası ünsiyyətin tədrisi tələbədə ünsiyyət və kommunikasiya əlaqələrini genişləndirir, dünyaya yeni baxış formalaşdırılmasına zəmin yaradır, müxtəlif xalqların və dövlətlərin ictimai-siyasi, iqtisadi, elmi-mədəni həyatı haqqında biliklərin əldə olunmasına imkan verir. Bu da onların gələcəkdə qloballaşan dünyada digər millətlərin nümayəndələri ilə ünsiyyət və əməkdaşlıq yaratmaq, vətənimizin davamlı inkişafını təmin etmək baxımından fəaliyyət göstərmələri üçün çox vacibdir.

Azərbaycan xalqının mədəniyyətlərarası əlaqələrin genişlənməsində və möhkəmləndirilməsində xüsusi rolunu nəzərə alaraq ümummilli liderimiz, ulu öndər Heydər Əliyev demişdir:

“Azərbaycan konfessiyalı bir ölkədir. Bu baxımdan o, dünyada dinlərarası, mədəniyyətlərarası əlaqələrin genişlənməsi, möhkəmləndirilməsi işinə öz layiqli töhfəsini verir”. Bu qiymətli fikirlər öz təsdiqini təkcə respublikamızda deyil, onun hüdudlarından çox-çox uzaqlarda belə tapmışdır. Bu gün qarşımızda duran ən mühüm vəzifələrdən biri də Azərbaycanın bu sahədəki fəaliyyətini dünyaya tanıtmaqdır.

Əlbəttə, bu işdə mədəniyyətlərarası ünsiyyət fənninin tədrisinin vacibliyi mühüm yer tutur. Mədəniyyətlərarası ünsiyyət fərdlər, qruplar və ölkələr arasında bütün səviyyələrdə müvəffəqiyyətli əməkdaşlıq üçün vacib şərt olduğunu nəzərə alaraq biz onun tədrisinin keyfiyyətini daha da yüksəltməliyik.

**Elnaz Əliyeva**
***“İngilis dili və tərcümə” kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru***

---

***“Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır ”***

***HEYDƏR ƏLİYEV***
***Azərbaycan xalqının ümummilli lideri***

# GÜNÜMÜZDƏ TƏHSİL

Son zamanlar təhsil sahəsində yeniliklər və internetin köməyi ilə uzaq məsafədən təhsil imkanı xeyli genişlənmiş və daha çox istifadə olunmağa başlanılmışdır. Bu da distant təhsilin gündəmə gəlməsinə, distant təhsil texnologiyalarının öyrənilməsinə, öyrədilməsinə gətirib çıxarmışdır. Distant təhsili həyata keçirmək üçün stabil internet bağlantısının olması, İKT (İnformasiya Kommunikasiya Texnologiyaları) biliyi, bu təhsil formasını həyata keçirə bilmək üçün proqram təminatı və s. ilə yaxından tanış olmaq lazımdır.

Distant təhsil yeni konsept deyil, bütün dünyada tanınan illərdir ki, müəyyən inkişaf yolu keçmiş və bu günədək gəlib çıxmış bir təhsil formasıdır.

İlk dəfə Boston qəzeti məktub vasitəsilə stenoqrafiya təhsili vermişdir. 20 mart 1728-ci ildə Boston qəzetində bu elan verildikdən sonra daha da tanınmış, Amerika Birləşmiş Ştatları, İngiltərə və Almaniyada sürətlə yayılmışdır.

1840-cı ildə İngilis təlimçi Sir İsaac Pitman poçt vasitəsilə stenoqrafiya öyrətməyə başlamışdır. Bununla da məsafədən təhsilin təməli atılmağa başlanmışdır.

1856-cı ildə fransız Çarlz Tussaint və alman Gustav Langenscheidt Berlində məktubla bir təlim məktəbi qurumuş, 1870-ci illərdə İllinois Wesleyan Universiteti evdə təhsil proqramına başlamışdır.

1883-cü ildə isə Nyu-Yorkun İtaka şəhərində “Məktubla Tədris Universiteti” quruldu.

1914-cü ildə ABŞ-da məktub ilə tədrisin yayılması bir qanunun qəbul edilməsi ilə daha da inkişaf etdirildi.

1930-cu ildə məktəblər radiodan istifadə edərək təhsil verməyə başladı.

1933-cü ildə Ayova Dövlət Universitetində dünyanın ilk təhsil televiziya proqramı yayımlanmış və 1939-cu ildə isə artıq televiziyada 400-dən çox proqram təqdim edilmişdi.

15 fevral 1946-cı ildə Cənubi Afrika Universiteti (UNISA) Division of External Study adlı bir şöbə açaraq distant təhsil verən 11 böyük universitetdən birinə çevrilmişdir.

1994-cü ildə evlərdə internet istifadə edilməsi ilə birlikdə, internet üzərindən təhsil verilməyə başlandı.

Məktubla başlayıb (1728-ci il), poçt (1840-cı il), radio yayımı (1930-cu il), televiziya proqramı (1933-cü il) və nəhayət internet (1994-cü il) ilə davam edən bu konsept günümüzdə ən çox istifadə edilən təhsil formasıdır.

Azərbaycanda isə rəsmi olaraq 2009-cu ildə “ Təhsil haqqında” yeni qanunun 13-cü maddəsində distant təhsil forması qəbul olunmuşdur.

Məsafədən təhsil öyrənənlərin evdə, iş yerində və yaxud hər hansı təhsil müəssisəsində olduğu yerdən kənara getmədən ala bildiyi təhsil növüdür. Daha əvvəl könüllü olan bu təhsil modeli haliyədə pandemiya vəziyyəti ilə əlaqədar olaraq məcburi hala gəlmişdir, öyrənənlər ilə üz-üzə təhsil metodu dayandırılıb onlayn təhsil metoduna keçmək məcburiyyətində qalınmışdır.

Məsafədən təhsildə istifadə olunan ən geniş yayılmış proqram təminatından – LMS, Zoom, Google Classroom, Canvas LMS, Moodle, Microsoft Teams, və s. bir neçəsinə diqqət yetirək.




LMS (Learning Management System) – Hal-hazırda Naxçıvan Dövlət Universitetində istifadə olunan bir platformadır. KOİCA şirkəti tərəfindən "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia" layihəsi çərçivəsində yaradılmışdır.

Sistemdə hər bir tələbə üçün istifadəçi adı və parolu təyin edilmişdir.

Tələbələrin semestr ərzində öyrənəcəkləri fənnlər, onların mühazirələri və tədris planları müəllimlər tərəfindən sistemə yerləşdirilir. Tələbə onlayn mühazirə otaqlarında dərsi dinləyib, tapşırıq otaqlarında verilən tapşırıqları yerinə yetirə, mühazirə mətnlərini, əlavə ədəbiyyatları, imtahan sualları və s. kimi məlumatları sistemə daxil olmaqla asanlıqla əldə edə bilər.

Burada tələbələrin biliklərini test və açıq tipli suallarla qiymətləndirmək də mümkündür.

Zoom– Bu proqram müəllimlər və tələbələr arasında qarşılıqlı sinxron əlaqələrə imkan verir. Zoom proqramı vasitəsilə

- İstifadəçilər mikrofon və veb-kameralardan istifadə edərək ənənəvi təhsildə olduğu kimi real vaxtda informasiya mübadiləsi həyata keçirə bilər;
- 200-ə qədər şəxs canlı konfranslarda iştirak edərkən, 3000 iştirakçı da seansı passiv izləyə bilər;
- Ödənişsiz versiyasında seans 40 dəqiqə ilə məhdududur;
- Əlavə olaraq bu proqramda slaydlar, mühazirələr iştirakçılarla paylaşıla bilər ;
- Eyni zamanda proqramın daxilində ayrı-ayrı qruplar yaradıla bilər, həmçinin iclaslara daha sonra baxılmaq üzərə yazıla bilər;

Bu müsbət xüsusiyyətlər ilə proqram yetərli sayda istifadəçiyə xidmət göstərir.

Google Classroom - Google, GSuit təhsil versiyası ilə bəzi təhsil müəssisələrində istifadə olunur. Bir sıra üstün cəhətləri ilə istifadəçilərin rəğbətini qazanır. Yaddaş kimi Google Drive, canlı yayımlar üçün də Google Meet-dən istifadə olunur və Google Classroom digər Google alətləri ilə inteqrasiya olunmuş vəziyyətdə işləyir. Bunlara əlavə olaraq,

- Google Drive vasitəsilə hər tələbəyə 1TB yaddaş sahəsi ayrılması;
- Məlumatlar, slaydlar, e-cədvəllərin inteqrasiya olunmuş halda işləməsi;
- Testlər və tapşırıqlar ilə qiymətləndirmənin mümkünlüyü;
- Elanların Google təqvim vasitəsilə daha planlı təqdimi;
- Edpuzzle, Kami və Quzizz kimi alətlər ilə birlikdə işləməsi;
- Canlı dərslərə qoşula bilmə və mobil tətbiqinin olması və s.

kimi xüsusiyyətləri ilə istifadəsi təhsil müəssisələri üçün məqsədəuyğundur.

Canvas LMS - Google Classroom-a görə daha genişlənmiş idarə səlahiyyəti verir. 2011-ci ildə ABŞ-da işıq üzü görən bu proqram daha çox təhsil sistemlərində istifadə olunur.

Canvas LMS-in də özünə məxsus özəllikləri vardır, bunlar aşağıdakılardır:

- Sistem daxilində tapşırıqların yaradıla bilmə imkanı;
- Modulların redaktəsi, tələbələrin öz sisteminin olması və müəllimin nəzarət edə bilməsi;
- Tələbələrin LMS-də tapşırıqlarını yerinə yetirə bilməsi;
- Edpuzzle, FlipGrid kimi alətlərin sistemə inteqrasiya etməyə icazə verməsi;
- Mobil tətbiqinin olması, açıq mənbəyə malik olub,hərkəsin istifadəsinə verilməsi və s.

Tələbələrin qiymətləndirilməsi üçün Canvas LMS-n tərkibindəki əlavələrdə sertifikat və nişanlarda mövcuddur.

Moodle (Modular-Object-Oriented-Dynamic-Learning-Environment) - 2002–ci ildə işıq üzü görmüş, açıq mənbəyə sahib ödənişsiz platformdur. Vaxtaşırı yenilənən proqram təminatına və 100-dən çox dil seçiminə malikdir. Ödənişsiz bulut versiyası bir çox təməl ehtiyacları qarşılayır. Əlavə olaraq:

- Tapşırıq, modulların yaradıla bilməsi, təqvim və elanlar bölməsinin inteqrasiya olunmuş şəkildə işləyə bilməsi;
- Adobe Connect, Drive, OneDrive tipli proqramlarla inteqrasiya olunmuş şəkildə işləyə bilməsi;
- Fəaliyyət hesabatı təklif edə bilməsi, mövcud və gələcəkdəki kurslar haqqında məlumat verən panelin olması;
- Bütün veb brauzerlərə və mobil telefonlara uyğun olması, digər təhsil alətlərinə uyğun işləməsi və s.kimi xüsusiyyətləri var.

Moodle platforması haliyədə 235 ölkədə istifadə olunur.

Microsoft Teams-2016-cı ilin noyabr ayında təkmilləşdirilmiş və əvvəlcə ofislərdə, iş yerlərində istifadə olunmuşdur. Hal-hazırda pandemiya vəziyyəti ilə əlaqədar olaraq istifadəsi xeyli artmışdır. Microsoft Teams, Office 365 proqramları ilə inteqrasiya etmiş halda işləyərək kompüterinizdə hazırladığınız faylları Teams üzərindən paylaşa bilməyiniz üçün şərait yaradır. Bundan əlavə,

- İstifadəçi başına 2GB yaddaş sahəsi verilməsi;
- Ödənişsiz versiyasında konfrans zamanı 250 nəfərə qədər iştirakçı qoşula bilməsi;
- Office 365 proqramlarını ödənişsiz təklif etməsi;
- Flipgrid, Turnitin, MakeCode və digər öyrənmə vasitələri ilə işləməyin təkmilləşdirilməsi;
- Onlayn zənglərin mümkünlüyü, tapşırıq vermək və təhvil almaq imkanlarının olması kimi üstün cəhətləri var.

Bu verilən imkanlar platformaların ödənişsiz versiyası üçündür, ödənişli versiyalar istifadəçiyə əlavə imkanlar da təklif edir.

Demək olar ki, təhsil almaq istəyən hər bir fərd üçün məsafələr əngəl deyil.Yuxarıda adları çəkilən proqramlar təhsil müəsissələrinin qəbul edib öz təhsil sistemlərinə tətbiq etdikləri bir neçə nümunədir. Pandemiya şəraitində məktəbin və ya universitetin verdiyi təhsil ilə kifayətlənməyib başqa vasitələrdən, əlavə ədəbiyyatlardan, digər öyrənmə platformalarından, onlayn kurslardan və s. istifadə etmək olar.

**Fatma Müslümova**
***“İnformatika” kafedrasının müəllimi***

# QƏLƏBƏNİ BİZƏ BƏXŞ EDƏN QƏHRƏMAN ƏSGƏR VƏ ZABİTLƏRİMİZ BİZİM QÜRUR MƏNBƏYİMİZDİR!

*Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,*
*Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.*
*Sənin öz dövlətin, öz millətin, öz cəddin var*
*Vətən uğrunda ölənlər ölümündən doğular.*
*Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik*
*Biz Vətən naminə ölsək, dirilərdən diriyik.*

## VƏTƏN UĞRUNDA ÖLƏNLƏR ÖLÜMÜNDƏN DOĞULAR



Deyirlər şəhidlər azadlığın od zərrəsidir. Və bu zərrələr böyüdükcə, tonqala çevrildikcə vətən bölünməz olur. Çünki onun müdafiəsində dayanan neçə-neçə igid qəhrəmanlar var.

2021-ci il, 27 sentyabr. Məzar daşından vüqarlı, əzəmətli baxan bir cüt baxışla qarşı-qarşıyam. Bu baxışların dərinliklərində mərdlik, mübarizlik, düşmənə qarşı amansız mübarizənin izlərini görürəm. 21 yaşlı şəhidimiz Xansu Qurbanovun məzarı önündəyəm. Bəli, gənc olmasına baxmayaraq 44 günlük vətən müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən əsgər Xansu Qurbanovun məzarı. İki bacının tək qardaşı, anası Yəmən xanımın gözünün ağı-qarası.

Xansu 23 sentyabr 2000-ci ildə Babək rayonunun Cəhri qəsəbəsində dünyaya göz açmışdı. Kim deyərdi ki, doğulduğunda bir tək ailəsi və yaxınlarına sevinc bəxş edən Xansu gün gələcək bütün Azərbaycan xalqının zəfər sevinci üçün Vətən torpaqı uğrunda canını qurban verəcək. Kim deyərdi ki, bir vaxtlar xəyalını qurduğu Şuşanın azadlığı uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olacaq.

Şəhidlərimizin ruhuna fatihə bağışlayıb qəbiristanlıqdan çıxıram. Vətən oğullarımız heç düşünmədən ölümün gözünə dik baxaraq torpaqlarımızı bədnam düşməndən xilas etdilər. Bu düşüncələrlə özümü şəhid Xansu Qurbanovun evinin qapısında görürəm. Qapıda məni gözlərinin ətrafına kölgə çökmüş, buna baxmayaraq vüqarını itirməmiş Yəmən xanım qarşılayır. Dağ kimi oğul böyudub vətənə verdi. Xansu vətən uğrunda canından keçdi. Vətən sağ olsun! Dərdinin dağ boyda olmasına baxmayaraq ananın əzəmətli duruşundan bu ifadəni oxuyurdum.

Yəmən xanımla qarşılıqlı əyləşmişik. Yaş və iztirabla dolu gözlərinə baxıram. Söhbətə necə başlayacağımı bilmirəm. Necə edim ki, Yəmən xanımın qaysaq bağlamış yarasını qanatmayım. Deyəsən, urəyimdən keçənləri hiss etdi. Söhbətə özü başladı:

- Xansuya vətənə dərin məhəbbəti hələ balacalıqdan aşılamışdım. Elə övladlarımın hamısına,. qızlarıma da. Balaca vaxtı televizorda qarşısında ayağı yalın, ağlayaraq yurd-yuvalarından qaçqın düşən insanları görərkən oğlum məndən bu insanların niyə agladığını soruşardı. Mən də mənfur ermənilərin torpaqlarımızı xaincəsinə işğal etdiyini söylərdim. Xocalı, Ballıqaya faciəsindən danışardım. Xansu qaşlarını düyünləyər hiddətlə böyüyəndə hərbçi olacağını və onları torpaqlarımızdan qovacağını deyərdi. O zaman hec aglıma gəlməzdi ki, bu sözlər nə vaxtsa həqiqət olar.

Kəlimələr Yəmən xanımın boğazında düyünlənir. Xansu haqqında danışmağın onun üçün nə qədər çətin olduğunu bilirəm.

Xansu hələ yeniyetməlik dövründən ailəsi üçün çox çalışıb. Özü ali təhsil almasa da, bacılarının təhsil alması üçün əlindən gələni edib. Anasına çox bağlı olub. Bu dünyada Xansunun ən çox sevindiyi gün hərbçi olduğu gün olub. Hələ 6-cı sinifdə oxuyarkən hərbçi olmaq arzusu baş qaldırıb qəlbində. 11-ci sinifdə isə bu arzusunu reallaşdıracağını qarşısına məqsəd qoyub. Elə bu məqsədlə ordumuzun sıralarında əsgərlikdən sonra müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb.

Xansunun qəlbinə hələ uşaqlıqdan anasının laylalarında vətənə məhəbbət hissi oyanıb. Anası Yəmən xanım Xansu üçün beşik başında söylədiyi laylanı qəhərli halda zümzümə edir:

*Laylay beşiyim laylay,*
*Evim-eşiyim laylay,*
*Laylay dedim yatasan*
*Qızılgül kölgəsində*
*Şirin yuxu tapasan.*
*Laylay dedim yatasan,*
*Yatasan böyüyəsən*
*Böyüyüb igid olasan,*
*Düşmənə xəncər olasan.*

Sanki Yəmən xanım Xansunu bu günlər üçün yetişdirmişdi. Müqəddəs vətən torpağını düşməndən azad etmək üçün. Kim deyərdi ki, anasının şirin laylaları ilə böyüyən balaca Xansu gün gələcək vətən torpağını erməni qəsbkarlarından xilas etmək üçün canını düşmən gülləsinə sipər edəcək. Dayısı Fərman müəllimin dediyinə görə ana babası Məmmədqulu kişi Xansuya Canpolad deyərmiş. Nəvəsinin böyüyəndə çox canlar qurtaracağını söyləyərmiş. Məmmədqulu kişi sanki Xansunun qəhrəman olacağını əvvəlcədən hiss etmişdi.

Naçıvandan cəbhəyə gedən ilk xüsusi təyinatlıların dəstəsində olub Xansu. Bir hərbçi kimi yüksək döyüş hazırlığı olub. Sürətli qaçışı və sərrast atıcılığı ilə döyüş yoldaşlarından fərqlənib. Onların söylədiklərinə görə Xansu dəfələrlə döyüşdə yüksək cəsarət göstərib. Dəfələrlə döyüşçü yoldaşlarını mühasirədən çıxarıb. Sürətli qaçışı sayəsində ard-arda neçə-neçə düşmən tankını zərərsizləşdirib. Füzulidən başlayan döyüş yolu Şuşada sona çatıb.

Xansu igidliyi sayəsində ailəsinə başucalığı gətirdi, xalqına qələbə qazandırdı. Xansunun ən böyük arzusu adının milli qəhrəman Mübariz İbrahimovla qoşa çəkilməsi idi. Qanı ilə tarix yazan 21 yaşlı Xansu Hadrut, Suqovuşan, Qırmızıbazar istiqamətlərində gedən ağır döyüşlərdə mərdliklə şücaət göstərir. Xansu döyüş zamanı qolundan ciddi yara almasına baxmayaraq döyüşdən çəkilməyib, öz yarasına elə özü ilk müdaxilə edərək qətiyyətlə döyüşə davam edib. Şuşa uğrunda döyüşə gedərkən könüllü olaraq dəstədən ilk önə çıxan da Xansu olub. O, qəhrəmancasına Şuşa uğrunda döyüşlərdə iştirak edib. Və.... qələbəyə iki saat qalmış canından çox sevdiyi vətən torpağı uğrunda şəhidlik zirvəsinə ucalıb.

Bu gün 21 yaşlı şəhid Xansunun bütün Azərbaycan tanıyır. Onun igidliyi dillərdə dastandır. Bacısı Xatuna Şuşadan onun üçün xarı bülbül gətirəcəyinə söz vermişdi. Ancaq vədinə əməl edə bilmədi. Yaşının gənc olmasına baxmayaraq o böyük qəlbində ailəsinə, yaxınlarına, bütövlükdə xalqına iftixar hissi qoyub getdi. Anasının laylasıyla böyüyən, duaları ilə müharibədə böyük əzmlə vuruşan Xansu son mənzilə canından çox sevdiyi üçrəngli bayrağımızla şəhidlik zirvəsinə ucalaraq yola salındı.

Yaşının gənc olmasına baxmayaraq, Xansu bu dünyada sadəcə ölmək üçün yaşayan insan olmadı. Yaşatmaq üçün ölən qəhrəmanlardan oldu. Müqəddəs yolun yolçusu Xansu Qurbanov 21 illik ömrünə böyük bir qəhrəmanlıq dastanı sığdırmağı bacardı.

Xansu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olundu.

44 günlük Vətən muharibəsindən düz bir il keçir. Bu müharibədə onlarla vətən oğlu oz canlarını mənfur düşmən gülləsinə sipər edərək qəhrəmancasına şəhid oldular.

*Vətən mənə oğul desə nə dərdim,*
*Mamır olub qayasında bitərdim.*

Məmməd Araz dühasından süzülüb gələn bu ifadələr torpaqlarımızın azadlığı uğrunda mübarizə aparan şəhidlərimizin qanına hopdu. Xansu da vətən torpağının daşı, qayası, hər qarışı uğrunda canından keçdi və gələcək nəsillərə örnək olaraq şanlı qəhrəmanlıq tarixinə imza atdı. Şair Bəxtiyar Vahabzadə demişkən:

*Gecələr yatmadan əvvəl sor özündən ki, bu gün*
*Mən nə etdim məni yurddaş edən öz yurdum üçün.*

Sən bü vətən üçün canını qurban verdin. Şəhidlik zirvəsinə ucaldın. Rahat yat, vətən oğlu! Əminik ki, səmalardan vətənini, uğrunda şəhidlik zirvəsinə ucaltdığın torpaqlarımızı gülümsəyərək, təbəssümlə izləyirsən. Bu təbəssümündə qəhrəmanlıq və qətiyyətli mübarizə əzmin heç zaman səni tərk etmir. Sən yaşayırsan! Və daim insanların qəlbində yaşayacaqsan!

**Xumar Məmmədova**
***"Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru***

# YURDUN QƏHRƏMAN OĞLU

İnsan doğulduğu gündən yüksəlişə can atmaq istəyir. O, böyümək boya-başa çatmaq, ağıla-kamala dolmaq, öz bacarıq və qabiliyyətini, hünərini göstərməyə cəhd edir. Lakin bütün yüksəkliklərdən ucada dayanan bir zirvə vardır. Bu, şəhidlik zirvəsidir. Həmin yol çox şərəfli və ləyaqətli bir yoldur. Belə yolla gedən insanlar öz canını, qanını vətənin müstəqilliyi, azadlığı uğrunda cəsarətlə, qorxmazcasına fəda edən insanlardır. Bundan böyük ucalıq, bundan böyük yüksəklik ola bilməz.

Azərbaycan torpaqları uzun illərdir ki, mənfur düşmənimiz olan erməni qəsbkarları tərəfindən işğal olunmuşdu. Lakin Ali Baş Komandanın qətiyyətli iradəsi və şanlı Azərbaycan ordusunun gücü, qüdrəti, sarsılmazlığı və yenilməzliyi sayəsində torpaqlarımız 44 günlük Vətən müharibəsində işğaldan azad olundu. Bu qələbə bütün dünyaya Azərbaycan dövlətinin və xalqının nəyə qadir olduğunu göstərdi.

Bu qələbədə qəhrəmanlıq dastanı yazan, şəhidlik zirvəsinə yüksələn oğullarımızdan biri də Ülvi Habil oğlu Cəfərovdur.

Ülvi Cəfərov 16 yanvar 1998-ci ildə Şərur rayon Xok kəndində anadan olub. 2004-cü ildə Xok kəndində orta məktəbin 1-ci sinfinə qəbul olunduqdan bir neçə ay sonra əlifba bayramında sinif yoldaşlarından kimi Abdulla Şaiqin "Keçi" , "Xoruz", kimisi də M.Ə.Sabirin "Uşaq və buz" şeirini söyləyir. Lakin onlardan fərqli olaraq balaca Ülvi "Əsgər marşı"nı səsləndirir.

*Marş, irəli! Marş irəli,*
*Azərbaycan əsgəri!*
*Dönməz geri, dönməz geri,*
*Azərbaycan əsgəri!*

- deyərək sanki 16 il sonra dilindən səslənəcək son mahnı olacağından xəbərsizmiş. Onun hərb sahəsinə marağı elə kiçik yaşlarından olmuşdur. 31 may 2015-ci ildə məktəbi bitirən Ülvi 18 yanvar 2016-ci ildə həqiqi hərbi xidmətə yollanır və 25 iyun 2017-ci ildə hərbi xidmətini başa çatdırır. Lakin müddətdən artıq hərbi qulluqçu vəzifəsində ordu sıralarında xidmətini davam etdirir. O, 27 sentyabr 2020-ci ildə başlayan və 44 gün davam edən II Qarabağ müharibəsində könüllü dəstələr sırasına yazılır. Hələ cəbhəyə getməmişdən öncə foto şəkilni çəkdirir və oradakı işçiyə deyir ki, *"Bu şəkli mən götürməyəcəyəm, vaxtı gələndə atam gəlib götürəcək"*. Ülvinin yaxınları onun ölümündən sonra şəklini çıxartdırmaq istəyəndə fotoqraf "onun şəkli çoxdan hazırdır" deyir və doluxsunur.



Ülvi 24 oktyabrda Cəbrayıl rayonunda, daha sonra Hadrutda və ən sonunda Şuşa istiqamətindəki döyüşlərin əsas iştirakçısına çevrilir. O, bir çox yaşayış məntəqələrinin və kəndlərin geri qaytarılmasında fəal iştirak edir. 30 oktyabrda II Daşaltı əməliyyatında düşmənin bir sıra strateji nöqtələri tutulur. Lakin 31 oktyabrda düşmənin ələ keçirdiyi koordinantlar nəticəsində 7 nəfər əsgər, o cümlədən Ülvi, şəhid düşür. 6 noyabr doğulduğu Xok kəndində son mənzilə yola salınır və dostları onu belə yada salır : "Biz dostdan ziyadə, öz gülüşümüzü, təbəssümümüzü itirmişik".

Azərbaycan ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Ülvi Cəfərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Ülvi Cəfərov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Ülvi Cəfərov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Ülvi Habil oğlu Cəfərov vətən uğrunda canını əsirgəməyib əsl qəhrəmanlıq nümayiş etdirdi. Vətənə sevgi, məhəbbət onun üçün hər şeydən üstün olmuşdur. Onun xatirəsi hər zaman bizim qəlbimizdə yaşayacaq. Biz onunla bərabər bütün şəhid və qazilərimizlə fəxr edir, qürur duyuruq. Ən böyük amalımız, vəzifəmiz isə şəhid və qazilərimizi tanımaq və tanıtdırmaqdır.

**Bibixanım Nağdəliyeva**
***AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun əməkdaşı***

# ONLARIN QƏHRƏMANLIĞI, ONLARIN ŞÜCAƏTİ, FƏDAKARLIĞI ARTIQ DASTANA ÇEVRİLİB!

## POLADLA BİR ÖLÜB QARBAĞ ZƏFƏRİ İLƏ MİN DİRİLƏRİK

Hər şey sənin şəhadətinlə başlamışdı cənab general… 2020-ci il 14 iyul tarixində almışdıq şəhidlik xəbərini. Ürəyi Vətən eşqi ilə döyünən qeyrətli Azərbaycan oğulları mənfur düşmənin budəfəki əhvi olmayan addımına dur deyərək "Dəmir yumruq" kimi birləşdi. Sənin şəhid xəbərin qəlbimizi göynətsə də iradəmizi, qüdrətimizi sındıra bilmədi, qələbəyə gedən yolda bizlərə güc verdi. Otuz ildir ki, qəlbi əzəli-əbədi torpağımız olan Qarabağın məhəbbəti ilə döyünən xalqımız qisas andı ilə namərd düşmənin üzərinə od-alov kimi yeridi. Zərrə-zərrə qələbənin ətrini yurduna gətirən, mərmi-mərmi düşmənin məğlubiyyətini dünyaya bəyan edən haqq savaşımızda rəşadətli, dəyanətli ordumuzun qəhrəmanları torpaqlarımızın nicatı naminə canını fəda edərək üçrəngli bayrağımızı ən ali zirvəyə yüksəltdilər. Onlar da sənin kimi şücaətləri ilə ata-analarına, bacı-qardaşlarına, ən başda da bütün xalqına sonsuz qürur hissi yaşadan, al qanı ilə zəfər, qələbə nəğməsi yazan igidlər idi. Sənsə bir qəhrəman kimi Azərbaycanın hər bir igidinin ürəyində, biləyində düşməni lərzəyə salan heybətə, gücə, sarsılmaz qüdrətə çevrildin. Sənin haqqında danışılanları eşitdikcə, dinlədikcə daha da şölələnir qəlbimizdəki məhəbbətimiz, Vətən sevgimiz. İlahi, bu necə Vətən, xalq sevgisidir deyir, fəxarət dolu sözlərdə, qürur dolu gözlərdə mənalı həyat yolundan özümüzə yol açırıq. Artıq əbədi zəfərimizdən bir il ötdü, cənab general. Vətən müharibəsindən ötən bu bir ildə sənin timsalında olan qəhrəman generalımızı, şəhidlərimizi bütün Azərbaycan tanıdı. Elə qəhrəmanımızı yetişdirib xalqımıza bəxş edən ailə üzvlərini də...

Əziz oxucum, qarşımda vüqarlarını, qürurlarını oğullarının müqəddəs məqamından alan üç şəhid anası əyləşib. Onlardan biri Polad Həşimov kimi qəhrəmanı böyüdüb boya-başa çatdıran Səmayə anamız, digəri Vətən qoxulu "Keçdi xəyalımdan öz gözəl yurdum, dumanlar başımda dastana döndü" misralarını dilimizdə əzbər edən Xudayar Yusifzadənin anası Radə ana və öz şəhid anası adının ülviyyətindən bütün Azərbaycan övladlarına sevgi, məhəbbət bəxş edən şəhid İlkin Muradlının anası Həcər anadır. Onlarla söhbət etməyin verdiyi fəxr və qürur hissini heç cür ifadə etmək mümkün deyil. Hər dəfə şəhid analarımızın adını televiziya proqramlarında, radio verilişlərində eşitsəm də, heç xəyalıma belə gəlməzdi ki, nə zamansa Səmayə anayla, Radə anayla üz-üzə söhbət etmək, onlardan oxucularımız üçün yazı hazırlamaq fürsətini qazanacağam. Yaxşı xatırlıyıram, növbəti dəfə Səmayə ananı Xəzər televiziyasının efirindən izləyəndə qəlbimdən "Görəsən bizə də qismət olacaq şəhid generalımızın anası ilə müsahibə aparmaq?" kimi, sanki heç zaman real olmayacaq bir hiss keçmişdi. Rəbbimə şükürlər olsun ki, bu sevinci bir gənc jurnalist kimi mənə yaşatdı. Budur, onlarla üz-üzə əyləşmişəm. Bir kəlmə ilə onu deyə bilərəm ki, onları dinləyib, övladları ilə bağlı bölüşdükləri xatirələrə şahid olduqca insanın qəlbində olan Vətən sevgisi daha da şölələnir. Qürurlu baxışları, övlad həsrətinin ardında saxladığı buruq təbəssümləri və hər kəlmədə "Vətən sağ olsun" ifadələri göstərir Azərbaycan qadınının gücünü, sübut edir şəhid anasının qeyrətini.

Analarımızla söhbət zamanı öyrəndim ki, məğrur duruşlu hər iki şəhid anamızı – Səmayə ana və Radə ananı 27 sentyabr – Vətən müharibəsi şəhidlərinin Anım Günündə bu diyara gətirən ilk səbəb məhz torpaq uğrunda böyük qəhrəmanlıq göstərərək çoxlu igidlər qurban verən Naxçıvanın şəhid anaları ilə görüşmək, onlarla həmrəy olub bu müqəddəs günü qeyd etmək məramı olub. Digər səbəb isə şəhid general-mayor Polad Həşimov şəhidlik zirvəsini fəth edərkən general papağını düşmən tapdağı altında qoymamaq üçün sinəsini düşmən gülləsinə sipər edib rəşadət göstərən, həmin şücaətini dörd ay sonra, böyük Vətən müharibəsində də nümayiş etdirərək qələbə gününə bir gün qala şəhid olan əsgər İlkin Muradlının məzarını ziyarət etmək, onu böyüdüb boya-başa çatdıran ailə üzüvləri ilə tanış olmaq istəyi idi. Hansı ki, bu igid həmyerlimiz, şəhid qardaşımız İlkin Muradlının doğum günü 27 sentyabr – Anım Gününə təsadüf edir. Elə bu minivalla Səmayə ana xalqımızın əziz generalı Polad Həşimovun əsgəri İlkin Muradlının 27 sentyabr şəhidlik zirvəsinə ucalmasından sonrakı ilk doğum günündə anasını yalnız buraxmaq istəməmişdi. Axı o şəhid övladının acısını və fəxarətini hamıdan əvvəl yaşamışdı...

Elimizin qəhrəman generalını yetişdirən Səmayə ana Poladla bağlı xatirələrini bizimlə bölüşərək deyir ki, o körpəlikdən çox ağıllı, düşüncəli, ailənin dərdini çəkən uşaq olub. Hələ orta məktəbdə oxuduğu vaxtlardan müəllimlərinin sevimli şagirdi, sinif yoldaşlarının sadiq dostu kimi sayılıb-seçilirdi həmyaşıdlarından. İlk təhsilini 28 nömrəli tam orta məktəbdə alsa da, sonradan 34 nömrəli tam orta məktəbdə təhsilini davam etdirdi. Həmişə dərslərinə hazırlıqlı gedər, ancaq oxumaqla məşğul olardı. Həmişə istəyirdim ki, Polad gələcəkdə hüquqşünas olsun. Özü mənə çox bildirməsə də, bilirdim ki, fikrimlə razılaşmır. Onuncu sinfi bitirməyə az qalmışdı. Bir gün dərsdən gələndə mənə dedi ki, ana, incimə, mən sənədlərimi Ali Hərbi Məktəbə verəcəm. Doğrusu, pis oldum. Dedim mənim balam, hərbçilik çox çətindir, gələcəkdə ailən də, uşaqların da əziyyət çəkəcək, mən razı deyiləm. Böyük bir təmkinlə əlimdən öpüb dedi ki, ana, bu gün tarix müəllimimiz erməni işğalçılarının xalqımızın başına açdığı müsibətlərdən danışdı. Onların illərdir, doğma torpaqlarımıza olan yalançı iddialarına son qoymaq lazımdır axı. İndi Vətənimiz dardadır, bizə güclü hərbçilər lazımdır. Mən də uşaqların içində söz verdim ki, hərbçi olacağam. Gərək verdiyim sözün üstündə durum, Vətənimə layiqli hərbçi olum. Belə də oldu. Sənədlərini Ali Hərbi Məktəbə verdi, müvəffəqiyyətlə qəbul oldu. Çox böyük həvəslə təhsil alırdı. Hər dəfə zəng edib danışanda onun hərb sənətinə olan şövqünü səsində hiss edir, mən də fərəhlənirdim.



Elə hərbi liseydə oxuduğu müddətdə də müəllimləri, kursant yoldaşları arasında hörmət qazanmışdı. Onun hərbçi kimi mərdliyindən, cəsarətindən onunla birgə çiyin-çiyinə döyüşən silah yoldaşları, əsgərləri ürək dolusu danışırlar. Təhsilinin ikinci kursunda Türkiyəyə hərbi kursa göndərildi. Kursant ola-ola Murovdağda hərbi təlimlərdə böyük həvəslə iştirak edirdi. İlləri hər ikimiz həsrətlə belə yola verdik. Öz istedadı, ağlı, biliyi ilə general-polkovnik rütbəsi aldı. Polad üçün Vətən, xalq hər şeydən, hər kəsdən üstün idi. Hər dəfə evə gələndə iki-üç torba dolusu ərzaq, paltar alırdı. Uşaqları soruşanda ki, ata, onları bizim üçün almısan?- deyirdi bunlar əsgərlərim üçündü, axı onlar da mənim övladlarımdı. Bununla belə, qeyd etməliyəm ki, Poladımı əsl qəhrəmana çevirən onun yüksək mənəviyyatı, əxlaq və tərbiyəsi olub. 45 illik həyat yolunda bir dəfə də olsun oğlum məni incitməyib, başımı aşağı etməyib. Oğlum bütün dərdini, sözünü qəlbində saxlayardı. Elə bu müsbət xüsusiyyətləri ilə xalqının hörmətini qazanmışdı. Onunla sonuncu dəfə iyulun 10-da danışdım. Dedi ana darıxma, az qalır gəlməyimə. Dediyi kimi də oldu. Amma gəlişində şəhid kimi bütün Azərbaycan xalqı qarşıladı onu. Mən fəxr edirəm, qürur duyuram ki, qalib bir ordunun şəhid generalının anasıyam. Fəxr edirəm ki, Poladımın timsalında neçə-neçə övladlar qazanmışam. Fəxr edirəm ki, Poladımın İlkin Muradlı kimi qeyrətli, vüqarlı, Vətəninə sadiq əsgərləri olub. Həm də ona görə qürurluyam ki, övladllarımızın qanı yerdə qalmadı. 44 günlük şanlı qələbə ilə şəhid oğullarımız torpaqlarımız uğrunda tökülən qanların qisasını aldı. Polad və onun kimi oğullar bu torpaqları qoruyub öz qanları ilə bu günümüzə ərməğan etdilər. Bu gün də Poladlar, Mübarizlər, Xudayarlar yetişir. Sabah da onların davamçıları var olacaq. Bu xalq var olduqca, onlar da əbədiyaşarlıqları ilə var olacaq. Qoy erməni xalqı bundan sonra da bilsin ki, Poladla bir ölüb Qarabağ zəfəri ilə min dirilərik....

"Onlar ölümləri ilə, əslində, əbədiyaşarlıq qazandılar", - deyir Radə anam. Gözlərindəki oğul həsrəti hiss olunsa da, yenə də məğrur dayanıb. Övladı ilə keçirdiyi və qəlbində həmişəlik nisgil bağlamış xatirələri yada salaraq deyir ki, Xudayar üçün Vətən hər şeydən əvvəldə dayanırdı. Çöhrəsindən təbəssümü, dilindən xoş sözləri əskik etməzdi heç vaxt. Kimin nəyə ehtiyacı olsa köməyinə qaçar, əlindən gələni edərdi ki, yanındakılar xoşbəxt olsun. Döyüşün qızğın vaxtlarında da onunla danışanda həmişə bizə təskinlik verədi, qorxmayın, hər şey yaxşı olacaq deyərdi. Hətta döyüş yoldaşları onunla bağlı xatirələrində deyirdilər ki, müharibənin şiddətli anında da bizlərə, yaralı yoldaşlarına təsəlli verər, heç kimdən yardımını əsirgəməzdi. Lap kiçik yaşlarından hərb sənətinə marağı var idi. Gözəl ifaçılıq qabiliyyəti, muğama böyük həvəsi olsa da o torpağı seçdi, Vətəni seçdi. Elə bil torpaqla bütünləşmişdi, torpaq üçün yaranmışdı, balam. General Polad Həşimovun şəhidlik xəbərini alandan çox az zaman keçmişdi ki, könüllü olaraq gedib adını hərbiyə yazdırmışdı. İnanırsınızmı, mənim son ana qədər xəbərim olmadı ki, o könüllü döyüşə gedib. Çünki heç vaxt hiss etdirməzdi bizə. Ailədə üç qardaşın ən balacası idi. Müharibə müddətində telefonla danışanda zarafatla deyirdi ki, ana, mən buradan qayıdan kimi evlənəcəm, səndə hazırlıqlı ol. Mən oğlum Xudayarın timsalında bütün Azərbaycanın şəhid oğulları ilə fəxr edirəm. Şəhid anası adını daşımaq isə mənim üçün böyük qürur və şərəfdir.

Hər bir şəhid anamızı dinlədikcə tarix boyu dillərə dastan olan türk qadınının qeyrətinin, qüdrətinin, mətinliyinin bir daha şahidi olursan. Şahidi olursan ki, əgər mövzu Vətənin azadlığı, xalqın birlik və bərabərliyidirsə onda hər bir Azərbaycan oğlu şəhid, hər bir Azərbaycan qadını şəhid anasıdır.

Müqəddəs ruhuna salam olsun, cənab general... Mən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin gələcək əsgəri Məcid Əkbərov. İstəyirəm biləsiniz ki, sizin nəfəsinizin sona çatdığı yerdə başlamışdıq haqq savaşımıza. İllərdir, gözü yollarda qalan torpaqlarımızı o mənfur düşmənin caynaqlarından almaq, tarixi azadlıq və ədaləti bərpa etmək üçün sevdalın olan üç rəngli bayrağın kölgəsində birləşdik. Son nəfəsimizə qədər "Ya Qarabağ, ya ölüm!" deyərək getdik düşmənin üzərinə. Sənə olan məhəbbətlərindən aldıqları güc-qüvvət ilə igid, qəhrəman oğulların bir nəfəsə qalxmışdı Şuşa dağlarına, Cıdır düzünə. Uğruna canından keçdiyin, hər rəngində bir məna, hər mənasında bir şanlı tarix yatan o üçrəngli bayraq bu gün Şuşa qalasında, Murovdağda, Füzulidə, Kəlbəcərdə, igidlərinin qanı ilə suvarılan o müqəddəs torpaqlarda dalğalanır. İstəyirəm biləsiniz ki, sizin Cəbrayıl Dövlətzadə, İlkin Muradlı, Xəyyam Daşdəmirov, Xudayar Yusifzadə, Bağır Ələkbərov və onların timsalındakı neçə-neçə qəhrəmanlarınızın gələcək davamçıları bu gün Azərbaycanın qeyrətli analarının ağuşunda böyüyür. Cənab general, sizin müqəddəs ruhunuz qarşısında söz verir, and içirik ki, lazım gələrsə bizlər də Vətənimizin, torpaqlarımızın ərazi bütövlüyü uğrunda son nəfəsimizə qədər savaşacaq, mübarizə aparacaq, namərd düşmənə bir an belə olsun göz açdırmayacağıq. Çünki Səmayə anamız Şuşa səfərində əbəs yerə demirdi ki, qartal yuvasından qartal pərvazlanar. Biz də siz qartal əzəmətli qəhrəmanlarımızdan güc alıb, Azad Vətən səmasında məğrurluqla süzəcək, düşmənin işğal niyyətinə bir daha aman verməyəcəyik! Məzarınızda rahat uyuyun. Gözünüz arxada qalmasın, cənab general...

**Məcid Əkbərov**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# ZƏFƏRİN MÜBARƏK, AZƏRBAYCAN!



Bir sevgidən danışmaq istəyirəm- Vətən sevgisindən. Dünya boyda, qəlbimizdə beşikdən ta məzaracan yaşayan və heç zaman sönməyən sevgidən. Bizi həyata , doğulduğumuz yurda, elə, obaya bağlayan bir qüdrətdir bu sevgi. Vətən sevgimiz sonsuzdur, böyükdür, çünki Vətən elə bizim özümüzdür. Onun uğuruna can verməyə, qan tökməyə hazırıq. Amma bir qədər nisgil vardı bu sevgimizdə. 30 il idi ki, bu Vətənin təməli, özəyi olan torpaqlarımızın bir hissəsi işğal altında idi. Deməli sevgimiz də, özümüz də yaralı, nisgilli idik. Məhz buna görə biz 30 il boyu hər gün işğalda olan torpaqlarımızın acısını, həsrətini çəkdik. Bu qara tale bizim ucun unudulmaz, hətta utanc verici, qara bir tarix idi. Torpaqlarımızın isgali təkcə ərazimizin bütövlüyünə, tamlığına deyil, milli ruhumuza da böyük zərbə, zədə vurmuşdu. Hər birimizin doğulduğu məmləkətdə, kənddə, şəhərdə uşaq ikən evdən məktəbə qədər getdiyimiz yolda sanki elə bir bina yox idi ki, şəhid büstü, elə bir həyət yox idi ki, Şəhid bulağı tikilməsin. Kədərli baxışlarla boylanırdı o şəhidlər əbədi həkk olunduqları o şəkillərdən. Təkcə ürəklər deyil, binalar, həyətlər də yaralı idi...

Amma tarixin ən acı sınaqlarından şərəflə, zəfərlə çıxan Azərbaycan xalqının ürəyində olan Vətən sevgisi bitib tükənmirdi.Bu acıyla, ağrıyla yaşasa da bir an da olsun onu gələcəyə ümidlə aparan Vətən sevgisini unutmur, onu bir alov kimi daha da gücləndirirdi. Bu güc bir gün bizim olan torpaqların işğaldan azad olacağının inamı idi.

Bir payız günündə sanki günəş daha parlaq şəfəq saçdı və həmin an gəldi... İllərdən bəri işğalda olan torpaqlarımız igid oğlanlarımızın, ordumuzun və bu ordunun Müzəffər Ali Baş Komandanının şücaəti, qətiyyəti ilə geri alındı. Tariximizə yeni bir Qələbə, Zəfər yazıldı. Amma biz bu qələbəni asan qazanmadıq. 44 gün davam edən haqq savaşında qəhrəmanlarımız bir an belə ruhdan düşmədən, geri çəkilmədən, yüksək ruhla mübarizəni davam etdirdilər...

Budur, 10 noyabr! Azərbaycan xalqı sevinc içindədir. Xalqimiz qələbə sevincini qurur hissi ilə yaşayır. Onun buna haqqı da var. 30 ildir dözür, savaşır və bir an da olsun o torpaqları unutmur. Nəticədə Azərbaycan Ordusu və dövləti bütün dünyaya nəyə qadir olduğunu sübut edərək, yeni tarix yazır. Dünyanı heyrətə gətirən bir döyüş tarixi, Şuşa fatehlərinin qəhrəmanlığı artıq dünyanın hərb dərsliklərində yer alıb. Dünənə qədər uşaq, yeniyetmə, "bığ yeri yenicə tərləyən" gənc saydığımız oğullar bir gecənin içində xalqınqəhrəmanına çevrildilər. Heç kəsin tarixdən silə bilməyəcəyi Azərbaycan tarixini silahları və hünərləri ilə qələmə aldılar.

Biz müharibənin davam etdiyi 44 gündə də, böyük Zəfərin elan olunmasından keçən günlər ərzində də xalqımızın, ordumuzun nə qədər birlik, necə qüdrətli, hansı gücə malik olduğunun şahidinə çevrildik. Artıq bu gün dünyanın hər yerindən gözəl Qarabağın, Şuşanın sorağı gəlir. Ağlaya-ağlaya sevinən analarımızın da dilinin əzbəridir, Qarabağ. İndi yollarımız Cıdır düzünəcən baş alıb gedir. Müzəffər Ali Baş Komandanımız, mübariz iradəli İlham Əliyevin "dəmir yumruğ"u sayəsində qazandığımız Zəfər əbədi qürurumuzdur. Bir daha təsdiqləndi ki, Azərbaycan Xalqı yenilməz xalqdır, Azərbaycan dövləti məğlubedilməz və güclü dövlətdir. Saatın əqrəbləri dayanmadan bizi Qarabağımızın sözün əsl mənasında cənnətə çevriləcəyi günlərə aparır. Buna görə biz Müzəffər Ali Baş Komandana, onun qüdrətli Ordusuna, qazilərə və Vətən sevgisiylə ürəkləri əbədi döyünən qəhrəman Şəhidlərə borcluyuq!

**Səbinə Əliyeva**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ HƏLAK OLMUŞ QƏHRƏMAN ŞƏHİDLƏRİMİZİN ƏZİZ XATİRƏSİ QARŞISINDA BAŞ ƏYİR, ONLARA ALLAHDAN RƏHMƏT DİLƏYİRİK!

## VƏTƏN, CAN, CANAN

***Şəhid baş leytenant Zülfü Rzayevin həyat yoldaşı Gülnar Rzayeva ilə müsahibə: "Sentyabrın 26-sı Zülfü evdən çıxanda alnımdan öpdü və son sözü belə oldu: "And olsun canına ki, gələcəyəm, Gülüm".***

Bu dünyada insanlar üçün ən əziz olan həyat eşqidir. Heç kim bu həyata gələndə məramının nə olacağını, haralarda olacağını və onun üçün hər şeydən əziz olan həyat eşqinin necə sona yetəcəyini bilmir. Ən maraqlısı isə hər kəs əvvəlcədən bilməyəcəyi bu gerçəklərlə dünyaya göz açır. Lakin elə insanlar var ki, ömürlərinin bütün bir hissəsini heç düşünmədən bəzi məramlara qurban verirlər. Kimisi üçün bu məram tələbatlarla bağlı olur, kimisi üçün isə mənəvi duyğularla. Birinci qeyd etdiyim insanlar yaşamaq üçün yaşamaqdan imtina edə biləcəkləri vəziyyətə gəlirlər. İkinci qeyd etdiyim insanlar isə başqalarının yaşaması, ali hesab etdikləri mənəvi duyğularının əbədi olması üçün yaşamaqdan imtina edirlər. Bu ali duyğulardan biri Vətənə məhəbbət duyğusudur. Əminəm ki, bu sətirləri oxuyan hər kəsin gözündə yaxın tarixin qəhrəmanları olan 3000-ə yaxın igid canlandı. Bu qəhrəmanlar da doğularkən gələcəkdə hansı məramda olacaqlarını bilmirdilər. Zaman, şərait, çox səhifəsi ağrı-acı dolu tarix onlara məramlarını seçdirmişdi. Onlar ürəklərindəki Vətən eşqi ilə alışıb-böyümüş və hər biri Vətənə xidmət üçün hərb sahəsini seçmişdi. Onların hər biri doğulan an Tanrı qatında seçilmişdi. Tanrının doğulan gün cənnətlə müjdələdiyi bu qəhrəmanlardan biri də baş Leytenant Zülfü Rzayev olmuşdur.

Zülfü Zeyni oğlu Rzayev 1993-cü ildə 9 mayda – Qələbə günündə Şahbuz rayonunun Külüs kəndində anadan olub. 2020-ci ilin 44 günlük müharibəsinin, Naxçıvanımızın ilk şəhidlərindəndir. 27 sentyabr – Böyük Qayıdışın ilk günündə Füzuli uğrunda gedən döyüşlərdə şəhadətə qovuşmuşdur. Zülfü həmçinin, Aprel döyüşlərinin iştirakçısı olmuş, Lələtəpənin azad edilməsində böyük şücaət göstərmişdir. Bu qəhrəmanlığı cənab Prezident İlham Əliyev tərəfindən qiymətləndirilmiş, igidimizə "İgidliyə görə" medalı təqdim edilmişdir. Uşaqlıqdan bəri arzusu Qarabağı azad görmək, Füzulidə yaşamaq olub. Elə buna görə ordu sıralarına qoşuluraq baş leytenant rütbəsinə qədər qalxır. O doğulan gün ailədə sevinc səsləri, gülüşləri eşidilirdi. Axı ailənin ilk oğlu dünyaya gəlmişdi. Hər şeydən xəbərsiz körpə Zülfü iri gözləri ilə başının üzərində dayanmış siluetlərə maraqla tamaşa edirdi. Ailəsi isə indidən gələcəyini planlayırdılar. Anası "həkim balam", atası "mühəndis balam" deyə əzizləyirdi. Tanrı isə onun alın yazısına çoxdan "bütöv Azərbaycanın qəhrəman balası" yazmışdı.

27 illik dastana dönmüş ömrünə Zülfü iki sevgi sığdırmışdı: biri uğrunda canından keçdiyi Vətən, digəri isə bir ömür yanında olacağına and içdiyi Gülnar. Zülfü hər ikisini bacardı. Vətəni uğrunda canından keçdi, ömrünün sonuna qədər də Gülnarla qaldı. 26 sentyabr onların birlikdə keçirdiyi son gün olmuşdu. Son səhər yeməyi, son gülümsəmə, son şirin söhbət, son gün, son saniyə. Zülfü isə həmişəki kimi sevdiyi xanımdan gülümsəmə ilə ayrılıb onu gözləyən müqəddəs vəzifəsinə döndü.

Tarix dərslərində Vətənin bədbəxtliyini öyrənmişdi. Başının üzərindəki qara buludları bilirdi, lakin onlara qalib gələcəyimizə də əmin idi. Onun qəlbi Füzuli üçün, Qarabağ üçün döyünmüşdü. Hər gün bu döyüntü daha da güclənirdi. Bir gün tarixin ən doğru zamanı seçəcəyini bilirdi. 2020-ci ildə isə Azərbaycan, onun müzəffər ordusu və bu ordunun müzəffər Ali Baş Komandanı tarixə fürsət vermədən öz zamanlarını seçdilər. Qələbəni qətiləşdirdilər. Zülfü və onun kimi igidlər bu müqəddəs yolda ölüm belə olsa, getməyi gözə aldılar. Sonuna qədər də getdilər. Doğrudur, çoxu cismən bu qürurlu sonluqda iştirak edə bilmədi, lakin ruhən Azərbaycan bayrağına sarılıb onu qürurla, fəxarətlə yüksəklərdə dalğalandırdılar. Bu bayraqdan biri də Külüs kəndində Zülfünün və onun silah yoldaşı, uşaqlıq dostu Firuz Qureşlinin məzarları üzərində dalğalanır.

Zülfü və onun Vətən sevgisi haqqında həyat yoldaşı Gülnar Rzayevanı dinlədim. Verdiyim suallara fəxrlə cavablar verməsi məni həm duyğulandırdı, həm də məğrur şəhid xanımı ilə qürur duymağıma səbəb oldu:

***–Zülfü haqqında danışmaqda məqsədim sizi kədərləndirmək deyil, ancaq bilirəm ki, qürurla cavab verəcəksiniz.***

–Xeyr, narahat olmayın, mən yeri gəldikdə Zülfüyə yaraşar bir şəkildə onun haqqında danışmağı, söhbət etməyi də sevirəm. Onunla bağlı hər kəsə hər an danışmaq istəyirəm.

***–Gülnar xanım, Zülfünün Vətən sevgisi haqqında nə deyə bilərsiniz?***

–Mənə elə gəlir ki, sevgi ananın övladına qarşı da sevgi hissi var. Bir insan anasını da sevə bilir, övladını sevə bilir, həyat yoldaşını, təbiəti, rəngi sevə bilir. Sevgi sadəcə iki insan arasında olan bir hiss deyil. Mən bu sevgilərin ən gözəlini, sevginin iki insan arasında olmadığını Zülfüdən öyrəndim, Zülfünün Vətən sevgisində gördüm. Dediyim kimi sevgi iki insan arasında olmurmuş, sevgi Vətənə də qarşı olurmuş, torpağa, bayrağa qarşı olurmuş. Zülfü mənə bunu öyrətdi. Mən Zülfünün ən yüksək sevgisini onda gördüm. Bu gün mən istəyirəm ki, bütün suallarına Zülfünün sitatları ilə cavab verim. Onun belə bir sözü var, bunu hər kəs, əsasən də hərbçilər deyər: "Hər şey Vətən üçün, can üçün, canan üçün!" Bir dəfə bununla bağlı soruşdum ki, nəyə görə hər şey Vətən üçün, sonra can, canan üçün deyirsən? Cavabı belə oldu ki, diqqət etsən, mən ortaya öz canımı qoymuşam, canımı ortaya qoyub Vətənimi və cananımı qorumuşam. Onun Vətən sevgisini hər hansı cümlə ilə ifadə etmək qeyri-mümkündür. Ancaq belə bir şey deyə bilərəm ki, o öz canını, cavanlığını, həyatını, gələcəyini, hər şeyini Vətənə qurban verəcək qədər sevirmiş. Mən də deyirəm mən Zülfünü sevirəm, amma bəlkə də bacarmadım. Yaxud belə də deyə bilərəm ki, bəzi insanların yaşaması başqalarını yaşatmaqdır. Mənim yaşama səbəbim də Zülfünü yaşatmaqdır, onun sevgisini yaşatmaqdır. Ona layiq həyat yoldaşı olmaqdır. Zülfünün Vətən sevgisi isə tək tərəfli deyilmiş, belə ki, Vətəni də Zülfünü sevirmiş. Qoynuna ala biləcək, bağrına basacaq, tarixə yazacaq qədər sevimiş. Bu isə ən gözəl sevgidir, nə sözlə ifadə oluna bilər, nə də hər hansı kitaba yazıla.

***–Zülfü heç düşünmədən özünü Vətənə qurban verdi, bununla bərabər ailəsini də qurban verdi. Bu haqda nə düşünürsünüz?***

–Yenə də Zülfünün bir cümləsi ilə başlamaq istəyərəm, hətta onun belə bir səs yazısı da var, qismət olarsa, bir gün dinlədərəm. İş yoldaşının bayramını təbrik edir və deyir: "İnsanın iki ailəsi olur: biri yaratdığı, digəri isə yaratdığı ailəsi". Sonra təbrikini belə davam edir: "İnşallah gələn il yaratdığın ailənlə qeyd edərsən". Mənə də çox deyərdi bu cümləsini. İstər Zülfünü boya-başa çatdıran, onu bu Vətənə qeyrətli oğul kimi böyüdən, təhsil, tərbiyə verən ailəsi, istərsə də, özünün yaratdığı ailəsi olan mənim üçün çox ağırdır, doğrudur fəxrlidir, qürurludur, amma eyni zamanda da olduqca ağırdır. Zülfü ilə bağlı bir şey danışarkən o qəhər, o hüzn tam sinəmin üzərinə çökür (Kədərlənir, özünü toplayaraq yenidən titrək, qürurlu səsi ilə davam edir). Zülfü öz mükəmməlliyinin, qəlbinin gözəlliyinin, saflığının mükafatını aldı. Rəbbim bu zirvəni, bu şəhadəti ona qismət etdi. Cənnətlə müjdələdi, inşallah bir gün yenidən qovuşacağıq. Lakin mənə elə gəlir ki, geridə qalanlar üçün Zülfünün atasıanası, onu sevənlər, ailəsi üçün, mənim üçün bu gediş çox ani və çox çətin oldu. Bəli, Zülfü hər şeyini Vətənə qurban verdi. Zülfü yaratdığı ailəsini başqa cür qiymətləndirir, əl üstündə tuturdu. Bu onun yaratdığı bir şey idi. Yarandığı ailəni heç kim seçə bilməz, çox şükür ki, onun ailəsi olduqca gözəl ailədir, bunun nəticəsində Zülfü gözəl tərbiyə alıb, bu qədər savadlı, vətənpərvər, Azərbaycan ordusuna layiqli zabit olubdur. Öz ailəsini isə özü seçmişdi. Belə bir xüsusiyyəti var idi ki, öz problemlərini özü həll edərdi, çünki özü yaratmışdı bu ailəni, hər çətinliyə özü sinə gərər və bundan çox xoşbəxt olardı. Mənə elə gəlir ki, kimsənin ürəyində şəhadət arzusu olmasa, ona şəhadət qismət olmaz. Zülfü də istəyərək hər şeyi, hər kəsi Vətən sevgisinə qurban verdi.

***–Bəs Zülfü heç belə bir sonluq düşünmüşdümü? Sizə bu qürurun, həm də kədərin yaşana biləcəyini xatırladırdımı?***

–Zülfünü nə qədər yaxından tanısam da, hər şeyinə bələd olsam da, onun bu haqda düşüncələrini deyə bilmərəm. Mən elə düşünürdüm ki, o getməz, Zülfü məndən heç vaxt getməz. Elə də oldu, o mənim ürəyimə əbədi həkk olundu. Zülfünün özünün dediyi bir sözü demək istəyirəm yenə. Biz lap əvvəllərdən tanış olmuşuq. Birlikdə çox uzun vaxtımız olub. 2013-2014-cü illərdə kəşfiyyatçı ixtisasını seçdiyi vaxtlar idi, az qalırdı ki, zabit kimi fəaliyyətə başlasın. Ata-anasına belə demişdi: "Mən kəşfiyyatçı ixtisasını seçmişəmsə, siz hər şeyə hazır olmalısınız. Mən bu ixtisasa layiq olmalıyam. Bu adi bir şey deyil, bu torpaqlar azad olunmalıdır. Bu ixtisasa layiq olmaq üçün əlimdən gələni edəcəyəm". Həmin vaxt mənə çox pis təsir etmişdi, hətta çox qəribə reaksiya da vermiş, incimişdim. Sonra cümləsini belə düzəltmişdi: "Sənin əlindən tutub yalnız buraxmayacağam, qarşımda dura biləcək yeganə şey sən olarsan". Ancaq deyəsən heç mən də qarşısında ola bilmədim, onun Vətən sevgisi hər şeyi üstələdi. Bir dəfə də Zülfü öz müsahibəsində belə demişdi: "O torpaqlara ayaq basmaq, o torpaqların qoxusunu, iyisini çəkmək çox istəyirəm". Həqiqətən də belə oldu. Zülfü o torpaqlara ayaq basdı, qoxusunu içinə çəkdi və şəhadətə yüksəldi. Hal-hazırda onun ruhu o torpaqlarda, bayrağın dalğalandığı ən gözəl yerdədir və bu onun ruhunu çox şad edir. Bəzi şəhid ailələrində çox görmüşəm ki, şəhidlər nə zamansa şəhid ola biləcəklərini ailələrinə hiss etdirirlər, ancaq mən heç vaxt Zülfünün dilindən onun gedə biləcəyini eşitməmişəm. Bunu heç vaxt hiss etdirməyib. Hətta 26-sı evdən çıxdığı anda belə Zülfü alnımdan öpüb və son sözü



belə olub: "And olsun canına ki, gələcəyəm, Gülüm". Zülfü ən son nəfəsində belə onu mənə hiss etdirib ki, geri gələcək. Ölməyə yox, öldürməyə gedən komandirlərdən olub, "irəli gedin" deyən yox, "arxamca gəlin" deyən komandir olub. Bunu layiqincə də yerinə yetirib. Son nəfəsinə qədər Aprel döyüşlərində şəhid olan silahdaşlarının qisasını alıb.

Sentyabrın 17-si belə bir hadisə oldu ki, biz şəhərə çıxmalı idik, ancaq mən çıxmaq istəmədim. Əlimdən tutdu və belə bir söz işlətdi ki, gəl, sonra belə günləri tapa bilməyəcəksən və çox darıxacaqsan. İndi özümə çox sual verirəm ki, görəsən, Zülfü həqiqətən bunu bilərək deyirdi? Müharibə baş verər, o şəhid olar, mən isə indi o günlər üçün bütün gələcəyimi, ömrümü qurban verməyə razı olaram. Bilərək, yaxud bilməyərək işlətmişdi o sözləri deyə bilmərəm. İndi çox haqlıdır, həmin günlərimi geri gətirmək üçün hər şeyimi qurban verməyə hazıram. Zülfü isə dediyim kimi güclü duran, söhbət açılarsa belə, qalib gələcəyimizə əmin olan biri idi. Həmişə deyərdi ki, Naxçıvana yol çəkəcəyəm, rahat gedib-gələk. Qismət deyim.

***–Biri-birinizi tanıyanda artıq onun Vətən sevgisini bilirdiniz, onu itirmək qorxunuz olubmu? Bu hissə necə qalib gəlməyə çalışmısınız?***

–Bütün sevən insanlarda itirmək qorxusu olur. Sadəcə insan xoşbəxt, yan-yana olarkən bunu fikirləşmir. Bunun baş verə biləcəyi ehtimalını göz önünə gətirmir. Zülfüyə zəng çatmayanda, həmin axşam evə gec gələndə və ya gəlməyəndə, təlim adı ilə iki gündən artıq onu görməyəndə artıq bu məndə tərif edilə bilməz qorxu, narahatlıq yaradırdı. Nəsə var ki, mənə zəng etmir, ona zəng çatmır, evə gələ bilmir. Yenə də Zülfü hər dəfə geri dönüb, mənə gəlib. Ona görə bu gedişin mənə ayrı təsiri var. Bu nigarançılığa, narahatlığa qalib gəlməyimin səbəbi də elə Zülfünün özü olub. "Sən uşaqsan? Sən hərbçi xanımısan. Bunlara görə narahat olacaqsan?" deyərək məni ayağa qaldırıb ki, bir zabitin həyatı belədir və mən buna uyğunlaşmalıyam. O məni belə böyüdürdü, tərbiyə edirdi. Bunu beynimə həkk edirdi ki, sən bütün çətinliklərə tək sinə gərə bilərsən, çünki sən hərbçi xanımısan, mən isə həmişə sənin yanında, arxanda olacağam, sadəcə sən həmişə öz ayaqlarının üzərində durmağı bacar. Əslində elə də oldu, Zülfü yanımdadır, qəlbimdədir, ruhu həmişə mənimlədir və mən hər şeyi o olmasa belə, ona layiq, onun adına uyğun, onun kimi yaşadacam, yaşayacağam. Bu mənim ən böyük məqsədimdir. Bu dünya ilə bağlı tək bir məqsədim ola bilər ki, o da Zülfünü layiqincə yaşatmaq, tanıtmaqdır.

***–Müsahibə üçün çox sağ olun.***

Bütün Azərbaycan 44 günlük qələbə ilə dünyaya, dosta, düşmənə nəyə qadir olduğumuzu göstərdi. Həm 3000-ə yaxın xarıbülbül qoxulu igid, həm də bu gün hər gün onları ziyarət edən silah yoldaşları, qazilər, bütöv Azərbaycan xalqı birləşdi. Ali Baş Komandanın gücü ilə yoğruldu, dəmir yumruq olub düşmənin başına endi!

Qəhrəman Zülfü, sənə qürurla səslənirəm. Sən o dəmir yumruğun ən güclü zərrələrindən oldun! Sən Vətənini canından artıq sevdiyini göstərdin. Bizə düşən isə sənin bizə əmanət etdiyin Vətəni hər gün daha da çiçəkləndirmək, ona layiqincə xidmət etmək, canımızdan çox sevməkdir. Sən Vətənə olan borcunu ödədin, növbə isə bizdədir. Sənin müqəddəs qanının bulaşdığı üçrəngli bayraq bizim başımızın üzərində dalğalanacaq. Heç vaxt səni, sənin şəhid bacı-qardaşlarını unutmayacağıq! Unutsaq, tarix bizi bağışlamaz! Axı tarix unudanları bağışlamır, unudanlara cəza olaraq təkrarlanır! Bu millət, bu xalq isə artıq Zülfülərin əmanətinə gözü kimi baxır, bir qarış torpağını da, o bir qarış torpaqdan yoğrulmuş balasının qanını da itirmək istəmir. Yenə də lazım gələrsə, qorxmadan canını da, qanını da sizin əmanətinizi qorumaq üçün verər. Zülfü, sənin hər zaman dediyin kimi "Cana can, qana qan! Yetər ki, sən dalğalan!"

**Aytəkin Abbaslı**
***İqtisadiyyat ixtisası üzrə III kurs tələbəsi***

## QAYIDAN TORPAĞIN QAYITMAYAN OĞLU



Türkün yumruğu sərt, ürəyi sərt, vətəninə göz dikənə dərd olar. Bunun ən böyük şahidi də bizlərik. Biz bunu 44 günlük müharibədə göstərdik. Bizi qələbəyə aparan bu yolda neçə-neçə qəhrəmanlar öz canından keçdi. Ailələr başsız, sevgilər yarım, övladlar atasız, anaların gözü yaşlı qaldı. Artıq "Vətən müharibəsindən" bir il ötüb, amma hələ müharibənin qoyduğu yaralar sağalmayıb. Vətən müharibəsinin qəhrəmanlarından biri də itkin Vəlizadə İbrahim Səməd oğludur. İbrahim 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Vərməziyar kəndində dünyaya göz açmışdır. Ailədə 4 qardaş olan İbrahim ailənin 2-ci övladıdır. Orta məktəbə Vərməziyar kənd məktəbində başlamış, 2012-ci ildə məktəbi bitirmişdir. Uşaqlıqdan hərbiyə marağı olan İbrahim Leytenant rütbəsinə qədər yüksəlmişdir. Hərbiyə olan sevgisi İbrahimi Naxcıvandan Şəmkirə qədər aparmışdı. Ailəsindən uzaqda olsa da hər zaman evdəkilərə qarşı mehriban və qayğıkeş olmuşdur. Müharibəyə gedərkən son dəfə sentyabrın 26-da atası Səmədlə danışıb. Son danışığı zamanı "zəng etsəz, zəng çatmasa narahat olmayın, telefonu söndürəcəm" deyib. Bu onun ailəsinə dediyi son sözlər olub. O gündən sonra İbrahim haqqında heç bir məlumat yoxdur. Müharibə zamanı Murov-Kəlbəcər istiqamətində döyüşlərdə iştirak edib. Müvafiq orqanlara müraciyət olunsa da, artıq bir ildir ki, ondan heç bir xəbər yoxdur. Ailəsi və bütün Azərbaycan İbrahimin yolunu gözləyir. İtkin İbrahim Vəlizadənin atası Səməd Vəlizadə deyir ki, 1 ildir gözlərimiz yol çəkir, hər an oğlumuzdan xəbər alacağımız ümidilə yaşayırıq. İbrahimin anası da oğlunun evlərinə sağ salamat qayıdacağına inanır. Gözünün yolda qaldığını, ürəyinin bala həsrəti ilə yanıb bitdiyini deyir.

Allah heç bir valideyini övladı ilə sınağa çəkməsin. İndi ailəsi ilə birgə bütün Azərbaycan xalqı İbrahimin yolunu gözləyir. İnşallah, sağ-salamat sevdiklərinin yanına qayıdar bütün Azərbaycanı sevindirər.

Bizə bu zəfər sevincini yaşadan, bizi qalib ölkə kimi tanıdan şəhidlərimizin ruhları qarşısında baş əyir, qazilərə allahdan şəfa diləyir, itkin düşən oğullarımızın ailələrinə səbr diləyirik. Onlar bizim qəlbimizdə əbədi yaşayacaq. Qayıdan torpağın qayıtmayan oğulları hər şeyi sizlərə borcluyuq! Bütün Azərbaycan sizlərlə qürur duyur.

**Bülbül Quliyeva**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# BİLİK VƏ BARIT QOXULU SENTYABR

Sentyabr ayların ən gözəli, ən sancılısı, ən kədərlisi və ən məğrurudur... Sentyabr ayı illərdir qaranlıq ömrümüzü biliyin işığı ilə aydınladırdı. Hər il hamı sentyabrın gəlişini xüsusi səbirsizliklə gözləyirdi. Qızıl payızın ilk aylarından olan bu ayda otların, çiçəklərin, ağacların ömründə xəzan çağı olsa da bizim üçün illərdir elmin, biliyin başladığı ay olmuşdu. Çünki 15 sentyabrda yeni tədris ili başlayırdı. Təbiətdə xəzan ayı başlasa da ömrümüzdə bir canlanma başlayırdı bu ayda. Məktəbə gedən şagirdlərin də ali təhsil ocağında olan tələbələrin də sevinci bir idi. Yeni biliklər öyrənmək. Öyrənəcəyimiz fənlər arasında tarix elminin isə ayrı yeri var idi. Tariximizi öyrəndikcə qürur duyduğumuz məqamlar da olurdu, kədərləndiyimiz, nifrətdən alovlandığımız anlar da. Hər dəfə Qarabağın tarixini öyrəndikcə həsrətin soyuğu qılınc kimi parçalayırdı ürəyimizi. 30 il davam edən bu ağrı çox dözülməz idi. Nəhayət, 2020 -ci il 27 sentyabrda qalxdıq vətənin xaincə vücudundan qoparılan göz nurunun-Qarabağının müdafiəsinə.Vətən sevgisi qolumuza qüvvət, biliyimiz isə bu çətin yolumuza günəş oldu. 27 sentyabrda cəbhədə toplar guruldayır, silahlar susmurdu. Odlar yurdunun aslanları səhərin sübh çağında vətənin müdafiəsinə qalxaraq tariximizə yeni bir tarix yazmağa başlamışdılar. Hər gün, hər saat cəbhədən müjdəli xəbərlər alırdıq. Bir an belə durmadan Qarabağa doğru irəliləyirdi vətənimin məğrur igidləri. Cəbhədə yalnız müharibə yox, savaş dərsi gedirdi. İgidlər öz müqəddəs qanlarıyla tariximizə yeni bir tarix yazarkən həm də dünyaya haqq, hüquq, ədalət, vicdan dərsi verirdi. Dövlət-xalq-ordu birliyindən doğan dəmir yumruqla düşmən darmadağın



edilirdi. Hər bir qarış torpağımız işğaldan azad olduqca xarı bülbülün ətri daha yaxından duyulurdu ana yurdumuzda. Gecənin zülmətini azadlığın günəşi addım-addım qovalayaraq cənnətin gözəl qoxusunu doldururdu dünyamıza. Analar bir gözü ilə şəhid balalarına ağlayır bir gözü ilə vətənin azadlığına təbəssüm edirdi. Vətən oğullarının çəkdiyi nərə nəinki düşmənin bağrını yarırdı, həm də yeri-göyü lərzəyə gətirirdi. Sanki Yaradan öz ordusunu yerə endirmişdi. Dünyanın gözü Qarabağda gedən savaş dərsində idi. Bu dərs sinif otaqlarında keçirilən qırx beş dəqiqəlik tarix fənninə 44 günlük Vətən müharibəsi olaraq düşdü. Artıq sentyabr ayını bilik və barıt qoxulu ay olaraq yad edirik. Qarabağın azadlığının başladığı tarix də, buludların torpağa düşən sevinc və kədər qarışıq göz yaşları da, Vətən üçün canını qurban verən oğullarımızın ayrılığının hüznü də sentyabrdan başlayır. Qürurlanmağa və kədərlənməyə aid hər şey var bu ayda. Vətənin səmasında azadlıq göyərçininə dönüb qanad çalaraq yüksəklərə ucalan şəhidlərimizin çin olan arzuları da, yarımçıq qalan xəyalları da sentyabrdadır. Şəhidlik məqamına ucalan oğullarımızın ardından yarpağını tökmüş ağac kimi solğun görünən anaların, ataların, bacıların, övladların kədəri də, biliyin və gücün qələbəsinə gedən yolun ilk həmləsi də ondadır. Azadlığımızın, birlik və bərabərliyimizin, qürurumuzun simvoluna çevrilən şəhidlərimizin anım günü də bu aydadır. Cəbhədə şəhidlərin nur üzünü öpən küləyin o xoş, o ılıq titrəyişi də ondadır. Durğunlaşmağa, səssizləşməyə, qürurlanmağa aid hər şeyin başlanğıcıdır sentyabr.

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə***
***III kurs tələbəsi***

# TALEYİMİZƏ DÜŞƏN PAYIZ

Payız dedikdə mənim təsəvvürümdə ilk olaraq yarpaqları saralmaqda olan ağaclar, buludların arxasında gizlənən amma istisini bizdən əsirgəməyən günəş canlanır. Həmən o payız günləri bir başqa olur.Yayın qızmar istisindən sonra bu sərinlik insanın könlünü oxşayır. Payız sanki qarşıdan gələn şaxtalı günlərə bizi hazırlayır.

Mənim üçün sentaybr sanki yeni ilin başlanğıcı idi. Böyüklər illik istirahət günlərini bitrib işlərinə davam etməyə hazırlaşır, şagirdlər və tələbələr isə yeni tədris ilinə başlamağa can atırlar. Bu ayı geri dönüş kimi də ifadə etmək olar. Sentyabrı həvəslə gözlədiyim vaxtları xatırlayıram.Son bir ildə isə sentyabr tamamilə dəyişdi. Bu vaxta kimi heç bir payız bu qədər həm sevincli, həm də kədərli olmamışdı. Necə ki, yanvar ayı deyildikdə mənim ağlıma ilk olaraq 20 Yanvar gəlir, bundan sonrada hər sentyabr ayı deyildikdə 27 Sentyabrı xatırlayacam. 44 günlük müharibə. Zəfərlə, qürurla bitmiş bir müharibə. Belə bir söz eşitmişdim "Barıt qoxulu sentyabr". Sözün əsl mənasında barıt qoxulu sentyabr idi.Tam 1 il öncə. Bu dəfəki payız bir başqa gəlirdi. Özü gəlməmiş sorağı bizə gəlib çatmışdı. Müharibənin olacağı söz-söhbətləri artıq el arasında yayılmışdı. Müharibənin vahiməli adı belə bizi təşvişə salırdı.

44 gün ərzində davam edən müharibədə hər dəfə torpaqlarımızın geri alınmasının müjdəsini cənab prezidentimizdən aldıqda saatından asılı olmayaraq xalq əllərində Azərbaycan bayrağı, dillərində isə "Qarabağ Azərbaycandır" şüarını səsləndirərək şəhərə axın edirdilər. Pandemiya şəraitində olmamıza baxmayaraq, bu vəziyyətə dövlətimizin polisləri belə müdaxilə etmirdi. Əhali sevincini doya-doya yaşayırdı. Zəfərimizi layiqincə qeyd edirdi. Bu vəziyyəti digər xarici ölkələrdə olan həmvətənlərimiz də həmin yerlərdə yaratmışdı.

İrəli gedən ordumuz ilə öz torpağını, xalqını qeyrəti ilə qoruyan şəhidlərimizlə, qazilərimizlə, əsgərlərimizlə qürur duyuruq. Yeni nəsil öz tarixini yazdı. Onların nur üzləri heç vaxt ağlımızdan çıxmayacaq. Barıt qoxulu sentyabrdan bizə yadigar qalan həmin o hislər. Bir gün içində həm bizi bitirən, daha sonra bitirdiyi yerdən dirçəldən, deməklə ifadə edə bilməyəcəyim xatirələr. Üzərindən 100 il keçsə də dəyişməyəcək, hər an xatırladıqca o hisləri yenidən yaşayacam. Unutmayacam, unutdurmayacam da!

Yaddaşımızda, ürəyimizdə dərin izlər qoydu həmin payız. Bu da azərbaycanın taleyinə düşən növbəti payız.

**Məhluqə Rzalı**
***Jurnalistika ixtisası üzrə***
***IV kurs tələbəsi***

# UNUTMADIQ, UNUTDURMARIQ!

Şanlı tariximizin başlanğıcı məhz sentyabr ayından başladı. O həmin sentyabrdı ki, həmin aydan barıt iyisi gəlir. Həmin sentyabrdı ki, igid oğullarımız heç qorxmadan canla-başla döyüşməyə getdilər. Biz zəfər tariximizi bu aydan başladıq yazmağa. Heç unudulmayacaq 44 günlük müharibə bizi hər şeyin gec-tez mümkün olacağına inandırdı. Otuz ildir ki, doğma torpaqlarımıza həsrət idik. Artıq bu həsrətə son qoyuldu.



Bu qürurverici qələbəmizin başlanğıc tarixi 27 sentyabr səhər saatlarında internetin kəsilməsi xəbəri ilə başladı. Hərbi vəziyyətlə əlaqədar Milli Məclisdə keçirilən iclasda 27 sentyabr bir sıra rayonlarda komendant saatı elan olundu. Həmin gün xalq təşvişə düşdü. Ağıllarda 20 Yanvar faciəsi, Birinci Qarabağ müharibəsi, Xocalı faciəsi canlandı. Halbuki bilmirdik ki, bizim igidlərimiz sayəsində ali baş komandan, prezident İlham Əliyevin siyasəti sayəsində 30 illik həsrətə son qoyub, torpaqlarımızı alacağıq. Hər gün torpaqlarımızın azad olması bizlərə ümid verirdi. Hər qələbənin sevincini yaşadıqca, kədərini də yaşayırdıq. Bilirdik ki, torpaqlar şəhid olmadan qazanılmaz. Bu acı həqiqət bizləri həm yıxır, həm də qürurlandırırdı. Hər gün gələn şəhid xəbərləri ilə ürəklərimiz parçalanırdı. Minlərlə ev işıqsız, minlərlə uşaq atasız, minlərlə ana oğulsuz qalmışdı.

Xalq olaraq böyükdən-kiçiyə hər kəs bir qəhrəmana çevrildi. Vətən sevgisi bizi ölümdən qorxmağa imkan vermədi. Ölümün üzünə dik baxıb, anındaca düşməni məhv etdik. Ard-arda əldə edilən qələbələr ordumuzu daha da ilhamlandırdı. İgidlərimiz sonuna kimi vuruşub, ermənləri məhv edib, bayrağımızı zirvələrə sancdılar. Öz canını qurban verərək, xalqını qoruyan şəhidlərdən olan Hüseyn Tağıyev də minlərlə igidlərimizdən biri oldu.

Tanıdığım, həm də qohumum olan Hüseyn Tağıyev döyüşlərdə cəsarətinə və igidliyinə görə fərqləndi. Hüseyn Oqtay oğlu Tağıyev 1991-ci il avqustun 8-də Bakı şəhərində anadan olub. O, 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli hərbi xidmətdə olub. 2016-cı ilin 2-5 aprelində baş verən Aprel döyüşlərində iştirak edib. Hüseyn 2020-ci il oktyabrın 5-də Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlər zamanı şəhid olub. 2019-cu ildə Ayşən ilə ailə həyatı quran Hüseynin Nazl adlı qızı yadigar qalıb.

Azərbaycan prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə Hüseyn Tağıyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidlik ən ali məqamdır. O məqam ki, hər kəsə qismət olmur. Biz şəhidlər sayəsində torpaqlarımızı geri aldıq. Onlar vuruşdular, biz qələbəy inandıq. Onlar şəhid oldular, biz həm ağladıq, həm qürurlandıq. Allah sizlərə rəhmət etsin, ruhunuz şad olsun, igid oğullarımız! Bizlər təkcə 27 sentyabr deyil, hər günümüzdə sizləri xatırlayırıq. Unutmadıq, Unutdurmarıq!

**Nardanə Əliyeva**
***Jurnalistika ixtisası üzrə***
***IV kurs tələbəsi***

# TORPAĞIMA CANIM FƏDA

Payızın ilk ayı olan sentyabrda adətən, bir neçə əlamətdar günü qeyd edirik. 15 sentyabr tarixi təqvimdə "Bilik günü"dür. "Bilik günü" daha çox birincilər üçün sevinclə, həyəcanla gözlənilən gündür. Onlar yeni bir həyata-məktəb həyatına ilk qədəmlərini atırlar, bu onlara əvəzedilməz hislər bağışlayır. İlk zəng səsini eşidən balacalar əllərindəki gül dəstələri ilə həyəcanla sinfin yolun tuturlar. 15 sentyabr bütün şagird və tələbələr, həmçinin onların valideynləri üçün bayram günüdür.

Ötən il xüsusi günlər sırasına yeni bir tarix də əlavə olundu ki, bu tarix nə ağlımızdan, nə də qəlbimizdən silinməz. Çünki bu tarixi Vətənin qəhrəman oğulları öz qanları ilə həm tariximizə, həm də qəlbimizə həkk etdilər.

27 sentyabr qəhrəmanlarımızın zəfər tarixinin barıt qoxulu yollarında atdıqları ilk addımları idi . Bu yola başlayan zaman tək amal düşmən tapdağı altında olan torpaqlarımızı azad etmək, uğrunda canlar fəda edilən torpaqlarımıza müqəddəs ay, ulduzlu bayrağımızı sancmaq idi. O anları xatırlamaq belə tük ürpədicidir. Balacasından yaşlısına qədər hər kəs televizorun qarşısında ümidlə, həyəcanla xəbər gözləyirdi. Gözləyirdi ki, prezidentimiz - İlham Əliyev sevincli xəbəri bizə verəcək, işğaldan azad olunmuş torpaqlarımızın siyahısını elan edəcək. Və hər gün azad olunmuş yeni ərazilər hesabına bu siayhı daha da uzanacaq.

Bu xəbərlərlə yanaşı evlərimizə oğlunun şəhidlik zirvəsinə ucaldığı xəbərləri də gəlirdi. Amma şəhid anaları "Onlar elə bir zirvədədilər ki, hər birimiz o zirvəyə həsrətlə baxırıq" deyə əyilmirdilər.

Bütün insanlar vaxtı gəldikdə bu dünyadan köçürlər, lakin şəhidlər haqqında "öldü" demirik. Biz hər birimiz öləcəyik, lakin şəhidlərimiz hər zaman yaşayacaq. Onlar vətəni qorudular, torpaqlarımızı azad etdilər, valideynlərini, sevdiklərini nə qədər əziz, uca tuturdularsa, Vətəni də bir o qədər uca bildilər.

Bura, düşmənin murdar bayrağını aşağı salıb öz üçrəngli bayrağımızı yüksəklərə dalğalandıran oğulların vətənidir. Bura Mübarizin, Poladın, Cəbrayılın, Xudayarın və onlar kimi igidlərin diyarıdır.

-"Yüksəkliyə qalxanda onun burnundan qan axırdı. Komandir deyirdi ki, gəl səni düşürdək aşağı, belə döyüşə gedə bilməzsən. Deyirdi ki, yox, ay komandir, biz buraya qan tökməyə gəlmişik, burnumdan qan axır deyə aşağı düşən deyiləm. Elə burnunda pambıqla da döyüşdü, şəhid oldu."- bax, bura Xudayarın və onun kimi qəhrəmanların vətənidir. Torpaq əgər uğrunda ölən varsa vətən deyilmidir?

Evində "Ata, tez gəl"-deyən balaca körpələrini, "Oğul, özünə diqqət et"- deyən ailələrini buraxıb vətən uğrunda döyüşə getdilər. Hər atəşlərində övladlarının gülümsəməsi gözlərində canlanırdı. Bu onlara döyüş əzmi verirdi. Axı onlar qələbə çalaraq evlərinə qayıtmaq, onu gözləyənlərə qələbə müjdəsi vermək istəyirdilər. Amma şəhidlik zirvəsinə ucalmaq onlar üçün böyük bir qürur idi.

Bu müharibədə Vətən uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan mərd oğullarımız da oldu, gözlərini qırpmadan döyüşüb qazi olan qəhrəmanlarımız da. Hər biri bizim qəlbimizdə məskən saldı. Bizim borcumuz da o məskəni daim qoruyub saxlamaqdır.

Barıt iyli döyüş bizə qırılmış qanadımızı bəxş etdi. Bax, bura barıt qoxulu paltarları bağrına basıb "Atam qəhrəmandı!"-deyən övladların vətənidir. Bura, şəhid olmuş oğlunun tabutunu çiynində daşıyan məğrur anaların vətənidir. Bu Vətən "Tabutu görəndə oğlumu təbrik etdim, şəhid adın mübarək, ay oğul"-deyən anaların vətənidir.

Bu döyüşdə yaşadığı regiondan asılı olmayaraq hər kəs Qarabağlı oldu. Hər ürək "Qarabağ Azərbaycandır!"-deyə döyündü. Bəli, bu döyüş gücün birlikdə olduğunu bizə bir daha xatırlatdı. Nə qədər vuruşursan vuruş, birlik olmadısa sən tam güclü deyilsən. Biz dəmir yumruğumuzun ətrafında birləşərək zəfər zərbəsilə dünya dövlətlərinə gücümüzü göstərdik. Ali Baş Komandan İlham Əliyev "Düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə-belə yumruq deyil. Bu dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik. Eyni zamanda bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib və həmişə belə olacaq, bu birlik əbədi olacaq" -demişdi. Bəli, biz daim yumruq kimi birləşib vətənimizin keşiyində duracayıq. Bu Vətənin mərd oğulları olduğu müddətcə heç kim bu torpaqların bir qarışına belə toxuna bilməz.

Səni yorulmadan qarış-qarış, hər zərrəni gəzib tanımaq istərəm. Sən ki, mərd duruşlu topçu Vüsalın vətənisən. Sən ki, mübarək qədəmlərini Şuşaya basan mərd oğulların diyarısan. Sən ki, öz canını gözünü qırpmadan fəda edən , "Torpağıma canım fəda"- deyən igidlərin məskənisən. Xeyr, əsla səndən nə yorulmaq, nə də doymaq olar. Sən nur saçan işıq, bizsə işığına toplaşan pərvanəyik.

Sən səmada işıq saçan Günəş, qəhrəman oğulların da yer üzünə düşən şəfəqlərindi. O şəfəqlər ki, heç vaxt Günəşini tərk etməyəcək.

Şəhidlərimizi tək bir gün deyil, ilin hər günü anırıq və anacayıq. Onların ürəkləri" Qarabağ"-deyə döyünürdü. Hərçənd ki, azad olunmuş Qarabağımızın cıdır düzündə onların ayaq səsləri eşidilmir. Amma qəhrəman şəhidlərimizin həm Qarabağda, həm də qəlbimizdə ayaq izləri var. Öz qanlarıyla tarix yazanlarımız, 44 günə qızıl hərflərlə böyük, şanlı bir tarix yazdılar.

Arxalarında "Atam haçan gələcək?", "Oğul, heç olmasa yuxuma gəl, orada görüm səni" deyənləri buraxdılar. Tək amal üçün onları arxalarında buraxdılar, qəlbləri "Mən də o döyüşlərdə iştirak edib torpaqlarımızı azad etməliyəm" arzusu ilə yanıb-tutuşurdu. Biz həm onlarla, həm də onları boya-başa çatdıran analarımızla fəxr edir, şəhidlərimizin ruhu qarşısında baş əyirik. İnsan sözünün mənası unutqan ola bilər, amma siz söyləyin bu qanla yazılmış tarixi unutmaq olarmı?

**Şəfaqət Məmmədova**
***Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə***
***III kurs tələbəsi***

# QƏHRƏMAN TƏRTƏRİM

Tarixən iblis xislətli məxluqların törətdiyi faciələrdən və buna bənzər düşmənçilik siyasətindən əziyyət çəkənlərdən biri də mənim yaşadığım, sakini olduğum Tərtərimdir. Səfalı mənzərəsi, təmiz havası, sərin suları ilə məşhur olan Tərtər rayonu həmişə mənfur qonşuların xəyanətlərinə düçar olub. Lakin mərd, igid insanların mübarizliyi sayəsində torpağının bir qarışını belə düşmənə təslim etməyib. Məndən yaşadığım yeri soruşsalar ürəklə “Qərəman Tərtərim” deyirəm. Bir qarış torpağını mənfur düşmənə verməyən, canı bahasına döyüşərək qəhrəmanlıq göstərən,Vətəninin darda olduğunu görüb evdə ağlar körpəsini, xəstə valideynlərini qoyub- “Mən gedirəm, gün bu gündür, Vətənə borcumuzu qaytarmaq vaxtıdır”- deyib silahlanan mərd oğullar yetişdirən qəhrəman yurdum. Bu igidlərin hər biri bir evin çırağı, ümid yeri olduqlarını bilərək, ölümü düşünmədən vətənin müdafiəsinə qoşuldular. Nəticədə “Dəmir yumruq” kimi sıx birləşərək Zəfər tarixi yazdılar.

Məlumdur ki, Tərtər də erməni təcavüzündən ən çox əziyyət çəkən bölgələrdən olub. Ərazilərdə tez-tez atəşkəs pozulurdu, dinc sakinlərə ziyan vurulur, ölüm hadisələri baş verirdi. Yadımdadır, uşaq vaxtlarımda babamgildə qalırdım. Mənim öz otağım vardı- rahat, işıqlı, fərah. Lakin gecə gözlərimi yumanda qulağıma gələn atəş səsləri o rahat otağımda kiçik yaşlı bir qızın hüzurunu qaçırıdı. Əsgərin kim olduğunu mənə babam danışmışdı. Səngərdə bizi igidcəsinə qoruyan qəhrəmanlarımız haqqında bilmək qorxularımın azalmasına kömək olmuşdu. Artıq böyüdükcə güllə səslərinə alışmısdım. 2020-ci il sentyabrın 27-də başlayan müharibə isə fərqli oldu. .

Ermənilərin atdığı mərmilərdən, raketlərdən evlər dağıldı, hərbi və mülki şəhidlərimiz oldu. Səhər saatlarında şəhərə düşən ilk raket bizim həyətimizə düşmüşdü. Buna baxmayaraq heç kəs evini, yurdunu tərk etmədi. Sakinlərimiz ev-eşiklərindən didərgin düşmədilər. Tərtərlilərlə birlikdə rayon icra hakimiyyətinin rəhbərliyi Tərtərdən bir addım uzaqlaşmadı, təşkil olunmuş sığınacaqlarda arxa cəbhənin müdafiəsində dayandılar. Şəhərə çıxanda özüm şahid olurdum ki mərmi düşəndə insanlar qaçıb gizlənmir, mərmi düşən əraziyə yaxınlaşıb maraqlanırlar. Qısacası, 44 gün davam edən Vətən



müharibəsindən tərtərlilər öz əzmkarlıqlarıyla torpaqlarının bir qarışını belə düşmənə vermədən, Vətən müharibəsindən alnı açıq üzü ağ çıxdılar. İdarə rəhbərləri ilə bərabər şəhər sakinləri, Birinci Qarabağ Müharibəsi Qaziləri, Gənclər Birliyinin, Qızıl Aypara Cəmiyyətinin nümayəndələri evlərini tərk etməyən vətəndaşlarımızın gündəlik ehtiyaclarının təmin olunmasında və digər işlərdə öz güclərindən maksimum istifadə etdilər. Qələbəyə doğru inamla irəliləyən qorxmaz, cəsur əsgərlərimiz düşmənin işğal olunmuş torpaq larımızdakı hərbi hissələrini, istehkamlarını, ön xətt mövqelərini, döyüş texnikalarını və infrastrukturunu, canlı qüvvəsini, cəbhənin dərinliyindəki atəş nöqtələrini, bazalarını darmadağın edərək, kəndlərimizi, strateji yüksəklikləri sürətlə azad etdilər. Ölkə prezidenti, Ali Baş Komandan İlham Əliyev tərtərlilər haqqında belə demişdir: “Tərtər sakinləri qəhrəmandırlar. Onlar burada döyüş bölgəsində, düşmənlə üz-üzə dayanıblar və atılan, evlərinə dəyən mərmilər onların iradəsinə zərrə qədər təsir etməmişdir”.

30 ilə yaxın erməni vandalları tərəfindən işğal olunmuş torpaqlarımız Ali Baş Komandanın qətiyyətli mövqeyi, Azərbaycan əsgərinin rəşadəti, şücaəti, xalqımızın birliyi, həmrəyliyi nəticəsində düşmənin müqaviməti qırıldı və 10 noyabr şanlı tariximizə Zəfər günü kimi yazıldı. Nəhayət, 30 il əvvəl yaşanan kədər sona çatdı!

30 illik vətən həsrəti, nisgili bitdi! 30 illik arzularımız, xəyallarımız, yuxularımız gerçəyə çevrildi! 30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi.

**Sevda Qənbərova**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# ABADLAŞAN FÜZULİM

29 iyun tarixində Naxçıvandan vətənim Füzuliyə qayıdırdım. İlk dəfə idi ki, özümü bu qədər həyəcanlı hiss edirdim. Sanki ilk dəfə idi bura gəlirdim. Bəlkə də bu hissin səbəbi Füzulinin azad edilməsi idi. Artıq rahatlıqla, qorxmadan, çəkinmədən öz yurduma gəlmişdim. Bizim yaşadığımız Zobcuq qəsəbəsinə daxil olduqda diqqətimi bir-birinin ardınca çəkilmiş internet xəttləri çəkmişdi. Füzuli rayonu həm telefon, həm də internet xidmətləri ilə təmin ediləcəkdi. Bunları gördükdə Füzuli rayonunun bərpa olunduğunu anladım, gözəl Füzulim daha da abadlaşacaq, Azərbaycanın ən gözəl şəhərlərindən olacaqdır. Füzuli rayonunda artıq yollar təmir olunur, işğaldan azad olunmuş kəndlərində yaşayış məskənlərinin, məktəblərin, uşaq bağçalarının, xəstəxanaların tikilməsi nəzərdə tutulur. Füzuli beynəlxalq hava limanı tikilib başa çatdı. Avqust ayında ilk sınaq təyyarəsini qəbul edən aeroport sentyabrda tam təhvil verildi. “Zəfər yolu” və ya Füzuli-Şuşa avtomobil yolunun da tikintisi davam etməkdədir.

Füzuli-Şuşa avtomobil yolunun təməli 2020-ci ilin noyabrın 16-da İlham Əliyev və birinci xanım

Mehriban Əliyevanın işğaldan azad



edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfəri zamanı qoyulmuşdur. Yeni Füzuli-Şuşa magistral avtomobil yolu başlanğıcını Füzuli rayonunun Əhmədbəyli kəndindən keçən hissəsindən götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazidindən keçir. Füzuli-Şuşa avtomobil yolu sayəsində Bakıdan Şuşa şəhərinədək olan məsafə daha da qısalacaq. “Zəfər yolu “ bizi hər zaman qələbəyə, zəfərə aparacaq. Belə güclü, müzəffər ordumuz və ali baş komandanımız olduğu müddətcə biz hər zaman zəfər qazanacağıq.

Kəndimizin video-çarxını gördükdə necə hisslər keçirdiyimi sözlə ifadə edə bilmərəm, çox duyğulandım, təəssüf hissi keçirdim. Nənəm orda böyük evimizin olduğunu deyirdi, yaşıllıq, gül-çiçəkli bir yer tərif edirdi bizə, amma mənfur düşmənlərimiz cənnət məkanlarımızı yerlə-yeksan etmişdilər. Bütün torpaqlarımız abadlaşacaq, yeni, daha gözəl diyara çevriləcək vətənimiz.

Azərbaycan xalqı qələbə çaldı, zəfər bizimlə oldu.

**Püstə Əhmədova**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# BİZİ BİZ EDƏN DƏYƏRLƏR

Bizi biz edən, eyni duyğu və düşüncə ətrafında birləşdirən çox qiymətli dəyərlərimiz vardır. Bu dəyərlər sadəcə cəmiyyətin bərabərliyinin mayası deyildir, eyni zamanda bütün dünyaya nümunə ola biləcək rəmzimizdir. Hər insan ilk növbədə yaradılmışların ən alisi olduğu üçün dəyərlidir. Bu dəyəri daha da üstün edərək bizi hər kəsdən fərqləndirən isə əsrlərdən bəri sahib olduğumuz milli mənəvi dəyərlərimizdir. Bəs hansıdır bu dəyərlər? Bunlar xalqımızın min illərdir qoruyub saxladığı adət-ənənələri, milli xüsusiyyətləri, təbliğ etdiyi bəşəri ideyalarıdır. Keçmişdən bu günə gələn əsrlərin, qərinələrin sorağı bizi bu dəyərlərə bağlayaraq dövrümüzə körpü salmışdır. Xalqımızın bu günümüzə qədər gəlib çatmış və gələcəyə doğru addımlayan qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi millətimizin qürur mənbəyidir. Dünyada qloballaşmanın getdiyi bir dövrdə isə, xüsusilə də gənc nəsildə adət-ənənələrimizə olan sadiqliyi görmək ayrıca bir qürurdur. Bunları yazmağımda bir səbəb vardır. Bu günlərdə yolda bir hadisə ilə rastlaşdım: Şəhərin mərkəzi küçələrindən birində yaşlı bir qadın əlində ağır zənbillərlə harasa gedirdi. İti addımlarla irəliləyirdim ki, xanıma yaxınlaşıb əlindəki zənbilləri daşımağına kömək edim. Bir xeyli kənarda isə yaşları təxminən 22, bəlkə də 23 olan iki gənc durub söhbət edirdi. Bu zaman gənclərdən biri başını



qaldırıb baxarkən yaşlı xanımı gördü. Qaçaraq ona yaxınlaşdı, əlindən zənbilləri ədəblə alıb qayğıkeş nəzərlərlə xanıma baxıb hansı tərəfə gedəcəyini soruşdu. Yaşlı xanım təkidlə, çox sağ ol, ay oğul, özüm apararam, desə də gənc razılaşmadı. Addımlarımı yavaşlatmışdım, amma millətimə duyduğum qürur öndə gedirdi. O anda mənə elə gəldi ki, xalqımızın söz abidəsinə çevrilmiş “Kitabi-Dədə Qorqud” dastanındakı el ağsaqqalı olan dədəmiz Qorqudu bir daha müqəddəslik zirvəsinə qaldırdıq. Sanki Allahın bütün mərhəməti, hikməti və ədaləti dünyada fitnə fəsadı aradan qaldırmaq üçün yerə enmişdi .”Mən gözəl əxlaqı tamamlamaq üçün göndərilmişəm”,- deyən islam peyğəmbərinin “Kiçiyimizə mərhəmət göstərməyən, böyüyümüzə hörmət etməyən bizdən deyil!” hədisi qulağımda səsləndi. Kənardan baxanda çox sadə görünən bu davranış özü - özlüyündə xalqımızın köklü ənənələrinə sadiqliyini göstərərkən həm də milli mənəvi dəyərini nümayiş etdirir. Məhz bu dəyərlərdir bizi biz edən, hamıdan fərqləndirən və qiymətli edən. Dürüstlüyümüz, təmiz vicdanımız, qürurumuz, qorxmazlığımız, mübarizliyimiz, dönməzliyimiz, vətənpərvərliyimiz-hamısı bu dəyərlərin ətrafında birləşib, bütünləşib zirvələrə yüksəlib. Aparılan uğurlu dövlət siyasəti nəticəsində dərinlərə kök atan və gələcəyə doğru uzanan milli dəyərlərimiz bizim dəyişilməyən kimliyimizə çevrilib. Dünyada bu kimliklə tanımağın özü ayrı bir fəxarətdir. Çünki millətin dəyəri onun milli kimliyini ortaya qoyan xüsusiyyətlərlə bağlıdır. Dəyərlərini itirən millətlər isə tarix səhnəsindən silinməyə məhkumdur !

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## *AZADLIQ HİMNİNİ ÇALDI ŞƏHİDLƏR*

Azadlıq yolunda şam kimi yanan,
Ölümü özünə şərəf-şan sanan.
Torpağın altından göyə boylanan,
Azadlıq himnini çaldı şəhidlər.

Ərənlər dayanar namərd önündə,
Körpə də ərləşər ən ağır gündə,
Haqq ilə nahaqqın sərt döyüşündə,
Babəkdi, Nəbidi, Zaldı şəhidlər.

Soldu neçə qönçə, soldu neçə gül,
Qəmimə ağladı, sızladı bülbül,
Al qana bələndi lalə, qərənfil,
Qərənfil məzarı oldu şəhidlər.

Ölüm var ucuzdu, ölüm var baha,
Şəhidlər yol açır aydın sabaha,
Dönüb bir əbədi ziyarətgaha,
Nəsildən-nəsilə qaldı şəhidlər.

Tarix unudarmı tökülən qanı,
Ruhunuz dolanır, gəzir səmanı,
Şəhidlər anası Azərbaycanı,
Əsrin yaddaşına saldı şəhidlər

**Sədaqət Nemət**
***“Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq” kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru***



## *ARTIQ QARABAĞIMIZ AZADDIR!*

*Bizə əzəli torpaqlarımız olan Qarabağı bəxş edən, Şəhidlərimiz! Öz qanları ilə Xarı bülbülə rəng qatan, öz canlarından Vətən torpağına pay verən igidlərimiz!*

*Onlardır bu azad günü, bu azad həyatı bizə yaşadan. Bizlərin rahatlığı üçün öz canlarını, arzularını, xəyallarını qurban verən şəhidlər.*

*İllərdir alnımızda olan silinməz məğlubiyyət ləkəsini qanları ilə yuyub təmizləyən şəhidlər!*

*Artıq Qarabağımız azaddır! Bu sevinci, bu qüruru bizə yaşadan, qanlarıyla zəfər tarixini yazan, ömürlərinin bahar fəslində aramızdan gedən şəhidlər!*

*Daima qəlbimizdə yaşayacaq əbədiyaşar şəhidlər!*

*Onlar bizim fəxrimizdir!!!*

**Əli Yarıyev**
***“Jurnalistika”ixtisası üzrə I kurs tələbəsi***

# BADAMLI – YURDUMUN GÖZƏL NEMƏTİ

Bəşər sivilizasiyasının mədəniyyət ocağı olan Naxçıvanımız özünəməxsus təbiət gözəllikləri, zəngin flora və faunası ilə bu yurdun seyrinə gələnləri daim özünə heyran qoyur. Diyarımızın bağ-bağatlarında yetişən meyvələri, münbit torpaqlarında boy verən bitkiləri, ucu şişpapaqlı dağlarının bağrını yarayara qaynayıb çağlayan buz bulaqları can dərmanıdır. Ekoloji saf məhsulları, gəzib görməli yerləri, təmiz havası olan bu məkan bütün fəsillərdə bərbəhrələrini, dillər əzbəri olan nemətlərini üzə çıxarır. Həmin nemətlər sırasında dünyanın hər yerində məşhur olan, insanlara unudulmaz damaq dadı bəxş edən mineral bulaqlarının adı da tez-tez çəkilir.

Qarşıdan gələn isti yay günləri sözsüz ki, insanların sərin sulara olan tələbatını da artırır. Belə bir vaxtda diyarımızın mineral bulaqları insan zəhməti ilə qablaşdırılaraq ekoloji təmiz məhsul kimi süfrələrimizin əvəzolunmaz nemətinə çevrilir. Bugünkü söhbətimiz də diyarımızın brend məhsullarından olan Badamlı mineral suyu haqqındadır.

Ölməz sənətkarımız Rəşid Behbudov "Badamlı" ifasında "Badamlı – nə sərin! Badamlı – nə şirin! Badamlı – adı var! Badamlı – dadı var!" misralarını dillər əzbəri etməklə ürəyimizə sərinlik, könlümüzə xoş ovqat gətirmiş, yurdumuzun bu əvəzsiz nemətini "Badamlı məzəli, süfrələr gözəli" deyib tərənnüm edibdi. Bu gün isə həmin nemət adıyla-dadıyla dünyanın hər yerində diyarımızın zəngin təbiətindən, ruzi-bərəkətindən xəbər verir.

Məlumat üçün bildirək ki, 1945-1947-ci illərdə geologiya-mineralogiya elmləri doktoru mərhum alim Əziz Əsgərovun rəhbərliyi altında Şahbuz rayonunun Badamlı qəsəbəsi ərazisində aparılan elmi-tədqiqat işlərinin nəticəsində "Badamlı" mineral bulağı aşkar edilib. Əziz Əsgərov suyun kəşfilə bağlı xatirələrində yazır "Müəyyən marşrut üzrə hərəkət edərkən hansısa çeşmənin yanında tədqiqat işlərinin aparılması üçün bəzi yardımçı əşyaları daşıyan ulağı suvarmaq istədim. Gördüm heyvan su içmədi. Suyun xoşagəlməz tamı var idi. Çeşmə boyu yuxarı gedib onun mənbəyini tapdım. Nümunədən başa düşdüm ki, bu qiymətli bulaqdır. Laborator analizlər də bunu təsdiq etdi. Sevincimin həddi hüdudu yox idi."



1947-ci ildə burada kiçik müəssisə yaradılaraq ilk dəfə əl üsulu ilə suyun istehsalına başlanılıb. Zaman keçdikcə Badamlının dillər əzbəri olan dadı diyarımızın hər yerinə yayılıb və xeyli sayda insanı özünə cəlb edibdir. Bu şəfalı suyun sorağına gələnlər həm burada çalışıb öz halal ruzilərini qazanıb, həm də özlərinə yeni evlər tikib, yaşayış məskənləri salıblar. Müəssisənin fəaliyyəti genişləndikcə burada yaşayanların da sayı artıb. 1961-1967-ci illər ərzində həmin müəssisədə işləyənlər üçün 6 yaşayış binası da inşa olunub. Beləliklə bu yaşayış yerləri genişlənərək, burada yaşayan insanların sayı artaraq Badamlı suyunun şərəfinə eyniadlı indiki Badamlı qəsəbəsi yaranıb.

Ötən əsrin 90-cı illərində hər sahədə olan durğunluq, gerilik, iqtisadi sahədə də özünü bariz şəkildə göstərirdi. Böhranın ağır məngənəsində olan Naxçıvanımızda quru yolunun olmaması, bədxah düşmənlərimiz ermənilərin ərazi iddiaları yurdumuzun iqtisadiyyatına öz mənfi təsirini göstərirdi. Bunun nəticəsi idi ki, zəngin və faydalı tərkibi ilə fərqlənən "Badamlı" suyunun Keçmiş Sovet İttifaqı dövründə 15 müttəfiq respublikaya satılaraq alıcılar tərəfindən böyük rəğbət qazanmasına, qısa zamanda bu qədər məhşur olmasına, satışının artmasına baxmayaraq 90-cı illərdə sovet ittifaqı dağıldıqdan sonra bazar iqtisadiyyatına keçid və dövrün çətin prosesləri ilə əlaqədar yaranan çətinliklərə görə ixracı dayandırıldı.

Bu da bir faktdır ki, ötən əsrin 80-ci illərində "Badamlı", "Sirab", "Vayxır", "Darıdağ", "Nəhəcir", "Gülüstan" mineral suları ölkəmizin tələbatını ödəməklə yanaşı, bu məhsulların 60 faizi yaxın-uzaq ölkələrə ixrac edilirdi. 1980-ci ildə istehsal olunmuş 134 milyon butulka suyun 80 milyonu SSRİ-nin 150-dən çox şəhərinə göndərilmişdi. 1970-1980-ci illərdə "Badamlı" istehsalı müəssisəsi tamamilə müasirləşdirildikdən sonra burada qablaşdırılan suyun 90 faizi respublikamızdan kənara aparılırdı.

Ümumilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə onlarla fabrik, zavod, kombinat, məktəb, məktəbəqədər müəssisələr, kənd təsərrüfatı təyinatlı obyektlər, ticarət, məişət, sosial-mədəni müəssisələr kimi "Badamlı" mineral suyu, o cümlədən digər mineral su zavodları da bu uğurlu inkişafdan öz bəhrəsin aldı.

Badamlı özündə insan sağlamlığı üçün faydalı olan bir çox elementləri birləşdirir. Suyun tərkibində yod, brom, mis, borat turşusu vardır. "Badamlı" iştahanı artıran, həzm prosesini yaxşılaşdıran, susuzluğu yatıran gözəl süfrə suyu kimi məşhurdur. Bu su mədə-bağırsaq, qaraciyər və öd kisəsi xəstəliklərinə qarşı müalicədə xeyirlidir. Bu elə bir dəyərdir ki, istifadə edildiyi təqdirdə insanın günlük mineral ehtiyacının əhəmiyyətli bir hissəsini qarşılayır. Bununla yanaşı, uzun müddətli istifadə zamanı orqanizmdə mineral artıqlığı yaratmır. Onun tərkibi Rusiyanın Kislovodsk şəhərindəki "Narzan" mineral suyu ilə də eynidir.

Hazırda "Badamlı" suları "Badamlı Mineral Sular" MMC tərəfindən Avropada və dünyada qəbul edilən ən yüksək texnologiyaların tətbiqi əsasında, qapalı şəraitdə insan təması olmadan qablaşdırılır. Müəssisədə həyata keçirilən doldurma prosesi Fransanın "Sidel" firmasının istehsalı olan avadanlıqlar vasitəsilə həyata keçirilir. Bununla yanaşı müəssisədə Almaniya və ABŞ istehsalı olan müasir avadanlıqlarla təmin edilmiş xüsusi laboratoriya qurulub. Laboratoriyada isə suyun keyfiyyətinə mütəmadi nəzarət olunur, fiziki-kimyəvi, mikrobioloji və orqanoleptik analizlər aparılır.

Badamlı qazlı-qazsız olmaqla 9 ayrı həcmdə - 300 ml və 600 ml şüşə butulkalarda, 300 ml, 500 ml, 1000 ml və 1500 ml PET butulkalarda, 5 l, 10 l və 19 l damacan qablaşmalarda istehsal olunur. Qazlı sularda ümumi minerallıq 400-500 mq/litr təşkil edir. 2020-ci ildən etibarən isə Badamlı qəsəbəsində zavodun yeni binası tikilərək istifadəyə verilib. 70 işçi heyətinin çalışdığı zavodda günlük istehsal potensialı 500.000 şərti butulka təşkil edir.

Hazırda Bu mineral süfrə suyu Rusiya, Çin, BƏƏ, İraq, Qazağıstan kimi bir çox ölkələrdə də alıcılara unudulmaz damaq dadı bəxş edir.

Bir anlıq bu yurdun nemətlərini göz önünə gətirdiyimizdə istər istəməz bir fikir adamın ağlından keçir - "Ana təbiət bu yurddan heç bir varını əsirgəməyib". Əslində, Uca Yaradan bu diyarın insanlarına ruzisini özündən əvvəl verib. Bu yurda elə səxavətli naz-nemətlər bəxş edib ki, hər tikəsi, hər damlası insan üçün unudulmaz damaq dadı, can dərmanıdır. İçin yurdumuzun Sirabından, Badamlısından, Narzanından, Darıdağından, için ki, ürəyiniz sərin, canınız sağlam olsun.

# OCAQ ƏTİRLİ NAXÇIVAN PLOVU

İnsan oğlunun yarandığı gündən təbii ehtiyac kimi qidaya, yeməyə daim tələbatı olub. Lakin bir insanın qidası onun yaşadığı ərazi ilə, təbii-coğrafi şəraitlə, məşğuliyyət sahəsi ilə və onun mədəniyyəti ilə əlaqəlidir. Mütəxəssislərin fikrincə, dini, sosial və etnik mənsubiyyət də qidalanmada mühüm rol oynayan amillərdən sayılır. Bu mənada, qədim diyarımız Naxçıvanın çoxəsrlik tarixi, folklor dəyərləri, füsunkar təbiəti kimi, mətbəx mədəniyyəti də özünəməxsus zənginliyi ilə seçilir. Yurdumuzun bərəkətli çöllərində, bağ-bağatlarında yetişən min bir adda, min bir dadda olan nemətlər burada zəngin mətbəx mədəniyyətinin əsasını qoyub.

Elə sərlövhənin adından da göründüyü kimi, budəfəki mövzumuz yurdumuzun zəngin süfrəsinin əvəzolunmaz təamı olan Naxçıvan plovu haqqındadır. Ocaq ətirli Naxçıvan plovunun bişirilmə prosesi ilə oxucularımızı yaxından tanış etmək üçün yenə də doğma kəndimiz Vayxırın yolunu tutdum.

Mənzil başına çatarkən məni uzaqdan-uzağa tanıyan, yaşı 65-i ötmüş Şamayıl Ələkbərova qarşılayır. Çöhrəsindəki xoş təbəssümlə: "Gəl, ay oğul, gəl. Deyəsən, qayınanan səni yaman çox istəyəcək. Çörək üstünə gəlmisən", – deyir. Nənəmizin əlinin, üstünün unundan da görünür ki, plovun qazmağı üçün istifadə edəcəyi lavaş təzə olsun deyə səhərin erkən saatlarından sacda lavaş bişirib. Meyvə ağaclarının kölgəsinə salınmış çay süfrəsi ətrafında əyləşib, sacda bişən isti lavaşdan, bir də ev pendirindən yeyib dincimizi aldıqdan sonra yeməyin hazırlanma prosesinə keçirik. Şamayıl nənə deyir ki, milli mətbəximiz yalnız özündə yeməklərin bişirilmə qaydasını birləşdirmir, o həm də bizə çoxəsrlik maddi mədəniyyətimizin, ən başda da mətbəx mədəniyyətimizin təşəkkül tarixindən xəbər verir. Bu mənada, tarixi çox qədimlərə dayanan plov həm də yeməklərimizin şahı hesab olunur.

Müsahibimiz, təqribən, bir kiloqrama yaxın düyünü aşsüzənə tökürb yaxşıca yuduqdan sonra ocaq üzərində qaynayan suya əlavə edir və deyir ki, hər xanımın öz yeməkbişirmə qaydası var, oğlum. Bəziləri plov bişirəcəyi gün, təqribən, iki-üç saat əvvəldən düyünü soyuq suya qoyur ki, düyü yumşalsın, artımlı olsun. Bəziləri də bax, mənim kimi düyünü birbaşa qaynayan suya əlavə edərək hazırlayır. Həmsöhbətim bunların fərqini də diqqətə çatdıraraq deyir ki, düyü əvvəlcədən soyuq suda islaqda qaldıqda, qazandakı isti suya əlavə edən kimi əgər nəzarətdən buraxsan, o saat bölünəcək, necə deyərlər, dənərdənər olmayacaq. Amma islatmadan, olduğu kimi qazana əlavə edib başında gözləsən, yaxşı nəzarət etsən, həmçinin içərisinə bir qədər (iki xörək qaşığı) limon suyu əlavə etsən düyülər çox gözəl qalar. Şamayıl nənə gülümsəyərək davam edir: "Ay bala, plov belə gözəl olanda nənələrimiz həmişə deyərdi ki, ay maşallah, elə bil quş dimdiyində bircə-bircə gətirib..."

Düyü 10-15 dəqiqə yaxşı qaynadıqdan sonra nənəmiz onu aşsüzənə əlavə edib yüngülcə qaşıqla tərpədir ki, bir az buğu çıxsın və qeyd edir ki, düyünü sudan çıxaran saat qazana əlavə etsən, bir-birinə yapışar və yaxşı dəm ala bilməz. Odur ki, gərək aşsüzəndə, təxminən, 5 dəqiqə gözlədikdən sonra düyünü qazana əlavə edəsən. Aşı süzəcəyimiz qazana bir qədər yağ əlavə etdikdən sonra isə içərisinə lavaş, yaxud da qatıq, düyü və yumurta ilə hazırlanmış qazmaq salınır. Yavaş-yavaş, qazanın hər tərəfinə bərabər şəkildə düyülər əlavə edildikdən sonra üzərinə yağ, kişmiş, zəfəran, yaxud da sarıkök əlavə edərək təmiz bir süfrəni də qapağa büküb dəm alması üçün közün üzərinə qoyuruq.

Bununla da plovun bişirilmə prosesi bitir və keçid edirik aşımızın qarasını, yəni Naxçıvan ləhcəsi ilə desək, plovun üz-gözünü hazırlamağa.

Şamayıl nənə əvvəlcə 5-6 ədəd orta ölçülü soğanı bərabər şəkildə doğrayıb yuduqdan sonra tavaya əlavə edib qızartmağa başlayır. Soğan qızardıqdan sonra onu qazana yığıb, üzərinə iri ölçüdə doğranıb bişirilmiş ət və ətin suyunu, həmçinin zövqə görə duz, istiot və limon duzu əlavə edib ocağın üzərinə qoyur. Deyir ki, qaynara düşəndən bir qədər sonra xörəyin içərisinə göy-göyərti də əlavə olunacaq. Nənə onu da vurğulayır ki,



plovun üz-gözünü də fərqli xoşlayanlar olur. Adətən, xeyirdə-şərdə bizlər şirin qara və sadə qara adıyla iki növ üz-göz hazırlayırıq. Sadə üzgözün tərkibində iri doğranmış ət, soğan, bir də yalnız kəvərdən istifadə edilir. Amma zövqdən asılı olaraq üzgözə kəvərin yanında cəfəri, keşniş, ətri gözəl olsun deyə, bir-iki çay qaşığı nanə qurusu əlavə edənlər də olur. Şirin üz-gözü isə, adətən, xeyir işlərimizdə – toylarımızda, nişanda, duvaqqapdı mərasimlərində hazırlayırıq. İçliyinə isə ət, kişmiş, qaysı, xurma, şabalıd, cəviz əlavə edilir.

Nənəmizlə milli mətbəximizin ləziz təamları haqqında söhbət edə-edə zamanın necə gəlib keçdiyinin fərqinə belə, varmır insan. Söhbət əsasında plov haqqında öyrəndiklərimi, eşitdiklərimi bir daha yada salıram: milli mətbəximizin ləziz dadlı incisi, süfrələrimizin şahı sayılan, Şərq xalqlarının süfrə mədəniyyətinə aid olan plovun ölkəmizdə 200-dən çox növü var. 2016-cı ilin sentyabr ayında "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Plov" və "Yallı" festivallarının keçirilməsi, "Plov" festivalında peşəkar və həvəskar aşpazlar tərəfindən hazırlanan, Naxçıvan mətbəxinə də məxsus çeşidli plov növlərinin nümayiş etdirilməsi diyarımızın mətbəx mədəniyyətinini zənginliyini təsdiqləməklə yanaşı, milli dəyərlərimizin bir parçası olan bu mədəniyyətin təbliği baxımından da yaddaqalan olmuşdu. Məni düşüncələrdən ocağın közü üzərində dəmlənən plovun iştahaaçan iyi ayırır.

Şamayıl nənə ilə başladığımız söhbətə yaxın qonşusu Zeynəb xanımla davam edirəm. Müsahibim plovun bir çox növlərindən danışaraq qeyd edir ki, mətbəxlərimizdə min illərdir, bu yeməyin səbzi, döşəmə, südlü, şüyüdlü, fisincan kimi min bir adda, min bir dadda növləri bişirilərək süfrələrimizin yaraşığına çevrilib. Əsasən, bayram ərəfələrində, Novruz bayramı vədəsində hansı evin qapısını döysən, hansı ailəyə qonaq olsan, orada plovun ətrini hiss edərsən. Bolluq və bərəkət rəmzi olan bu yeməyi nə zaman evimizdə bişirsək, mütləq ondan niyyət edib qonşularımıza da pay göndərərik. Hələ uşaqlıq illərimdən yadımdadır ki, evimizə nə vaxt qonaq gəlsə, atam qonaqlarımız üçün plov bişirməyi məsləhət görərdi. Biz də anamızın başına toplaşıb böyük həvəslə plov hazırlamağa kömək edərdik. Plovu ocağa dəmə qoyan kimi, mütləq bir qonşu qapını açıb, anamı səsləyib deyərdi: "Ay qonşu, deyəsən, qonağın var, plovun ətri kəndin o başından hiss olunur..."

Zeynəb xanım xalqımızın illərdir, qoruyub saxladığı bolluq-bərəkət rəmzi sayılan təndir ətrafında qız-gəlinlərin keçirdiyi mərasimlərdən də söhbət açaraq qeyd edir ki, əvvəllər toylarımıza iki-üç həftə qalmış xanımlar təndirəsərə cəm olub çörək yapardı. Əvvəlcə qız evində yapılan toy lavaşından və həmin gün üçün süzülən plovdan mütləq oğlan evinə göndərilərdi. Daha sonra da oğlan evindən qız evinə bu cür gəlin təamı gətirilərdi. Bununla yanaşı, bu təamı biz nənə-babalarımızdan miras qalan adət-ənənə kimi həm də yas məclislərimizdə, Aşura mərasimlərimizdə, mərsiyələrdə, Vətən uğrunda canını qurban verən şəhidlərimizin yolunda hazırlayaraq ehsan etmişik. Bir şeyi də diqqətə çatdırım ki, qədimdə nənələrimiz plovu mütləq mis qazanda süzərdi. Çünki mis qazanda bişən xörəyin dad-tamı, ətri tamam başqa cür olardı. Hələ o yemək də ocaq ətirli Naxçıvan plovu ola, bəh-bəh, dadından doymaq olmaz...

Belə, əziz oxucularımız... Bu dəfə də doğma kəndimiz Vayxırın qonağı olduq. Gülərüz və zəhmətsevər Şamayıl nənə illərdir, süfrələrimizin şahı olan plovun bişirilmə prosesi ilə bizi yaxından tanış etdi. Şahidi olduq ki, bişirmək zəhmət tələb etsə də, işin sonunda, süfrə başında gülərüz, xoşbəxt, səmimi bir ailə tablosunu görmək insanın bütün yorğunluğunu alır. Buna görə də evinizdən xoşbəxtliyin, üzünüzdən təbəssümün, süfrələrinizdən bolluq-bərəkətin əskik olmaması diləyi ilə...

**Məcid Əkbərov**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***



# PAYIZ DÜŞÜNCƏLƏRİM

Fəsillər içərisində bir fəsil vardır, bəzən kövrək, həssas, qırılan bəzən isə hirsli olur. Küləyi ilə əsib sovurub, ildırımlar ilə barmaq silkələsə də ömrün xəzan çağını görəndə buludları ilə dolub boşalır. Bu qarışıq duyğuları özündə birləşdirən payız bir azda insan ömrünü xatırladır. Günləri, ayları bir-birinin ardınca qovaraq böyüyən otlar, güllər, ağaclar bu fəsildə ömürlərinin xəzan çağını yaşayırlar. Necə ki ,insanın yaşlanması ilə sahib olduğu bir çox qabiliyyətini itirməsi kimi. Ömrümüzdən illər xəzan yarpaqları kimi bir-bir tökülərək çoxumuz bunun fərqində olmuruq. İldırımlar kimi şaqqıldayıb gurlayanda bəzən neçə-neçə könülləri sındırırıq. Geriyə dönüb baxdıqda qırdığımız qəlbləri, itirdiyimiz dəyərləri görüb payız buludları kimi doluruq. Ağlayırıq saatlarla, günlərlə amma unuduruq ki, yaz yağışlarından fərqli olaraq payız yağışlarının solmuş güllərə, tökülən xəzanlara heç bir faydası olmayacaqdır.

Həyatdə bir ağac görürəm, saralmış yarpaqları ömrün illəri kimi tökülür. Lakin üstündəki meyvələr budağını əyir. Sanki ömrünün xəzan çağında insanlara fayda verdiyi üçün çox sevinclidir. O anlayır ki, ömür ilin fəsilləri kimidir. Gəncliyimiz yaz fəsli, ahıllığımız payızdır. Payızın ardından qış ölümü gətirir. İstəyir ki, xatirələrdə gəncliyində yaşıl budaqlarının kölgəsi, ahıllığında meyvələrinin faydası ilə qalsın.

Pəncərəmdən seyr etdiyim bu payız mənzərəsinin fonunda düşüncələr sanki payızın ahənginə qoşulur, və adamı düşündürür. Həyat özü necə də böyük bir məktəbdir. Həm də öyrənməyi birbaşa təcrübə ilə gerçəkləşən bir məktəb. Unutmayın, görünənin hər zaman arxada gizli bir planı vardır. Təəssüf ki, insanların çoxu bunun fərqində deyil. Ətrafımıza diqqətlə baxsaq, daha doğrusu görmək üçün, öyrənmək üçün baxsaq çox şey görərik ...

Gəlin, həyatda zamanın nə qədər dəyərli və geri qayıtmaz olduğunu anlayaraq yaşayaq. Ömrümüzə biçilən zamanda cəmiyyət üçün faydalı olaq ki, ömrün xəzan çağında, hər şey sona çatanda payız buludları tək dolub gözümüzdən peşmançılıq yaşları axıtmayaq. Həyatımızı elə yaşayaq ki, xatirələrdə "qızıl payız" olaraq qalaq. Amma bu adı bizə xəzanımızın rənginə görə deyil, insani dəyərlərimizə, təmiz vicdanımıza və ən əsası isə dürüstlüyümüzə görə versinlər.

# AĞSAQQAL OLMAYAN YERDƏ RUZİ-BƏRƏKƏT OLMAZ

Günümüz səhər günəşi ilə başlayıb günorta və axşam ilə davam etdikdən sonra gecə ilə sona çatdığı , fəsillərin yazı, yayı, payızı və qışı olduğu kimi ömrümüzün də dövrləri vardır. Ömrümüzün gənclik çağı yaz kimidir, ahıllıq isə qışa bənzər, elə bir qış ki, arxasından bahar gəlməz. Ömürlərinin baharı arxada qalan, bəmbəyaz qışını yaşayan böyüklərimizi gəlin, heç bir zaman tənha qoymayaq. Çünki ağsaqqalsız, ağbirçəksiz həyatı təsəvvür etmək mümkün deyil. Onlar həyatı mənalandıran, ona rəng qatan, örnək verən, nümunə olan insanlardır. Onlar– Ahıllardır. Ahıl insan hər bir ailənin möhkəmliyi, dadı-duzu deməkdir. Cəmiyyət üçün də ahıl insan əvəzolunmazdır. Yaşlıların həyat təcrübəsindən, bilik və bacarıqlarından bəhrələnmək isə nəsillər arasında körpü yaratmaq, varislik əlaqəsini bərpa etmək baxımından çox zəruridir. Belə bir deyim var, gənclərin aynada görə bilmədiklərini, yaşlılar bir kərpic parçasında oxuyarlar. Onların zəngin həyat təcrübəsindən faydalanmaqdan əlavə isə biz onlara bir ömür sevgi borcluyuq. Bizləri dünyaya gətirən, min bir əzab əziyyətlərlə boya-başa çatdıran və bizi böyütdükcə saçlarını bəyaza boyayan bu insanların qayğısına qalmaq, nazını çəkmək bizim övladlıq borcumuzdur.

Dünyanı dərk edib, özümüzü tanıyandan bəri hər zaman ətrafımızda ata-anaya hörmət, ağsaqqala, ağbirçəyə dərin ehtiram görmüşük. Bu, ta qədimdən Azərbaycan ailəsinin ən ali və müqəddəs dəyərlərindən olmuşdur. Amma təəssüf ki, bəzən bunun əksi də olur. Çox acı verici haldır ki, yaxınlarını itirərək Qocalar evinin sakinlərinə çevrilmiş ahılların içərisində atılmış yaşlılara da rast gəlirik. Bəzən valideynlər övlad qayğısından kənar qalır, böyüdüb boya-başa çatdırdığı övladından soyuq münasibət görürlər. Belə olan halda, bir zamanlar yeni doğulan körpələri üçün böyük sevinclər yaşayan bu valideynlər doğumuna sevindikləri övladları tərəfindən atılaraq kimsəsizliyə tərk edilirlər. Belə ahıllar dövlətin yüksək qayğısı ilə əhatə olunmalarına baxmayaraq onların ən böyük ehtiyacı övlad sevgisidir. haqda müdrik atalarımızın daha gözəl kəlamı vardır: "Qocalara hörmət et, sən də qocalacaqsan!" Gecələri yatmayıb başımızın üstündə laylay söyləyən analarımızı, alnının təri, əlinin qabarı ilə bizi böyüdən atalarımızı qocalığın qərib axşamında yalnız qoymaq, sevgidən, qayğıdan məhrum etmək isə heç bir insanlığa



yaraşmayan davranışdı.

Hazırda övlad sevgisinə həsrət qalan neçə-neçə insan var. Harada yaşamasından asılı olmayaraq tənha, kimsəsiz ömür sürən bu ahıllara məhz bu yaşında diqqət, qayğı göstərilməsi vacibdir. Unutmayaq ki, hər bir insan yaşlanmağa məhkumdur. Bu gün valideynlərini tənha qoyub gedən, onları köməksiz buraxan övladlar bilməlidir ki, həyatın hazırladığı bu imtahana hər kəs hazır olmalıdır.Yaşlı nəslə, xüsusən də qocalara, ahıllara, ağsaqqallara dayaq durmaq, onlara köməklik göstərmək hər birimizin mənəvi borcumuzdur. Yetişməkdə olan gənc nəslin doğru tərbiyələnməsi üçün bunlar vacib şərtlərdən biridir. Bu

Hər bir ömür bir kitabdır, vərəqlədikcə arxada qoyub gəldiyin illərin izi görünür. O kitabın hər səhifəsi dünəninə işıq salır, bu gününü yaşadır. Gəlin ömür kitabımızın səhifələrini insani dəyərlərlə, böyüklərimizə hörmət və sevgi ilə dolduraq ki, dünyamız aydınlansın. Ahıl yaşına çatmış böyüklərimizi başımıza tac, gözümüzə çıraq edək. Çünki onlar sevgiyə, sayğıya və qayğıya ən çox layiq olanlardır.

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə***
***III kurs tələbəsi***

# HƏR SON BİR BAŞLANĞICDIR

Üç il əvvəl ürək dolusu sevinclə, bir az da kədərlə məktəbə əlvida deyib universitet həyatına qədəm qoyduq. Necə deyərlər, yepyeni- təhsil qayğıları, oxumaq, daha da mükəmməlləşmək istəyi ilə dolu bir həyatımız başladı. Bu həyatın ilk günlərinin qəhrəmanları da təbii ki, yeni insanlar, tanımadığımız şəhər, ilk baxışdan bizə qaşqabaqlı və yad kimi görünsə də bircə təbəssümü, səmimi söhbəti ilə doğmalarımıza çevrilən müəllim kollektivi, onların qarşısında eyni hissləri bölüşdüyümüz tələbə yoldaşlarımız oldu.

Bu günün gerçəkliyindən dünənə dönüb baxanda görürsən ki, çox tez ötüb keçdi universitet həyatının ağuşundakı bu qaynar üç il. Bu üç il bu günə qədər yaşadığımız həyatın ən maraqlı illəridir. Ona görə də ötən üç ilə təəssüflənmir, əksinə qürur və sevinclə xatırlayırıq. Axı hər bir gəncin və gəncliyin ən böyük arzusu olan tələbə adını məmnuniyyətlə daşımışıq bu illərdə. Amma dilimizə gətirmək istəməsək də bu il universitetdə tələbə adını daşıdığımız sonuncu ildir. Elə bu günün pəncərəsindən ötüb keçmişə baxmaqla özümə sanki bir hesabat vermək istədim. Etiraf edim ki, mənə qəriblik hissi yaşatmayan doğma diyar Naxçıvanın qoynunda keçirdiyim bu tələbəlik həyatı çox doğma anılar, xatirələr və yaşanan tələbə qayğıları ilə mənə doğmadır. Yəqin ki, ömrümə qızıl hərflərlə həkk olundu bu illər. Səbəbi isə doğma Naxçıvan Dövlət Universitetində qarşılaşdığım və sözün əsl mənasında ürəkaçan mənzərə oldu. İlk növbədə universitetin kollektivi çox mehriban və qayğıkeş müəllimlər, pedaqoqlardan təşkil olunduğu üçün insan özünü az bir zamanda bu təhsil ocağının bir üzvü hesab edir. Müəllimlərimizin peşəkarlığı, savadı, dünyagörüşü, tədris etdikləri nəzəri və praktiki dərslər, eyni zamanda həyatın enişli-yoxuşlu yollarında büdrəmədən, yıxılmadan, inamla yerimək üçün verdiyi məsləhətlər əbədi həkk olundu yaddaşıma. Bir sözlə, gözlədiyimdən daha fərqli bir universitet həyatı, uşaqlıq arzum olan jurnalistikanın sirlərini gənclərə öyrədən Jurnalsitika ixtisasının NDU-da daha fərqli yer alması, tələbə-jurnalistlərə yaradılan şərait, Media Mərkəzi, nəşriyyat, "Nuhçıxan" radiosu, peşəkar olmaq üçün atılan hər addım bir ömür unutmayacağım faktlardır.



Universitetimizdə fəaliyyət göstərən və Azərbaycan universitetləri arasında ilk dəfə bu qədər peşəkarlıqla təşkil edilən Media mərkəzi haqqında ayrıca danışmaq istəyirəm. Bu yerin qapıları hər zaman biz tələbələrin üzünə açıq olub. Təkcə tələbə-jurnalistlərin deyil, özünü jurnalist kimi görmək istəyən və bu sahədə istedadı olan hər bir tələbənin üzünə açıqdır bu məkan. Peşəkar televiziya və radiolar üçün nəzərdə tutulan avadanlıqların quraşdırıldığı bu tədris mərkəzi az bir zamanda tələbəyə bu sahənin bütün incəlikləri ilə tanış olmaq və bacarıqlarını tətbiq etmək imkanı yaradır. Bu mərkəzin sayəsində artıq Naxçıvan Dövlət Universitetinin televiziyası və radiosu muxtar respublika hüdudlarında öz verilişlərini yayımlayır.

Elə mən də digər jurnalist həmkarlarım kimi ilk verilişimi universitetin Media mərkəzində hazırlayıb təqdim etdim. Bu da tələbəlik illərində unutmadığım ən gözəl bir gündür. Bu gün mənim bir jurnalist kimi arzularımın çin olduğu məqam idi. Bunu isə mənə universitetim yaratdı. Təbii ki, bu işdə müəllimlərimin rolu danılmazdır. Media mərkəzində rəhbərimiz olan Səadət Əliyevanın dəstəyi ilə uşaqlıq arzum olan aparıcılıq hissini yaşadım. Hələ də maraqlı və olduqca qürurverici məqam odur ki, müəllimlərimiz bizə heç vaxt "bacarmırsan" demədi, əksinə hər səhvimdə "bacaracaqsan" deyərək ürək-dirək verdilər...

Hələ qarşıda mənim üçün sonuncu kurs olsa da, bir tədris ili dayanır. Bu il də sözsüz ki, biz tələbələr üçün çox faydalı olacaq. Qazandığımız təcrübələrin üzərinə yeni bilik və vərdişlərin əlavə olunması ilə biz öz sahəmizdə bir qədər də irəliyə gedə biləcəyik. Bu təkcə jurnalist tələbələrə aid deyil. Çünki universitetimizdə rektorluq səviyyəsində aparılan məqsədyönlü işlərin nəticəsinə bütün sahələr üzrə tələbələrə yetərincə şərait yaradılıb. Bu gün Naxçıvan Dövlət Universitetində oxuyan hər bir tələbə təkcə nəzəri bilik almır, onlar üçün təcrübi vərdişlərin də əldə edilməsi üçün əhəmiyyətli addımlar atılıb. Nəticədə isə universiteti bitirən gənclər cəmiyyətə universitet partası arxasından yenicə qalxan tələbə kimi deyil, öz sahəsi üzrə təməl biliklə yanaşı təcrübəyə də sahib olan mütəxəssis kimi inteqrasiya olunur.

Artıq hər birimizin bildiyi kimi Naxçıvan Dövlət Universiteti 54 ildir yaranıb. Bu illər ərzində öz sözünü deyən və daim yenilənən, müasirləşən universitetimizin dünyanın ən yaxşı universitetləri sırasında yer alması da görülən işlərin məntiqi nəticəsidir. Bu qədər uğurlar qazanan və öz adını dünyanın tanınmış, hətta yüz illik ənənəsi olan təhsil ocaqları ilə eyni sıraya yazdırmağı bacaran universitetdən bir tələbə kimi ayrılmaq bir qədər mənim üçün üzücüdür. Amma tələbəliyimiz sona çatsa da, gələcəkdə çalışdığımız hər bir yerdə və addımladığımız yolda həyata peşəkar NDU məzunu kimi davam edəcəyik. Axı hər son bir başlanğıcdır...!

**Aygün Hüseynova**
***Jurnalistika ixtisası üzrə***
***IV kurs tələbəsi***



# İNSAN XARAKTERİNİN FORMALAŞMASI

İnsan xarakterinin formalaşmasında dostlar, yoxsa ailə daha çox təsir göstərir?

Xarakter nədir? Xarakter insanı digər insanlardan fərqləndirən xüsusiyyətdir. Hər bir insanın özünə məxsus xarakteri vardır. Bəziləri yumşaq təbiətli, bəziləri isə sərt. Xarakter insanda hələ lap uşaq vaxtlarından yaranır. Onun formalaşması isə ətraf mühit, ailə, yaxşı və ya pis dostlardan asılıdır.

Xarakterin formalaşmasında həm ailənin, həm də dostların təsiri böyükdür. Ailəvi problemlər, sıxıntılar insan psixologiyasına olduqca pis təsir edir. Bu da insanı olduğu kimi yox, daha fərqli bir insan xarakterində edir. Məsələn, sənin ailəvi problemlərin digər insanların ailəvi problemlərinə nisbətən çoxdursa və sən bunu dərk edə bilirsənsə bu səni olduğundan daha fərqli xarakterdə göstərəcək. Təbii ki, bu sənin həmin anda formalaşan xarakterin olmayacaq, amma bu problemlər davam etdiyi müddətcə zamanla xarakterin sərt formada dəyişəcək.

Xarakterin formalaşmasında ailənin digər rolu isə onu anlamaması, başa düşməməsidir. İnsana ən yaxın olan ailəsi onu anlamır, başa düşmürsə, ətrafdakı insanlar, dostlar, yaxın çevrə necə anlasın? Elə məhz buna görə insan susar, susduqca ünsiyyət qurmaq da çətinləşər. Bu isə insanı sakit, həyatda öz mövqeyini bilməyən bir insan xarakterində formalaşdırar. Bütün bunlar ailələrin öz övladlarına etdiyi ən acımasız davranışlardır.

Bəs dostların insan xarakterinin formalaşmasına necə təsiri vardır? Dost səni sən edən varlıqdır. Sənin güzgün kimidir. Özünü onda tapırsan. Atalar nə gözəl deyib:

-"Dostunu mənə göstər, sənin kim olduğunu deyim".

Xarakterin formalaşmasında dostun da rolu böyükdür. Əgər sənin dostun yaxşı xarakterdədirsə (bu pis xarakter üçün də keçərlidir) sən onunla dost olduğun müddətcə o xarakteri özündə formalaşdıracaqsan. Bütün bunlarla yanaşı, əgər dostun sənə heç vaxt bağışlaya bilməyəcəyin xəyanəti edərsə, bu da sənin xarakterinin formalaşmasına böyük təsir göstərər. Bəzən də dostların, ailən sənin onların görmək istədikləri xarakterdə olmağın üçün əllərindən gələni edərlər, məhz onların istədiyi biri olasan deyə. Amma bu sənin xarakterindir. Başqalarının görmək istədiyi kimi deyil, özün öz xarakterini necə görmək istəyirsənsə, o cür formalaşdırmalısan.

Ümumiyyətlə, dost seçiminə diqqət et və müxtəlif problemlərlə üzləşdikdə bunun sənin xarakterinin formalaşmasına təsirini fikirləş. Bir hədəfin olsun ki,- "mənim xarakterim yaxşı formalaşmalıdır". Hədəfi olmayan gəmiyə heç bir külək kömək edə bilməz. Həyatda öz mövqeyini tutmaq üçün yaxşı formalaşdır xarakterini. Yaddan çıxarma, xarakter səni zirvəyə də çıxarar, olduğun yerdən ən aşağı səviyyəyə də endirə bilər.

**Nuray Tahirzadə**
***Jurnalistika ixtisası üzrə***
***I kurs tələbəsi***

Görüşünə gəldiyim mənzilindən xatirələrinə boylandığım an, sənin kölgəni və ruhunu hiss edirəm. Sanki əşyaların mənə nəsə pıçıldayır fəqət sözlər qulağıma çatmamış çiliklənib tökülür və mən yenə də sənin səsini eşidə bilmirəm. Sərgərdan olmuş adamlar kimi yalın ayaqlarla qaçıb sənin keçdiyin yollara sığınıram. Nə bilim, bəlkə də oradan keçmisən izin qalıb deyə. Bir anlıq diksinirəm: Mən kiməm? mən hardayam? Sanki hər yer və hər kəs qəribədir. Yaz yağışları dolmuş gözlərlə camaatın üzünə baxıram. Görəsən sənin itirdiklərin bunların yadındadırmı? Uşaqlıq gülüşün, kədərin, cismi ölmüş duruşun. Bəlkə də hər şeyini onlar almış, qurbanlıq ət kimi səni bölmüşlər. Nə göz, nə qaş, nə boya, nə baxış,...heç nə qoymamışlar səndən mənə əmanət qalsın, əfsus!!! Şəhri-yarım! Mən təkcə sənin xəyalımda daima yaşatdığım yarım qalan anlıq xoş xatirələrini və ilhamımı səndən aldığım nəfəsinlə yaşayıram. Necə demişdin:

*Hara getsəm orada hiss edərəm sən varsan,*
*Dönərəm mən küləyə, yolları asan gedərəm.*

Çərxi fələk sikkəni sənin adına döydürdüyü zaman öz şəhrinə gedib, öz şəhri-yarın olacaqdın, fəqət nakam qalan sevgin səni iztirablı sürgün yollarına- Xorasana, Nişapura uğurladı. Otuz illik ayrılıqdan sonra bir mumiya kimi Təbrizə qayıtdığında hamının gedib, heç kəsin qaldığını gördün.

Özün deyirdin ki, hər bir can yandıran şeirini bir əzizinin qəlbinə vurduğu dağ bahasına əldə etmisən. Vida astanasında yanğı ilə tökdüyün göz yaşların şüurlu olaraq axıtdığın göz yaşları idi. Bu dağ basılmış yanıqlı çağların sənə "Behcədəbad xatirələri" adlı ölməz əsəri qazandırdı.

Ustad, sənin ürək yaxan qəmli sözlərin sanki ahizəli şəkildə şeirdə rəqs edir. Sözlər kimi insan da rəqs etməyi bacarmalıdır. İnsan öz yalnızlığında rəqs edərkən sanki tanrıya qovuşmağa can atır. Şəhriyar! Səndəmi buna görə öz yalnızlığında çox rəqs etmisən?! Bəli, etmisən. Əgər o rəqslər olmasaydı, sənin ruhun təzələnib "Heydərbabaya salam" kimi əsərlər yaza bilməzdi. Yarım qalan taleyində nə ömür yaşadın ki? Bu altmış ilin yarısı gecə oldu-yuxuda, xəyalda keçdi, qalan yarısının yarısını oynamağa-uşaqlıq dövrünün şıltaqlıqlarına sərf etdin. Ömrünün gənclik adlanan qalan yarısı həyati, maddi-cismani ehtiyacları ödəməyə həsr olundu, qalan yarısında qocalıq çağları-bədbəxtlik və çətinlik dövrü başlandı. Ustad, sən bu uzun və mənasız illərdə düşünməyə, yaratmağa, incilər saçmağa macal tapmısansa, deməli ömür elə budur, qalanı isə boş xəyaldır.

Səndən keçən dünya mənə nə qədər yad, nə qədər özgədir artıq. Sənə nağıl danışım: "Qurd keçinin şəngülüsün yenə yesin", külək qalxsın, qapı-bacanı yenə döysün, sən də yenidən uşaq ol, yenidən uzaq düşdüyün elinə qayıt. Bəlkə beləcə sənin o yatmış bəxtini, o pərişan qəlbini oyada biləm.

"Heydərbabadan" haray salıb Arazın göz yaşlarını qurudum, sənə ömür salım! İçində yaşayan bir ölünü- Sürəyyanı dirildib çağırım Turi-təcəllayə, sən də Musa olub, o uzun səfərdən qayıt, Tehrana qeyrət, Təbrizə vəfa ol, Səmədlərdən, Rüstəmlərdən, Babillərdən ruhuna ruh qat, ölü bir cana nəfəs ol.

Qardaş nə qədər yadlaşa, yaddan çıxmaz ustad. Süsənlərə, sünbüllərə sarğınan könlün Vahidin, Qabilin, Sabirin, Bülbülün şair ruhuna ruh, Rahimin, Süleymanın, Bəxtiyarın, Gülgünün, Osmanın, Nəbinin, Rəsulun Araz dolu həsrətli baxışına göz oldu.

Heydərbaba sənsiz yetim, oğulsuzdur artıq. "Çoban qaytar quzunu" oxuyan yoxdur, ətəyində hər yaz bitən novruzgülü, qar çiçəyi sənsiz solur, itir, batır. Kəkliklərin səni tapmır, qanadı qırıq halda uçub köç edir, ustad.

Görəsən yarımcan bir çırağın işığını yandıran Kövkəb xanımmı səni Şəhriyar etdi, yoxsa rişxənd ilə qırcınan səhəri açarkən gözlərinə doldurduğun Sürəyyan?! Susma, ustad susma, nolar danış mənimlə. Ömrü sürən sən, qaragün deyildinmi Sürəyyanın toyunu yada salaraq nay-nay deyən?! Sən deyildinmi Sürəyyanın cənnətinə quş olub da gələn?! Gizli görüşlərinizdən xəbərdaram, ustad. Sürgün həyatından sonra məktublaşmanızdan, sel kimi axıtdığınız göz yaşlarınızdan və səni yenidən dirildən Sürəyyandan. Mən İsa Məsihin ölülərə öz ruhundan üfürərək can verməsinə özümü çox inandırmışdım. Məgərsə o, sənin Pərin kimi ölülərə can vermirmiş, ölmək istəməyənlərə can verirmiş. Hər kəs səni sevgi şairi olaraq "Behcədabad xatirələri" ilə sevdi. Görəsən Pəri də belə sevdi, yoxsa o fərqli olaraq Behcədabadın qanatdığı yaraları da sevdi. Bəs öz qanatdığı yaraları necə? sevə bildimi o yaraları? "Getdi mənim həyatımı vurdu daşa, çıxdı başa" dediyin Pəri elə həmin Pəri idi ki, xəstə yatağında şama pərvanə olarkən sənə dəfələrlə baş çəkmiş, sənin qeydinə qalmağa başlamış, fəqət sənin -

*Gəlmisən canımı almağa, sənə qurban, indi niyə?*
*Düşmüşəm əldən daha, ey bivəfa, indi niyə*
*Nuşdarusan, amma Söhrab öləndən sonra gəlmisən?*
*Ay daş ürək, bir qədər tez gəlsəydin, indi niyə?*

sözlərinlə sirrə qədəm basmışdı.

Neçə siqaret yandırıb kül etmişdin Sürəyyanın odunda. Nə qədər göz yaşlarıyla saymışdın Sürəyyanın getdiyi günü...göz yaşların bitmədiyi kimi günlər də bitməyəcəkdi. Fəryadında çarəsizliyin lallaşarkən, sevgin saçlarının bəyazından asılıdı?! Əllərin qırışarkən nə qədər cığır açdı sevgin ömür yoluna?! Son dəfə görmək ümidi ilə gecə boyu gözləyərkən, gözlərin alışdı sevginin yuxusuzluğuna, O zamandan bərimi masmavi gözlərin bitməyən gecənin qaranlığında saralıb soldu?! Axı sən sən oyaq idin, axı sən yuxusuz idin, Şəhriyarım. Gözlərinə niyə dolmadı o sevgi yuxun? Hər gecə laylay deyib, yuxunu oğurlayan Pərin üçün göz qırpsan ölürmüydün?! Göz yumaraqmı öldün, günbəgün yoxsa, uyusan o oyanardı mı?! Bu gecənin ən qorxunc gizlənqaç oyunundan, dolanbac küçələrdə itərkən, sən ən gözəl onun qəlbində gizləndin, illər boyu..Zaman keçdikcə məskən saldın ora..axtarıldın, arandın Məhəmmədhüseyn olaraq doğulub, bir gün uduzub Şəhriyar kimi çıxdın meydana. Gecədən zülmət səhərə oyananda oyun bitsə də, danışdığın hekayənin yolu bitmədiyi üçünmü Səbanın setarında simə döndün? Sonuncu vida gecəsi qəm carçısı nələr deyirdi sənə, məhzun baxışlım?

# ULDUZ BATDI, ÖLDÜ ŞAM, KİMSƏ OYAQ QALMADI, ŞƏHRİ-YARIM




İndi evini ümidsizcə isladan göz yaşları, yanar dağa dönən ağrılar, ürək aynasında çata dönənlər yad edir, hər divardan asılmış şəklindən soraqlaşır səni. Yavaş-yavaş sakitləşir, danışan hərşey, təkcə yaşadığın məhlənin kimsəsiz küçələri danışır, gəzərkən hər tinində can verdiyin, sənə sirdaş olub yumşalan divarların, vida astanasında gözlərindən mil çəkdiyin daşların dilə gəlir indi, misra-misra sən qışqırır, bənd-bənd evinin sənsizliyini qoruyur, ayaq izlərin isə hey tozlanmış xatirəni gəzir.

Təbriz Şəhriyarsız oğulsuz, yetimdir artıq. Heydərbaba hər gün sənin yerinə səs salır: "Gəl görək, niyə gec qaldın" deyir. Təbiət qollarını bağladı artıq, ürəyimizə toxunaraq inizivaya çəkilən şeirlərinlə.

Şəhriyarsız Təbriz hicrana bürünüb. Özünü acıdan yoğruldub ağrıdan yaradıb. Ömürlük yarım qalan şair, sərhədləri göz yaşı ilə, nisgili ilə qıra bilmədən sonsuz arzularını, saysız diləklərini baxışlarında söndürüb, kiçik tabutuna sığdıraraq, çiyinlərdə vətən həsrəti ilə, nakam sevgisi ilə məzara daşındı. Vətənindən aralı darda qalıb, şeirlərində azadlıq tapıb səadətə addımladı. Azərbyacansız heç olan şair vətəninin eşq məktəbində can verdi. O ancaq ruhdaşları ilə şeirlərdə, kitablarda görüşdü. Yazdığı hər misra ilə qulaq dolusu sevgi, həsrət yağdırdı vətənə. Geridə buraxdığı hər şeir, hər gün Şəhriyar oldu Azərbaycana. Hər gün ümidsizcə Şəhriyarı gözləyən ümid, arzu oldu vətənə. Yüz min kərə də sınansa bu ayrılıq elə vətəndən ayrıldığı həmin ayrılıq idi ki, nəğməkar bülbülü bağından, güllərindən aralı salıb qəlbinə tikan oxu vurdu.

O artıq bu dünyaya işıq sala bilməz. Onun keçdiyi karvan ayrılığın acı şərbətini içib bu dünyadan gedər gəlməz yollara zülmət qaranlığa gedib. O, gedəndən ürəklərimizdə dayanan zaman çoxdan keçib, keçənlərimizdə Şəhriyarımız xəyal meydanımız qalıb. Özü gedib yeri qalıb. Cismi bu dünyadan köçən şairin eşqi ruhumuzda hələ də yaşayır, heç qocalmır, günügündən dərinləşir, damarlarımızda Araz olub elə hey axır, axır!!!...

# MƏLALƏ MƏNƏM

***Təhsil uğrunda mübarizəsinə görə Taliban tərəfindən güllələnən qız...***

Puştular Pakistanla Əfqanıstan arasında səpələnmiş xeyli qəbilələrdən ibarət qürurlu xalqdır. Bu xalq əsrlərdir ki, əsas dəyəri nanq, yaxud vicdan olan Puştunvali adlandırılan ləyaqət kodeksi ilə yaşayır, bu kodeksi öz öhdəsinə götürərək bütün müsafirlərə qonaqpərvərlik göstərirlər. Puştunun başına gələcək ən pis şey simasını itirməkdir. Puştu kişisi üçün utanc ən pis şeydir. Puştularda belə bir məsəl var: "Vicdan olmasa, dünya bir heçdir".

Puştuların əksəriyyəti üçün qız uşağının doğulduğu gün ən kədərli gündür. Elə Məlalə Yusifzey də dünyaya göz açdığı gün kənd qadınları anasının dərdinə şərik olmuş, lakin atasını heç kəs təbrik etməmişdi. Bu adın mənası – qüssəyə qərq olmuş deməkdir. Atası evə gələn hər qonağa Məlaləyin əhvalatını danışması və insanların bu adı dilə gətirməsi Balaca Məlaləyin ruhunu oxşayaraq külək tək dalğalanmasına səbəb olurdu.

Bütün puştu uşaqları İkinci İngilis-Əfqan müharibəsi zamanı 1880-ci ildə əfqan ordusunu britaniyalılara qarşı vuruşmağa ilhamlandırmış Məlaləy haqqında əhvalatı eşidərək böyüyürlər.

Məlaləy Qəndahardan qərbə doğru yerləşən tozlu düzənliklərdəki balaca şəhərdə - Mayvandda bir çobanın qızı imiş. O, yeniyetmə ikən həm atası, həm də onun ərə gedəcəyi nəzərdə tutulmuş kişi ölkələrini işğal etmiş britaniyalılara qarşı vuruşan minlərlə Əfqan arasında imişlər. Məlaləy kəndin digər qadınları ilə birlikdə yaralılara qulluq etmək və onlara su aparmaqdan ötrü döyüş meydanına gedibmiş. O, Əfqan kişilərinin məğlub olduğunu və bayraqdarın yıxıldığını gördükdə özünün ağ örtüyünü başı üzərinə qaldıraraq döyüş meydanına – ordunun qabağına keçərək ucadan səslənmişdi:

"Gənc aşiq! Əgər sən Mayvand uğrunda ölməsən, and içirəm ki, hər kəs səni utanc simvolu olaraq xatırlayacaq".

Məlaləy döyüş meydanında öldürülmüş, lakin onun sözləri və cəsurluğu döyüşün gedişatını müsbət yönə dəyişmişdi. Döyüşçülər bütöv briqadanı məhv etmiş və bu, Britaniya ordusundakı ən gülünc məğlubiyyət olmuşdur. Əfqanlar bu qələbə ilə o qədər fəxr edirlər ki, sonuncu əfqan padşahı Kabilin mərkəzində Mayvand qələbə abidəsi ucaltdırmışdı. Puştular Məlaləyin simvolunu öz Janna Darkı kimi görür. Əfqanıstanda demək olar ki, bir çox məktəb onun şərəfinə adlandırılmışdır.

Məlalə hələ ilk addımlarını atasının açdığı "Qayəmiz yaratmaqdır, çünki siz, yeni eranın sədasısınız" şüarları yazılmış məktəbə atarkən öz dünyasının bir məktəb olacağı ağlına belə gəlməzdi. Əfqanıstanda baş verən Taliban qəddarlıqları zamanı Məlalə Lev Tolostoy və Ceyn Ostinin romanları ilə azad bir quş kimi böyüyürdü. Əgər azadlıq həm də səhv etmək azadlığını ehtiva etmirsə, onda bu azadlığa sahib olmağa dəyməz. Avraam Linkolnun öz oğlunun müəllliminə yazdığı məktubda deyildiyi kimi: "Öyrət ona, əgər bacarsan, kitabların sehrini…Lakin ona həm də səmadakı quşların, günəşdəki arıların, dağın yaşıl yamacındakı güllərin əbədi müəmması haqqında düşünmək üçün asudə vaxt ver. Ona öyrət ki, məğlub olmaq aldatmaqdan qat-qat ləyaqətlidir".

Məlalə hər gecə dua edirdi ki, məktəblərdən qız uşaqlarının gülüş səsi gəlsin, yolunun üzərindəki zibilliklərdə böyüyən uşaqları görməsin və qız uşaqları yarımçıq təhsil alıb mənasını dərk etmədən dinə qapanmasınlar. Yarımçıq təhsil insan həyatına təhlükə olduğu kimi, yarımçıq təhsil almış insan da insanlığa təhlükədir. Bəlkə də elə buna görə idi ki, sinfdəki bü-




tün qızlar həkim olmaq arzusunda olduğu halda Məlalə ixtiraçı olmaq və anti-taliban qurğusunu kəşf edib terrorçuları məhv etmək qərarında idi.

Nasist Almaniyasında yaşamış dünya şöhrətli şair Martin Niemöller "onlar gələnədə" adlı məşhur şeirində deyirdi:

Nasistlər kommunistlərin dalınca gələndə,
mən susdum,
çünki mən kommunist deyildim.
Onlar sosial-demokratları içəri atanda,
mən susdum,
çünki mən sosial-demokrat deyildim.
Sonra onlar həmkarlar ittifaqlarının nümayəndələri üçün gəldilər,
mən susdum,
çünki həmkarlar ittifaqının üzvü deyildim.
Sonra onlar yəhudilərin dalınca gəldilər,
mən susdum,
çünki mən yəhudi deyildim.
Onlar mənim dalımca gələndə,
buna etiraz edəcək kimsə qalmamışdı.

Məlalə də başa düşürdü ki, insanlar susarsa heçnə dəyişməz. O, öz ürəyinin dərinliklərində inanırdı ki, qızların hüquqlarından ötrü mübarizə aparırsa demək bu onun vəzifəsidir. O yaxşı bilirdi ki, Taliban onun qələmini və kitabını əlindən ala bilər amma ağlını və düşüncəsini əsla, məktəbə getməyi qadağan edə bilər, lakin öyrənməyi heç vaxt. Təhsil nə şərqyönlüdür, nə də qərbyönlü, təhsil insanyönlüdür.

Taliban daha çox can aldığı bir vaxtda kiçik Məlalə də ailəsi ilə birgə evindən, küçəsindən, məktəbindən ibarət balaca dünyasından çıxıb bilinməzə doğru yol almışdı. Bu hal sanki Yəhudilərin Misiri tərk etməsi, amma onlara bələdçilik edəcək Musanın olmaması kimi idi.

Üç aylıq məcburi köçkün həyatı yaşayan Məlalə, yenicə vətən torpağını ciyərlərinə çəkmişdi ki, Taliban ondan sol yanağının sahib olduğu gülüşü də aldı. Valideyinlərinin 15 il gördüyü Məlalə gülüşü, onun sol yanağında günəş kimi qürub etmişdi. Lakin onun atası heç kəsə bildirməsə də yaxşı bilirdi ki, dünyada qızına görə tanınan nadir atalardan biri idi və əmin idi ki, bir uşaq, bir müəllim, bir kitab və bir qələm dünyanı dəyişə bilər!!!

**Fariz Əhmədov**
***Elmi Kitabxananın direktoru***

***Qeyd: Pakistanın Mingora qəsəbəsində doğulan puştun əsilli feminst yazıçı, aktivist olan Məlalə Yusefzay, qadınların təhsil alması uğurunda apardığı fəaliyyətlərə görə mükafatlandırılmılış ən gənc Nobel mükafatı laureatıdır. O, Svat əyalətində insan haqlarının müdafiəsi, xüsusən də qadın və uşaqların təhsil alması uğrunda apardığı mübarizəyə görə məhşurdur. Pakistanın şimalı olan bu vilayətdə yerli Taliban qızların məktəbə getməsinə qadağa qoymuşdu. Qısa müddətə onun mübarizəsi beynəlxalq səviyyədə dəstəklənib. Aktivist Desmond Tutu tərəfindən Beynəlxalq Uşaqların Sülh Mükafatı ilə təltif olunub.***

***Məlalə 9 oktyabr 2012-ci il tarixdə Svat rayonunda imtahandan gələrkən məktəb avtobusunda iki qızla birlikdə Taliban sui-qəsdçisi tərəfindən güllələnir.***

***Pakistanın siyasi və dini liderlərilə yanaşı, Əfqanıstan prezidenti Həmid Kərzai və ABŞ rəsmiləri hücumu pisləyib. ABŞ Dövlət katibi Hillari Klinton Məlalə Yusəfzayın cəsarətini yüksək qiymətləndirərək, silahlıların qadının gücü qarşısında zəiflədiyini deyib.***

***BMT-nin Baş katibi Pan Gi Mun 12 iyul tarixini Məlalə günü elan etmişdir. Pan Gi Mun Məlaləni hər bir qızın təhsil almaq hüququnun "qlobal simvol"u kimi təqdim etmişdir. BMT Baş katibinin Dünyada təhsil üzrə şəxsi nümayəndəsi, Böyük Britaniyanın keçmiş baş naziri Qordon Braun 2012-ci il noyabrın 10-da Məlalənin doğum günü olan 12 iyul tarixinin Məlalə günü elan edildiyini bəyan etmişdir. Məlalə günü ilk dəfə 2013-cü il 12 iyul tarixində Nyu-Yorkda BMT-nin mənzilqərargahında qeyd edilmişdir.***

***2012-ci ildə o, Pakistanın ilk Milli Gənclik Sülh mükafatına, 2013-cü ildə Saxarov Mükafatına layiq görülür. 2014-cü ildə Kailaş Satiarti ilə birlikdə uşaqlara və gənc insanalara qarşı mübarizəyə və uşaqlar təhsil almaq hüququ uğrunda fəaliyyətlərə görə Nobel Sülh Mükafatına layiq görülür və 17 yaşında ən gənc laureat olur.***

***Məlalənin BMT-dəki çıxışı aşağıdakı sözlərlə yadda qalmışdır:***

***"Bir uşaq, bir müəllim, bir kitab, bir qələm dünyanı dəyişdirə bilər. Təhsil yeganə həll yoludur."***

Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

Ünvan: AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
Telefonlar:
544-08-61 (13-60)
yenifikir.ndu@gmail.com

Qeydiyyat №330
Sifariş №
Tiraj 500

Redaktor:
Samir Tarverdiyev
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.